Hüseynbala Mirələmov

# “Şərəfsizlik tarixi„ yaxud Vernadski prospektində

(Sənədli proza)

BAKI 2021

*Azərbaycan*
*500 ildə görmədiyi qələbələrin*
*44 gündə şahidi oldu*

*Qarabağ bizimdir,*
*Qarabağ Azərbaycandır!*

*Azərbaycan Respublikasının Prezidenti,*
*Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı,*
*İkinci Qarabağ müharibəsi zəfərinin müəllifi*
*İlham Heydər oğlu Əliyevə ithaf edirəm*

*"Həqiqətən,*
*hər çətinlikdən sonra*
*bir asanlıq gələr!"*

*"Qurani-Kərim"dən*

* * *

*"Kim insan qanı tökərsə,*
*onun da qanı insan əli ilə axıdılacaq.*
*Çünki Allah insanı öz bənzərində yaradıb".*

*"Bibliya"dan*



HÜSEYNBALA MİRƏLƏMOV

# “ŞƏRƏFSİZLİK TARİXİ”
# yaxud
# VERNADSKİ PROSPEKTİNDƏ

**(Sənədli proza)**

**Redaktor:**
**SEVİNC MÜRVƏTQIZI**

Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi,
2021, 280 s.

“Şərəfsizlik tarixi” yaxud Vernadski prospektində” sənədli prozasında misli görünməmiş erməni qəddarlığı danılmaz faktlar və tarixi sənədlər əsasında, müəllifin ədəbi ümumiləşdirmələri və dolğun bədii təsvirləri vasitəsilə oxuculara təqdim olunur. Bu əzazillik salnaməsi erməni xislətini bütün tərəfləri ilə ifşa edən zəngin ədəbi-sənədli məxəzlərdən biridir.

ISBN: 978-9952-528-79-4

© H.Mirələmov, 2021

## Ön söz

# QƏDDARLIQ SALNAMƏSİYLƏ BAĞLI DÜŞÜNCƏLƏR

"Söz vaxtına çəkər" – deyirlər. Hüseynbala Mirələmovun "Şərəfsizlik tarixi" yaxud Vernadski prospektində" adlandırdığı sənədli prozası, təbir caizsə, "vaxtına çəkən" əsərdir.

Amerikan yazıçısı Con Rid 1917-ci ilin hadisələrinə həsr olunmuş məşhur əsərini "Dünyanı sarsıdan on gün" adlandırmışdı. 2020-ci ilin payız aylarında başlamış və tarixi zəfərimizlə bitmiş İkinci Qarabağ müharibəsini haqlı olaraq "dünyanı sarsıdan 44 gün" saya bilərik. 30 illik həsrətimizə, nisgilimizə, məyusluğumuza son qoymuş 44 gün müxtəlif ölkələrin hərbi məktəblərində XXI əsrdə ilk yeni tipli savaşın taktikası və strategiyası kimi öyrənilir.

Qırx dörd gün ərzində baş tutmuş MÖCÜZƏ!

Amma Allahın köməkliyiylə həyata keçmiş bu möcüzənin yaradıcıları, müəllifləri, səbəbkarları var. Səbəbkarı rəşadətli ordumuz, Vətən yolunda canından keçən fədakar şəhidlərimiz, qəhrəman qazilərimizdir.

Görkəmli şairimiz Qabilin misraları bu gün hələ neçə il bundan əvvəl verilmiş qələbə müjdəsi kimi səslənir: "Ümid sənədir ancaq Azərbaycan əsgəri".

Möcüzəni yaradan və yönəldən Silahlı Qüvvələrimizin Ali Baş Komandanı, Prezidentimizdir. İstər savaş meydanında, istər diplo-

matik cəbhədə, istər informasiya – təbliğat sahəsində qeyd-şərtsiz qələbə qazandıq. Amma döyüşdə qazanılmış zəfər başda İlham Əliyev olmaqla ordumuzun qələbəsi idisə, diplomatik və informasiya-təbliğat müstəvisində uğuru hörmətli Prezidentimiz TƏKBAŞINA əldə etmişdi. Çünki yaxın-uzaq irili-xırdalı dövlətlərin başçılarının təkidlərinə, tövsiyələrinə, hətta təzyiqlərinə qarşı duran və bir addım belə güzəştə getməyən Prezidentimizin dəmir iradəsi, əzmi idi. Döyüş meydanında düşməni dəmir yumruqla əzməklə bərabər "başımıza ağıl qoymaq" istəyənləri də Prezidentimiz "dəmir məntiqlə" yerində otuzdurdu. Və nəhayət azı üç əsr dünyaya sırınan erməni yalanlarını da İlham Əliyev 44 gün ərzində dörd dildə verdiyi müsahibələriylə, həqiqətə, gerçək faktlara əsaslanan təmkinli cavablarıyla alt-üst etdi.

XIX əsrin əvvəllərindən – ermənilərin Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsindən XXI əsrə qədər davam edən erməni mifləri həqiqətdən nə qədər uzaq olsalar da dünya ictimaiyyətinin şüuruna yeridilə bilmişdi. Bu baxımdan erməni varlılarının səxavətli maddi dəstəyiylə erməni təbliğatı və ona züy tutan ermənipərəst media, TV kanalları son otuz ilin hadisələrini – əzəli Azərbaycan torpaqlarının iyirmi faizinin işğal olunmasını da tamamilə tərs yozurdular və əfsus ki, bəzən indinin özündə də belə yozurlar. Xocalıda dinc əhalinin, minə qədər insanın məhv edilməsinin, itkin düşməsinin baiskarları bu cinayətləriylə öyünür, Edik Qriqoryanın fitnəkar təhrikiylə Sumqayıtda 26 ermənininin öldürülməsini azərbaycanlıların qəddarlığına sübut kimi aləmə car çəkirlər.

Düşmən inanılmaz həddə qəddar olduğu halda dünyanı məhz türklərin, azərbaycanlıların qəddarlığına inandırmağa çalışır. Sonradan köçürüldükləri torpaqları əzəli əraziləri kimi qələmə verir, zalımların zalımı ola-ola özlərini zülmə düçar olmuşlar kimi, daima əzilən zavallılar kimi təqdim edirlər.

Haqqında bəhs etdiyim kitabla bağlı bu geniş ricətə ehtiyac ondan doğur ki, Hüseynbala Mirələmov bu yeni əsərində məhz erməni qəddarlığını, tarixdə görünməmiş erməni əzazilliyini konkret və

danılmaz faktlar, sənədlər əsasında təqdim edir. Bu əsərin vaxtında meydana çıxması ona görə vacibdir ki, o, torpaqları müvəqqəti də olsa işğal edilmiş əhalinin gücsüz gileyi, şikayəti deyil. O, doğma yurdunu qəsbkarlardan ÖZ GÜCÜYLƏ azad etmiş xalqın haqqa, ədalətə, həqiqətə sarsılmaz inamının örnəyidir.

Tarix boyu qonşu millətlərə qarşı erməni vəhşətindən bəhs edən xeyli kitab nəşr olunub. Bu barədə türk, rus, ingilis, amerikan, fransız, gürcü müəlliflər, hətta nadir hallarda hayların özləri yazıb. Bu kitabların bir çoxuyla – Azərbaycan, türk, rus dillərində və rus dilinə tərcümələrdə tanış olmuşam. Həmin kitablarla müqayisədə belə Hüseynbala Mirələmovun salnaməsi Quzey və Güney Azərbaycanda, hətta Rusiya ərazilərində ağlasığmaz erməni qəddarlığı haqqında ən dolğun və zəngin məxəzdir.

Dəhşətli faktları az-çox belletristik şəkildə çatdırmaqçün müəllif maraqlı format seçib. Mətn oxucuya müəllifin öz dilindən, habelə əsgərlik dostu, Moskvada, Vernadski prospektində yaşayan rus türkoloqun təfsirində və onun mənzilində kirayənişin kimi yaşayan üç erməni gəncin yazdıqları kitab şəklində çatdırılır. Bu formatın nə dərəcədə uğurlu olub-olmaması başqa bir mövzudur. Şəxsən mənə beyinləri zəhərlənmiş üç erməni gəncin "yazdıqları" kitab məhz üslubu və ifadələri baxımından yetərincə inandırıcı görünmədi. Guya ki, ermənilərin "Şərəf tarixi"ni yazan qatı millətçi gənclər azərbaycanlılara, türklərə qarşı inanılmaz qəddarlıq faktlarından yazarkən onları eynən bizim kimi "qanlı qətliam" və bu sayaq ifadələrlə təqdim etmələri onların xislətinə uyğun deyil. Mən Hüseynbala müəllimi yaxşı başa düşürəm, belə ağlasığmaz vəhşilikləri törədən ermənilərin hətta öz adından yazarkən Mirələmov təbii ki, hissə qapılmaya bilməzdi və odur ki, istər-istəməz ermənilərin öz əməlləri haqqında öz dilləriylə ən ağır ifadələri işlədir. Amma axı yaxşı bilirik ki, ermənilər öz vəhşilikləriylə iftixar etsələr də bunları daha "alicənab" ifadələrlə bəyan edərdilər. Əsərdə kirayənişin gənclərin yazdıqları kimi verilən belə bir mətn çətin ki, erməni qələmindən çıxa bilərdi:

“Ələ keçirilən müsəlman məhəllələrində talan və zorakılıq baş alıb gedirdi, müsəlman sakinləri, o cümlədən qadınlar və uşaqlar öldürülürdü. Yaxşı silahlanmış və hazırlanmış erməni əsgərləri müsəlman evlərinə soxulur, sakinləri öldürür, onları xəncər və süngü ilə doğrayıb, uşaqları yanan evlərin içinə atır, körpələri süngünün ucuna keçirirdilər. Xüsusən onlar müsəlman qadınlarını daha ağır formada qətlə yetirirdilər. Şəhərin təkcə bir yerində – Zibillidərə deyilən yerdə qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 50-dən artıq müsəlman qadının meyiti tapılmışdı. Bir neçə gənc qadını diri-diri divara mıxlamışdılar...”

Qatı millətçilər – erməni cəlladları bütün bunları və bundan da betərini edər, amma boyunlarına almazdılar, əksinə belə əzazilliyi türklərin ayağına yazardılar. Həmin bu erməni personajlar şübhəsiz 1918-ci ildə Bakıda, Şamaxıda, Qubada qanlı qırğınları “soyqırım” adlandırmazdılar. Bu sözü matah bilib əzizləyib öz tarixləri üçün saxlayardılar...

Mənə etiraz edib deyə bilərlər ki, axı Zori Balayan kimi qatil 13 yaşlı uşağı tükürpədən işgəncələrlə öldürdüyündən müfəssəl bəhs edir. Onun bu adamyeyən etirafı Hüseynbala Mirələmovun əsərində iki yerdə sitat kimi verilir. Yırtıcı heyvan yazı yaza bilsəydi, yəqin məhz belə bir mətni ortaya qoyardı. Amma məsələ ondadır ki, Zori Balayan bu mətnin ona mənsub olduğunu israrla danır. Guya ki, bədnam “Ocaq” kitabında və başqa cızmaqaralarında təlqin etdiyi türk düşmənliyi, qisasçılıq, nifrət, qəddarlıq hissləri mahiyyətcə bu mətndən fərqlidir.

Üslub, ifadə bəlkə də fərqlidir, amma mətləb, məzmun, mahiyyət və çağırış eynidir: türk düşməndir, harda əlinə keçdi türkü öldür, türkün qocasına, qarısına, qadınına, körpəsinə qarşı acımasız ol! Həm də tək türkün deyil. Qarşına qoyduğun məqsədə çatmaq üçün hər hansı millətin qanını tökməkdən çəkinmə. Günahsız insanları öldür ki, dünyaya səs salasan, terror törət ki, dünyanın diqqətini çəkəsən. Zatikyan və dəstəsinin Moskva metrosunda, Karapetyan və dəstəsinin Parisin Orli hava limanında törətdikləri partlayış, neçə-

neçə günahsız insanın həyatına son qoyan teraktlar Balayan kimilərinin çağırışlarının nəticəsi deyilmiydi?

Hüseynbala Mirələmovun uğurlu tapıntılarından biri əsərdəki erməni gənclərinin həmin bu Orli hava limanındakı terakta münasibətləridir. Onlar təəssüflənirlər ki, bu partlayış əvvəlcədən planlaşdırıldığı kimi səmada uçan təyyarədə deyil, yerdə baş tutubdu. Havada partlasaydı, daha çox insan tələf olardı. Beyni zəhərlənmiş gənclərin məhz belə düşünməsinə inanırsan. Bu “dünyagörüşünə” görə insan həyatının heç bir dəyəri yoxdur, xam xəyallar naminə kimlərin və nə sayda tələf olmaları önəmli deyil.

Əgər Moskva metrosunda terakt Zatikyanın adıyla, Orlidəki partlayış Karapetyanın adıyla bağlıdırsa, Bakı metrosunda bir çox sərnişinin, o cümlədən məşhur caz ifaçısı Rafik Babayevin ölümüylə nəticələnən partlayış Zori Balayanın adıyla bağlıdır. Çünki terroristləri şəxsən o təlimatlandırırmış.

Yeri gəlmişkən, Zori haqqında. Bəlkə də bizdə çoxları onu üzdən tanımır. Amma TV ekranlarında məşhur və məşum kadrlarda gördüm ki, Cıdır düzündə “sərxoş təlxəklə” qol-boyun olub rəqs edən Zori Balayandır. Onu hər ikimiz SSRİ Xalq deputatı olduğumuz vaxtdan tanıyırdım. SSRİ Xalq deputatlarının Zori Balayanın da iştirak etdiyi sonuncu qurultayında mən kürsüdən onu Qarabağ qantökməsinin ilhamvericisi və təşkilatçısı, yalançı adlandırdım və bu çıxışım “İzvestiya” qəzetində də çap olunub. Balayan cəsarət edib mənə cavab verə bilmədi. Zori Balayanın və başqa bu sayaq avantüristlərin Qarabağ məsələsini qaldırmalarından qabaq ermənilər Azərbaycan tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətində firavan yaşayırdılar. Hər şeyə malik idilər. Vilayətə özləri rəhbərlik edirdilər, Azərbaycan və SSRİ Ali sovetlərində deputat kvotaları vardı, erməni dilində ali və orta məktəbləri, mətbuatları, teatrları fəaliyyət göstərirdilər. Guya ki, iqtisadi məsələlər baxımından Qarabağı Ermənistana hitlersayağı anşlyus etmək istədilər. Qarabağ ermənilərini 44 günlük savaşdan sonra indiki hallarıyla müqayisə edin. Guya ki, müstəqillik statusunu tanısaq, beş rayonu qaytaracaqlarını yalan-

dan vəd edirdilər. İndi səkkiz yarım rayon işğaldan azad olundu, status məsələsi də Prezidentimiz demiş, "cəhənnəmə getdi, gorbagor oldu".

Budur zoribalayanların, akademik aqanbekyanların habelə Moskvada, Fransada, Kaliforniyada rahat yaşayan ermənilərin ağladıqları gün. Sovet vaxtında inzibati cəhətdən DQMV-yə daxil olan qədim Azərbaycan şəhəri – Pənahabad – Şuşadan da qəsbkarlar həmişəlik qovuldular. Fitnəkarlara, avantüristlərə uyub nə qazandılar ermənilər? Heç nə! Məğlub olmuş, biabır edilmiş, iqtisadiyyatı çökmüş, borc içində çabalayan, siyasi başçıları bir-biriylə didişən, vətəndaş müharibəsi astanasında dayanan, əhalisi dabana tüpürüb ölkədən qaçan yarımmüstəmləkə məmləkət. Budur, qatı millətçilərin xalqlarına "xidmətləri". Amma dəhşət ya nə bilim ləzzət odur ki, pasportda milliyəti azərbaycanlı kimi göstərilən bəzi "özmüzkülər" Zorini Azərbaycan yazıçılarına vətənpərvərlik nümunəsi kimi göstərirdilər. Hətta sifətini də, əqidəsini də dəfə-dəfə dəyişən birisi qürurla bəyan edirdi ki, "mən Zori Balayana Anardan çox hörmət bəsləyirəm". Başqa bir əhli-qələm bəyan edirdi ki, Qrant Matevosyan Anardan artıq türkdür. Qrant Matevosyan qrafoman Zori Balayandan fərqli olaraq yazıçıdır, istedadlı yazıçıdır, amma onun məndən artıq türk olmasını görəsən, hansı cihazla ölçüb bu yazını yazan?

Ümumiyyətlə, yeri gəlmişkən, bir məsələyə də toxunum. Azərbaycan ədəbiyyatında "Əsli və Kərəm" dastanından tutmuş Nəriman Nərimanovun, Cəfər Cabbarlının əsərlərinə qədər erməni qızına aşiq olmuş Azərbaycan gənclərindən bəhs olunur. Amma Əsli də, Sona da heç olmasa qızlardır. Bizim ermənipərəstlər kişilərə – Zori Balayana, Qrant Matevosyana aşiqdirlər, Azərbaycana patoloji nifrət püskürən Sero Xanzadyanla dostluqlarıyla fəxr edirlər. Necə deyərlər, "Utanmasan oynamağa nə var ki..."

44 günlük müharibə erməni siyasətinin nəinki uğursuzluğunu, həm də məntiqsizliyini, ağılsızlığını sübut etdi. Əgər işğal etdikləri ərazilərdə qalmayacaqlarını bilirdilərsə, nəyə görə milyardlarla xərc çəkib "keçilməz" istehkamlar qururdular? Yox, əgər Azərbaycan

ordusunun bu istehkamları dağıda bilməyəcəyini, torpaqlarımıza qayıda bilməyəcəyimizi güman edirdilərsə, onda niyə bu sahədəki bütün şəhərləri, kəndləri viran qoyurdular? Və xarabaya çevrilmiş kəndlərin, şəhərlərin qədim adlarını dəyişib eybəcər adlar qoymağın anlamı nədir? Bunu yalnız şizofreniya əlaməti saymaq olar. Ümumiyyətlə, adamın bu miflər xəstəliyinə mübtəla olmuş, çar Tiqran əyyamından "dənizdən-dənizə" xülyalarıyla yaşayan xalqa yazığı gəlir, necə olsa da uzun illər qonşu olmuşuq.

Yəni bu 44 günün həqiqəti də bunlara dərs olmadı, miflərdən ayıltmadı? "Hərbi səriştəsiz, döyüşə bilməyən" ordumuz haqqında erməni mifləri ələ keçirdiyimiz tankları, topları, maşınları kimi sıradan çıxdı. Bircə nəfəri belə fərari olmayan Azərbaycan Silahlı Qüvvələri qarşısına "məğlubedilməz erməni ordusu" qaçıb canını qurtaran minlərlə fərarisiylə çıxdı. Xocalı soyqırımını törədənlər qadınların, körpələrin qanını tökməklə qürurlanır, bu şücaətlərinə görə özləri özlərini qəhrəman elan edirdilər. Azərbaycan Ordusu dinc əhaliyə xələl gətirmədən düşməni döyüşlərdə diz çökdürdü. Bununla da düşmənə tək savaş dərsi deyil, əxlaq dərsi, insanlıq dərsi də verdi. Ermənistandan vaxtiylə başıaçıq, ayağı yalın qovulan soydaşlarımızdan fərqli olaraq köçüb gedən ermənilərə unitazlarınacan aparmaq imkanı yaradıldı...

Məğlub olmuş düşməni alçaltmadıq, əksinə ona öz xoşuyla düşdüyü bəladan xilas yollarını göstərdik: qonşularla dil tapın, ədavət aparmayın, onsuz da onlarla bacarmayacaqsınız, heç kəs sizin qisasçı maraqlarınız naminə öz övladlarını qurban verməyəcək. Nəqliyyat layihələrinə qoşulun, qonşularla hər iki tərəf üçün səmərəli əlaqələr qurun, əməkdaşlıq edin.

Bu gün Ermənistana bu ağır vəziyyətdən çıxmaq üçün ayıq başlar lazımdır.

Birdəfəlik qəbul edin ki, Qarabağ deyil Arsax, sarsağın biri sarsaq.

Hüseynbala Mirələmov humanist Azərbaycan ziyalısı, yazıçısı kimi əsərinin sonunda erməni personajlarına da rəhm eləyir. On-

lar yazdıqları yalançı “şərəf tarixi”ndən imtina edib xalqlarının bəd əməllərindən və özlərinin yanlış əqidələrindən peşman olub düz yola çıxırlar.

Təki yalnız bədii əsərlərdə deyil, real həyatda da belə olaydı.

Mənə görə elə bununçün Hüseynbala Mirələmovun əsəri Türkiyə türkcəsinə, rus və ingilis dillərinə, bəlkə də ilk növbədə erməni dilinə çevrilib geniş yayılmalıdır.

**ANAR,**
*Azərbaycan Yazıçılar Birliyinin sədri*
*1-3 mart, 2021*

## Birinci hissə

# QƏFİL ÇAĞIRIŞ

Bəzən bir işi planlaşdırırsan, uzun-uzadı ona hazırlaşır, səylə üzərində çalışır, başa çatdıranda da səliqə-səhmanla ortaya qoyursan. Belə işlər adətən təəssübləndirə, heyrətləndirə bilmir başqalarını, bəsit, bəzən adidən də adi proses nəticəsi şəklində ortaya çıxır. Amma bəzən ağlına belə gəlməyən, yatsan yuxuna da girməyən, bir gün öncə, bir gün də yox, lap bir saat, bir dəqiqə öncə əsla haqqında düşünmədiyin, fikir süzgəcindən keçirmədiyin bir iş sənə “məni gör” deyir, bax, onda qəfildən planların da dəyişir, həyat axarın da fərqli ahəng alır, yeni cəbhədə vuruşa başlayırsan. Burada nəticə də fərqli, gözlənilməz, qeyri-adi olur. Bu cür qəfil işləri çoxumuz rasional olduğumuz, öncədən ssenarisi yazılmış rutin bir həyat yaşamağa adət etdiyimiz üçün bəyənmir, onlardan qaçmağa çalışırıq. Lakin bəzən irrasionallıq daha effektiv, daha səmərəli olur, bunu nəzərə almaq vacibdir.

Eynən mənim ölkə xaricinə bu son səfərimdə olduğu kimi...

Moskvaya yolum tez-tez düşür. Xüsusən yaradıcılıqla bağlı bu səfərlərin mütəmadi şəkil alması günümüzün reallığına çevrilib. Şimal qonşumuzun paytaxtında yeni çıxacaq kitablarımla bağlı nəşriyyatlara güzar edir, yaradıcı birliklərdə, kitab mağazalarında dünyanın bir nömrəli möcüzəsi sayılan kitablar aləminə düşürəm. Kitab ən böyük sərvətdir, hətta, internetin, mobil telefonun gündəlik həyatımıza hədsiz müdaxiləsinin olduğu hazırkı dövrdə belə kitaba sevgi azalmır. Təsadüfi deyil ki, son elmi araşdırmalara görə, televizora baxmaq İQ səviyyəsini azaldır, əksinə, kitab oxumaqsa

yaddaşı möhkəmlədir, bu gərgin zamanda insana stressini aradan götürməyə kömək edir.

Son dəfə Moskvaya yolum elə bu 2020-ci ilin müharibə qoxulu oktyabr günlərində düşdü. Həm ədəbiyyata xidmətimi davam etdirəsiydim, həm də hər birimizin əsgəri olduğumuz İkinci Qarabağ savaşında təbii ki, beynəlxalq aləmdə – xüsusən yaxşı əlaqələrim olduğu Rusiyada təbliğat baxımından əlavə dividend əldə etmiş olurdum, bu şansdan da bəhrələnmək yerinə düşmüşdü.

Ənənəyə uyğun olaraq Şeremetyevo aeroportunda eniş edən kimi əsgərlik yoldaşım – 1970-ci ildə Rusiya Federasiyasının Kalininqrad vilayətinin Baltiysk şəhərində birgə hərbi xidmət keçib acılı-şirinli günlərdə dostlaşdığım Stepan Arsenyeviç İvanovla zəngləşdim. Dostum həmişəki kimi sakit deyildi, həyəcanlı səslə – təcili görüşək, sənə danışılası əhvalatım, göstəriləcək kağızlarım var, – dedi. Əcəba, boşuna təmkinini pozmayan, sakit dənizində fırtına qoparmayan dostum nədən belə əndişəli idi, niyə təcili görüşmək istəyirdi? Mənə nə danışmaq, nələri göstərmək fikrindəydi? Səbirsiz halda onun yanına yollandım. Stepanın Vernadski prospektindəki mətbəxində, künc divanında əyləşib iri fincandan çay içə-içə səhərdən ta gecə yarıyadək birnəfəsə o danışdı, mən dinlədim. Otelə getməyimə də ehtiyac qalmadı, belə ki, gözümüzün çimirini azacıq alıb ertəsi gündən yenidən bizdən kənarda baş verən, amma bizim müdaxiləmizlə bizə əyan olan hadisələrin axarına düşdük. Növbəti iki gündə də hər şey eyni cür təkrarlandı. Arada Styopa mağazaya qaçırdı, ərzaq alırdı, makaron, kartof, sosis qaynadırdı, yeyirdik, imkan düşən kimi mən gah informasiyalara üz tutub Qarabağ savaşından son xəbərləri öyrənirdim, gah işimin dalınca nəşriyyatlara, redaksiyalara qaçaraq gedib-gəlirdim, sonra yenidən bizimçün icra olunası dini ayin kimi məcburi status qazanmış bu "proses"ə qayıdırdıq. Beləcə, özüm də gözləmədən yeni roman ərsəyə gəldi. Günümüzün ən dəbdə olan non-fiksion, yəni sənədli proza janrında. Özü də bu romanın ən həssas, ən taleyüklü məqamda yazılması mənə bir daha bir məşhur deyimi sübut etmiş oldu: Hadisələr bizim

ətrafımızda elə sürətlə cərəyan edir, informasiyalar elə sürətlə qaçır ki, sadəcə, diqqətli, dördgöz olub onların ən lazımlılarından yapışmağı bacarmalısan. Bacardın, demək, gündəmi yarada biləcəksən.

Beləliklə, Stepan Arsenyeviç İvanovun – hazırda təqaüddə olan bir rus türkoloqun üzə çıxartdığı həqiqətləri sizlər üçün ərz edirəm. Və bəri başdan xatırlatma edirəm ki, bu şəxsin siyasətlə, beynəlxalq hüquqla heç bir əlaqəsi yoxdur. Kazan Federal Universitetinin türkologiya fakültəsini bitirdikdən sonra hərbi xidmət çəkməyə gələn Stepan İvanov bütün ömrünü sadə mütəxəssis kimi keçirib, siyasətə baş qoşmayıb. Bu xatırlatma təsadüfi deyil, çox həlledici məna daşıyır, sonda bunu qabardaraq bu xatırlatmaya qayıdacağıq.

Stepan İvanov uzun söhbətinə illər öncə qarşılaşdığı bir qətl hadisəsi ilə müqəddimə etdi...

## İkinci hissə

## QANDAN QORXMAQ

...Qan tökülməsindən qorxuram. Həm də çox qorxuram. Bir qış günü blokumuza daxil olanda döşəmədəki qan gölməçəsini görüb dəhşətə gəlmişdim. Divarlara da al-qırmızı qan damcıları sıçramışdı. Ayaqlarım tutulmuş, donub yerimdə qalmışdım. Beş metr aralıda – pilləkən meydançasında bir şəxs üzüstə uzanıb xırıldayaraq can verirdi. Bu, bir məişət cinayəti idi, soyğunçuluq hadisəsi idi. Əmanət kassasından çıxan qonşumun böyük pul əsginaslarını görən quldurlar onu izləyərək blokumuza kimi gəlmiş, orada isə bıçaqlayaraq soymuşdular. Bu hadisədən necə sarsılmışdımsa, uzun müddət özümə gələ bilməmişdim, hətta xəstəxanalıq olmuş, bir müddət müalicə almışdım.

Onda əsgərlikdən yenicə qayıtmış, evlənmişdim. 1973-cü il idi, iyirmi üç yaşındaydım. Bəxtə bax ki, cəmi beş il sonra tale məni

daha dəhşətli bir qanlı səhnə görməyə tuş elədi. Bu dəfə adi cinayət də yox, o vaxtacan filmlərdə gördüyüm bir terror hadisəsinin şahidi oldum. 1977-ci ilin 8 yanvar gününü heç vaxt unutmayacağam. Həmin gün Moskva metrosuyla hərəkət edirdim, yerli vaxtla saat 17:33-də İzmaylovo metrostansiyasında dəhşətli partlayış vaqonu paramparça etdi, sən demə, bomba qoyulmuşdu. Sarsıdıcı mənzərəydi, gözlərimin qabağında yalnız filmlərdən tanış olan inanılmaz səhnələr vardı: yanan, tüstülənən vaqonlar, insanların çığırtıları, yerə düzülmüş insan cəsədləri, yaralıların sızan qanı...

Dərhal qatar bloklandı, təhlükəsizlik xidməti sərnişinləri evakuasiya etdi, təcili tibbi yardım yaralıları daşıdı, ölənlərin meyidləri isə platformalararası meydançada mərmərin üzərinə düzülmüşdü, üzlərinə də ağ mələfələr atılmışdı. Sonradan – xəstəxanada keçirdiyim qorxudan və tuş gəldiyim yüngül yaradan ambulator müalicə alanda eşitdim ki, yeraltı partlayışın ardınca iki yerüstü partlayış da baş verib. Saat 18 radələrində KQB-nin – SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin binasının yaxınlığında – Dzerjinski küçəsində yerləşən 15 saylı və 25 Oktyabr küçəsində yerləşən 5 saylı ərzaq mağazaları da partlayışa məruz qalıb. Nəticədə metro teraktı yeddi nəfərin ölümünə səbəb olub, ümumən 3 teraktda 37 nəfər müxtəlif dərəcədə xəsarət alıb.

Hadisə SSRİ miqyasında – kommunizm quran qardaş sovet xalqları ailəsində çox gözlənilməz idi, Kremli həqiqətən sarsıtmışdı. Təsəvvür edin ki, bu, 60 il yaşı olan bir ölkədə ilk terror aksiyası idi, buna kimi nə belə hadisə baş vermişdi, nə də kiminsə ağlına gələ bilərdi ki, haçansa belə bir faciə yaşanar. Xəbəri ölkə ictimaiyyətindən gizlətdilər. Deyirdilər ki, metroda xırda partlayış olub, yaralananlar var, vəssalam. Nə qədər gizli saxlasalar da, yerin də qulağı var, moskvalılar hər şeydən dərhal xəbər tuta bildi. İstintaq müəyyənləşdirdi ki, teraktları milliyyətcə erməni olan üç şəxs – Stepan Zatikyan, Akop Stepanyan və Zaven Baqdasaryan həyata keçirmişlər. O vaxt məhkəmə terakta başçılıq edən Zatikyana güllələnmə hökmü çıxardı, dəqiq xatirimdədir, 1979-cu ilin 30 yanvarında hökm

icra olundu. Kim bilmir, güllələnmə hökmü alan insanlar öz cəzalarını aylarla, bəzən illərlə gözləyirdilər. SSRİ tarixində bizə bəlli olan yeganə tez icra edilən hökm 1975-ci ilə təsadüf edirdi. "Storojevoy" adlanan hərbi gəmidə üsyan qaldırmış üçüncü ranq kapitanı Valeriy Sablinin güllələnmə hökmünün icrası cəmi 14 gün ərzində baş tutmuşdu. Zatikyanın isə cinayəti ölkə rəhbərliyi üçün o qədər gözlənilməz və qorxulu olmuşdu ki, onu hökmdən sonra cəmi on gün sağ saxlamışdılar.

O hadisədən sonra məndə – sadə rus mujikində bir ermənifobiya xəstəliyi yarandı. Nədənsə bir qulağım səsdəydi, izdihamlı yerlərdə ermənilərin törədəcəyi yeni bir terror gözləntisi qorxusu ilə yaşayırdım. Bacardıqca o millətin nümayəndələrindən qaçırdım, hətta inanırsınız, oturub bir film izləyəndə rejissorun soyadını "yan" sonluqlu görəndə qeyri-ixtiyarı kanalı dəyişirdim. Nə biləydim ki, illər sonra tale məni bu millətin nümayəndələri ilə eyni dam altında yaşamağa, eyni otağın havasını udmağa məcbur edəcək. Bəli, bəli. Məhz bu cür.

### Üçüncü hissə

## PSEVDOGÜRCÜLƏR

Olduqca adi başlayan bir gün az keçməmiş qeyri-adiliyə büründü. Belə ki, mən Vernadski prospektində – dünya şöhrətli Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun yaxınlığındakı mənzilimi kirayə verdiyim üç qafqazlı tələbə ilə yaxından tanış olmaq məcburiyyətində qaldım. Həmin gün 2020-ci ilin – dünyada tüğyan edən, hamının qorxu kabusuna çevrilən koronavirus pandemiyası ilinin 30 sentyabr günü idi. Mənzilimi sözügedən qafqazlılara kirayə vermək tarixim isə 12 mart gününə təsadüf edirdi. Hələ koronavirusun nə olduğu bəlli deyildi, həyat adi qaydada davam edirdi, tələ-

bələr dərslərə gedir, özlərinə kirayə mənzil axtarır, əvvəlkini daha rahat yenisi ilə əvəzləyirdilər.

Həmin müddətdə Çin Xalq Respublikasında biznes fəaliyyəti ilə məşğul olan oğlum Vasyanın – Vasiliy Stepanoviç İvanovun iki bina aralıdakı mənzilində yaşayırdım, həm oğlumun evinə göz-qulaq olur, həm də öz büdcəmi aylıq kirayə qazancı ilə doldururdum. Bizim küçədəki evlərə hədsiz tələbat var. Belə ki, universitetdə təhsil alan gəlmə tələbələr həmişə bu küçədə vurnuxaraq özlərinə sərfəli qiymətə mənzil axtarırlar. Vasyanı evləndirəndən və o, öz biznesi hesabına qazandığı pulla aldığı yeni mənzilinə köçəndən sonra mənzil şəraitimiz xeyli yaxşılaşmışdı, əlli kvadratmetrlik ikiotaqlı stalinkada həyat yoldaşım Qalya ilə – Proxorova Qalina Pavlovna ilə canbir qəlbdə yaşayırdıq. Düzü, o vaxtlar da evimə kirayənişin buraxmaq fikri arabir beynimi məşğul edirdi, di gəl, olduqca vasvası olan həyat yoldaşımın kirayənişinlə yola getməyəcəyini də hiss edirdim, yazığın gününü göy əsgiyə bükəcəkdi – "ona niyə əl vurdun", "bunu niyə qurdaladın", "oranı niyə zibillədin" və sair basqılarla bizimlə eyni dam altında yaşamaq istəyən binəvanı bezdirəcəkdi, axtarsan, yazığın dərs oxumasına da pəl qoyacaq, özünü tam despot kimi aparacaqdı. Allah özü hər şeyi hamıdan yaxşı bilir, mənim Qalyamı qəfildən haqq dünyasına apardı. Altmış beş yaş məgər ölüm yaşıdırmı, mənim yetmişimin yanında heç nədir, amma Allahın buyruğuna qarşı çıxa bilmərik. İkinci dərəcəli diabetdən, bir də xroniki pankreatitdən əziyyət çəkən Qalyamı itirdikdən sonra təklikdən divarlar üstümə yeriyəndə evə kirayənişin buraxmaq qərarım qətiləşmək üzrəydi, bu vaxt Çində ayaqqabı biznesinə girişmiş oğlum ailəsini də götürüb bir müddətlik Şanxay şəhərinə köçəsi oldu, mənim də işim lap düzəldi, özüm evdə qalsaydım uzağı bir kirayənişinlə birgə yaşaya bilərdim, belə ki, qarım kimi elə özümün də kaprizlərim var, tünlük sevən deyiləm, səliqəsizlik görəndə başım ağrıyır, kənar səsə bəzən diksinir, qoxudan allergiyam qalxır. Belədə isə birdən-birə üç kirayənişin qazanmış oldum. Hərəsindən aylıq aldığım on min rubl, tam şad-xürrəm yaşamağıma, üstəlik, dəfnpulu ehtiyatına da tam

çatırdı. Ev birjasında əlimdə lövhə dayananda, düzü, hansısa Qafqaz xalqının nümayəndəsi ilə anlaşacağım ağlıma belə gəlmirdi. Amma bizim ruslar nəsə rastıma çıxmadı ki çıxmadı, axırda qır-saqqız olub mənə yapışan, özlərinin gürcü olduqlarını israrla təkrarlayan üç qafqazlıya evi verəsi oldum. Hər ayın əvvəli gedib rahatca pulumu alırdım, mənzilə nəzarət edirdim, səliqə-səhman yerində, sınan, dağılan bir şey yox. Ev sahibinə başqa nə lazımdır ki? Sentyabrın 30-da oğlum biznesinin axsaması səbəbindən qayıdıb gələndə mən də evimə qayıdası oldum. Əcəba, aylıq otuz min rubldan hansı axmaq imtina edər, kirayənişinləri qovmadım, birlikdə yaşayası olduq. Onlar gen-bol şəraitdəydilər, ikisi bir, biri digər otaqda yatırdı, üçünü də bir otağa salıb özüm də öz yataq otağıma yiyələndim. Elə həmin gündən də sirli hadisələr baş verməyə başladı. Ən birinci onlar barədə öyrəndiyim, məni şoka salan isə onların məni aldatmaları, gürcü yox, erməni olmalarının üzə çıxması oldu.

Niyə bəs erməni olduqlarını gizləyirmişlər? Sən demə, Zatikyanla bağlı məlum terror əhvalatından sonra sadə moskvalıların ermənilərə qarşı inamsızlıqları yarandığına görə onlara "gürcü olmaq" sərfəli imiş.

## Dördüncü hissə

## SALNAMƏÇİLİK

İnsafən, kirayənişinlərim qaçaq-quldura oxşamırdılar, səliqəli geyinib-kecinir, dərslərini hazırlayırdılar, səslərini qaldırmaz, məni narahat etməzdilər. İlk gecədə məlum terror hadisəsi beynimdə canlana-canlana yatarkən yanıma bıçaq qoymağıma sonrakı günlərdə lüzum qalmadığını anlamışdım.

Birlikdə keçirdiyimiz günün sabahısı məni nəzakətlə mətbəxə səhər yeməyinə dəvət edəndə durub həvəslə getdim də. Öz qəlya-

naltılarını masaya düzmüşdülər, omlet bişirmişdilər. Mən soyuducunu açıb, dünən bura köçərkən aldığım ərzaqlardan səhər üçün nəzərdə tutulanları çıxarmaq istəyəndə xahiş etdilər ki, bu gün onlara qonaq olum, vətənlərindən onlara ərzaq yollayıbmışlar, istəyirdilər bu nemətlərdən dadıb erməni mətbəxinə qiymət verim.

Dad deyirsiniz, dadım da. Mənə süzdükləri çaydan qurtumlayıb lavaşın arasına kənd yağı və pendiri qoyub yeməyə girişdim, ilk loxmalar mədəmə çatan kimi də onlardan adlarını soruşdum. İçlərində ən yekəpəri Artur, ən qaraqabağı Qaqik imiş. Özlüyümdə ən mədəni və eynək taxması səbəbindən də ən oxumuş hesab etdiyimin adının Stepan olmasına xeyli təəccübləndim də. Ermənistanda hər halda Stepan adı qoyulurmuş, dəb imiş. İndiyədək eşitdiyim həmin o qansız terrorçu Stepan Zatikyan, demək Stepan adlı tək erməni deyilmiş. Amma Styopa qısaltması ermənilərdə yox imiş, bu, təkcə biz ruslara xas olan bir əzizləmə ifadəsiydi.

Adaşıma dərhal ürəyim qızdı, dərslərini soruşdum, əvəzinə Artur özünü qabağa verib söylədi ki, düzü, bu ara dərs barədə düşünə bilmirik, bizdə müharibə gedir, Azərbaycanla savaş aparırıq.

Qarabağ savaşı barədə təbii ki, eşitmişdim. SSRİ dönəmində, onda ki, işıqlı kommunizm quracağımıza inanaraq bütün şüurlu həyatımızı beşilliklərə, planların möhtəşəm icrasına həsr etmişdik, birdən Mixail Qorbaçov adlı yeni prezidentin köhnə bazara təzə nırx qoyması, "yenidənqurma və aşkarlıq" adı altında aləmi bir-birinə qatması reallığa çevrilmişdi, onda ki, insanların ağzını yummaqmı olar, hamı pıçıldaşırdı ki, bu şəxs Amerika qarşısında öhdəlik götürüb ki, SSRİ-ni dağıtsın. Bax, həmin o çaxnaşmalı, qanunların sabun köpüyü kimi partlayıb qeyb olduğu dönəmdə hamı pıçıldaşırdı ki, SSRİ-nin dağılması ssenarisi Dağlıq Qarabağdan başlayacaq. O vaxt hamı möhkəmcə siyasətə girişmişdi, hətta bizim Qalya da gecə-gündüz televizorun qabağından qopmurdu, tarixin gizlinləri və ağ ləkələri barədə nələrisə öyrənməyə can atırdı. Xüsusən dissident hərəkatı, 1937-ci il repressiyası, Soljenitsin, Solovki faciəsi mövzusu onun maraq dairəsində idi. Mən isə azərbaycanlı əsgər-

lik yoldaşıma görə Qarabağ mövzusuna həssaslıqla yanaşır, hər bir xəbəri diqqətlə izləyirdim. Hətta bir gün eşidəndə ki, Qorbaçovun həyat yoldaşı Raisa Maksimovnanın erməni qanı var, dalağım sancmışdı. Sonradan şübhələrim öz əsasını tapmışdı, məlum olmuşdu ki, Raisa Maksimovna Fransada və Amerikada erməni diasporunun nümayəndələri ilə görüşəndə çox bahalı hədiyyələr qəbul edib, ona nadir rəsm əsərləri, eləcə də səksən brilyant daşla və iyirmi göy yaqutla bəzədilmiş 250 qramlıq qızıl qolbaq və boyunbağı bağışlamışdılar, bu hədiyylərin də müqabilində tamahkar qadın Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycandan alınaraq Ermənistana pay edilməsinə söz veribmiş. Amma illər ötdükcə, ərazinin həqiqətən ermənilərə verilməsi de-fakto təsdiqləndikcə, minlərlə insanın ölümünə, on minlərin qaçqın düşməsinə səbəb olan müharibə davam etdikcə mövzu mənimçün adiləşmişdi, iş o yerə çatmışdı ki, artıq 2020-ci ildə müharibənin növbəti dalğasının başlanmasından belə xəbərsiz qalmışdım. Görünür lənətəgəlmiş koronavirus pandemiyası, bütün diqqətimi özünə cəmləyibmiş, yaşca risk qrupunda olduğum üçün tibbi maska, tibbi əlcək, sosial məsafə, hərarəti daim yoxlamaq, şübhəli hallara nəzarət etmək kimi vərdişlərin tam əsarətində idim. Üstəlik, oğlumgili, nəvələrimi düşünür, həyəcandan qurtula bilmirdim.

Deməzsənmiş, müharibə yenidən başlayıbmış, kirayənişinlərimin davranışından o da hiss olunurmuş ki, özü də, bu dəfə Azərbaycan tərəfin aşkar üstünlüyü şəraitində prosesə start verilibmiş.

Və yekəpər Arturun bu açıqlamasından sonra diqqət edib gördüm ki, həqiqətən kirayənişinlərim çox qayğılı, narahat görünürlər.

Axşam onların xısınlaşdıqlarını, öz dillərində nəsə danışdıqlarını gördüm, amma bir şey də var idi ki, ermənicə danışmaları bir istisna idi, valideynləri tərəfindən qarşılarına böyük öhdəliklər qoyulan, Rusiya Xarici İşlər Nazirliyi sistemində işlə təmin edilmək maksimumuna can atan bu "üçlər" rusca təmiz, aksentsiz danışmaq üçün öz aralarında daha çox rus dilində ünsiyyət saxlayırdılar.

Bu da mənim xeyrimə idi. Nəsə bir gizlinin qalmasının heç vaxt tərəfdarı olmamışam. Həmişə istəmişəm ki, insani münasibətlər şəffaflıqda bulaq suyuna bənzəsin, bulanıq gölməçə suyu səviyyəsində olmasın.

Az keçmiş onlar hər halda rus dilinə keçdilər, belə başa düşdüm ki, gedib müharibədə könüllü vuruşmaq istəklərinə valideynləri qəti şəkildə "yox" deyiblər, bunu əsgərlik belə çəkməyən, silahla davrana bilməyən kəslərin müharibədə öz ordusuna heç bir xeyir verə bilməyəcəyi ilə əsaslandırıblar. Üstəlik, erməni tərəfinin həddən çox itki verdiyini, ölü sayının artıq mini haqladığını da müzakirə mövzusu ediblər. İndi bu üç nəfər müharibə aparan xalqlarına nə kimi fayda verəcəkləri barədə qızğın debata girmişdilər, ara-sıra səslərini ucaldaraq hər biri öz fikrini səmavi kitab kəlamı kimi dürtüşdürmək istəyirdi.

Birinci təklif məni hətta qorxutdu da, hazırlaşdım ki, ya yan otağa keçib onları evimdən qovum, ya da sahə müvəkkilimiz Lyonya Pavlova xəbər eləyim. Bu Artur deyilənin nadürüstlüyünə bax, təklif edir ki, gəlin, əldəqayırma partladıcı qurğular düzəldib cəbhəyə yollayaq, ordumuza kömək olsun. Hazırlıqlıdır dəyyus. Deyir, pirotexniki vasitələr, kibrit, bir də benzin lazımdır, hamısı da asan tapılır. Deyir, məşhur "Tamil şirləri" qrupunun bu cür vasitələri necə hazırladıqlarının YouTube-da videosunu izləyib, əzbər bilir. Yaxşı ki, təklifi keçmədi (niyyətin özünə də cəza düşür hər halda), adaşım ona müasir dronların hökmranlıq etdiyi hazırkı müharibədə "Molotov kokteyli" sayaq uşaq oyuncaqlarının rol ala bilməyəcəyini sübut edə bildi, aralarında bir xeyli mübahisə də Arturun növbəti təxribat təklifi gələndə oldu, yekəpər bu dəfə Rusiyadakı Azərbaycan səfirliyinə hücum etmək planını açıqladı. Yeri gəlmişkən, sözdən sözə keçməyə məcburam, ertəsi gün səhər yeməyi zamanı həmin bu Artura sual etdim ki, erməni xalqının düşməni kimdir? Dedi, əlbəttə ki, türklər. Soruşdum, bəs onda hansı səbəbdən 1977-ci ildə nə qədər adamın ölümünə, içi mən qarışıq nə qədərinin də yaralanmasına səbəb olan metro terrorunu törətmisiniz? Ruslarla nə işiniz?

Qayıdıb deyəsən ki, "Erməni xalqının iki böyük faciəsi var, biri əldən çıxmış Böyük Ermənistan imperiyası, digəri erməni genosidi. Hər ikisinin kökündə türklər dayanır deyə əsas düşmənimiz türklərdir. Metronun partladılmasına gəldikdə isə bu terror Ermənistanı müstəqillikdən məhrum edən Rusiyaya tuşlanmışdı".

Düzü, məəttəl qaldım, tarixə Rusiya Ermənistanın müstəqilliyini əlindən alan dövlət kimi düşməyib axı? Çar Rusiyası müsəlman Azərbaycanı işğal etdikdən sonra onun ərazilərinə xristian erməniləri yerləşdirib, onlara dövlət də qurub ki, gələcəkdə öz həmdinlərinə güvənə bilsin. Bu aşkar şəkildə tarixi saxtalaşdırmaq deyilsə, bəs nədir?

Nə isə. Keçək söhbətin davamına. Arturun və Stepanın uzun-uzadı mübahisələrinə bayaqdan əsla səsi çıxmayan, qaraqabaq kimi tanıdığım Qaqik son qoyaraq təəccübümə rəğmən çıxış yolunu göstərdi. Dedi, gəlin erməni xalqını ruhlandırmaq, erməni gəncləri döyüşə stimullaşdırmaq, üstəlik də ruslara bizim xalqın necə qəhrəman xalq olduğunu sübut etmək, bununla da müharibədə neytral qalan rusların rəğbətini qazanıb bizə dəstək olmalarına təkan vermək məqsədi ilə "Şərəf tarixi" adlı bir kitab hazırlayaq, orda erməni xalqının qəhrəmanlarından və qəhrəmanlıqlarından söz açaq.

Təklif dərhal keçdi. Beləcə, "üçlər" hər kəsə konkret mövzu tapşırıb səhərdən tam gücləri ilə bu işə səfərbər olmaq, hətta dərslərdən qalmaq bahasına cəmi on gün ərzində kitabı yazıb tamamlamaq qərarı qəbul etdilər, dərhal da sonrakı mərhələdə Moskvadakı erməni mesenatlarından birindən pul alaraq kitabı çap edib yaymaq qərarını təsdiqlədilər. Kitabın rusca yazılması, özü də kirayənişinlərimin başqa variantları olmaması səbəbindən bizim Vasyanın köhnə kompüterində yığılması xəbəri həmin gün mənimçün heç nə demədi. Amma ertəsi gündən onların yazdıqlarını oxumaq imkanım yarandığını duyub buna xeyli sevindim. Uşaqlıqdan hara gəldi özümü dürtmək xasiyyətim var, rəhmətlik anam Dusya deyərdi ki, "Styopa od-alovdur, gah motosiklin altına düşür, gah ocağa yıxılır, gah ağacdan asılı qalır. Üstəlik, keqebeşnik kimi harda nə gizlədirəmsə xəbər tutur, əlindən beş konfet gizləyə bilmirəm".

## Beşinci hissə

# BİRİNCİ BÖLMƏ
# NECƏ YARANDI

Birinci günün axşamı Ermənistan səfirliyindən, erməni diasporu mərkəzindən, erməni professorlardan, internet mənbələrindən əldə edilən materialları toplayıb bir-birinə calayaraq yeni yazacaqları kitabın birinci bölməsini ərsəyə gətirməkdə idilər. Birinci bölmə Böyük Ermənistan barədəydi, xalqlarını qürurlanmağa səsləyir, "su gələn arxa bir də gələr" şərq məsəlinə istinadən yenidən bu dövlətin sərhədlərini bərpa edəcəklərinə inamlarını ifadə edirdilər. Nə deyə bilərəm, insanın öz vətənini sevməsi heç də pis hal deyil, gənclərin vətənpərvər ruhda böyüməsi hər bir xalqın başlıca amalıdır. Ancaq iki min il öncə mövcud olmuş, əslində mövcudluğu belə tam şübhə doğuran bir sərhədlərin yenidən bərpa edilməsi uğrunda çabalamaq gülünc deyildimi?

Özümü saxlaya bilməyərək qapını aralayıb kompüter arxasında sıxlaşmış "üçlər"ə sualımı ünvanlayası oldum:

– Dostlar, gəlin bu sualıma cavab verin. İndi dünya tam başqa yoldadır, xalqların bir-birinə inteqrasiyası geniş vüsət alır, sərhədlər açılır, millətçilik konsepsiyaları multikultural konsepsiyalar qabağında geri oturur. Belə bir zamanda "su gələn arxa bir də gələr" – Şərq məsəlinə istinad edərək durub deyəsən ki, mən Böyük Ermənistanı bərpa edirəm? Onda tarixdə reallığı əsla şübhə doğurmayan imperiyaların sələfləri neynəsinlər? Kiçik dövlətlərə sığınmış italyanlar, yunanlar, monqollar, macarlar və qeyriləri neynəsinlər? Desinlər ki, bir vaxtlar dünyanın yarısını tutmuş Qədim Roma, Yunanıstan, Monqol-tatar, Hun imperiyalarını bərpa etmək istəyirik? Bəlkə hindular ayağa qalxıb öz əzəli torpaqlarının geri qaytarılması tələbi ilə

müasir ABŞ dövlətinin ləğvini istəsinlər? Lap elə hazırda müharibə apardığınız Azərbaycanı götürək. Durub desinlər ki, XVI-XVIII əsrlərdə dünyanın ən nəhəng on imperiyasından sayılan, quru ərazisinin səkkizdə birinə nəzarət edən Səfəvilər İmperiyamızı bərpa edirik? Bu abstrakt təfəkkürdür axı. Siz nə qoyub nə axtarırsınız?

Türkologiya fakültəsində oxuduğum vaxt öyrəndiyim biliklərlə yanaşı, diletantları çaya susuz aparıb susuz gətirmək istedadım da var idi, buna güvənirdim.

"Üçlər" təbii ki, müdafiə olunmaq əvəzinə hücuma keçdilər, üstümə əsassız dəlillər, sübutlar yağdırdılar. Guya bunların imperiyasının qaşı-gözü digərlərininkindən daha qara imiş?

Bir dəfə uşaq vaxtımızda dostum Kolya iki dəstəyə bölünüb uşaq mücadiləsi apararkən bizim planları digər dəstəyə açıqlamışdı, onda dəstəmizin başçısı Petya ona belə bir sual vermişdi: – Sən niyə bizi onlara satdın? Kolya da ağlamsınıb – Ona görə ki... ona görə ki, mənim qarnım ağrıyırdı... – cavabını vermişdi. Bu dəxlisiz cavabı boşuna xatırlamadım, doğrudan da "üçlər"in mənə cavabları Kolyanın həmin cavabına bənzəyirdi, dəxlisiz, arqumentsiz, əsassız "qarınağrısı" idi.

Bu savadlı, səliqəli gənclər hər biri ali savad alıb həqiqətə, dürüstlüyə xidmət etməklə öz vətənlərinə hədsiz fayda gətirə bilərdilər. Ancaq nə yazıq ki, millətçilik ruhunda tərbiyə almaq, millətçi tarixlə böyümək, millətçi kitablar oxumaq, millətçi filmlərə baxmaq məcburiyyəti onların beynini korlamışdı, ağ vərəqə səhv yazılar yazmışdı.

Kitablarının birinci hekayətində nə yazdıqlarından isə ertəsi gün xəbər tutdum. Onlar ikinci hekayəti yazmaq üçün evdən çıxanda yazdıqlarını oxumaqcün kompüterin arxasına keçdim. Onları səhv yoldan qaytarmaqda iddialıydım, buna görə də gördükləri işə tam bələd olmaq barədə qərar vermişdim.

Yazdıqlarının surətini də çıxarıb özümçün açdığım qovluqda yerləşdirdim ki, lazım gələndə hər şey əlimin altında olsun.

Birinci bölmələri belə başlayırdı:

"**1-ci bölmə.** Hər bir erməni dünyaya gələndə ona ilk olaraq ana, vətən kəlmələri ilə yanaşı Tiqran kəlməsi də söylənməlidir ki, o uşaq ana və vətən kəlmələrindən sonra məhz Tiqran kəlməsini söyləyə bilsin. Tiqran kimdir? Tiqran dünyanı lərzəyə gətirmiş dənizdən dənizə Böyük Ermənistanın yaradıcısıdır, çarıdır. Öncə kitabımızda Tiqrandan danışmaq istəyirik. Dinləməyə hazırsınızmı? Onda getdik!

Eramızdan əvvəl I əsrdə Şərqdə böyük bir imperiya təşəkkül tapmağa başlamışdı. Bu, I Artaşesin yaratdığı Böyük Ermənistan idi. Eramızdan əvvəl 190-cı ildən təşəkkül tapmış bu imperiya xüsusən qüdrətli çar – Böyük II Tiqranın başçılığı dönəmində öz sərhədlərini daha da genişləndirməyə müvəffəq oldu. Onun sahəsi üç yüz on üç min kvadrat kilometrə çatmışdı, ərazisi Kür çayından İordan dənizinədək, Aralıq dənizindən Xəzər dənizinədək uzanırdı. Tiqran Parfiya və Finikiya dövlətlərini də çökdürdü, ardınca Qafqaz Albaniyası, İberiya, Kolxida və Gürcüstanı ələ keçirdi. Sonra Ön Asiya da erməni vassallığını qəbul etməli oldu. Suriya, Fələstin, İudeya kimi dövlətlər Böyük Ermənistan imperiyasına daxil edildilər. Məğlubedilməz II Tiqran Parfiyanı ələ keçirəndən sonra Parfiya çarlarına məxsus "Çarlar çarı" fəxri titulunu da qazanmış oldu.

Həmin dövrdə dünya Roma İmperiyasının hökmranlığını aşkar hiss edirdi. Bu imperiya hər bir tarixi prosesə barmaq bulamağı bacarırdı, hər bir işdə onunla hesablaşmaq lazım gəlirdi. Bizim Böyük Ermənistan dövlətimiz də belə bir mürəkkəb dövrdə şərəflə mövcudluğunu daşıyır, müharibələr aparıb qələbələr qazanır, torpaqlar əldə edirdi. 70-ci ildə II Tiqran ilk dəfə Roma İmperiyası ilə danışıqlara getməli oldu, dünyanın ən güclü imperiyası ilə sağlam münasibət qurmaq çox vacib idi. O dövrdə qonşu Pont dövləti və onun çarı VI Mitridat bütün Ön Asiyanı işğal etmiş, müharibəni Avropayadək – Balkanlaradək aparıb çıxarmışdı. Di gəl, bunu öz maraqlarına zidd hesab edən Roma İmperiyası bu dövlətin işğallarının qarşısını almış, aralarında qısa müddətdə də üç müharibə olmuşdu, əzəmətli Roma İmperiyası müharibələri qazanmış, 84-cü ildə bağlanan müqavilə ilə

Pontun əldə etdiyi bütün torpaqlara sahib olmuşdu. Bundan başqa, Mitridad Romaya misilsiz xərac vermək məcburiyyətində qalmışdı.

Mirtidad o dövrlərdə qorxubilməzliyi ilə ad çıxarmışdı, güclər qarşısında əsla geri çəkilməyən bir çar idi. İş onda idi ki, Mitridadın problemlərinə Böyük Tiqran biganə qala bilməzdi. Niyə? Niyəsini deyək. Çünki Pont çarı Mitridadın qarşısında II Tiqranın öhdəlikləri var idi, o, Mitridadın qızı Kleopatra ilə evlənmişdi. Demək, qaynatasını müdafiə etmək onun borcuydu.

Gücünü azacıq bərpa etdikdən sonra Mitridad 74-cü ildə yenidən Roma İmperiyası ilə müharibəyə başladı. Böyük Ermənistan hələ ki, bu müharibələrə qarışmır, II Tiqran öz siyasətini davam etdirirdi. Həmin ildə onun qoşunları Ön Asiyadakı Kapadokiyanı da ələ keçirdilər, üç yüz min əhalini köçürdülər. Amma əfsus ki, məhz bu dönəmdə Tiqranımız istər-istəməz Roma-Pont münaqişəsinə qoşulası oldu. Belə ki, Roma sərkərdəsi Lukullun rəşadətli vuruşması nəticəsində növbəti müharibəni də uduzan, qoşunları darmadağın olan Mitridad qaçıb Ermənistana pənah gətirdi. O, paytaxt Tiqranakertə sığındı. Bu da Ermənistan üçün ağır nəticələrə gətirib çıxardı, onun Roma İmperiyası ilə münasibətlərini bilmərrə pozdu. Ermənistan Romanın gücünü nəzərə almadı, gələcək təhlükəni görə bilmədi, II Tiqran kişi kimi hərəkət edəsi oldu, qayınatasını güdaza vermədi.

70-ci ildə Lukull II Tiqranın yanına öz elçisi Klavdini göndərdi, II Tiqrandan Mitridadın ona təhvil verilməsi xahişində bulundu. Təbii ki, II Tiqran bundan imtina etdi. Geri dönərkən Klavdi Ermənistan ərazisindən sakitcə çıxmadı, təxribatlar törətdi, xırda xalqları II Tiqran başda olmaqla ermənilər əleyhinə yönəltdi, onları ayağa qalxıb mücadilə etməyə səslədi, Roma İmperiyasının onlara azadlığa çıxmaqda kömək edəcəyini dilə gətirdi. Roma İmperiyasının özü isə çox keçmədən, cəmi bir ay sonra Ermənistana hücum etdi. 69-cu ildə romalılar Tiqranakerti mühasirəyə aldılar, bir ay çəkən mühasirədən sonra şəhəri ələ keçirməyə müvəffəq oldular, bununla da Böyük Ermənistanı çökdürdülər. Amma bəxt erməni xalqının üzünə güldü, 68-ci ildə Roma daxilində başlanan üsyanlar Lukullun qo-

şunlarını geri çəkilməyə məcbur etdi, 66-cı ildə II Tiqran nisbətən zəifləmiş Roma ilə Artaşatda sülh müqaviləsi bağladı, Ermənistan bəzi torpaqlarını itirsə belə, yenə də kifayət qədər böyük ərazi ilə Romanın müttəfiqi statusu qazandı.

Qüdrətli II Tiqran şərəflə yaşayıb şərəflə də dünyadan köçdü, onun davamçıları olan sələfləri isə azacıq istisnalarla torpaqları artırmaq yox, daha çox olub-qalanları qorumaq qeydinə qaldılar.

53-cü ildə erməni xalqının növbəti dəfə bəxti gətirdi, tarix xalqımıza qarşı insaflı davrandı. Roma İmperiyasının Parfiya ilə müharibədə uduzması Böyük Ermənistana imkan verdi ki, romalıların onlardan aldıqları torpaqları geri qaytarsın, bir az da qüdrətlənsin. Əfsus ki, 36-34-cü illərdə qüdrətli sərkərdə Mark Antoni ilə yenidən güclənən Roma Ermənistana qarşı müharibəyə başladı, danışıq adı altında romalılar erməni çarını öz düşərgələrinə çağırıb orada edam etdilər. Bununla belə, Ermənistan tam çökmədi, yalnız növbəti torpaq itkisinə məruz qalıb öz mövcudiyyətini qoruyub saxlaya bildi.

Yeni era xalqımıza romalılardan başqa daha bir qorxunc rəqib də bəxş etdi, bu Sasanilər adlı fars dövləti idi. Eramızın III əsrində Ermənistana Sasanilərin basqını oldu, Sasani hökmdarı I Şapur Albaniya və İberiyanın ardınca Ermənistanı ələ keçirdi. Amma erməni siyasəti burada da öz sözünü dedi, "düşmənin düşməni mənim dostumdur" deyimi önə keçdi, Sasanilərlə düşmən olan Romanın köməyi və müdaxiləsi ilə Ermənistan yenidən azad olundu, İran və Roma Ermənistanın müstəqilliyini qəbul etdilər, bununla belə, Ermənistan Romanın nüfuz dairəsində qaldı.

Həmin dövrdə Sasanilərin Ermənistana müntəzəm hücumları davam edirdi, dövlətimizi zəiflədirdilər. Eləcə də daxili taxt-tac davaları, əsarətdə olan xalqların vaxtaşırı üsyanları Böyük Ermənistanı gücdən salırdı. Hətta 374-cü ildə saraydaxili çaxnaşmalar öz epogey nöqtəsinə çatdı, çar Pap qətlə yetirildi.

378-ci ildə Ermənistan Sasani və Roma imperiyaları arasında bölüşdürüldü, beləcə Böyük Ermənistan süqut etdi, xalqımız öz dövlətçiliyini itirdi. Məhz bu faktor hər bir erməninin bəlasına çev-

rildi, sonradan dövlətsizlik xalqımıza böyük müsibətlər, qətliamlar yaşatdı.

Min illər ərzində hər bir erməni anladı ki, xalq olaraq cəmi bir nicatları var. Böyük Ermənistanın bərpası həm də tarixi ədalətin bərpası olacaq.

Hər bir erməni gənci də bu gün məhz bu amalla yaşamalıdır".

"Üçlər"in yazdıqlarını oxuyub internetdə kiçik bir başvurma ilə yüzlərlə alternativ mənbə tapıb üzə çıxardım, xeyli düşünüb onların yazdıqları bölmənin qurtaracağındakı "yaşamalıdır" sözündən sonra bir P.S. artırası oldum.

"P.S. Əlbəttə, bunlar sırf erməni mənbələrinin iddialarıdır, əks arqumentlər isə yüzlərlədir. II Tiqran və "Böyük Ermənistan" barədə qısaca iki alternativ faktı burda yerləşdirməyi özümə borc bilirəm.

**1-ci fakt.** Böyük Tiqran, yaxud II Tiqran kimdir?

Böyük Tiqran və ya II Tiqranın eramızdan əvvəl 140-ci ildə Böyük Ermənistanın Qəmərli, yaxud Ayrarat adlanan bölgəsində doğulduğu, eramızdan əvvəl 55-ci ildə Böyük Ermənistanın paytaxtı Tiqranakertdə vəfat etdiyi iddia olunur, onun eradan əvvəl 95-ci ildən 55-ci ilə qədər "Böyük Ermənistan"ın çarı olduğu söylənilir. Halbuki həmin dövrün məşhur sərkərdəsi olan və ermənilərin "Böyük Tiqran" adlandırdıqları və guya "Böyük Ermənistan"ın çarı olduğunu iddia etdikləri II Tiqran Əhəmənilər sülaləsindən olan fars Artabanın oğlu idi. Tiqran adı isə Tiqr *(Dəclə)* çayının adından götürülmüşdü ki, bu da midiya dilində "tiqris", yəni "ox kimi", "sürətli axın" deməkdir. Midiyalıların azərbaycanlıların ulu əcdadları olduğu isə çoxdan sübuta yetirilmişdir

**2-ci fakt.** "Böyük Ermənistan" olubmu, olubsa da onun hazırkı ermənilərə nə kimi aidiyyatı var?

"Böyük Ermənistan" – İran mənşəli Artaşeslər və Parfiya mənşəli Arşakilər sülalələrinin hakimiyyətindəki torpaqları nəzərdə tutan termindir. Günümüzdə bu termin erməni ekspansiyasını vurğulmaq üçün istifadə edilir. Mənbələrə görə "Böyük Ermənistan" ifadəsi iki mənada işlədilir: coğrafi və siyasi mənalarda. Həmin ifadəni coğra-

fi mənada 1800-cü ildə erməni keşişləri ortaya atmışdır. O dövrdə III Antiox Selevki Ararat çarlığını işğal edərək həmin ərazini Ermənistanın əsas ərazisi sayılan Van gölü ətrafı ilə birləşdirmiş, "Böyük Ermənistan" ifadəsi də o vaxt yaranmışdı. Yəni özlərini "haylar" adlandıran indiki ermənilərin qədim tarixdəki həqiqi ermənilərə heç bir aidiyyatı yoxdur, həqiqi ermənilər – ərmənlər və ya armanlar kimi tarixdə adları getmiş tayfalar qədim türk tayfalarıdır. Deməк, əslində "Böyük Ermənistan" dövləti də indiki ermənilərin-hayların qurduğu bir dövlət deyildir. Haylar bu əraziyə daha sonrakı tarixi dövrlərdə Şimali Fərat hövzəsindən gəlmişlər. Bundan başqa, hazırda ermənilərin iddia etdikləri kimi "Böyük Ermənistan" heç də dənizdən-dənizə – Aralıq dənizi, Qara dəniz və Xəzər dənizləri əhatəsində olmamışdır. "Böyük" sözünü ermənilər sovet dövründə tarixi və coğrafi sənədlərə, rus xəritələrinə 1956-cı ildən başlayaraq əlavə ediblər.

Qədim Ermənistan Selevkilər dövlətinə tabe idi. Antiox o zaman Artaksi *(Artaşes)* sülaləsinin başçısını "Böyük Ermənistan" strategi təyin etmişdi. Beləliklə, "Kiçik Ermənistan"a nisbətən daha böyük Ermənistan yaranmışdı. "Böyük Ermənistan" ifadəsi siyasi anlayış kimi e.ə. II-I əsrlər üçün, Artaşesin və II Tiqranın hakimiyyət başında olduqları və "Böyük Ermənistan"ın öz qüdrətinin ən yüksək zirvəsinə çatdığı dövr üçün xarakterikdir. Buna görə də "Böyük Ermənistan" ifadəsi yalnız e.ə. II-I əsrlərdə həm coğrafi, həm də siyasi ifadə kimi haradasa özünü doğruldur. Ancaq II Tiqran imperiyasının süqutundan sonra, yəni e.ə. 65-ci ildə "Böyük Ermənistan" da öz ömrünü başa vurdu və Ermənistan ərazicə yalnız Ərmən yaylası hüdudlarında qaldı. Coğrafi mənada isə bu ifadə erkən orta əsrlərə qədər işlədildi. Antik Ermənistan krallığının mərkəzi şəhəri isə qeyd edildiyi kimi Tiqranakert şəhəri olmuşdur.

"Kiçik Ermənistan" *(Van gölü ətrafı)* ifadəsini də erməni keşişləri ortaya atmışdır. Üçkilsədəki alban əlyazmalarını təhrif etməklə ermənilər çox yalanlar yaymaqdadırlar".

* * *

"P.S." məfhumunu ilk dəfə universitetdə təhsil alarkən müəllimimiz Anton Sviridovdan eşitmişdim. Dedikləri illərdir ki, qulağımdan sırğa kimi asılmışdı. "P.S." sözünü tez-tez işlədirdi, mənasını anlamasaq da, açığı heç soruşub öyrənməyə cəhd də göstərmirdik. Cavan idik, bəzi dərslərdə işimiz-gücümüz qrupdakı qızlarla laqqırtı vurmaq olardı. Amma bir dəfə qrupumuzdakı sarışın gözəl Varvaroçka nazlana-nazlana Anton müəllimə sual verdi ki, "P.S." nədir? O da cavabında dedi ki, "P.S. siz yelbeyinlər üçündür. Dərsə diqqət etmirsiniz, "yeməklə doymursunuz, bəlkə yalamaqla doyasınız" mənasındadır". Qəhqəhələrimizdən Varvaroçkanın pərt olduğunu görüb əlavə etmişdi: "Fikirdən sonrakı yekun fikirdir. Postskriptum sözünün qısaldılmışıdır, mətnin əsas hissəsi bitdikdən sonra yazıya edilən zəruri əlavədir". Odu-budu bu söz ağlımda qalmışdı.

İndi mən də kirayənişinlərimə bir P.S. hücumu təşkil etmək qərarına gəlmişdim. P.S.-in ardınca bir P.P.S. də artırası oldum. Adətən, postskriptum söz bitəndən sonra söz demək lüzumu yarananda işlənir. Amma bəzən məsələ lap qəlizləşir, heç sözdən sonrakı söz də sənin köməyinə tam yetə bilmir. Belədə, sözdən sonrakı sözdən də sonrakı söz – yəni postpostskriptuma ehtiyac olur. İndi mən həmin vəziyyətdə idim. P.P.S.-im isə daha kəskin oldu. Bu, sadəcə bir nokaut idi "üçlər" üçün.

"Mən inadla və səbirlə sizlərin Böyük Ermənistan tarixinizi dinlədm, siz orada eramızın I əsrində tarixə məlum iki böyük imperiya ilə – Qədim Roma imperiyası və İranın Sasanilər imperiyası ilə savaşan və onlara hətta güc gələn II Tiqranın Böyük Ermənistan imperiyasından bəhs edirsiniz. Siz heç ömrünüzdə bəşər tarixinin ən qədim mənbəyi sayılan səmavi kitablara göz gəzdirmisiniz? Xristiansınız, "Bibliya" barədə məlumatlısınız? Niyə ən qədim mənbə olan "Bibliya"da həmin o iki imperiyanın adı var, amma sizin "Böyük Ermənistan"ın adı yoxdur? Bu, çox ciddi, təkzib qəbul etməyən bir arqumentdir".

P.S. və P.P.S. əlavələrindən sonra məmnunluqla kompüteri söndürüb öz işimin-gücümün ardınca getdim. Tarixin dolanbac yolları

o qədərdir ki... Əsl labirintdir tarix. Sən burada özündən nələrsə ixtira edib, nələrisə dəyişib saxtalaşdırma etsən belə, bunu yalnız özünün əlinin çatdığı mənbələrdə edə bilərsən. Tarixi isə bir salnaməçi, bir tarixçi, bir xalq yaratmır. Tarix bütün xalqların kollektiv məhsuludur.

Demək, sənin saxta tarixin yalnız sənin özün üçün mövcud ola biləcək.

Qısa və konkret.

## Altıncı hissə

## MÜƏLLİFDƏN İLK MÜDAXİLƏ

Əsgərlik yoldaşımın və onun kirayənişinlərinin kollektiv məhsuluna elə ilk hissədəcə bir P.P.P.S də mən artırası oldum. “Onda getdik” ifadəsiylə yola çıxan erməni müəlliflərə “onda biz də getdik” ifadəsiylə ilk cavabı verdim. Cavab isə əsl yumoru, lətifəni xatırladan real bir hadisəni nəql etmək idi.

1982-ci ilin avqust ayında SSRİ-nin ən nüfuzlu jurnallarından biri sayılan “Oqonyok”da bir yazı dərc edilmişdi. Yazıda Krımın Qara dəniz sahilindəki çimərliklərdə qısa müddət ərzində bir neçə nəfərin ardıcıl batması nəticəsində hüquq-mühafizə orqanlarının keçirdiyi silsilə əməliyyatlardan bəhs edilirdi. Olayın fövqəladi olması səbəbindən cinayətkarların tapılması işinə daha təcrübəli Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşları da cəlb olunubmuş, məhz onlar suyun altında şübhəli akvalanqlıları müəyyənləşdirərək yaxalamışdılar. Məhz bu yaxalanan şəxslərin dənizdə çimənləri suyun altına çəkib qəsdən batırmaları ehtimal edilirdi. Amma istintaq ağlasığmaz bir olayın üstünü açmışdı. Məlum olmuşdu ki, akvalanqlılar erməni millətinə mənsubdurlar, işləri sualtı qayalara, daşlara erməni əlifbası ilə yazılar yazmaq imiş. Məqsəd də bu imiş ki, gələcəkdə

ermənilər tərəfindən Krım torpaqlarının "Böyük Ermənistan"a aid olması iddia edilsin.

Bu zavallıların "Böyük Ermənistan" tarixləri bax, budur!

## Yeddinci hissə

## QƏDİM TARİXÇİLƏR FİASKOSU

Həyat olduqca maraqlıdır, öz yüksəliş və çökmələri ilə, qəfil gedişləri, başgicəlləndirici tryukları ilə. Daim karyera, ictimai-siyasi, ailə-məişət, şəxsi zəmində insani münasibətlər təyinatlı problemlərlə üzləşən insan hey əlləşib-vuruşur, çabalayır, onları bir-bir aşırmağa cəhd göstərir. İnsana qalan odur ki, hər situasiyadan məhz ona uyğun şəkildə, gücünü tam səfərbər edərək, minimum itkiylə çıxsın. Bu, eynən xalqlara da aiddir. Öz mövcudluqlarını qorumaq üçün daha böyük, daha güclü xalqların daim basqısı ilə üzləşmək zoru onlarda bir özünümüdafiə instinkti yaradır, onlar mövcudluqlarını qorumaq üçün bütün məqbul yollardan istifadə edirlər. Amma xırda xalqların böyük xalq olmaq iddiaları heç vaxt özünü doğrultmur. Dənizdə kilkə balığının köpəkbalığı olması iddiası, səmada sərçənin özünü qartal hesab etməsi bütün mövcud yazılan və yazılmayan qanunlara üsyan etmək, onları pozmaq cəhdidir.

Kirayənişinlərim axşamüstü gəldilər, gələn kimi də əllərindəki şaurmanı ayaqüstü yeyib kompüterə cumdular. Onlar işə başlayanda, düzü, həyəcanlandım. Əgər dünənki hissəyə göz gəzdirib mənim əlavələrimi görsəydilər dərhal reaksiya verəcək, ya mənimlə dalaşacaq, çıxıb evimdən gedəcəkdilər, ən yaxşı halda isə onlar yazanları oxuya bilməyim deyə əlavə tədbirlər planı işləyib hazırlaya bilərdilər. Məsələn, yazılarını yazıb sonra hər dəfəsində onu flyaşkarta yükləyib götürə bilərdilər ki, kompüterin yaddaşında qalmasın.

Düzü, tələsdiyimə görə bir qədər peşmançılıq da keçirdim. Gərək əlavəni birbaşa onların variantının üstünə yazmazdım, özümçün kopyaladığım varianta yazardım. Belədə axıradək onları izləyib getdikləri yolun son mənzilinə çıxa biləcək, son sözümü demək şansımı qaçırmayacaqdım. Mən axı prinsipialam, tutduğumdan əsla qopmuran. Bu gənclər, onların kitab yazmaq eşqi, mənim onları səhv yoldan döndərmək həvəsim həm bu gənclərə ürəyimin yanması səbəbindən idi, həm də 1978-ci ilin dəhşətinin yenidən təkrarlanmaması üçün özlüyümdə mübarizəm idi. Yarı yoldan dönmək istəmirdim.

Xoşbəxtlikdən yazı-pozuları o qədər çox, vaxtları da o qədər az idi ki, kirayənişinlərim dərhal ikinci bölməni yazmağa başladılar, hərəsi öz mənbələrini açıqlayır, qaraqabaq Qaqikin rəhbərliyi altında ümumi qərar qəbul edib yazı-pozularını edirdilər. Bu dəfə erməni tarixindən və tarixçilərindən bəhs etməkdəydilər.

Səbrimi basıb səhəri günü gözlədim ki, görüm nə yazıblar. Hərçənd, erməni tarixinin adı çəkilərkən nədənsə ilk öncə yadıma biz rusların ən tanınmış yumoristi Mixail Zadornovun illər öncə "Teatr" jurnalından oxuduğum bu sözləri düşür: "Mən başa düşmürəm, niyə söhbət erməni xalqının mədəniyyət abidələrinin restavrasiyasından gedir, amma nəticədə alban kilsələrini restavrasiya etməyə çalışırlar?"

Bu da kirayənişinlərimin kitablarının ikinci yazısı.

"**2-ci bölmə.** Hər bir xalq öz mövcudluğu üçün alimlərinə, xüsusən tarixçilərinə borcludur. Bizim xalq da eləcə. Düz tapdınız, bu dəfə erməni alimlərindən, tarixçilərindən bəhs edəcəyik. Dinləməyə hazırsınız? Onda getdik!

Tarixin ən böyük ermənilərindən biri hesab edilən Mesrop Maştotsu beləkdəki körpələr belə tanımalıdırlar. Mesrop Maştots erməni ədəbiyyatının, əlifbasının, milli erməni məktəbinin, pedaqoji fikrinin yaradıcısıdır, alimdir, teoloqdur, tərcüməçidir, missionerdir, din xadimidir. O, eramızın 362-ci ilində Asik kəndində doğulmuş, 440-cı ildə Vaqarşapatda dünyadan köçmüşdür. Tək erməni əlifba-

sının deyil, gürcü və aqvan əlifbalarının da banisi kimi tanınır bu böyük şəxsiyyət.

O ki qaldı tarixçilərimizə, xalqımızın dünya şöhrətli tarixçilər pleyadası var, V əsrdə yaşamış Movses Xorenatsini, Yeqişe və Lazar Perpetsini, XI əsrdə yaşamış Aristakis Lastivertsini, XIII əsrdə yaşamış Vardan Aravelsini xüsusən qeyd etmək lazımdır. Movses Xorenatsi ilə Vardan Aravelsi isə xalqımızın qürur mənbəyi, milli xəzinəsidir.

Movses Xorenatsi bizim istinad mənbəyimiz olan “Ermənistanın tarixi” kitabını ərsəyə gətirib, təsadüfi deyil ki, onu erməni tarixşünaslığının atası hesab edirlər. Eramızın V əsrində yaşamış, 410-cu ildə Böyük Ermənistanın Xorenak kəndində doğulmuş, 490-ci ildə vəfat etmiş Movses Xorenatsi erməni milli özünüdərkinin banisi, milli vətənpərvərliyimizin ilk ünvanıdır. Erməni xalqının yaranması, təşəkkül tapması barədə rəvayətlərə söykənən, folklor nümunələrinə yer verən “Ermənistan tarixi” kitabı üç mükəmməl hissədən ibarətdir. 1-ci hissədə Adəmdən Makedoniyalı İskəndərə qədər hər kəs, bütün əhəmiyyətli tarixi hadisələr əhatə olunub. Sonrakı hissələrdə erməni çarları və sərkərdələrindən bəhs edilir, təbii ki, II Tiqrandan da geniş söz açılır. II Tiqran “Böyük Ermənistan”ın ən məşhur şəxsidir, sözügedən dövlətin əsas qurucusudur, Böyük Tiqran deyə xalqımızın sevə-sevə vəsf etdiyi bu şəxsin adı kifayət qədər əbədiləşdirilib. Adı küçələrə qoyulub, haqqında kitablar yazılıb, filmlər çəkilib.

“Ermənistan tarixi”ndə Trdadın ölümü, sonra Saakın ölümü də təsvir edilir, ta ki 482-ci ilə kimi – Arşakilər sülaləsinin süqutuna kimi tarixi faktlar açıqlanır. Bizim erməni alimlərinin iddiasına görə, “Böyük Ermənistan” adı tarixi mənbələrdə ilk dəfə eramızın 77-ci ilində, Qarnidəki yunan yazılarında işlənib, həmin yazılarda Çar I Trdad həmin ərazinin çarı kimi göstərilir. Yaxud II əsrə aid Roma mənbələrində Çar Bakur “Böyük Ermənistan” çarı adlandırılır. Bizim arxeoloqlar bu yaxınlarda Aparanda qazıntılar aparıb IV əsrə aid mənbə tapdıqlarını iddia ediblər, iddiaya görə orda Böyük Ermənistan çarı III Trdadın adı qeyd olunub. Arxeoloqlar onu da iddia

edirlər ki, çoxlu latın, fars, gürcü, rus mənbələri var ki, onlarda da Böyük Ermənistanın adı keçir.

"Ermənistanın tarixi"ndə yazıldığına görə, Böyük Ermənistanda dövlət quruluşu mütləq monarxiya imiş. Bu dövlətin paytaxtı müxtəlif illərdə Artaşat, Tiqranakert, Dvin və Vaqarşapat olub. Dini inanca gəldikdə, iddia edilir ki, IV əsrədək burada zərdüştiliyə itaət ediblər, IV əsrdən xristianlıq qəbul edilib.

Dövlətin yüz iyirmi min nəfərlik daimi çar ordusu olub. Həmin dövrə aid erməni qəhrəmanları arasında sərkərdə Vardan Mamikonyan Ermənistanda çox məşhurdur. IV əsrdə yaşamış, İran Sasanilərinə qarşı vuruşub şücaət göstərmiş bu şəxsə də abidələr qoyulub, adına küçələr salınıb. Sirr deyil ki, erməni konyakı ermənilərin qürur rəmzidir, ən yaxşı erməni konyakı da Vardan Mamikonyanın adınadır. Erməni tarixində bir də ən çox vəsf edilən qəhrəman VIII əsrdə Ərəb xilafətinə qarşı döyüşən Sasunlu David olub. Təbii ki, biz öz kitabımızda ayrıca olaraq qəhrəmanlarımızdan da danışacağıq.

Movses Xorenatsinin həmin bu məşhur əsərində tək Böyük Ermənistan deyil, onunla qonşu olan dövlətlərin də günü-güzəranı öz əksini tapıb. Qədim erməni mifologiyası, xalq yaradıcılığı, dil və dini itaət, ölkənin daxili həyatı, xarici dünya ilə əlaqələr, Bizans imperatoru Zenonla münasibətlər, aparılan müharibələr, qazanılan ərazilər, əldə olunan qənimətlər, mədəniyyət, tarix salnaməsi, qürur mənbəyi. Nəğmə kimi oxuyursan bu kitabı.

"Ermənistan tarixi" kitabını hər bir erməni gənci oxumalıdır, nəinki oxumalıdır, hətta əzbər bilməlidir.

Vardan Aravelsinin "Ümumi tarix" kitabı da xalqımızın qürur mənbəyi sayılır, hazırda bütün dünyada cövlan edən erməni millətçiliyinin ideoloqu məhz Vardan hesab edilir. Necə ki, "Mayn Kamp" kitabı ilə nasist Almaniyası faşizmi ideologiyaya çevirib, eləcə də "Ümumi tarix" kitabı ilə erməni millətçiliyi təşəkkül tapıb.

Vardan Aravelsi Böyük Vardan adı ilə tanınır, 1198-ci ildə Kilikiyada, Berdzrabed əyalətində anadan olub. O, tarixçi olmaqla yanaşı, həm də çoğrafiyaşünas, filosof, tərcüməçi, pedaqoq, kilsə xadimi

və ictimai xadim olub. Ermənistan tarixində iz qoymuş Ovanes Erznkatsi, Esai Nçetsi, Nerses Mşetsi kimi tarixçiləri məhz o yetişdirib. İlkin təhsilini vətəni Kilikiyada alan, Vardapet fəxri elm dərəcəsini aldıqdan sonra 1235-ci ildən etibarən səylə elmi-tədqiqat fəaliyyətinə başlayan, paralel olaraq Keyenaberddə Müqəddəs Andrey monastır-məktəbini yaradan Vardan 1239-cu ildə Qüdsə səfər edib, geri dönəndə Çar Xetumun dəvəti ilə Kilikiyaya gedib. Vardan həmin illərdə ictimai-siyasi fəaliyyətə başlayıb, Kilikiyada müstəmləkəçi siyasət aparan Bizans və Vatikan əleyhinə mübarizəyə qoşulub. 1255-ci ildə Xor Virapda məktəb yaradıb ki, həmin məktəbdə də antik fəlsəfə, məntiq, qrammatika tədris olunub. Həyatının bu dönəmində dəyərli əsərlər yazması ilə yanaşı, onun siyasi fəaliyyəti də diqqət çəkib. 1264-cü ildə Vardan Təbrizə yollanıb, monqol-tatar hökmdarı Hülaki ilə danışıqlar aparıb və Ermənistanda böyük səlahiyyətlər yiyəsi olub, üstəlik, Ermənistanda əhalidən vergiləri toplamaq hüququnu da əldə edib. 1271-ci ildə Vardan Aravelsi Xor Virap əyalətində dünyadan köçüb. Vardan Aravelsinin həyatı, onun mübarizələri hər bir erməni üçün nümunə olmalıdır, onu detal-detal öyrənib təbliğ etmək hər bir kəsin borcudur.

Böyük elmi-ədəbi irs qoyan bu böyük tarixçinin günümüzə yüz iyirmi əsəri gəlib çatıb. Onun “Psaltrın izahı”, “İyirmi peyğəmbərin mövludu”, “Qriqor Narekatsinin nəğmələr nəğməsinin izahı”, “Danilanın kəlamı” kimi əsərləri orta əsrlərdə erməni xalqının tarixi, sosial-iqtisadi münasibətləri, məişət və mədəniyyəti barədə bilgilər verir. “Ümumi tarix” əsəri isə onun şah əsəridir, Xor Virap monastırında yazılması ehtimal edilən bu əsəri erməni mənbələri erməni tarixşünaslığının ümumdünya tarixi yazmaq cəhdində ən əsas halqa hesab edirlər. Əsər “Ön söz”dən və yüz bərabər hissədən ibarətdir. Burada əfsanəvi Babil qülləsinin tikilməsindən, Hayk və Bel arasındakı müharibədən başlayaraq 1267-ci ilədək – erməni katalikosu Kostandin Berdzrabetsinin ölümünə qədər olan bir dövr əhatə edilir. Əsərdə erməni xalqına aid siyasi, iqtisadi, dini və mədəni hadisələr digər qonşu xalqlarla paralelləşdirmə şəklində təqdim olunur. İlkin

mənbə kimi müəllif Movses Xorenatsinin, Mateos Urxaetsinin, Kirakos Qandzaketsinin yazılarından istifadə etdiyini söyləyir. Eləcə də bol sənədlərdən, şifahi və yazılı mənbələrdən iqtibaslar olunur. Ən əhəmiyyətli olanı XII və XIII əsrlərə aid tarixi faktlardır ki, burada monqol-tatarların Qafqaza yürüşü, onların vergi siyasəti, Hülaki dövləti, erməni-monqol münasibətləri barədə bilgilər yer alıb. Əsər tək Ermənistanın deyil, həmin dövrdə dünya xəritəsində yer almış bütün dövlətlərin tarixinə güzgü tutur, əvəzsiz mənbədir".

Və sair və ilaxır... Sonra taftalogiya gəlir, erməni tarixi və tarixçiləri uzun-uzadı vəsf olunur. Oxuyub bitirən kimi yaddaşıma və internetə baş vurub cavab zərbəmi hazırladım:

"P.S. Dostlar, tarix heç zaman saxtakarlığı sevmir, bu saxtakarlıq ağ paltara vurulan qara yamaq kimi aşkar sezilir. Çünki saxtakarın bütün mənbələrə düzəliş etmək imkanı məhdud olduğundan o, hər şeyin altını üstünə çevirməyə müvəffəq ola bilmir, nəticədə, necə deyərlər, xoruzun quyruğu görünür. Sizə elementar bir misal gətirim. 1920-ci ildə qırmızı bolşeviklər həm Rusiyanı, həm də daha on dörd dövləti işğal edərək SSRİ dövlətini qurdular. Milli hökumətləri devirib kommunist diktaturasını bərqərar edən bu dövlət tarixi açıqca saxtalaşdırdı, xalqların işğal tarixini azadlıq tarixi kimi sırıdı. Oktyabryat, pioner, komsomol və partiyaçı pillələri ilə milyonlarla insanın şüuru kommunist ideologiyası ilə zibilləndi, Lenin baba, kompartiya, qurultaylar, beşillik planlar, fəhlə-kolxozçu-qulluqçu təhtəlşüuru formalaşdı. Bununla belə şifahi xalq yaradıcılığında, hətta lətifələrdə, sandıq ədəbiyyatında, dissident hərəkatında doğru tarix yaşadı, nəsildən nəsilə ötürüldü.

İndi siz də xalq olaraq tarix və tarixçilər ortaya qoyursunuz, amma sizin tarix axı paralel olaraq mövcud olan dünyanın real tarixindən fərqlənir, niyə bunun fərqində deyilsiniz?

Adi bir misal çəkim. Ağızdolusu Movses Xorenatsidən danışırsınız, V əsrdə yaşadığını, "Ermənistan tarixi" kitabını yazdığını iddi etdiyiniz bu şəxsi erməni tarixşünaslığının atası hesab edirsiniz. Amma elementar iki üstəgəl ikinin dörd eləməsi prinsipi var axı,

bu prinsipi aşkarca pozursunuz. Dünya şöhrətli qafqazşünas, London Universitetinin Qafqaz üzrə professoru Devid Lenq bilirsiniz nə yazır? Yazır ki, V əsrdə yaşamış Movses Xorenatsi adlı tarixçinin "Ermənistan tarixi" adlı kitab yazması mümkün deyil, çünki həmin o kitabda V əsrdən sonrakı – hətta VII, IX əsrlərdəki hadisələrdən bəhs edilir, toponimlərin adı çəkilir.

Demək, "V əsrdə yaşamış, "Ermənistan tarixi" adlı kitab yazmış, o kitabda da dənizdən dənizə "Böyük Ermənistan"ın mövcudluğundan bəhs etmiş Movses Xorenatsi adlı tarixçi" barədəki iddianız blefdir. Ya o adda tarixçi olmayıb, olubsa da həmin dövrdə yaşamayıb, ya da o adda kitab sizin yalançı tarixçilərin çox-çox sonrakı dövrlərdəki kollektiv "məhsul"udur. Xarici turistlərə təzə xalçaları günəşin altında qoyub rəngini soldurandan, daş sürtməklə süzük-süzük etdikdən sonra qədim xalça adı altında satan işbazlara bənzəmisiniz konkret bu halda.

Hətta mən daha pisini deyim. Əlimə bir çox mənbə keçdi, bu mənbələr iddia edir ki, Movses Xorenatsi, Vardan Aravelsi adlı tarixçilərin sizin xalqla heç bir əlaqəsi yoxdur, bunlar qədim Alban dövlətinin alimləridir".

## Səkkizinci hissə

## MÜƏLLİFDƏN RƏY

Stepan Arsenyeviçin danışdıqları mənə öldürücü dərəcədə maraqlı gəlirdi. Material o qədər iri, içindəki gəlişmələr,ləngərləmələr, söz oyunu, sözü sözlə vurmaq cəhdləri o qədər füsunkar idi ki, bu adamın istedadını indiyədək duymadığım üçün özümü qınayırdım. Necə olub, indiyədək əsla xəbərim olmayıb ki, sadə əsgərlik yoldaşımın bu sayaq diqqətcilliyi, hər arqumentə əks arqument gətirmək üzrə belə peşəkarlığı, hazırlığı varmış. İnternet mənbələri ilə necə

gözəl işləyir, dəlil-sübut tapmaq işində necə mahir manevrlər edirdi. Styopa ali təhsilli türkoloq olsa da, çox da mötəbər vəzifələrdə irəli çəkilməmişdi, təqaüdə çıxana kimi müxtəlif elmi müəssisələrdə çalışmışdı. Yaşlı vaxtında internet aludəçiliyi isə birdən-birə üç marağın üzərində qurulmuşdu. Həm özü üçün klavişə toxunmaqla dünyanın bütün sirlərindən xəbər tutmaq maraqlı görünmüşdü, həm həyat yoldaşının xəstəliyi ucbatından onun üçün dərmanlar, yaxşı həkim, nüfuzlu klinika, xalq təbabəti yolları, müxtəlif pəhrizlər axtarışına çıxmaq məcburiyyəti hiss etmişdi, həm də oğlu üçün ayaqqabı sənayesi, dəbdə olan modellər, aparıcı trendlər, Çin iqtisadiyyatı, ümumən biznesin qaydaları barədə mütəmadi dərslər keçmək, tövsiyələr vermək qeydinə qalmışdı. Bir də onu görmüşdü ki, internetdə asdır, axtarış qayda-qanunlarını, mənbələrdən üstününü, etibarlısını seçmək vərdişinə tam bələd olub. Ən əsası, indi mənim xalqımın ermənilərlə olum-ölüm savaşına çıxdığı bir vaxtda – elə bir vaxtda ki, 27 il öncə torpaqlarımızın iyirmi faizini işğal edən qəsbkarlara yerlərini göstərməyə başlamışdıq, Vətən elləri bir-bir azadlığa qovuşurdu, üçrəngli bayrağımıza qucaq açırdı, belə bir zamanda milliyyətcə rus olan dostum mənə əsl xəzinə bağışlayırdı, elə bir xəzinə ki, onun hər bir daşı qiymətli idi.

Xüsusən Stepanın nəql etdiyi əhvalatlar, Zadornov kimi ustadlardan gətirdiyi sitatlar mənə ləzzət edirdi, necə yerində xatırlayırdı bunları. Dostum erməni millətçiliyinin iç üzünü tam açacaqdı, ilk təəssüratım buydu.

Adicə, Krım əhvalatını götürsək, bir xalqın bundan da betər sərsəmləmələrini adam ağlına belə sığışdıra bilmir. Hamıya danışılmalı, bütün dünyaya car çəkilməli əhvalatdır.

Hər bir azərbaycanlı kimi mənim də ürəyim Qarabağla döyünür desəm, əsla mübaliğəyə yol verməròm. İqtisadçı, alim, siyasətçi və yazıçı – dörd sahəni öz həyat yolunda birləşdirən biri kimi bunların hər birində müəyyən uğurlara nail olmuşam. Birinci sahədə 1972-ci ildən Azərbaycan Dövlət Qazlaşdırma Komitəsinin idarəsində iş icraçısı, baş mühəndis və rəislikdən başlamış 1989-cu ildə Azərbay-

can Dovlət Yanacaq Komitəsi sədrinin birinci müavini vəzifəsinədək, sonra da 1998-ci ildən Azərbaycanın ən aparıcı müəssisələrindən olan Qaz Emalı Zavodunun direktorluğunacan yüksəlmişəm. İkincidə "Nanotexnologiya və nanokimyanin əsasları", "Neftin və qazın boru kəmərləri ilə nəqli", "İnşaat istilik fizikası" və hazırda ali məktəblərdə dərs vəsaiti kimi istifadə olunan digər əsərlərlə, texnika elimləri doktoru, professor mərtəbəsiylə fərqlənmişəm. Üçüncüdə alnıma 2005, 2010 və 2015-ci illərdə 33 saylı Xətai birinci seçki dairəsindən III, IV və V çağırış Milli Məclisə deputat seçilmək, hakim Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri vəzifəsini daşımaq yazılıb. Ən nəhayət, 1965-ci ildən "Azərbaycan pioneri" qəzeti redaksiyasının Ədəbiyyat şöbəsinin "baş ədəbi" işcisi olmaqla başlayan dördüncü sahəmdə 30-dan artıq bədii və publisistik kitab müəllifliyi və Rusiyanın "Molodaya qvardiya" nəşriyyatının məşhur JZL *(Görkəmli Şəxsiyyətlərin Həyatı)* seriyasından Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin həyatından bəhs edən kitabın uğurlarıyla bir trayektoriya cızmağa müvəffəq olmuşam. Amma hər bir işdə, hər bir sahədə ilk öncəki məsuliyyətim Azərbaycana layiq vətəndaş olmaq sayılıb. Qarabağ mənim bütün karyeramdan keçib, içimdən keçib, bu ağrı xüsusən "Güllələnmiş heykəllər" kimi ekran və səhnə həyatı yaşayan bədii əsərimdə təcəssüm tapıb, Şuşa həsrətim orada erməni güllələlərinə tuş gəlmiş ulularımın deşik-deşik olmuş heykəllərinin dili ilə, "Şuşanın dağları" və "Xarı bülbül" mahnılarının hüzün və kədərinin fonunda nəql olunub.

Buna görə də millətçilik bəlasına tutulmuş erməni gənclərinin yazdıqlarından, milliyyətcə rus əsgərlik yoldaşımın onlara cavabından rişələnən yeni bir romanımın doğulması gözləntiləri məni hədsiz sevindirirdi. Düşməni öz əli ilə vurmaq – taktikaların ən gözəli məhz bu deyildimi?

Hazırkı XXI əsrdə dünyada hər şey dəyişib, təkmilləşib. Hətta insani münasibətlər belə yeni forma alıb. İndiki dönəmdə faktların antifaktlarla vurulması, siyasi tezislərin antitezislərə uduzması, elmi, təbii qanunların belə müəmmalı əlamətlər və xassələrin əxzi

hesabına işləməməsi, riyazi aksiomların belə təkzib variantlarının mövcudluğu ilə səciyyələnir, belə bir zamanda erməni millətçiliyi eradan əvvəlki utopik bir antihəqiqət tapıb ona istinad etməklə nə dərəcədə xəstə təxəyyül ortaya qoyur?

Ərəb əsilli məşhur amerika kouçu Nassim Taleb dünyaya bir "Qu quşu" nəzəriyyəsi gətirdi, bu nəzəriyyəyə görə, 1840-cı ilə – Yeni Zelandiyanın kəşfinə kimi elm elə bilirdi ki, qu quşları yalnız ağ rəngdə olur. Amma naməlum torpaq kəşf ediləndə orada qara qu quşlarının məskunlaşdığı məlum oldu. Bu, beyinlərdə oturuşmuş minillik təfəkkürün, kitablarda qərarlaşmiş yazılı qanunların sadəcə, onların əkslərinin iddiası üzə çıxıncaya qədər mövcud olması anlamına gətirdi. Heç bir iddianın tam iddia ola bilməməsi tezisini ortaya qoydu. Hətta minillik qanunların belə təkzibi reallığı şəraitində xəstə erməni təxəyyülünə istinad edilən bir çürük ideologiyanın hələ də yaşaması, sadəcə, təəccüb və təəssüf doğurur.

## Doqquzuncu hissə

## "QƏDİMDƏN QƏDİMLİK" XÜLYASI

Kirayənişinlərim ilk iki-üç gündə xeyli arıqlamışdılar, bütün günü o qədər ora-bura qaçırdılar ki, axşam ayaqlarını sürüyə-sürüyə gəlib kompüterin qarşısında əyləşirdilər, haqq işi saydıqları işləri ilə məşğul olarkən, bəzən hansısa birinin kompüter arxasında mürgüləyib az qala yerə gələcəyini belə seyr edərkən onlara həqiqətən ürəyim yanırdı. Amma tam kartlarını açandan sonraya saxlayırdım onlarla söhbətimi. Bilirdim ki, gözlərini qan örtüb, bu klaviatura qəhrəmanları özlərini savaşda sanırlar, indi onları heç kəs dayandıra bilməz.

Gördükləri işin gərəkliliyinə nə dərəcədə əmin olduqlarını yoxlamaq üçün növbəti axşam hazır pelmeni *(rus düşbərəsi – red.)* qay-

nadıb üstünə xama və əridilmiş yağ tökərək yeməyə hazırlaşarkən onları da mətbəxə çağırdım, dedim, o nə işdir ki, sizi əsir-yesir edib, düz-əməlli qarnınıza yemək də yemirsiniz. Yan otaqdan adaşımın səsi gəldi, dedi, Stepan Arsenyeviç, siz nuş edin, amma bizim əsla vaxtımız yoxdur, yüngülcə yemişik. Özümü xəbərsiz kimi aparıb təkrarən “Axı o nə işdir ki, sizi vaxtınızı şam yeməyinə belə ayırmaqdan məhrum edib?” sualını verdim, cavab əlbəəl gəldi: “Xalqımızın apardığı haqq müharibəsinə biz də öz töhfəmizi veririk. Bir vaxtlar Movses Xorenatsi “Ermənistan tarixi” yazmışdı, indi biz də o sayaq bir kitab yazmaq fikrindəyik, əminik ki, kitabımız bütün dünyada yaşayan erməniləri Artsax uğrunda açılan müqəddəs savaşa kökləyəcək! Gələcəkdə isə erməni babalar nəvələrini dizlərinin üstündə oturdub deyəcəklər: – Baxın, yüz illər öncə Qaqik, Artur və Stepan adlı üç tələbə bizim xalqın “Şərəf tarixi”ni yazıblar”.

Bəli, bu dərəcədə önəmli iş gördüklərinə əmin idilər.

Özümə sonadək təmkin və səbirlə eyni xəttlə hərəkət etmək tapşırığı versəm belə kirayənişinlərimin yazdıqları növbəti “Qədimdən qədim xalqıq” adlı hissəni ertəsi gün oxuyarkən məni qeyzləndirdi, düz yüz iyirmi səhifə ağıllarına gələni üyüdüb tökmüşdülər, insana dəmir əsəb lazım idi bunları oxuyub axıra çıxmağa. İlk abzasları oxuyub “ayaqqabı”dan bəhs edən yerdə dayanası oldum, P.S.-im də əqli mükaliməyə yox, emosional halıma dələlət etdi.

Bu da onların yazdıqları cəfəngiyat:

“**3-cü bölmə.** Qədimdən qədim xalq olmaq xoşbəxtliyi məhz biz ermənilərin alnına yazılıb, necə də gözəl hissdir. Təfsilatını istəyirsiniz? Onda getdik!

Bəşər tarixində ən qədim insan izləri Cavax dağlarının ətəyində, Lori yaylasında aşkarlanmışdır, üzə çıxan Aşeldən sonrakı dövrə aid iyirmi abidənin nə az, nə çox, düz altı yüz min il yaşı var. Bu Aşel məmulatları qialodasit materialındandır, əlavə dasitdən, andezitdən orta Aşel industriyası dövrünə aid materiallar aşkarlanıb. Bunlar min əsrlərdir ki, vulkanik külün içində gizlənib dövrümüzə çatmışdır, bizə öz ululuğumuzu sübut etmək imkanı yaratmışdır.

Altı yüz min il öncə əcdadlarımızın – ilkin insanların yaşadığı sübut edilən torpaqlarımızda həyat izləri hətta daha qədimə gedir, Şimal torpaqlarımızda tapılan kərgədan dişlərinin tarixi gedib bir milyon ilə çıxır.

Adəmin və Həvvanın erməni olması, İsa peyğəmbərin həmyerlimiz olmasına iddiamız, Musa peyğəmbərin misirliləri İsrailə aparanda ermənilərin də qədim İngiltərəyə yollanması, hətta müasir ingilislərin belə əcdadlarının ermənilər olması indi görürsünüzmü, necə inandırıcı görünür? Möhtərəm ermənilərimiz, Yerevanın Milli tarix muzeyindəki eksponatlara mütləq nəzər yetirin, ölkəmizə gələn bütün xarici qonaqları o muzeyə aparın, qoy şahid olsunlar ki, erməni millətinin yaşı altı yüz min ildir, insan sivilizasiyasının mənşəyində ən qədim xalq kimi məhz ermənilər dayanıblar. Vikinqlərin erməni köklü olması, Qədim Misir piramidası Xeopsu tikməyi misirlilərə məhz daha qədim mədəniyyətə malik ermənilərin öyrətməsini də hamıya yayın.

2008-ci ilin sentyabrında qazıntılar zamanı arxeoloqlarımız Areni mağarasından yaşı 5500 il olan dünyanın ən qədim ayaqqabısını tapıblar. Bu misilsiz bir tapıntıdır, eneolit dövrünə, eramızdan əvvəl 3600-3500-cü illərə aiddir. Bu yüngül dəri ayaqqabıdır, çarıqdır. Avropa və Asiyada insan geyiminə aid ən qədim arxeologi tapıntı olması təsdiqlənən bu çarıqlar, mütəxəssislərin fikrincə, Yeni dövrə qədər erməni kəndlərində geyinilən çarıqların birəbir bənzəridir. Bu da ermənilərin ən qədim xalq olmasının dəmir sübutu...”

Yalnız bura kimi oxuya bildim.

Bu da mənim bir cümləlik P.S.-im: “P.S. Utanma duyğusu olmayanlardan nə desən gözləmək olar!”.

Oturub fikirləşəndə dəhşətə gəlirsən. Dünya ağıllanıb, artıq əvvəlki sadəlövh dünya deyil, amma necə olur ki, bu “sərsəm ayaqqabı tarixi”nə göz yumulur? Niyə onlara “dur”, “dayan” deyən tapılmır, onlar da günü-gündən daha böyük həyasızlığa, arsızlığa əl atırlar? Lap elə bizim rusları – məşhur teleaparıcımız Solovyovu, liberal-demokratımız Jirinovskini götürək. Nə vadar edir ki, bu şəxs-

lər açıq-aşkar ermənipərəst mövqe tutur, qaraya ağ deyirlər? Nə vadar edir ki, onlar efirdən aşkar şəkildə Rusiyanı Ermənistanı müdafiə etməyə, Azərbaycanı vurmağa səsləyirlər? Hətta dünyanın bir nömrəli ermənipərəsti sayılan Fransa prezidenti Makronla ilk pilləni bölüşməyə də iddialıdır bu şəxslər.

Elə bu günlərdə BBC-nin Rusiya xidməti Livandan gəlib Azərbaycanın 1992-ci ildə işğal edilmiş Laçın rayonunda məskunlaşmış ermənilər barədə süjet göstərdi. Tamar adlı qadın lavaş bişirib əvvəllər satırmış, indi də müharibədir deyə havayı paylayırdı, ondan güzaranlarının necə olmasını soruşan müxbirə də mahnı zümzümə edərək söyləyirdi ki, orada *(yəni Livanda)* yaşamaq çətin idi, çünki ora qürbət idi, burada *(yəni Laçında)* isə yaşamaq rahatdır, çünki bura vətəndir.

Mən üçüncü tərəf kimi çıxış edən bir xalqın nümayəndəsi, bu situasiyada tam neytral bir adamam, ali təhsilim, böyük həyat təcrübəm və az-çox bilgim var. Elə bilgilər ki, onları bu gün uşaq da bilər. Ermənilərin Stepanakertə *(Xankəndinə)*, Mardakertə *(Ağdərəyə)*, Martuniyə *(Xocavəndə)* vətən deməklərini, yenə oraların Dağlıq Qarabağ Muxtar Respublikası ərazisinə daxil olması, ermənilərin sayca çoxluq təşkil eləmələri, bu səbəbdən də oralara 1828-ci ildə köçüb gəlmələri faktını tarixdən silərək oranın aborigen xalqları olmaları saxtakarlığına əl atmaları, dünyanı da buna inandırmaq üçün dəridən-qabıqdan çıxmaları səbəbindən birtəhər başa düşmək olar. Bəs Laçın hara, erməniyə vətən olması hara? Axı 1992-ci ilədək əsla erməni ayağı dəyməyən, haqqında tarixi fakt bir yana, heç nağıl belə uydurmayan ermənilərin Laçına vətən deməsi aşkar həyasızlıqdır, hətta həyasızlıqdan betər bir haldır. Vallah söz tapa bilmirəm, söz belə burda acizdir.

Sonda azərbaycanlı dostlarımdan eşitdiyim bir zərb-məsəli söyləmək yerinə düşər:

"Utanmasan oynamağa nə var?"

## Onuncu hissə

## “QƏHRƏMANLAR”A BİR BAXIN!

Qəhrəmanlar hər xalqın xəzinəsini təşkil edirlər, onlarla qürurlanmaq sadə vətəndaşlar üçün çox gözəl hisslərdir, üstəlik, həm də onlara bənzəmək, onlar kimi olmaq vətəndaşları şücaətə səsləyir. Biz rusların tarixdə çox sayda qəhrəmanlarımız olub. Onlar sərkərdələr qismində fatehlik ediblər, torpaqlar, qənimətlər ələ keçiriblər. Böyük Pyotr, İvan Qroznı kimi fatehlərimiz az deyil. Amma nə sirdirsə, insanlarımız qəhrəman deyəndə daha çox onları deyil, Böyük Vətən müharibəsində faşistlərlə döyüşlərdə fərqlənənləri təsəvvür edir. Bəlkə də bu, işğalçı qəhrəmandan müdafiəçi qəhrəmanın daha üstün olması səbəbindəndir. Birincidə sən ədalətsiz fəaliyyət göstərir, kiminsə əlindəkini almağa çalışırsan, ikincidə isə sən tam ədalətlisən, müdafiə olunursan.

Kirayənişinlərimin kitablarının növbəti hissəsinin qəhrəmanlar barədə yazıldığını görəndə dərhal beynimdə öz P.S.-im hazırlandı. Bunların ən böyük qəhrəmanı bəşəri cinayətdə ittiham edilən, dünya xalqlarına qənim kəsilmiş Adolf Hitlerin silahdaşı Njdedirsə, daha nə qoyub nə axtarırıq? Faşistə səcdə qılan bir xalqdan nə gözləmək olar axı?

Amma ertəsi gün “üçlər” növbəti iş gününə başlayıb evdən çıxan kimi kompüteri açanda gördüm ki, hələ işləri rəvayət, nağıl qəhrəmanları iledir, hələ Andranik, Njde, Dro kimilərin növbəsi yetişməyib.

Belədə hazır P.S.-imi saxlayıb mövzuya uyğun yeni P.S. hazırlamalı oldum. Düzünü deyim ki, əldə etdiyim mənbələr məni təsirləndirdi. Yenə faktlar erməni saxtakarlığını sübut edirdi, amma ortada

mötəbər bir azərbaycanlı professorun bu saxtakarlığa qurban verilməsi kimi ürəkgöynədən epizod da var idi.

Beləliklə, "üçlər"in kitablarının növbəti hissəsi:

"**4-cü bölmə.** Qəhrəmanlıq nümunələri və qəhrəmanlar hər bir xalqın alnına yazılmır. Biz xoşbəxt xalqıq ki, bizim xeyli sayda qürrələnəcəyimiz, adını fəxarətlə çəkəcəyimiz qəhrəmanlarımız var.

Lüğət kitablarına görə qəhrəman o adamdır ki, cəsarətinə, hünərinə, qətiyyətinə görə fərqlənən, qeyri-adi sayılan hərəkət ortaya qoyur. Qəhrəmanlıq – həm də özünü fəda edə bilməkdir. Y.Xeyzinqi yazır ki, "Qəhrəmanlıq – şəxsiyyətin öz borcunu dərk edərək qüvvəsini əsirgəmədən, ta ki özünü fəda etməyə hazır halda ümumi işdə iştirak etməkdir. Bu mövqe bütün zamanlarda göstərilib və bundan sonra da göstəriləcək." Xeyzinqiyə görə, qəhrəmana mərdlik, cəsurluq, qorxubilməzlik, qətiyyət, polad iradə ilə yanaşı həm də fatalizm xasdır, belə ki, o, canını qurban verməyə hazırdır.

Qəhrəmanlıq adi məişətdə, tutalım bir qızı ona hücum edən quldurdan qorumaq, bir uşağı yanğın zamanı xilas etmək formalarında da mümkündür, daha geniş miqyasda, ayrı-ayrı fərdlərin deyil, bütün xalqın xilaskarına çevrilmək formasında da. Belə hallar isə əsasən müharibələr dövrünə xasdır.

Əsl qəhrəmanlıq barədə kimlər yazmayıblar ki? Bruno, Hegel, Reno, digərləri. Antik dövrlərdə isə Herakl kimi bir mifoloji qəhrəman obrazı yaradılıb. Yunanlar əfsanəvi qəhrəmanları Kleomend ilə necə qürur duyurlar. Bizimsə antik dövrdə öz məşhur qəhrəmanımız var. Hazırsınız qəhrəmanlarımızın təqdim edilməsinə? Onda getdik!

Vardan Mimikonyan. Eramızın IV- V əsrlərində yaşamış, Taronda doğulub Vaspurakanda dünyasını dəyişmiş Vardan sərkərdə idi, knyaz idi, bütün ermənilərin sparapeti – yəni komandanı idi. O, ermənilərə zorla zərdüştlik dinini qəbul etdirmək istəyən İran Sasanilərinə qarşı üsyana başçılıq etmişdi. Vardanın qoşunu qalibiyyətlə vuruşub 449-cu ildə Anqex qalasında onlara öldürücü zərbə vurmuşdu, nəticədə bizim ermənilər xristianlığı qoruyub saxlaya bilmişdilər.

Bizim dünya şöhrətli rəssam İ. Ayvazovskinin "Avarayr döyüşü öncəsi and" adlı məşhur tablosu var, yeri gəlmişkən, o tablonun illüstrasiyası hər bir evdə divardan asılsın gərək. Həmin o döyüş 451-ci ildə olub, Vardan Mamikonyan o döyüşdə də erməni qoşunlarının snarapeti idi, onun əlində yüz min döyüşçü vardı, halbuki fars sasanilər iki yüz on dörd min nəfərlik qoşunla hücum etmişdilər. Düşmən tərəfdə vəhşi tayfalar, on beş döyüş fili də üstümüzə yerimişdi. Vardan qəhrəmanlıqla sasaniləri məhv edirdi, amma erməniəsilli Vasak Syuni düşmən tərəfinə keçdi, ordumuz pərən-pərən düşdü, Vardan Mamikonyan qəhrəmanlıqla həlak oldu. O, ölsə də ermənilərimizin xristian dinini qoruyub saxlamalarını təmin etdi.

Növbəti qəhrəmanımız ərəb xilafətinə qarşı, erməniləri bu dəfə müsəlman etmək istəyənlərə qarşı aparılan döyüşlərdə şücaət göstərmiş Sasunlu Daviddir. Yerevanın tam mərkəzində, Teatr meydanında ucaldılan əzəmətli əliqılınclı igid abidəsini kim görməyib ki? Bax, həmin igid Sasunlu Daviddir. Heykəltəraş Ervand Koşarın bu alqışalayiq işi bizə o böyük qəhrəmanımızı sevdikcə sevdirir.

Az-az xalq var ki, öz qəhrəmanlıq eposuna malik olsun. Bizim bu sarıdan da bəxtimiz gətirib, bizim "Sasunlu David" eposumuz var. Sasun qəhrəmanlarının ərəb işğalçıları ilə mübarizəsindən bəhs edən bu epos VIII-X əsrlərdə yaranıb, dörd hissədən ibarətdir. Sanasar və Baqdasar, Böyük Mqer, David və Kiçik Mqer hissələrindən. Birinci hissədə Sanasarla Baqdasarın evlənməsi, Ərəb xəlifəsi ilə döyüş təsvir edilib. İkincidə Böyük Mqerin Sasunda məskunlaşması, onun Msra-Məliklə vuruşması barədə söhbət gedir. Üçüncüdə Böyük Mqerin oğlu Davidin doğulması, çobançılıq etməsi, böyüyüb ovçu olması, Xolbaşı qoşunundan atasının qisasını alması, Xandutla evlənməsi, Msra-Məliyi məğlub etməsi, sonda ölümü təsvir edilir. Dördüncüdə isə Davidin oğlu Kiçik Mqerin atasının qisasını almasından bəhs olunur.

Epos ilk dəfə 1837-ci ildə tədqiqatçı Qaregin Srvantzyants tərəfindən yazıya köçürülüb. Srvantzyants eposu Arnist kəndində yaşayan Krpo adlı kəndlinin dilindən eşidərək qələmə alıb.

Təbii ki, "Sasunlu David" eposunu oxuduqdan sonra erməni xalqının ən böyük qəhrəmanları – Andranik Ozanyan, Hamazasp, Dro, Njde, Monte Melkonyan böyük şücaətlər göstərdilər. Erməni xalqının ən böyük qəhrəmanlıq dastanını məhz türklərlə vuruşub onlara qan udduran oğullar yazıblar, onlar barədə ayrıca söhbət edəcəyik".

Bu da mənim P.S.-im:

"P.S. Zavallı kirayənişinlərim. Stop! "Sasunlu David" eposu ilk dəfə 1837-ci ildə tədqiqatçı Qaregin Srvantzyants tərəfindən yazıya köçürülüb." – Bu, sizin yazdığınız, erməni mənbələrinə istinad edilən aparıcı xəbər cümləsidir. Əvvəla, ondan başlayaq ki, nə əcəb tarix boyu nağıllar, rəvayətlər, tarix kitabları yazıb ortaya qoymaqla, tarix və tarixi qəhrəmanlar üzə çıxarmaqla məşğul olan ermənilər min illərdir ki, dillərdə dolaşan belə bir qəhrəmanlıq eposunu yalnız XIX əsrdə qələmə almışlar? Buna necə səbirləri çatıb? Heç inanılası deyil. Sizlərin həqiqətən VIII əsrdə belə bir eposunuz yaranmış olsaydı, onu Movses Xorenatsinin, Vardan Aravelsinin kitabları sayaq o dövrdəcə kağıza köçürərdiniz, heç bir xalq səhlənkarlıq edib öz qəhrəmanlıq eposunu kağıza köçürməyi min il yubatmaz, qəhrəmanlığa xüsusi ehtiyac duyan ermənilər isə bunu min il o yana, heç yüz il də yubatmazlar. Bu bir.

İkincisi. Adətən eposları bir neçə tədqiqatçı el-el gəzib hissə-hissə toplayır, kimin yadında nə qalıbsa, hərədən bir şey qoparır. "Srvantzyants eposu Arnist kəndində yaşayan Krpo adlı kəndlinin dilindən eşidərək qələmə alıb". Bu da sizin yazdığınız, erməni mənbələrinə istinad edilən aparıcı xəbər cümləsidir. Həcminə görə sizin "Sasunlu David" eposunuz kifayət qədər iri əsərdir, yüz min söz var orda, sizin bu Krpo adlı kəndliniz məgər supermen olub ki, o boyda eposu təkbaşına əzbər danışıb? Gəlin, dünyanın ən yaxşı yaddaşa malik olan yeni nəsil robotlarına belə bir tapşırıq verək ki, nəzm və nəsr qarışığı olan yüz min sözlük bir dastanı əzbərdən söylə, görək tapşırığın öhtəsindən gələ biləcəkmi? Robot tüstülənib sıradan çıxacaq ən yaxşı halda.

Deməl, yenə də saxtakarlıq, yenə də aldanış cəhdi, yenə də timsahın göz yaşları tamaşası. İndi isə əldə etdiyim faktları qarşınıza düzürəm. Bu faktlar onlarca müxtəlif mənbələrdən toplanıb, məğzləri isə eynidir. Beləliklə, buyurun: "Sasunlu David" eposunun məzmunca, strukturca türklərə aid "Koroğlu" dastanından oğurlandığı sübut olunur. Belə ki, hər iki dastanda baş verən hadisələr və surətlər eyni oxşarlığa malikdir. Məsələn, "Koroğlu"dakı Qıratla "Sasunlu David"dəki Kurkik Cəlali eyni mənbədən – dənizdən yaranıblar. Davidin qılıncı ilə Koroğlunun qılıncı da bir-birinə bənzəyir. Hər ikisi ildırımdan əmələ gəlib. "Koroğlu" dastanında qəhrəmanların qüvvət mənbəyi torpaq və sudur. Bu, "Sasunlu David"də də belədir. Koroğlu Qoşa bulağın suyunu içib misilsiz güc əldə edir, "Sasunlu David"də də qəhrəmanlar həyatverici suyu içib qüvvətli olurlar. Hər iki dastanda sevgi macəraları da oxşar, hətta eynidir. Koroğlunun şücaət və mərdliyi xəbərini eşidəndən sonra ürəyi onu görmək arzusu ilə çırpınan xotkar qızı Nigar xanım məktub yazıb Bəlli Əhmədin vasitəsilə Koroğluya göndərir. Koroğlu məktubu alıb oxuyan kimi Nigara vurulur. Sonra Koroğlu İstanbula gedir, Nigarı qaçıraraq Çənlibelə gətirir. «Sasunlu David»də də Davidin qəhrəmanlığını eşidən Xandut xatın aşığı onun yanına göndərir. Aşıq Davidin yanında Xandutun gözəlliyini mahnıda tərifləyir, onun qəlbini eşq alovları ilə doldurur, bundan sonra David gedib Xandutu tapır, nəhayət, onunla evlənir.

Hər iki dastanda təsvir olunur ki, qadınlar ərlərinə sadiq həyat yoldaşı olurlar, onların mübarizəsinə qoşulur, güc verirlər.

Aşıq sazla ifa edərək bədahətən söz deyən türk musiqiçisidir, "Sasunlu David" də aşığın adının çəkilməsi, eləcə də türklər sayağı xanıma "xatun" deyilməsi də aşkar oğurluq nümunəsidir, "Koroğlu" dastanından gələn ifadələrdir bunlar.

İndi isə daha konkret bir sübut. Ötən əsrin 30-cu illərində Azərbaycanda tanınmış bir filoloq yaşayıb, "Koroğlu" dastanının tədqiqatçısı Vəli Xuluflu. Xuluflu 1933-1934-cü illərdə dastanın on dörd məclisdən ibarət daha mükəmməl üçüncü nəşrini hazırladığı

üçün xüsusən məşhur idi. Həmin dönəmlərdə onun başına gətirilənlər çox acı, acı olduğu qədər də real bir tarixçədir. Erməni alimi Kanonyan Xulufludan ilk dəfə belə bir xahiş edir:

– Sizdə "Koroğlu" dastanının bütün variantları və tarixi haqqında geniş məlumat var. Ermənilər üçün də qəhrəmanlıq rəmzi, "Koroğlu" sayaq bir dastan yaradılmalıdır, bu işdə ermənilərə yardımçı ol.

Xuluflu buna reaksiya verməyəndə ikinci dəfə Kanonyan ona hədə-qorxu gəlir: "Azərbaycanda hakimiyyət ermənilərin əlindədir, bu dastanı yaratmaqda kömək elə, əks təqdirdə sənə xətər yetişər".

Xuluflu erməni xalqı üçün tarixi, kökü olmayan saxta bir dastan yazmaqdan bilmərrə imtina edib, nəticə özünü çox gözlətməyib. 1937-ci ildə, yanvarın 28-də professor antisovet fəaliyyətdə suçlu bilinərək saxlanılıb, cinayət işinin üstündə ona yönəli ittiham beş maddə ilə – 73, 64, 69, 17, 70 maddələri ilə göstərilib. Saxlanılma qərarını Azərbaycanın Daxili İşlər Komissarlığının idarə rəisi, üçüncü dərəcəli komissar, milliyyətcə erməni Sumbatov təsdiq edib. Sumbatov təsdiq etdikdən sonra Vəli Xuluflunun həbsinə qərar verilib. Həbs qərarını isə üçüncü şöbənin rəisi, dövlət təhlükəsizlik leytenantı, milliyyətcə erməni Qalstyan qəbul edib. 12 oktyabr 1937-ci il saat altıda başlayan məhkəmədə cəmi on beş dəqiqə çəkib, Xulufluya güllələnmə cəzası verilib. Hökm həmin gecə yerinə yetirilib. Tanınmış professor ermənilərçün dastan yazmaqdan imtina edib, amma çox güman, kimsə imtina etməyib, "Koroğlu" dastanından bəhrələnərək ermənilər üçün bir qəhrəmanlıq eposu düzəldib. Bax, belədir "Sasunlu David"in əsl tarixçəsi".

## On birinci hissə

### MÜƏLLİFDƏN BİR ELEGİYA

Vəli Xuluflunun başına gətirilənlər barədə şübhəsiz ki, məlumatlıydım. Amma milliyətcə rus olan türkoloqun ürəyi yana-yana bunu danışması məni hədsiz ağrıtdı. Bakımızda yüksək kürsülərdə oturub bizlərə divan tutublar ermənilər. Yüz illər buna özümüz rəvac vermişik. Tək elə Azərbaycan Kommunist Partiyasına 1926–1929-cu illərdə rəhbərlik etmiş erməni Mirzoyanın xalqımızın maddi və mənəvi soyqırımına yönəli daşnak fəaliyyətinə, tək elə 1937-ci il repressiyalarının başında duran erməni Sumbatovun, Markaryanın ən tanınmış ziyalılarımızın məhvinə yönəli cinayətlərinə toxunsaq, başımıza gətirilənlərə oturub saatlarca ağlamaq qalar. Bu tarixi həqiqətləri mütləq açmaq, yazmaq, xalqa çatdırmaq gərəkdir. Sovet Azərbaycanındakı nəsillər bunu bilmədi, barı müstəqil Azərbaycandakı nəsillər hər şeyi bilməlidirlər.

1937-ci ildə ziyalılarımızın həbsinə, sürgününə qərar verən bütün materiallarda istintaq idarəsinin rəisi polkovnik Ruben Ambarsumoviç Markaryanın imzası qoyulmuşdu. O, Azərbaycan dilində çox təmiz və qüsursuz danışırdı. Respublika Dövlət Təhlükəsizliyi İdarəsində milliyyətcə erməni olan kadrların Azərbaycan dilini öyrənmələri üçün xüsusi altıaylıq kurs təşkil etmişdi və zabitlər arasında bu kurslara "Markaryan kursları" deyirdilər".

Həmin illərdə Dövlət Təhlükəsizliyi İdarəsinin milliyyətcə erməni olan 36 zabiti respublikanın 31 rayon və şəhər şöbələrinə rəis təyin olunmuşdu:

**1.** Polkovnik Arakelov D.N. – Astara dairəsinə,
**2.** Mayor Comardyan S.M. – Astraxanbazara *(indiki Cəlilabad-red)*,

**3.** Mayor Zərgəryan L.M. – Zəngilan rayonuna,
**4.** Kapitan Petrosyan Ş.A. – Samuxa,
**5.** Avanesov M.A. – Masallıya,
**6.** Movsesyan L.Ş. və Tovatov A.O. – Lənkərana,
**7.** Akopyan A.A. və Ağacanyan A.L. – Naxçıvana,
**8.** Seyranyan İ.S, İşxanyan və Parseqyan – İmişliyə,
**9.** Muradyan – Salyana.
və s., və i.

Bəs əlli ildən sonra – SSRİ-nin dağılması ərəfəsində Dağlıq Qarabağ məsələsi ortaya çıxanda Azərbaycanın siyasi elitası hansı vəziyyətdə idi? Yenə də kreslolar ermənilərin altında idi. Bir 1987-88-ci illərdə qara “Zim”lərdə gəzən dövlət, hökumət, hüquq-mühafizə rəhbərlərimizin siyahısına nəzər yetirin:

Azərbaycan SSR Meşə və ağac emalı sənayesi naziri A. Ayriyan, Bakı şəhər Kirov rayon Partiya komitəsinin birinci katibi N. Nersesyan, Bakı şəhər Plan İdarəsinin sədri, Bakı şəhər İcraiyyə Komitəsi sədrinin müavini B. Ayrapetov, Azərittifaqın sədr müavini N. Qabrielyan, Bakı şəhəri Nizami Rayon Xalq Deputatları İcraiyyə Komitəsinin sədri N. Şahnazaryan, Bakı Təmir-tikinti trestinin müdiri A. Arzumanyan, Azərkəndkimya Birliyinin sədr müavini S. Ohanesyan, SSRİ Sənaye-Tikinti Bankı Azərbaycan Əməliyyat İdarəsinin rəisi M. Bunyatyan, Bakı Qaz İstehsalat İdarəsinin baş mühəndisi S. Haykazyan, Bakı Kanalizasiya İdarəsinin baş mühəndisi A. Ohanyan, habelə tam bizim əlimizdə olan Azərbaycan SSR Prokurorluğunun rəsmiləri *(Azərbaycan SSR Prokurorluğu İstintaq İdarəsinin baş prokuroru A. Becenyan, Azərbaycan SSR Prokurorluğunun təsərrüfat müdiri A. Qevorkyan, Azərbaycan SSR Prokurorluğunun baş inspektoru. E. Petrosyan, Azərbaycan SSR Prokurorluğunun baş mühasibi N. Melkumyan)* və s. və i.

Bu, bizim xalqın ən böyük faciəsidir, biz ocağımızın başında oturan düşməni görə bilmirdik, görənlər isə özlərini görməzliyə vururdu...

## On ikinci hissə

## BEYNƏLXALQ TRİBUNALIN İŞİNİ ASANLAŞDIRMAQ

Axşam onların yazmağa başladıqları, Arturla Qaqikin diktə etdiyi, Stepanın isə klaviaturanı taqqıldadaraq elektrona köçürdüyü növbəti hissənin erməni terrorizmi olduğunu, bu zavallı gənclərin 130 il yaşı olan, Türkiyə və Rusiya imperiyalarından start götürərək sonradan Avropanı və Asiyanı, hətta Amerikanı ağuşuna alan erməni terror hərəkatına "milli-azadlıq mübarizəsi yolunda fədai hərəkatı" kimi vəsf etdiklərini görəndə müdaxilə etməkdən heç cür özümü saxlaya bilmədim. İçəri keçib dedim ki, "Uşaqlar, sizin nə etdiyinizdən xəbəriniz var? Yenə saxta tarixi faktlara, saxta tarixçilərə aldanmaq olar, amma dünyanı lərzəyə gətirən terrorizmə bəraət qazandırmaq, terrorçunu milli qəhrəman adlandırmaq axı heç haraya sığmır?"

Onlara yenidən məlum 1977-ci il metro terrorunu xatırlatdım, o terrorun canlı şahidi kimi və zərərçəkmiş kimi kirayənişinlərimdən bu dəqiqə gördükləri işə son qoymağı tələb etdim. Çox qəzəbliydim, hiddətimdən əsirdim. Öz aralarında ermənicə xısınlaşıb, sonra "yaxşı, yazmarıq" deyə guya ki, mənimlə razılaşdıqlarını bildirdilər. Bu müddətdə adaşım aramızdakı xoş münasibətlərə söykənərək məni azdırmaq üçün araya söz saldı, Ermənistanın Razdan rayonunda yaşayan anasının göndərdiyi erməni şirniyyatlarından dadmağımı xahiş elədi, həmin an "Sən axı nə edirsən, Stepan Arsenyeviç?" sualı ilə özümün üzərimə gedərək özümün başladığım işə özümün də son qoymaq cəhdimi özlüyümdə pislədim. Mən "yazmayın" dedim, bunlar da yazmadılar? Evdən qovsam, kompüterdən məhrum etsəm gedib evmi, kompütermi tapmayacaqlar? Yaxşısı budur bütün

güclərini qoyub son məhsullarını hazır etsinlər, mən də bax, onda öz təsir gücümün effektivliyini yoxlayım.

Guya yumşaldığımı göstərib onları tək buraxdım, ertəsi gün yazdıqlarını oxuyarkən qəzəb və nifrətimi boğmağa macal tapanda öz əlləri ilə özlərini vurduqları qənaətinə gəldim. Hazırca erməni cinayətlərini sistemləşdirib düzüblər, erməni millətçiliyinə gələcəkdə beynəlxalq tribunal quracaq şəxslərin işlərini asanlaşdırıblar. Necə deyərlər, qaş düzəltdikləri yerdə gözü də vurub çıxarıblar.

Bir tam hissə erməni terror təşkilatlarına həsr olunmuşdu *(kirayənişinlərim bunu kobud “terror” kəlməsi ilə deyil, nisbətən yumşaldılmış “sui-qəsd” sözü ilə adlandırırdılar)*, növbəti hissədə bu təşkilatların cinayətləri sıralanırdı. Bu cinayətlər tamamlanmamışdı deyə hissə yarımçıq qalmışdı, növbəti dəfəsində tamamlayacaqdılar. Mənim də yarımçıq olanla işim olmadı, tam olanı oxuyub bitirib P.S.-imi qoydum...

* * *

“**5-ci bölmə.** Əzabkeş xalqımız elə ki, türk işğalı nəticəsində öz ana yurdunu – Qərbi Ermənistanı itirdi, XIX əsrin sonlarından xalq qiyamları və sui-qəsdlərlə fədai hərəkatına başladı. Bu hərəkat xalqımızın qəhrəmanlıq tarixidir, onu əzbər bilməli, təbliğ etməli, həyatlarını risk altına ataraq bu hərəkatın sıra nəfərləri olmuş şəxsləri böyük qəhrəmanlarımız kimi daim anmalıyıq. Beşinci bölməmizi oxumağa hazırsınız, deyilmi? Onda getdik.

Sui-qəsdçilik tariximiz doğrudan da şərəf tariximizdir, erməni xalqının mübarizliyinin simvoludur. Hər şey uzaq 1879-cu ildə başladı. Erməni xalq hərəkatının xaç atası sayılan Mkrtıç Xrimyan Mkrtıç Portuqalyanla və Konstantin Kamsarakanla birgə Van əyalətində “Qara xaç” milli-azadlıq təşkilatını yaratdılar. Təşkilatın məqsədi Ermənistanı Osmanlı İmperiyasından azad etmək idi. Bundan ötrü silahlı üsyanlar, sui-qəsdlər əsas vasitə hesab olunurdu. 1885-ci ildə isə daha ciddi bir təşkilat yaradıldı. Bizim qəhrəman ermənimiz Mkrtıç Portuqalyan Van əyalətində “Armenakan” adlı ilk milli-siyası

erməni partiyası yaratdı. Qısa müddətdə partiyanın iki min nəfər tərəfdarı toplandı. Məqsəd eyni idi: Ermənistanı Osmanlı İmperiyasından azad etmək! Bütövlükdə, bu illər ərzində, şübhəsiz, Daşnaksutyun partiyasının və ASALA təşkilatının liderliyi nəzərə alınmaqla 23 əsas və onlarca xırda fədai təşkilatımız mövcud olub. Əsaslarının adlarını fəxarətlə çəkmək istəyirik, hər kəs onları tanımalıdır:

**1. "Qara xaç" milli-azadlıq təşkilatı.** 1979-cu ildə Osmanlı İmperiyasında – Van əyalətində yaradılıb. Türkiyənin Van və digər bölgələrində, İstanbulda əhalini qiyama hazırlayıblar, sui-qəsdlər həyata keçiriblər.

**2. "Armenakan" sui-qəsd təşkilatı.** 1885-ci ildə Fransada – Marsel şəhərində yaradılıb. Türkiyənin Van, Muş, Bitlis, Trabzon bölgələrində və İstanbulda silahlı toqquşmalar və sui-qəsd aktları törədən bu partiya İran və Rusiyada yaşayan ermənilərlə əməkdaşlıq quraraq öz sərhədlərini genişləndirib..

**3. "Qnçak" Sosial Demokrat Partiyası.** 1887-ci ildə Rusiya İmperiyasında yaradılıb. Partiyanın əsas məqsədi Türkiyənin Anadolu bölgəsini, "Rus və İran Ermənistanları" ərazilərini birləşdirməklə "Böyük Ermənistan" dövləti yaratmaq olub. Partiyanın proqramının dördüncü bəndində göstərilib: "Qarşıya qoyulmuş məqsədə çatmaq üçün təbliğat, təşviqat, terrorizm və dağıdıcılıq funksiyalarına malik olan bir təşkilat yaratmaq"

**4. "Daşnaksutyun" partiyası.** 1890-cı ildə Rusiya İmperiyasında – Tiflisdə yaradılıb. Erməni xalqının milli qürur rəmzidir, əsl şərəf tarixidir. Əsas məqsədi Türkiyənin Anadolu torpaqlarında, Azərbaycanın Dağlıq Qarabağ və Naxçıvan bölgələrində "Böyük Ermənistan" dövləti qurmaq olub. 1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən "Daşnaksutyun" partiyası türk millətindən olan nüfuzlu şəxslərə qarşı sui-qəsdlərin təşkil olunması barədə qərar verməklə tarix yazıb.

**5. "Erməni soyqırımı ədalət komandosları" sui-qəsd təşkilatı.** 1972-ci ildə Avstriyanın paytaxtı Vyanada "Daşnaksutyun" partiyasının qurultayı zamanı yaradılıb. Təşkilatın məqsədi erməni əsillı

Livan vətəndaşlarını hərbi birləşmələrdə cəmləşdirmək, onların vasitəsi ilə türklərə və azərbaycanlılara qarşı sui-qəsd aksiyaları təşkil etmək olub.

**6. ESƏD sui-qəsd təşkilatı.** 1973-cü ildə Avropada "Daşnaksutyun" partiyasının qurultayının qərarı ilə yaradılıb. Təşkilatın məqsədi Avstriya, Danimarka və Portuqaliyada fəaliyyət göstərən türk diplomatlarına qarşı sui-qəsd hazırlamaq olub.

**7. "Yeni erməni müqaviməti" sui-qəsd təşkilatı.** 1973-cü ildə Fransada yaradılıb. 1977-ci ildən Belçika, Fransa, İsveçrə və İtaliyada Türkiyə diplomatik korpuslarına və vətəndaşlarına qarşı bir sıra terror aktları törədib.

**8. "Ermənistanın azadlığı uğrunda gizli erməni ordusu" – ASALA ümumerməni azadlıq təşkilatı.** 1975-ci ildə Livanın paytaxtı Beyrut şəhərində yaradılıb. Təşkilatın məqsədi Şərqi Türkiyə, Şimali İran və Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ əraziləri üzərində "Böyük Ermənistan" qurmaq olub. Bu təşkilat əsasən Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı sui-qəsdlər həyata keçirib. Ən təşkilatlanmış, ən kütləvi, ən məhsuldar təşkilat olaraq erməni xalqının qürur mənbəyidir. Təşkilatın dünyanın ən məşhur "Əbu Nidal", "Qara sentyabr", PKK kimi terror qrupları ilə əməkdaşlıq etməsi, onlarla bir sırada dayanması ASALA-nın erməni xalqı qarşısında müstəsna xidmətidir.

**9. "Erməni gizli azadlıq ordusu"** *(ASOA)* sui-qəsd təşkilatı. 1975-ci ildə Beyrutda yaradılıb, mənzil-qərargahı Suriyanın paytaxtı Dəməşq şəhərindədir. Fələstin hərbi bazalarında hazırlıq keçən mindən artıq döyüşçüsü olub. Təkcə fəaliyyətinin ilk illərində təşkilat dünyanın müxtəlif ölkəsində 19 türk diplomatının ölümünə səbəb olan sui-qəsdlər həyata keçirib.

**10. "Erməni inqilab ordusu" sui-qəsd təşkilatı.** 1979-cu ildə Brüsseldə yaradılıb. Təşkilat 1983-cü ildə Brüsseldə Türkiyə səfirliyinin attaşesi Dursun Aksoyun qətli, 1983-cü ildə Lissabonda və 1985-ci ildə Ottavada Türkiyə səfirliklərinə hücum aktları ilə fəaliyyət meydanına atılıb.

**11. "Erməni azadlıq cəbhəsi" sui-qəsd təşkilatı.** 1979-cu ildə yaradılıb. ASALA-nın tərkib hissəsi sayılır. Türkiyə və Azərbaycan əleyhinə sui-qəsdlər hazırlayır.

**12. DRO və onun DRO-8, DRO-88, DRO-888, DRO-8888 kimi bölmələrindən ibarət məxfi sui-qəsd qrupu.** 1980-ci ildə Avropada "Daşnaksutyun" partiyasının qərarı ilə yaradılıb. Təşkilatın məqsədi Avropada türk diplomatlarına qarşı bir sıra sui-qəsdlər həyata keçirmək olub.

**13. "İntiharçılar eskadronu" sui-qəsd təşkilatı.** 1981-ci ildə Fransada yaradılıb. 1981-ci ildə təşkilat Türkiyənin Fransadakı baş konsulluğunun zəbt edilməsində iştirak edib.

**14. "Orli qrupu" sui-qəsd təşkilatı.** 1981-ci ildə Fransada orada yaşayan erməni gəncləri tərəfindən yaradılıb. Təşkilat 1987-ci ilədək dünyanın müxtəlif hava limanlarında ondan artıq terror aktı həyata keçirib.

**15. "Erməni Birliyi" sui-qəsd təşkilatı.** 1988-ci ildə SSRİ-nin paytaxtı Moskvada ASALA-nın təsiri ilə yaradılıb. Məqsəd keçmiş SSRİ-də fədailərin fəaliyyəti üçün onları sənədlərlə təmin etmək, Dağlıq Qarabağa silah və döyüşçülərin ötürülməsini təmin etmək olub.

**16. "Gənc Ermənilər İttifaqı" sui-qəsd təşkilatı.** 1990-cı ildə Fransada yaradılıb. Təşkilat türk diplomatlarının oğurlanması ilə məşğul olub.

**17. "Doqquz iyun qrupu" sui-qəsd təşkilatı.** 1991-ci ildə İsveçrədə yaradılıb. Təşkilat sui-qəsdlər həyata keçirməklə yanaşı həbsdə olan erməni fədailərinin azad olunmasına da çalışıb.

**18. "Erməni azadlıq hərəkatı" sui-qəsd təşkilatı.** 1991-ci ildə Fransada yaradılıb. Sui-qəsdçilik fəaliyyətini "ASALA" ilə sıx əlaqədə həyata keçirir.

**19. "Doqquz iyun qrupu" sui-qəsd təşkilatı.** 1991-ci ildə İsveçrədə yaradılıb. Təşkilat sui-qəsdlər həyata keçirməklə yanaşı, həbsdə olan erməni fədailərinin azad olunmasına da çalışmaqdadır.

**20. "Geqaron" sui-qəsd təşkilatı.** 2001-ci ildə ASALA tərəfindən yaradılıb. Təşkilatın məqsədi Cənubi Qafqaz və Orta Asiya ara-

zilərində türk mənşəli siyasi lider, diplomat və biznesmenlərə qarşı sui-qəsd aktlarının həyata keçirilməsidir.

**21. "Apostol" sui-qəsd təşkilatı.** 2001-ci ildə Eçmiədzində Ermənistan, Suriya və Livan vətəndaşlarından ibarət olan Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılıb. Təşkilatın məqsədi Türkiyə və Azərbaycan ərazilərində partlayışların həyata keçirilməsidir.

**22. "Demokratik cəbhə" sui-qəsd təşkilatı.** 2000-ci illərdə yaradılıb. ABŞ, Kanada və Qərbi Avropada fəaliyyət göstərməkdədir. Təşkilatın əsas məqsədi türk dövlətinin parçalanmasıdır.

**23. "İsveçrə qrupu" sui-qəsd təşkilatı.** 2002-ci ildə Avropada yaradılıb. Avropanın bir çox ölkəsində fəaliyyət göstərən bu yeni təşkilat artıq Fransa, İtaliya və Yunanıstanda keçirilmiş dörd terror aktının məsuliyyətini öz üzərinə götürüb.

**24. "Nubar Ozanyan Taboru" adlı ən son yaranan silahlı dəstə.** 2019-cu il aprel ayının 24-də kürdlərin PKK terror təşkilatı tərəfindən Türkiyəyə qarşı vuruşmaq üçün Suriya və Livan kimi ölkələrdə yaşayan ermənilərdən ibarət olaraq yaradılıb və həmin gündən etibarən fəaliyyətə başlayıb. Suriyanın Haseke bölgəsində Şimali və Şərqi Suriya ermənilərindən ibarət yeni terror qruplaşmasına Suriyada öldürülən PKK terror dəstəsinin üzvünün adı verilib və dəstə "Nubar Ozanyan Taboru" adlandırılıb".

...Beləliklə, kirayənişinlərimin sadaladıqları 24 təşkilat. Sui-qəsd ifadəsini terror ifadəsi ilə əvəz et və bütün medialara yay, gör kimsə sənə bunun barı onda biri qədər terror qruplaşması olan başqa bir xalq barədə nəsə söyləyə biləcəkmi? Əsla yox. Terrorizm – sistematik olaraq terror həyata keçirən bir siyasətdir. Bəs terror nədir? Məlum metro hadisəsində bu sözün mənşəyini yaxşıca öyrənmişəm, ölənədək unutmaram. Terror – siyasi rəqibləri fiziki təsir göstərməklə həyata keçirilən qorxutmaq aksiyasıdır, latın sözündən götürülüb, mənası "qorxu" deməkdir.

XVIII əsrdə Fransada başlayan "Terror epoxası" *(1793-cü ildə Böyük Fransa İnqilabından sonra Milli Xilas Komitəsinin rəhbəri Maksimilian Pobespyerin əmri ilə siyasi opponentlərə qarşı kütləvi*

*qətliamlar həyata keçirilmişdi, XVI Lüdovik, onlarca məşhur jirondistlər, dantonistlər gilyotində öldürülmüş, Nantda və Luarda dörd mindən artıq katolik kilsə xadimi suda boğularaq qətlə yetirilmiş, ümumən iyirmi yeddi min nəfər qurban getmişdi, ardınca Pobespyer özü də edam olunmuşdu)* ilə günümüzə daxil olan terrorizm hazırda dünyanın ən qlobal problemidir. Amma dünya terrorizm deyəndə nədənsə İŞİD-i, "Əl-qaidə"ni əldə bayraq tutaraq islam radikalizmindən yapışır, halbuki ilk dəfə ABŞ-da 1982-ci il avqust ayında nəşr olunan ABŞ Dövlət Departamentinin aylıq bülletenində rəsmən istifadə edilmiş "erməni terrorizmi" ifadəsi çağdaş dünyanın ən böyük bəlalarından biridir.

Bu da yazdığım P.S:

"P.S. Əvvəla ondan başlayaq ki, tək Rusiyanın yox, dünyanın ən aparıcı ali məktəblərindən sayılan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda oxumaq şərəfinə nail olan, ən nüfuzlu professorlardan dərs alan gənclərin terroru vəsf etməsi, terrorçuları milli qəhrəman sayması hədsiz yanlışlıqdır, bu, heç vaxt sizlərə şərəf gətirməz, özünüzə tərəfdar qazanmaq istədiyiniz halda olan-qalan hörmətinizi də itirərsiniz. "Böyük Ermənistan" deyib sızlayırsınız, dünya buna bəzən canıyananlıqla yanaşır, "erməni genosidi" deyib hönkürürsünüz, ürəyi yumşalanlar az olmur. Amma terrorçularınızla qürrələnməyiniz sizi tamamilə dünyanın gözündən salar, bir xalq kimi təcrid edər, çünki dünyanın min illərdir ki, yaranan öz əxlaq kodeksi var, bu kodeksə görə terrorçu – ən qatı cinayətkardır və o, əməllərinə görə mütləq cəzalandırılmalıdır.

Bəs hardandır sizin timsalınızda az qala bütün erməni xalqının bu terrorçu sevgisi? İş ondadır ki, uşaq ilk tərbiyəsini valideynindən, müəllimindən alar, xalqı isə onun rəhbərləri, ideoloqları hər hansı hədəfə kökləyərlər. XIX əsrin sonlarında Osmanlı İmperiyası ilə mübarizə məqsədi ilə yaradılan erməni terrorizminin inkişafında yüz il sonra – XX əsrin sonlarında SSRİ-nin dağılması, Ermənistan SSR-in yerinə müstəqil Ermənistan Respublikasının yaranması əvəzsiz rol oynayıb, belə ki, Kremlin nəzarətindən qurtulan Ermənistanın rəsmi

dairələri açıq şəkildə bu terrorçu təşkilatları dəstəkləməyə başlayıblar. “Daşnaksutyun”, ASALA, “Erməni birliyi”, “Erməni Azadlıq cəbhəsi” və digər məşhur erməni terror təşkilatları fəalları reabilitasiya olunub, bu məqsədlə genişmiqyaslı kampaniyalara start verilib, onlar yaşayış yeri və sığınacaqla təmin ediliblər, fəaliyyətləri üçün hər cür şərait yaradılıb, müvafiq maliyyə dəstəyi alıblar. Qısa müddət sonra bu təşkilatlarının qonşu ölkə ərazilərində, Türkiyə və Azərbaycanda terrorçuluq fəaliyyətləri bərpa edilib. Üstəlik, Ermənistan rəhbərliyi beynəlxalq terrorçu qruplarına dəstək göstərməklə də ad çıxarıb, terror dəstəkləyən dövlət imici qazanmaqdadır. Maraqlıdır ki, Ermənistanın müstəqilliyinin ilk illərində başlayan bu terrora dəstək hazırkı Baş nazir Nikol Paşinyanın hakimiyyəti dövründə də davam etməkdədir, hətta çiçəklənməkdədir. Bunu münaqişənizə əsla dəxli olmayan, xüsusən də beynəlxalq siyasətlə bir elə də maraqlanmayan, sadə bir türkoloq belə görürsə, onda mənə deyin, sizin dövlət siyasətiniz terrorun vəsfindən ibarət deyilsə, terrora sığınmaq deyisə, bəs onda nədir? Bir baxın, son illərdə – Suriya müharibəsi beynəlxalq müstəviyə adlayandan bəri hətta erməni KİV-ləri belə PKK terrorçularının Ermənistana keçməsi barədə tez-tez məlumatlar dərc edirlər. Bu cür məlumatları ilkin olaraq yayan “Jamanak” qəzeti Türkiyədə yerli hərbçilərlə toqquşmalardan itkilər verib qaçan, yaxud Suriyada ağır məğlubiyyətlərlə üzləşən PKK terrorçularının Türkiyə-Ermənistan sərhəddini keçməsini ardıcıl qeyd etməkdədir.

Ermənistanda yaşayan yezidi kürdlərinin Paşinyan hakimiyyətinin etnik azlıqlara qarşı formalaşdırdığı siyasətə etiraz edərək 2018-ci il noyabrın 13-də yaydıqları bəyanat beynəlxalq güc mərkəzlərində böyük rezonans oyatdı, belə ki, yezidilər Ermənistanın Araqatson vilayətinin Rya Taza kəndində PKK terror təşkilatının ofisinin yerləşməsi və fəaliyyəti barədə məqamları açıqlamışdılar. Yezidilər Türkiyə sakinləri olan PKK terrorçuları tərəfindən müxtəlif təzyiqlərə məruz qaldıqlarını da bildirirdilər.

Hətta hal-hazırda şiddətlə davam edən İkinci Qarabağ müharibəsində PKK terrorçularının ermənilərin tərəfində vuruşması faktla-

rını beynəlxalq ekspertlər də təsdiqləyiblər, Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan isə bunu rəsmi tribunadan bəyan da edib. *(Öncəki illərdə PKK-nın Azərbaycana qarşı döyüşlərdə iştirak etmək üçün Ermənistana göndərdiyi 400 nəfərlik "Ağrı Qartalları" adlı dəstəsi, bu dəstəyə Livan Karadağ, Hemaran Kerveçiyan və Servet Bagopşin adlı üç terrorçunun başçılıq etməsi də mediaya sızmışdı).*

PKK-nın İŞİD-lə – dünyanın bir nömrəli terror təşkilatı ilə sıx əlaqədə olması nəzərə alındıqda isə Ermənistanın dövlət səviyyəsində İŞİD-lə işbirliyi iddiasını da ortaya qoymaq olar. Bu adi ehtimal deyil, arxasında dəlil-sübutlar dayanan bir reallıqdır.

Ortada 2018-ci ildə Ermənistan ərazisində dislokasiya olunmuş 102-ci Rusiya hərbi bazasının iyirmi bir yaşlı müqavilələli hərbi qulluqçusu Dmitriy Yalpayevin İŞİD tərəfindən öldürülməsi faktı da vardır. Həmin il fevralın 19-da Rusiyanın Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Sergey Narışkinin rəhbərlik etdiyi nümayəndə heyətinin Ermənistana səfər etməsi, səfər zamanı həm PKK terrorçularının Ermənistana keçməsinin, həm də Yalpayevin qətli əsas götürülərək Ermənistan ərazisində İŞİD terror təşkilatının artan təhlükəsinin müzakirə edildiyini xatırlatmaq istəyirəm.

Suriya ilə bağlı erməni terrorizmini faş edən daha bir fakt da var: 2016-cı ildə Ermənistanın Dəməşqdəki səfirliyinin dərc etdiyi rəsmi məlumatda qeyd olunur ki, "Suriyada yaşayan ermənilərin sayı son beş ildə beş dəfə azalaraq on beş minə enib. Əsasən Suriyanın Hələb, Dəməşq və Latakiya şəhərlərində yaşayan ermənilərin real sayı səkkiz mindən çox deyil. Onlardan bəziləri Ermənistana və ya digər ölkələrə köçüb, bir çoxu isə Suriyadakı terror qruplaşmalarının tərkibində fəaliyyət göstərərkən öldürülüb".

Bəli, məhz terror qruplaşmalarının tərkibində fəaliyyət göstərərkən öldürülüb!

Özünüz də necə böyük bir erməni cinayətinin üstünü açdığınızın fərqində olmadan siyahınızda 24-cü "Nubar Ozanyan Taboru" adlı terror qrupunu qeyd etmisiniz. Bu qrupu PKK Türkiyəyə qarşı vuruşmaq üçün Suriya və Livanda yaşayan ermənilərdən təşkil edib.

Bu, həm də ona sübutdur ki, ermənilər həm erməni, həm də xarici terror dəstələrini formalaşdırırlar. Qrupa adı verilmiş Nubar Ozanyan isə Suriyada öldürülən PKK terror dəstəsinin erməni üzvünün adıdır. Buyurun, qısa bir yazıda Ermənistanın və ermənilərin terror sevgilərini tam da olmasa belə, qismən ortaya qoya bildik, indi nə deyirsiniz?

Siz Rusiyada rus dilində özünüz üçün “Şərəf tarixi” adlandırdığınız kitab çıxarmaq üçün əlləşirsiniz, bu kitabı təbliğat vasitəsi kimi, çox güman, sadə ruslara da paylamaq fikrindəsiniz, amma düşünmürsünüz ki, PKK və İŞİD sevdası ilə Rusiyanın Suriyadakı geosiyası maraqlarına zərbə vurur, terrorizmə qucaq açaraq terror yuvası bir ölkə yaratmaqla sülhsevər, genişqəlbli rus xalqında qıcıq yaradırsınız. Faşıst Njdeyə abidə ucaltmağınızı, məqbərə tikməyinizi oxuyanda isə inanın ki, ruslar sizə qarşı nifrət duyacaqlar.

Belə olmaz, cənab tələbələr. Əsla belə olmaz!”

## On üçüncü hissə

## MÜƏLLİFDƏN NÖVBƏTİ MÜDAXİLƏ

Təbii ki, Moskvaya gələrkən özümlə Azərbaycan – Ermənistan münaqişəsiylə, Dağlıq Qarabağla bağlı çoxlu materiallar da gətirmişdim. Rusiyadakı ermənipərəst qüvvələrlə debata çıxmağa tam hazırlaşmışdım, əlimdə daşdan keçən sənəd və faktlar var idi. Bunlardan bir qismi də məhz ermənilərin ruslara yönəli xəyanətkarlıq siyasəti barədəydi. Ruslara qarşı ermənilər nələr etməyiblər axı? Təəssüf ki, məsələni heç kəs bu cür qoymur, heç bir müasir rus tədqiqatçısı, siyasətçisi Rusiyanın süfrəsinin artıq-urtuğu ilə dolanan, tarix boyu Rusiyanın qahmar çıxdığı ermənilərin Rusiyanın kürəyinə sapladığı xəncərlərini görmür, daha doğrusu görmək istəmir. Mən dostum Stepan Arsenyeviçin Njde rahatsızlığını dilə gətirən anda

ona "Tək Njdemi?" sualını ünvanlayaraq öz P.S.-ini davam etdirməyi təklif etdim, flyaşkartdan "Ermənilərin antirus fəaliyyəti" bölməsini çıxarıb ona ötürdüm, dostum həqiqətən dəhşətə gəldi.

Bir zibil ürək bulandırar, görüb keçərsən, küçənin təmizliyi yenidən ruhunu oxşayar, səni sakitləşdirər. Biri də var, hər yan zibillik olsun, hər yan murdar görüntüsü ilə gözünü, üfunət qoxusuyla isə burnunu işğal eləsin.

Beləcə, dostum qəzəblə mənim danışdıqlarımı yazısına ikinci P.S. kimi əlavə eləmiş oldu.

## On dördüncü hissə

## İKİNCİ P.S.

"Erməni millətçilərinin ərazi iddiaları təkcə Osmanlı İmperiyasının varisi olan Türkiyə və Azərbaycan Respublikasına qarşı olan iddialarla məhdudlaşmır, onlar hələ lap SSRİ-nin yaranışının ilk dönəmlərində Kremldə mövqelərinin güclü olmasından istifadə edib Azərbaycanın Dağlıq Qarabağ və Naxçıvan, Gürcüstanın Axalkalaki bölgələri ilə yanaşı, Rusiyanın Krasnodar diyarına da iddialarını ortaya qoymuş, Rusiyanın cənubunda yerləşən Armavir şəhərini dırnaqarası Böyük Ermənistanın paytaxt şəhərlərindən biri adlandıraraq tələb etmişlər. Krasnodar diyarında yerləşən Rusiyanın populyar kurort şəhəri olan Soçiyə qarşı iddialar da zaman-zaman irəli sürülüb. Bir neçə il bundan əvvəl isə onlar Rusiyanın Yakutiya Respublikasının qədim erməni diyarı olduğunu iddia edən və bununla bağlı həqiqətə uyğun olmayan informasiyalar yayıblar.

Ermənilərin ruslara torpaq iddiaları zaman-zaman qabarıb və çəkilməkdədir. İş hətta o həddə çatıb ki, 2012-ci ildə Armavir şəhərində özünü olduqca rahat, lap evdəki kimi hiss edən ermənilər oradakı Erməni Apostol kilsəsində ağlasığmaz bir plan rellaşdırıblar,

faşizmə xidmət etmiş, rus xalqının cəlladı olmuş Qaregin Njdeyə xatirə lövhəsi qoymağa cəsarət ediblər. Yalnız Dövlət Duması deputatı Aleksey Vinoqradovun təşkilatçılığı ilə şəhər ictimaiyyəti ayağa qalxdıqdan sonra 2019-cu ildə memorial lövhə çıxarılıb.

Bu millət açıq-aşkar, heç nədən çəkinməyərək Rusiya mediasında "Soçidə erməni icmasının yaranması tarixi" kimi üzdəniraq məqalələri dərc edərək Soçinin ermənilərin ən qədim dövrdən bəri məskunlaşdığı yer olduğunu iddia edir, hazırda Soçidə ümumi əhalinin 40%-ni təşkil edən iki yüz minə yaxın ermənininin yaşamasını sübut kimi ortaya qoyur. Guya Krasnodar diyarı ərazisində erməni əhalisinin ilkin məskunlaşması tarixini eramızın I əsrinə aparır, Böyük Tiqranın legionunun həmin vaxt bu əraziyə gəldiyini, on minlərlə ermənini burada qalaraq koloniya şəklində yaşamağa başladığını iddia edirlər, Soçi şəhərinin vaxtı ilə "Böyük Ermənistan"ın ərazisinə daxil edildiyini, bu şəhərə xüsusi hüquqlarının olduğunu utanmadan ortaya atırlar.

Tarixən qonşu xalqların ən barlı-bərəkətli, turizm cəhətdən müstəsna əhəmiyyət daşıyan ərazilərində yaşamağa üstünlük verən, sonra da həmin ərazilərə iddia irəli sürən erməni xalqı bu qəribə xislətini Azərbaycanın mirvari gözlü dağ-meşə cənnəti Şuşa başda olmaqla Dağlıq Qarabağ kimi kurort bölgəsinə qarşı olduğu kimi, Qara dəniz sahilindəki Krıma qarşı, Rusiyanın dənizsahili Krasnodar və mineral bulaqlarla zəngin Stavropol diyarlarına qarşı da nümayiş etdirməkdədir. Rusiyanın cənubundakı Krasnodar və Stavropol diyarının dünyaca məşhur kurort zonalarında – Soçi, Kislovodsk, Mineralnıye Vodı kimi şəhərlərdə on minlərlə erməni məskunlaşaraq ara-sıra bu torpaqlara iddia irəli sürməklə Rusiya üçün haçansa ciddi təhlükə törətməyə qadirdirlər.

Amma erməni millətçiliyinin Rusiyaya xəyanəti hələ elə də mütəşəkkil hal almayan tək bu torpaq iddiaları ilə olsaydı dərd yarı idi, tarix boyu bu xəyanət siyasi terror və sui-qəsdlərlə, hətta misilsiz məişət cinayətkarlıqları ilə ortaya qoyulub, sadəcə, bunları yanaşı düzüb tam mənzərəni ortaya qoymaq qalır.

Gəlin, baxaq.

Tarix lap qədim dövrlərə gedib çıxır, Rusiya İmperiyası dövrünə. 1813-cü və 1828-ci illərdə İranla müharibənin Rusiya üçün qalibiyyətlə nəticələnməsi, eləcə də Osmanlı üzərindəki qələbələr müsəlmanların yaşadığı Anadolunun bir hissəsini və Cənubi Qafqazı Rusiyaya qazandırdı, Çar Rusiyası tərəfindən xristian ermənilər Cənubi Qafqaza köçürüldülər, buna səbəb imperiyaların müstəmləkəçilik siyasətinin mahiyyəti idi ki, bu mahiyyətdə də çarizmin yerli aborogen xalq olan müsəlman türklərini sıxışdırmaq üçün ora xristian erməniləri yerləşdirilməsi əsas təşkil edirdi. Rusların erməni faktorundan istifadəsi çox təəssüf ki, ermənilərin öz milli maraqlarını həyata keçirmələri üçün əsl göydəndüşmə bəhanə oldu, təsadüfi deyil ki, ermənilər rusların Rusiya-İran və Rusiya-Türkiyə müharibələrindən sonra əldə etdikləri torpaqlarda Ermənistan dövləti yaratmağa müvəffəq oldular. Üstəlik, daim digər torpaqlara da iddia ortaya qoydular, xainlik, satqınlıq, ikiüzlülük, saxta tarixlə yüz cür dona girdilər.

Ermənilərin ruslara qarşı həyata keçirdikləri ilk terror aktı 1866-cı ilin 4 aprel tarixinə təsadüf edir. Həmin gün inqilabçı-terrorçu Dmitriy Qaragözyan Rusiya İmperatoru II Aleksandra sui-qəsd etdi.

XIX əsrin son rübündə erməni separatizmi və terroru çardan müstəqillik qoparmaq yolunda daha geniş vüsət aldı, erməni kilsələri silah-sursat anbarlarına çevrildi. Bu dövrdə erməni siyasətinin ruslara yönəli daha bir üzü açıldı, belə ki, rusların hesabına Cənubi Qafqazda məskunlaşmış bu xalq rusların Qarsdakı ruslaşma siyasətinin əleyhinə çıxdı, 70-ci illərdən başlayaraq Rusiya Qarsda və Cənubi Qafqazda kütləvi şəkildə duxabor və molokan təriqətli rusları yerləşdirməyə başlayanda ermənilər buna hər vəcdlə mane olmağa çalışdılar. Fransa və İngiltərə ilə separat danışıqlara gedib, tutsa Osmanlıda, tutmasa Rusiyada onların hesabına "Böyük Ermənistan" yaratmaq xülyasına düşən ermənilər "Rusların Qafqazda yerləşdirilməsi üçün boş torpaqlar yoxdur" şüarı ilə çıxış etməyə başladılar.

Tarixə tutulan ən gözəl güzgü dövrün yazılı mənbələri deyilmi? Dövrünün tanınmış rus şairi, publisisti, ictimai xadimi, qafqazşünası

Vasiliy Veliçkonun şahid olduğu hadisələr barədə yazdığı "Qafqaz. Rus işi və tayfalararası məsələ" adlı kitabı bu barədə misilsiz bir xəzinədir. Vladimir Veliçko Azərbaycan torpaqları olan və çarizm tərəfindən rus molokanlarla ermənilərin yerləşdirildiyi Yelizavetpol quberniyasının Tərtər kəndində baş vermiş müdhiş bir cinayət barədə, "qədim və mədəni xalq"ın dırnaqarası şücaəti barədə belə yazıb:

"İlin payız və qışı sərt keçmiş, yazda isə iki bədbəxtçilik birdən gəlmişdi: malyariya, bir də erməni intriqaları. Özləri Tərtərə sonradan köçürülən ermənilər kilsələrindən təlimat almışlar ki, rusları kənddən çıxarsınlar. Bundan ötrü çox alçaq bir üsul seçilmişdi: Rusların su içdiyi çayı peyinlə, zir-zibillə çirkləndirmiş, ruslar bulaqdan istifadə etmək istəyəndə isə xəncərli ermənilər onları geri qaytarmışlar. Məcburən çirkli sudan istifadə etməli olan rusların bədənləri yara bağlamış, əksəriyyəti də zəhərlənib ölmüşlər. Hətta bunu görən uyezd rəisi belə qorxudan susmuşdu. Elə ki, "insanların naməlum səbəbdən ölmələri" barədəki olay barədə qubernator xəbər tutmuşdur, dərhal Tərtərə erməni həkim göndərmiş, o da ruslara dərman vermək, tibbi yardım göstərmək əvəzinə "rus itlər, rədd olun buradan gedin, ya da hamınız gəbərəcəksiniz" ultimatumu vermişdi. Həmin vaxt kəndin əhalisinin üçdə ikisi ölmüş, qalanı isə qaçıb getmişdır".

*(Yeri gəlmişkən, mən Veliçkonun kitabından bu iqtibası gətirəndə Stepan Arsenyeviç sözün həqiqi mənasında bir müddət donub qaldı, sifətində heyrət və dəhşət izləri qoşalaşmışdı, bircə kəlmə deyə bildi, dedi, "Hətta bu qədər?")*

1892-ci ildə Rusiyadakı erməni dini mərkəzi olan Eçmiədzin Mkrtıç Xrimyanı Erməni Apostol Kilsəsinin rəhbəri, bütün ermənilərin katolikosu təyin etdi, bu təyinatı 1893-cü ildə Rusiya imperatoru III Aleksandr qəbul etdi. Osmanlı vətəndaşı olan və millətçi cinayətlərinə görə orada təqib olunan bu qatı millətçiyə sığınacaq verən ruslar tezliklə peşman oldular. Belə ki, Osmanlı imperiyasını erməni məsələsi ilə daim təhdid edən Xrimyan eyni şeyi ruslara qarşı da etməyə başladı. Erməni kilsəsi aşkar erməni xalqı üçün Rusiyadan

müstəqillik tələb edən siyası mərkəzə çevrildi. Çar II Nikolay 1903-1905-ci illərdə rus ziyalıları, siyasi və hərbi xadimlərinin narazılıqlarını görüb erməni kilsəsindən dövlətə əsl təhlükə duydu, 1903-cü il iyunun 12-də erməni kilsəsinin varidatının Rusiya İmperiyasının Torpaqçılıq və dövlət əmlakı nazirliyinə verilməsi barədə qanun imzaladı. Ermənilər arasında antirus əhval-ruhiyyə apogey nöqtəyə çatdı. Buna cavab olaraq erməni kilsəsi rus dövlət xadimlərinə qarşı sui-qəsdlər həyata keçirilməsi barədə öz təbəələrinə tapşırıqlar verdi. Ancaq təşkil edilən sui-qəsdlər *( ermənilər hətta çarın özünə qarşı da sui-qəsd cəhdində bulundular)* Çar Rusiyasını geri çəkilməyə vadar etdi, Çar erməni kilsəsinin varidatlarını geri qaytarmaq əmri verməyə məcbur oldu. Bunlar uzaq tarixin acı həqiqətləridir, erməni millətçiliyinin Rusiya üçün törətdiyi təhlükənin göstəriciləridir.

Ayrıca bir fakt kimi Rusiyaya sədaqəti nəticəsində ermənilər tərəfindən cəzalandırılan knyaz Q. Qolitsinin acı taleyini göstərmək yerinə düşərdi. 1897-ci ildə Qafqaz canişinliyinin baş rəisi vəzifəsinə təyin olunan bu şəxs bununla da Eçmiədzin katolikosluğuna və erməni siyası təşkilatlarına rusların münasibətinin kökündən dəyişilməsini təmin etmişdi. Qolitsin açıq gözlə ətrafını müşahidə edib belə bir məntiqi nəticəyə gəlmişdi ki, erməni siyası partiyaları, erməni kilsəsi, hətta erməni məktəbləri terror yuvasıdır. O, bu müşahidələri barədə çara raport yazmışdı. Çarın erməni kilsəsinin varidatının Rusiya İmperiyasının Torpaqçılıq və dövlət əmlakı nazirliyinə verilməsi barədə yuxarıda qeyd etdiyimiz qanunu imzalamasında knyaz Qolitsinin həlledici rolu olması danılmazdır. 1903-cü ilin 14 oktyabrında "Qnçak" partiyası Q.Qolitsinə qarşı terror aktı həyata keçirdi. Terrorçular Tiflis ətrafındakı Botanika bağında gəzintidən qayıdan Qolitsinlə həyat yoldaşının ekipajına hücum edərək onun başını xəncərlə bir neçə yerdən yaraladılar. Məqsədləri onun başını üzərək İrəvan meydanında erməni xalqına nümayiş etdirmək idi. Sağ qalsa belə səhhətində ciddi pozuntular yaranan və həyatına daim təhlükə hiss edilən Qolitsin istefa verib Rusiyaya qayıtmalı oldu.

Eçmiədzin kilsəsi və "Daşnaksutyun" partiyası, qeyd etdiyimiz kimi, çar II Nikolaya qarşı da sui-qəsd planı işləyib hazırlamışdı. Bu sui-qəsdi həyata keçirmək üçün partiyanın dörd üzvü son anda qeyri-dəqiqlik nümayiş etdirdikləri üçün yaxalandılar.

1903-cü ilin 1 avqustunda Aleksandropolda "Daşnaksutyun" terrorçuları tərəfindən milliyyətcə rus olan pravoslav protoireyi Vasilov xəncərlə qətlə yetirildi, bu ermənilərin həm Qafqazdakı rus siyası elitasına, həm də rus kilsəsinə birgə müharibəsinin təzahürü idi.

Bakıda 1905-ci ildə həyata keçirilən müsəlmanların kütləvi qətliamı zamanı ermənilərin çar məmurlarını ölümlə təhdid edərək müdaxilə etməməyə məcbur etmələri faktları da var. Qafqaz canişinliyinin sənədlərində göstərilir ki, 1904-1906-cı illərdə erməni təşkilatları öz məkrli niyyətlərini həyata keçirmək üçün çar məmurlarına qarşı bir çox cəhdlə terrorlara əl atmışlar. Məsələn, 1904-cü il 11 sentyabrda erməni terrorçularının diversiyasının qarşısını almağa cəhd göstərərkən, Yelizavetpol quberniyasının vitse-qubernatoru Andrey Andreyev öldürülmüşdür. "Ümumerməni işinə mane olan" daha bir neçə müxtəlif millətlərə mənsub olan, o cümlədən milliyətcə rus çar məmurları sui-qəsdin qurbanı olmuşdur: Aleksandropolda polis zabiti Dardımanov, uyezd rəisləri Şmerlinq, Neşanskiy, Pavlov, polismeyster Saxarov, pristavlar Javaxov, Şumakeviç, Sürməli uyezdinin rəisi polkovnik Boquslavski, quberniya həkimi Urazov və s.

O cümlədən, erməni terrorçuları erməni silahlı birləşmələrinin tərksilah edilməsi tapşırılan rus zabitlərini də qətlə yetirirdilər. 3 iyul 1907-ci ildə məşhur erməni terrorçusu Dro Gümrüdə general Maqsud Alixanov-Avarskini karetasına bomba ataraq qətlə yetirmişdir. Türkiyə ərazisindən Aleksandropola erməni quldurlarının buraxılmaması əmrini vermiş general Freze, bir erməni bandasının ləğv edilməsində göstərdiyi şücaətə görə podpolkovnik Bıkov güllələnmişlər. Sürməli qəzasında polkovnik Boqoslavskinin yerinə təyin olunmuş uyezd rəisi, kapitan Dudnikov güllələbaran olunmuşdur.

Çarizmin süqutundan sonra erməni millətçiliyinin cinayətləri daha müntəzəm xarakter aldı. O cümlədən Cənubi Qafqazda məskunlaşmış rus xalqı bu cinayətlərin qurbanı olmaqda idi. Əldə tutarlı faktlar var.

Arxivlər bütün gizlinləri açıb tökmək gücündədirlər. 1918-ci ilin 15 avqustunda Cənubi Qafqazdakı Rus Milli Şurası rəsmən Azərbaycanın Gürcüstandakı daimi nümayəndəsinə üç protokol təqdim etmişdir. Bu protokollarda Qazax mahalının Karvansara dairəsinin Nikitino və Mixaylovo kəndlərində yaşayan rus icmasının müntəzəm olaraq erməni basqılarına məruz qalmalarından bəhs edilir. Azərbaycan tərəfdən xahiş olunur ki, öz ərazisində erməni vəhşiliklərinin qarşısını almaq üçün təcili tədbirlər görsün.

1918-ci ildə erməni quldurları Gədəbəy dairəsinin Saratovka və Novo-İvanovka kəndlərinə hücum edərək yerli rus əhalini talan etmiş, talanlara məruz qalmış 427 rus ailəsi qaçaraq Gəncədə sığınacaq tapmağa məcbur olmuşdur.

Birinci dünya müharibəsində "erməni məsələsi"ndən öz antitürk fəaliyyətində faydalanan ingilislərin 1919-cu ildə türklər üzərində Qarsda qələbə qazanıb oranın idarəsini ermənilərə verməsi nəticəsində ermənilər Qarsın türk əhalisi ilə yanaşı rus əhalisinə də divan tutmuşlar. Blaqodarnoye kəndində rus əhali qılıncdan keçirilmişdir. Novo-Selimdə on altı rus qadın zorlanmış, kəndin starostası öldürülmüşdür. Novo-Petrovka və Vladikars kəndlərində də əhali qətliama məruz qalmışdır.

Rusların ermənilər tərəfindən qətliamı faktlarına 1920-ci ilin may ayında da rast gəlmək olar. Gümrüdə Rusiya Milli Şurasının sədri Ressler və beş rus zabiti güllələnib. 1918-20-ci illərdə Ermənistanda yaşayan rusların öz kəndlərini atıb Cənubi Azərbaycana qaçdıqlarına şahid olmuş gürcü müəllif D. Karibi özünün "Qırmızı kitab" adlı kitabında yazıb: "Erməni yazıçıları rusları necə sevmələrindən, onlara sədaqətlərindən bol-bol yazırlar, amma hazırda rus kəndliləri evlərini ataraq hətta Rusiyaya da yox, canlarını qurtarmaq üçün qonşu müsəlman İrana pənah aparırlar."

İkinci Dünya müharibəsində erməni xalqının böyük hissəsinin faşistlərin tərəfinə keçməsi, Dro və Njde kimi komandirlər yetişdirməsi indi hamıya gün kimi aydındır. Tarixi mənbələr göstərir ki, Adolf Hitler 1942-ci il 8 fevral tarixində silahlı qüvvələrin Ali Komandanlığına erməni legionu yaradılması barədə əmr verib. 1942-ci ilin sonunda Polşadan cəbhəyə 808-ci və 809-cu iki erməni batalyonu yola salınıb. 1943-cü ilin əvvəlində onların ardınca 810-cu, 812-ci və 816-cı bayalyonlar, 1943-cü ilin ikinci yarısından 814-cü, 815-ci və 817-ci batalyonlar cəbhəyə yollanıb faşizmə xidmət göstərib. Bu dövrdə cəbhəyə ümumi sayı iyirmi min nəfər olan erməni döyüşçüsü göndərilib. Səhra batalyonlarından başqa müharibə dövründə ermənilərdən ibarət alman ordusuna xidmət edən 22 tikinti, dəmiryolu, nəqliyyat və digər köməkçi yarımbölmələr də formalaşdırılıb. Məlumatlara görə, alman III Reyxində xidmət edən ermənilərin sayı 27 000 nəfər olub.

SSRİ Xalq daxili işlər komissarı Beriyanın müharibənin şiddətli dönəmində SSRİ rəhbəri İosif Stalinə yazdığı məktubunun mətni Qorbaçov perestroykası dövründə araşdırmaçılar tərəfindən üzə çıxdı, hamı erməni xalqının satqınlığına şahid oldu. Məktubda qeyd edilirdi: “Alman ordusu tərəfindən yaradılan erməni legionu casusluq və pozuculuq işləri aparmaq üçün qırmızı ordunun arxa cəbhəsində bir neçə erməni komitəsi yaradıbdır. Onlar müstəqil Ermənistan yaratmaq istiqamətində təbliğat aparırlar. Dünya erməniləri isə Almaniyanın “hərbi ehtiyaclarına” sərf etmək üçün ucdantutma vəsait toplayırlar”.

Bəs sonrakı dövrlər? Ermənilərin ruslara qarşı cinayətləri məgər səngiyibmi? Əsla yox. 1977-ci ilin 8 yanvar gününü Moskva sakinləri heç vaxt unutmayacaqlar. Həmin gün Moskva vaxtı ilə saat 17:33-də İzmaylovo metro stansiyasında terror həyata keçirilib, metro vaqonuna qoyulmuş bomba partlayıb.

*(Hadisənin canlı şahidi və zərərçəkmişi olan Stepan Arsenyeviçin bu yerdə yenidən o qanlı hadisələri yaşayırmış kimi halı pisləşdi, özünə gəlməsinə xeyli vaxt lazım oldu).*

Yeraltı partlayışın ardınca iki yerüstü partlayışlar da özünü çox gözlətmədi. Saat 18:05-də SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin binasının yaxınlığında, Dzerjinski küçəsindəki 15 saylı ərzaq mağazası partlayışa məruz qaldı. Saat 18:10-da isə 25 Oktyabr küçəsində yerləşən 5 saylı ərzaq mağazasında partlayış oldu. Nəticədə metro teraktı yeddi nəfərin ölümünə səbəb oldu, ümumən üç teraktda 37 nəfər müxtəlif dərəcədə xəsarət aldılar. İstintaq müəyyənləşdirdi ki, teraktları milliyyətcə erməni olan üç şəxs – Stepan Zatikyan, Akop Stepanyan və Zaven Baqdasaryan həyata keçirmişlər.

Qorbaçov dönəmində – 90-cı illərdə erməni terrorizmi daha geniş vüsət aldı. 1991-ci il aprelin 8-də Rostov şəhərində SSRİ Daxili İşlər Nazirliyinin podpolkovniki Vladimir Blaxotin erməni terrorçuları tərəfindən öldürüldü.

Şimali Qafqazda erməni terrorçularının qatarlarda törətdikləri terror aktları o cümlədən rus millətindən olan neçə şəxsin ölümünə səbəb oldu ki, bu terror aktlarından 1993-cü ilin fevralında Qudermes yaxınlığında Bakı-Kislovodsk qatarının partladılması xüsusi yer tutur.

1989-cu ildə Azərbaycan hakimiyyətinin Dağlıq Qarabağda qurduğu müvəqqəti idarəçilik komitəsinə rəhbərlik edərkən ermənilər haqqında şifahi ölüm hökmü kəsdikləri Azərbaycanın 2-ci katibi, rus Viktor Polyaniçkonun ölüm hökmü 1993-cü ildə – Polyoniçko artıq Rusiyada yüksək vəzifə daşıyarkən Mozdok şəhəri yaxınlığında icra edildi. Polyaniçkonun bədənində 15 güllə yarasının aşkarlanması erməni vəhşiliyinin bariz nümunəsidir. Onunla birgə Vladiqafqaz qarnizonunun rəisi, general-mayor Viktor Kravçuk da güllələndi, dörd rus hərbi qulluqçusu isə yaralandı.

1997-ci il aprelin 2-də Rusiya Dövlət Dumasının müdafiə komitəsinin sədri, general Lev Roxlin dumanın iclasında Ermənistanın qanunsuz militarizm fəaliyyətindən bəhs etmiş, bu ölkəyə bir milyard dollarlıq qanunsuz silah satılması barədə hesabat vermişdi, 1998-ci ilin 3 iyulunda Lev Roxlin Moskva yaxınlığındakı bağ evinin yanında erməni terrorçusu tərəfindən qətlə yetirildi.

Siyası sui-qəsd və terrorlar bir yana, ermənilər Rusiya ərazisində həyata keçirilmiş ən tükürpədici məişət cinayətlərində də “nömrə bir” olmuşlar, buna da xüsusi diqqət yetirilməlidir. 1969-1970-ci illərdə SSRİ-nin Rostov-na-donu adlı rus və Voroşilovqrad adlı Ukrayna şəhərlərində həyata keçirilən seriya qətlləri bütün ölkəni lərzəyə salmışdı. Sonradan cani yaxalananda onun milliyyətcə erməni Almazyan Zaven Sarkisoviç olması üzə çıxdı. Peşəcə yükdaşıyan olan, “polad barmaqlı”, habelə “Voroşilovqrad manyakı” təxəllüslü bu şəxs qadınlara qarşı seksual hərəkətlər edib sonra onları boğub öldürürdü. Daha bir tükürpədici fakt onun həm də nekrofil olması, meyitlərə qarşı seksual istək nümayiş etdirməsi idi.

“Ölüm rejissoru” təxəllüslü Asatryan Valeriy Qeorqieviç adlı erməni seriya qatili və pedofil doğulduğu Yerevan şəhərindən Rusiyanın paytaxtı Moskvaya köçərək 1988-1990-cı illərdə orada Nabokovun “Lolita” əsərinin qəhrəmanlarını seksual cəhətdən yamsılamaqla qətllər həyata keçirmiş, uzun müddət şəhər sakinlərini qorxu və həyəcan içində saxlamışdı.

O ki qaldı SSRİ tarixinin müdhiş cinayətləri bir neçə bədii və sənədli filmlərdə lentə alınaraq böyük tamaşaçı kütləsi qazanmış “Mosqaz” təxəllüslü ən məşhur seriya qatilinə, təbii ki, bu qatil də milliyyətcə erməni olub, İonesyan Vladimir Mixayloviç. Bu şəxs evlərə Moskva Qaz idarəsinin əməkdaşı kimi daxil olub qətllər və soyğunçuluq törədirmiş. Uzun illər onun adı şəhər sakinləri üçün qorxu və vahimə yaradırdı, analar yatmayan uşaqlarını “Mosqaz gəlir” deyə qorxudurlarmış. Qəribədir ki, bu manyak qatil Orenburq şəhər musiqili komediya teatrının aktyoru idi.

Ermənilərin ruslara qarşı cinayətləri elə bu gün, bu saatlarda da davam edir. Bax elə indicə – 2020-ci ilin bu çiskinli oktyabr günündə Mərkəzi televiziyanın bir xəbəri diqqətimi çəkir. Volqoqrad şəhərində yerli sakin Roman Qrebenyukun Anna adlı qadınla kiçik bir insidenti olub. Adi bir insident, ani bir əsəbdən doğan ötəri özünü cilovlaya bilməmək və bunun heç bir xətərsiz, fəsadsız nəticəsi. Amma sən nə danışırsan, söhbət Rusiyada özlərini ağa kimi aparan, kimdənsə

"gözün üstdə qaşın var" iradını qəbul etməyi özünə sığışdırmayan ermənilərdən gedir axı. O ermənilərdən ki, məşhur Şərq deyimi bu yerdə sanki onların üstünə biçilib: Burda mənəm, Bağdadda kor xəlifə. Qadının əri Armen Melkonyan Romanı telefonda təhqir edərək haqq-hesab çəkmək üçün bəlli bir ünvana dəvət edib. Orada Armenin qardaşı Arsen rus gəncə ağır xəsarətlər yetirib. Bir neçə gün komada qalan gəncin həyatını xilas etmək mümkün olmayıb.

Budur, erməni xalqının əsl siması.

Artıq şərhə, məncə, ehtiyac yoxdur".

## On beşinci hissə

## BUNLAR BAŞLARINI İTİRİBLƏR

Stepan, Artur və Qaqik növbəti iş gününü yekunlaşdırmaq üçün kompüterin arxasında əyləşəndə – onda ki, hədsiz dərəcədə yubanmışdılar, yalnız axşamdan gecəyə adlayanda, saatın əqrəbləri 22.15-də qərarlaşanda gəlib çıxmışdılar, yorğunluqları, halsızlıqları simalarında, vücudlarında əks olunmuşdu. Adicə çay içmək həvəsini belə vaxtın darlığı səbəbindən təxirə salmaqla öz "fədailiklərini" sübut etmişdilər. Mən də günorta növbəti P.S.-imi hazırlayarkən YouTube kanalında rastıma çıxmış bir videonu onlara göstərib keflərinə soğan doğramaq fikrinə düşdüm.

Moskvanın yağışlı bir payız axşamı idi, pəncərədən əzəmətli Vernadski küçəsi ilə şütüyən avtomobillər qopardıqları səslərlə sanki tək mürgüləyən insanları deyil, mürgüləyən tarixi də ayıltmaq, "hər şey göründüyü kimi deyil" hökmünü isbatlamaq istəyirdilər.

Hansısa bir beynəlxalq forumda Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın debatı olmuş, debat YouTube kanalında yerləşdirilmişdi. İngiliscə keçən, rusca sətri

tərcüməsi verilən bu forumun ardınca Rusiyada baş tutmuş və təbii ki, rus dilində keçirilən başqa bir foruma da tamaşa etdim. Dərhal nəyi sezdim? Azərbaycan Prezidenti sakit və təmkinli idi, həm ingilis, həm də rus dilində səlis danışırdı, fikirlərini arqumentlərlə dəqiq ortaya qoyurdu, savadı, biliyi, konfliktə dərindən bələd olması aşkar duyulurdu. Ermənistanın baş naziri isə rusca aksentlə, ingiliscə isə ümumiyyətlə hıqqana-hıqqana danışır, həyəcanını cilovlaya bilməyərək tez-tez çaşır, qarmaqarışıq fikirlərlə tək tamaşaçını, forum iştirakçılarını deyil, özünü belə azdırırdı.

Azərbaycan prezidenti səliqəli, zövqlü geyim-keçimi, elitar davranışı ilə də tam əks qütbdə dayanan Ermənistanın baş nazirindən fərqlənirdi.

"Uşaqlar, bir görün nə tapmışam", – deyib süjeti telefonumdan televizorun ekranına adladıb kirayənişinlərimə nümayiş etdirməyə başladım. Rəhbərlərinin Azərbaycan rəhbəri qarşısında acizliyini elə ilk dəqiqədəcə duyan "üçlər"in qanlarının tam qaraldığını gördüm. Qəsdən onlara atmacalı bir sual da ünvanladım, soruşdum: "Uşaqlar, sizin rəhbər hansıdır, o yaxşı danışan, yoxsa pis danışan?"

Stepan məyusluqla cavab verdi ki, bizimki o saqqallıdır.

Görəsən, özlərini fədai hesab edən, rahatlıqlarından, dərslərindən əl çəkib ümumerməni işinə "xidmət göstərən" bu gənclər niyə başa düşmək istəmirdilər ki, əslində bu, bir avantüradır, cinayətə rəvac verməkdir, onların fədailiyi isə cinayətin sıra nəfərinə çevrilməkdir.

Dırnaqarası fədailərin bugünkü mövzusu isə mənimçün tam gözlənilməz oldu, anama söysəydilər bundan yaxşı olardı. Ağlıma belə sığışdıra bilməzdim ki, xalqlarının guya "Şərəf tarixi"ni yazdıqlarını güman edən bu ali təhsilli tələbələr on illərlə millətçi həmyerlilərinin törətdikləri qanlı terrorları qəhrəmanlıq aksiyaları adlandırıb xronologiyaya gətirəcəklər.

Əslində, bu yazıqları heç qınamaq da olmur. Terrorizm bir ölkənin dövlət siyasətidirsə, o ölkənin vətəndaşları da kor-koranə bu siyasətə xidmət eləməlidirlər.

Bu da onların sərsəmləmələri:

“**6-cı bölmə.** Əziz xalqımız! Əlbəttə ki, əgər biz xalqımızın şərəf tarixindən danışırıqsa, bu tarixdə ən əsas yeri xalqımızın fədailərinin türk işğalçılarına qarşı qaldırdıqları qiyamlar, azərbaycanlı düşmənlərimizə qarşı apardıqları qisas əməliyyatları, o cümlədən də yüz illik tarixi olan, bütün Avropanı, Asiyanı, hətta Amerikanı bürüyən, dünyanın terror adlandırdığı, halbuki bizimçün qəhrəmanlıq aksiyaları sayılan məlum olaylar başda durur. Biz – bu kitabın müəllifi olan üç Moskva tələbəsi də bu hərəkatın içində sayıla bilərik, belə ki, hər üçümüzün nəslində azı bir nəfər bu sayaq olayların iştirakçısı olub. Haydı, getdik! Deməli, birimizin ulu babası ötən əsrin əvvəllərində milli qürur rəmzimiz olan Andranik Ozanyanın dəstəsində Zəngəzurda türk kəndlilərini qılıncdan keçirib, birimizin atası Dağlıq Qarabağda prokuror kimi azərbaycanlılara qan uddurub, birimizin əmisi isə Parisdə – Orli hava limanında dünyanı silkələyən bir aksiyaya imza qoyaraq oranı partladıb. Axtarsaq, hər bir erməni bu və ya digər şəkildə türk düşmənlərimizlə aparılan mübarizələrə töhfə verənlərin nəslindəndir, biz ermənilər bununla qürur duymalıyıq, yeni nəsilləri də hər zaman bu mücadiləmizə hazırlamalıyıq.

Xalqımızın fədailərinin keçirdiyi aksiyaların xronologiyasını hazırlamaq bizə çox çətinliklə başa gəldi: çox uzun bir tarix və çox uzun bir siyahı. Odur ki, biz bu uzunluqda xronologiyanı kitabımızda tam şəkildə versək, kitabda başqa mövzulara yer qalmayacaq. Bu səbəbdən də xalqımızın qürur rəmzi olan “Daşnaksutyun”un 1919-cu ildə həyata keçirdiyi Nemezis əməliyyatı ilə başlamaq qərarına gəldik. Bu, erməni tarixinin ən şərəfli səhifələridir deyə ondan əsla yan keçmək olmaz.

Əməliyyatın keçirilməsi erməni ictimai-siyasi xadimi olan Şaan Natalinin təşəbbüsü ilə 1919-cu ilin oktyabrında, Yerevanda keçirilən “Daşnaksutyun” partiyasının IX qurultayında qərara alınıb. 1915-ci ildə ermənilərin soyqırıma məruz qalmasına aidiyyatı olan, eləcə də Qafqazlarda Böyük Ermənistan quruculuğuna mane olan 650 nəfərin adları yazılmış bir siyahı tutulub, onların içərisindən Os-

manlı imperiyasının keçmiş daxili işlər naziri olmuş Tələt Paşa başda olmaqla 41 nəfər əsas günahkarlar elan edilib, hamısına şifahi ölüm hökmü kəsilib. Əməliyyata rəhbərlik üçün xususi orqan yaradılıb, bütün əməliyyat üçün həmin orqan məsul olub, orqanın rəhbərliyi Ermənistan Respublikasının ABŞ-dakı səfiri Armen Qaroya həvalə edilib, bununla yanaşı xüsusi dəstək fondu da yaradılıb, fondun rəhbəri Şaan Satçaklyan təyin olunub. Operativ rəhbərlik və əməliyyatın maddi dəstəyi isə Şaan Natali və Qriqor Merdjanova həvalə edilib. Öldürüləcək türklər barədə məlumat toplamaq, onların hazırkı iş yerləri, yaşayış ünvanları barədə bilgi əldə etmək işin ən çətin hissəsi idi, bunu yerinə yetirmək üçün bir erməni hiyləsindən istifadə olunub. Belə ki, türkcə təmiz danışan, özünü türk tələbə kimi qələmə verən Qraç Papazyan mühacirətdə yaşayan “Gənc türklər hərəkatı”nın üzvləri ilə yaxın əlaqələr qura bilib, onlardan araşdırmaçı tələbə kimi bütün lazımi məlumatları qoparmağa müvəffəq olub. Qətllərin törədilməsi üçün 3–5 nəfərdən ibarət qruplar yaradılıb, bu qruplar qətlə yetiriləcək şəxsləri izləməklə məşğul olub, sonra qrupdan bir nəfər qətli törədib, əgər öldürmək istədikləri şəxsi cangüdənlər qoruyurdusa onda qətlə iki-üç fədai birgə gedib. Əməliyyatın iki əsas təşkilati mərkəzləri olub. Bunlar “Çakatamart” *(İstanbul, Osmanlı)* və “Droşak” *(Boston, ABŞ)* qəzetlərinin redaksiyaları idi.

Biz müəlliflər 1920-ci ildən başlayan ilk Nemezis qətllərinin xronologiyasını verəcəyik, eləcə də oradan nisbətən yeni dövrə – xalqımızın digər qürur rəmzi olan ASALA təşkilatının, eləcə də “3 oktyabr” və ESƏD təşkilatlarının 1975-2001-ci illər ərzində dünyanı silkələyərək həyata keçirdikləri qisas aktları siyahısını təqdim edəcəyik. Buyurun, əziz xalqımız, oxuyun, həzz alın, şərəf duyun, siz də özünüzü mübarizəyə kökləyin.

**1. 19 iyun 1920-ci il, Tiflis, Gürcüstan.** Azərbaycan Demokratik Respublikasının keçmiş baş naziri Fətəli xan Xoyski qətlə yetirilib, keçmiş ədliyyə naziri Xəlil bəy Xasməmmədov isə yaralanıb. Qətli erməni terrorçu Aram Yerkaryan törədib.

**2. 19 iyul 1920-ci il, Tiflis, Gürcüstan.** Azərbaycan parlamentinin keçmiş sədr müavini Həsən bəy Ağayev qətlə yetirilib.

**3. 15 mart 1921-ci il, Berlin, Almaniya.** Osmanlı imperiyasının keçmiş daxili işlər naziri Tələt Paşa qətlə yetirilib. Xatırladaq ki, Tələt Paşanın adı Nemezis siyahısında birinci gəlirdi. Tələt Paşanın qatili kimi Soqomon Teyleryan tarixə düşüb. Onu da deyək ki, fədaimiz zamanında Berlin məhkəməsi tərəfindən bəraət alıb və azadlığa buraxılıb.

**4. 5 dekabr 1921-ci il, Roma, İtaliya.** Atla gəzinti zamanı Osmanlı imperiyasının keçmiş sədr-əzəmi Səid Hilmi Paşa qətlə yetirilib. Qətli törədən fədaimiz Arşavir Şirakyanı həbs etmək mümkün olmayıb. Bu qətlin təşkilatçıları arasında Ermənistanın Romadakı keçmiş səfiri Mikael Vartanyan da olub.

**5. 17 aprel 1922-ci il, Berlin, Almaniya.** Ailəvi gəzinti zamanı keçmiş Trabzon valisi Camal Əzim və "Təşkilati Məxsusə"nin yaradıcısı Bahəddin Şakir qətlə yetirilib. Qətli fədailərimiz Arşavir Şirakyan və Aram Yerkanyan törədib.

**6. 19 iyul 1921-ci il, İstanbul, Türkiyə.** Azərbaycanın keçmiş daxili işlər naziri Behbud xan Cavanşir qətlə yetirilib. Qətli törədən fədai Misak Torlakyanın işinə Britaniya hərbi tribunalı baxıb, tribunal onu qətli törətməkdə günahkar bilsə də qətli törədərkən "affekt" vəziyyətində olduğunu əsas gətirərək törətdiyi cinayətə görə məsuliyyət daşıya bilməyəcəyini elan edərək Yunanıstana deportasiya edib.

**7. 25 iyul 1922-ci il, Tiflis, Gürcüstan.** Osmanlı imperiyasının keçmiş hərbi dəniz qüvvələri naziri Camal Paşa qətlə yetirilib. Qətli fədailərimiz Petros Ter-Poqosyan və Artaşes Qevorqyan törədib.

**8. 31 may 1920-ci il Kürdəmir, Azərbaycan.** Azərbaycan Demokratik Respublikasının Baş naziri Nəsib bəy Yusifbəyli qətlə yetirilib.

**9. 20 yanvar, 1975-ci il.** Beyrut, Livan. Ümumdünya Kilsə Şurasının baş mənzil-qərargahı partladılıb.

**10. 20 fevral, 1975-ci il. Beyrut, Livan.** Türkiyənin Türk Hava Yolları aviaşirkətinin ofisinin qarşısında partlayıcı qurğu işə düşüb, ofisin binasına ciddi ziyan vurulub.

**11.14 oktyabr, 1975-ci il. Paris, Fransa.** Türkiyənin Fransadakı səfiri İsmail Erez və onun sürücüsü Talip Yener qətlə yetirilib, ESƏD məsuliyyəti öz boynuna götürüb, ASALA da bu aktı özünün təşkil etdiyini bildirib.

**12. 22 oktyabr, 1975-ci il. Vyana, Avstriya.** Türkiyə səfirliyinə daxil olan üç nəfər fədaimiz səfir Danış Tunalıgili avtomatik silahla qətlə yetiriblər.

**13. 28 oktyabr, 1978-ci il. Beyrut, Livan.** Türkiyə səfirliyi raketlərlə atəşə tutulub.

**14. 16 fevral, 1976-cı il. Beyrut, Livan.** Türkiyə səfirliyinin birinci katibi Oktar Sirt qətlə yetirilib.

**15. 1976-1979-cu illər. Türkiyə.** İqtisadi və hərbi xarakterli obyektlərdə fədailərimiz tərəfindən ardıcıl olaraq diversiyalar və obyektlərə hücumlar həyata keçirilib.

**16. 17 may, 1976-cı il. Frankfurt, Köln, Essen şəhərləri, Almaniya Demokratik Respublikası.** Türk konsulluqlarında partlayışlar həyata keçirilib.

**17. 8 yanvar, 1977-ci il. Moskva, SSRİ.** Bir neçə saat ərzində şəhərin üç yerində – İzmaylovo metro stansiyasında və iki ərzaq mağazasında güclü partlayışlar törədilib, 7 nəfər ölüb, 27 nəfər yaralanıb.

**18. 2 mart, 1977-ci il. Beyrut, Livan.** Türkiyə səfirliyinin hərbi və inzibati məsələlər üzrə attaşesi Nahit Karakay və İlhan Özbabakanın avtomobilləri partladılıb.

**19. 6 iyun, 1977-ci il. Sürix, İsveç.** Çox güclü partlayış nəticəsində milliyyəti türk olan Hüseyn Bülbülə məxsus mağaza tam dağıdılıb.

**20. 2 iyun, 1978-ci il. Madrid, İspaniya.** Silahlanmış üç fədaimiz türk səfiri Zəki Küneralpın maşınını atəşə tutub, nəticədə səfirin həyat yoldaşı Neqla Küneralp və maşında olan keçmiş səfir Bəşir Balsoğlu həlak olublar, milliyətcə ispan olan sürücü Antonio Torres aldığı yaralardan xəstəxanada keçinib.

**21. 17 dekabr, 1978-ci il. Cenevrə, İsveçrə.** Türk aviaşirkətlərindən birinin ofisində partlayıcı qurğu işə düşüb, partlayış nəticəsində ofisə ciddi ziyan dəyib.

**22. 7 avqust, 1979-cu il. Frankfurt-na-Odre, Almaniya Demokratik Respublikası.** Türk aviaşirkətinin ofisində partlayış baş verib, partlayış nəticəsində küçədən keçən alman vətəndaşları yaralanıblar.

**23. 22 avqust, 1979-cu il. Cenevrə, İsveçrə.** Türkiyənin Cenevrədəki konsulu Niyazi Adalının maşınına qoyulmuş partlayıcı qurğu işə düşüb, nəticədə küçədən keçən bir neçə isveçrəli yaralanıb.

**24. 4 oktyabr, 1979-cu il. Kopenhagen, Danimarka.** Türk aviaşirkətinin ofisi yaxınlığında baş vermiş partlayış nəticəsində ofisə ciddi ziyan dəyib, iki nəfər danimarkalı yaralanıb.

**25. 12 oktyabr, 1979-cu il. Haaqa, Niderland.** Türkiyənin bu ölkədəki səfiri Özdəmir Benlərin oğlu, 27 yaşlı Əhməd Benlər öz maşınında qətlə yetirilib, qətlə qörə məsuliyyəti ASALA və ESƏD birlikdə öz üzərilərinə götürüblər.

**26. 30 oktyabr, 1979-cu il. Milan, İtaliya.** Türk aviaşirkəninn ofisində partlayış törədilib.

**27. 8 noyabr, 1979-cu il. Roma, İtaliya.** Həyata keçirilmiş partlayış nəticəsində Türkiyə səfirliyinin binasına ciddi ziyan dəyib.

**28. 18 noyabr, 1979-cu il. Paris, Fransa.** Üç aviaşirkətin ofisinin qarşısında partlayışlar baş verib, bunun nəticəsində Türk Hava Yolları, KLM və Lufthanza şirkətlərinin ofislərinə ciddi ziyan dəyib, iki fransalı polis yaralanıb.

**29. 25 noyabr, 1979-cu il. Madrid, İspaniya.** Britaniya hava yolları şirkətinin və Amerika aviaşirkətlərindən birinin ofisinin qarşısında partlayış baş verib, partlayışa görə məsuliyyəti ASALA öz üzərinə götürüb, ASALA bunu Roma papası II İoann Pavelə onun Türkiyəyə nəzərdə tutulan səfərindən vaz keçməsi üçün xəbərdarlıq olduğunu elan edib.

**30. 17 dekabr, 1979-cu il. London, Böyük Briyaniya.** Türk aviaşirkətinin Londondakı ofisində partlayış baş verib, partlayış nəticəsində binaya ciddi ziyan dəyib.

**31. 22 dekabr, 1979-cu il. Paris, Fransa.** Türkiyə səfirliyinin turizm məsələləri üzrə attaşesi Elmaz Şolpan Parisin mərkəzində qətlə yetirilib.

**32. 22 dekabr, 1979-cu il. Amsterdam, Niderland.** Türk hava yolları şirkətinin ofisinin qarşısında partlayış baş verib, nəticədə binaya ciddi ziyan dəyib.

**33. 23 dekabr, 1979-cu il. Roma, İtaliya.** Kilsələr Şurasının qarşısında partlayış baş verib, dağıntılar törədilib.

**34. 23 dekabr, 1979-cu il. Roma, İtaliya.** Fransa və ABŞ aviaşirkətlərinin ofislərinin qarşısında üç partlayış baş verib, partlayışlar nəticəsində küçədən keçən bir neçə şəxs yaralanıb. Partlayışa görə məsuliyyəti öz boynuna götürən ASALA bunu "ermənilərə qarşı apardığı siyasətə görə Fransa hökümətinə cavab" adlandırıb.

**35. 10 yanvar, 1980-ci il. Tehran, İran.** Türkiyə aviaşirkətinin bürosunun qarşısında partlayış baş verib.

**36. 18 fevral, 1980-ci il. Roma, İtaliya.** "Lüfthanza", "Svis Eyr" və "El Al" şirkətlərinin ofisləri partladılıb. ASALA "Lüfthanza"nı "türk faşizminə yardım edən alman hökumətinin cəzalandırılması məqsədi ilə, "Svis Eyr"i gunahsız erməni fədailərini həbsxanaya salmaması üçün İsveçrə hökumətinə xəbərdarlıq üçün, "El Al"–ı isə sionizmə görə cəzalandırdıqlarını bildirib.

**37. 31 iyul, 1980-ci il. Afina, Yunanıstan.** Türkiyə səfirliyinin idarəetmə məsələləri üzrə attaşesi Qalib Özman ailəsi ilə birlikdə avtomobildə olarkən fədailərimizin hücumuna məruz qalıb, attaşe və onun 14 yaşlı qızı Nəslihan hadisə yerində həlak olublar, onun həyat yoldaşı Sevil və 16 yaşlı oğlu Kaan isə ağır yaralanıblar.

**38. 5 avqust, 1980-ci il. Lion, Fransa.** İki fədaimiz türk konsulluğunun binasına zorla daxil olaraq ətrafa atəş açıblar, iki nəfəri qətlə yetiriblər, bir neçə nəfər isə yaralanıb.

**39. 26 sentyabr, 1980-ci il. Paris, Fransa.** Erməni terrorçuları iki dəfə Türkiyə səfirliyinin mətbuat məsələləri üzrə attaşesi Selcu Baklabaşına atəş açıblar. Selcu sağ qalsa da, ömürlük iflic olub.

**40. 3 oktyabr, 1980-ci il. Cenevrə, İsveçrə.** Otel otağında bomda hazırlayarkən iki fədai – Süzi Mesxedjan və Aleksandr Yeniqomşyan yaralanıb. Onların həbs edilməsinə etiraz edərək ASALA yeni "3 oktyabr qrupu" adlı yeni qisas təşkilatı yaradıb. Bu qrup sonradan bütün dünyada İsveçrə təşkilatlarına hücumlar həyata keçirib.

**41. 3 oktyabr, 1980-ci il. Milan, İtaliya.** Türk aviaşirkətinin ofisinin qarşısında baş verən partlayış nəticəsində iki nəfər İtaliya vətəndaşı yaralanıb.

**42. 5 oktyabr, 1980-ci il. Madrid, İspaniya.** Partlayış nəticəsində "Al İtaliya" aviaşirkətinin ofisinə ciddi ziyan dəyib, 12 nəfər yaralanıb.

**43. 10 oktyabr, 1980-ci il. Beyrut, Livan.** Beyrutun qərbində İsveçrə təşkilatlarının qarşısında bir neçə partlayış baş verib, məsuliyyəti "3 oktyabr" qrupu ASALA ilə birgə oz boynuna götürüb.

**44. 12 oktyabr, 1980-ci il. London, Böyük Britaniya.** Partlayış nəticəsində Türkiyə turizm və məlumat bürosuna ciddi ziyan dəyib.

**45. 12 oktyabr, 1980-ci il. London, Böyük Britaniya.** İsveçrə ticarət mərkəzində fədailərimiz partlayış törədiblər.

**46. 13 oktyabr, 1980-ci il. Paris, Fransa.** Partlayış nəticəsində Parisdə yerləşən İsveçrə turizm bürosunun binasına ciddi ziyan dəyib.

**47. 4 noyabr, 1980-ci il. Cenevrə, İsveçrə.** Partlayış nəticəsində Cenevrədə yerləşən məhkəmə binası ciddi zədələnib. İsveçrə hüquq mühafizə orqanları partlayışı ASALA–nın törətdiyini bildirib, bir müddət sonra "3 oktyabr" qrupundan olan fədailər də məsuliyyəti öz boynuna götürüblər.

**48. 9 noyabr, 1980-ci il. Strasburq, Fransa.** Partlayış nəticəsində Strasburqdakı Türkiyə konsulluğuna ciddi ziyan dəyib, terror aktına görə məsuliyyəti "Türk – kürd işçi partiyası" və ASALA öz üzərilərinə götürüblər.

**49. 10 noyabr, 1980-ci il. Roma, İtaliya.** Romada yerləşən İsveçrə aviaşirkətinin ofisində və İsveçrə turizm bürosunda baş vermiş partlayış nəticəsində 5 nəfər yaralanıb.

**50. 19 noyabr, 1980-ci il. Roma, İtaliya.** Türkiyə səfirliyi nəzdində fəaliyyət göstərən turizm bürosunun və türk aviaşirkətinin yerləşdiyi binada partlayış baş verib.

**51. 25 noyabr, 1980-ci il. Cenevrə, İsveçrə.** Fədailərimizin törətdikləri partlayış nəticəsində "İsveçrə banklar ittifaqı"nın binasına ciddi ziyan dəyib, bir nəfər xəsarət alıb.

**52. 25 dekabr, 1980-ci il. Sürix, İsveçrə.** Partlayış nəticəsində Kloten hava limanının radiolakasiya sisteminin idarəedici qurğusu tam sıradan çıxıb, ikinci bu cür partlayıcı qurğu isə hava limanının əsas üçuş enmə zolağında aşkar olunub, əfsus ki, zərərsizləşdirilib, partlamayıb.

**53. 29 dekabr, 1980-ci il. Madrid, İspaniya.** "Svis Eyr" aviaşirkətinin ofisində partlayış baş verib, hadisə yerindən reportaj hazırlayan ispan jurnalist ikinci bombanın partlaması zamanı ağır bədən xəsarətləri alıb.

**54. 30 dekabr, 1980-ci il. Beyrut, Livan.** "Svis Kredit" şirkətinin ofisində partlayış baş verib.

**55. 14 yanvar, 1981-ci il. Paris, Fransa.** Türkiyə səfirliyinin maliyyə məsələləri üzrə müşaviri Əhməd Erbəylinin maşınında partlayış baş verib. Ətrafdakı binalara və maşınlara ciddi ziyan dəyib. ASALA-nın özünü "Aleks Yeqişemonyan qrupu" adlandıran yeni yaradılmış qisas dəstəsi partlayışa görə məsuliyyəti öz boynuna götürüb.

**56. 27 yanvar, 1981-ci il. Milan, İtaliya.** Partlayış nəticəsində "Svis Eyr" aviaşirkətinin bürosuna ciddi ziyan dəyib. Küçədən keçən iki nəfər İtaliya vətəndaşı yaralanıb.

**57. 3 fevral, 1981-ci il. Los-Anceles, ABŞ.** İsveçrə konsulluğunun pilləkanları altında qizlədilmiş partlayıcı qurğu aşkarlanaraq zərərsizləşdirilib. "3 oktyabr" qrupu məsuliyyəti öz boynuna götürərək İsveçrə hokumətini erməni fədaisi Syuzi Mesxeredjyanı sərbəst buraxmadıqca bu cür aksiyaların davam edəcəyi ilə hədələyib.

**58. 5 fevral, 1981-ci il. Paris, Fransa.** ABŞ və Fransaya məxsus iki aviaşirkətin ofisində qoyulmuş partlayıcı qurğuların işə düşməsi nəticəsində bir nəfər yaralanıb, ofislərə ciddi ziyan dəyib.

**59. 4 mart, 1981-ci il. Paris, Fransa.** ASALA-nın Şaan Natali adlı qrupundan olan iki nəfər fədai türk diplomatlarına hücüm edib. Diplomatlar – Türkiyə səfirliyinin əmək məsələləri üzrə attaşesi Roşat Moralı, səfirlikdə din məsələləri üzrə attaşe Teselli Arı və Anadolu bankının Parisdəki nümayəndəsi İlkay Karakoş küçədə avtomobilə əyləşərkən onlara atəş açılıb. Moralı və Karakoş qaçmağa cəhd ediblər, Moralı yaxınlıqdakı kafeyə daxil olub, lakin kafenin cəsur sahibi onu itələyib bayıra çıxarıb və burada fədailərimiz onu güllələyiblər, əfsus ki, Karakoş gizlənə bilib və sağ qalıb. Teselli Arı isə sabahısı gün xəstəxanada keçinib.

**60. 12 mart, 1981-ci il. Tehran, İran.** Bir qrup fədaimiz Tehrandakı Türkiyə səfirliyinə hucum edib, nəticədə iki təhlükəsizlik xidməti əməkdaşı öldürülüb.

**61. 3 aprel, 1981-ci il. Kopenhagen, Danimarka.** Türkiyə səfirliyinin əmək məsələləri üzrə attaşesi Kavit Dəmir evinin yaxınlığında olarkən fədaimiz ona bir neçə dəfə atəş açıb, onu yaralayıb, lakin təəssüf ki, həkimlərin səyi nəticəsində diplomat sağ qalıb.

**62. 9 iyun, 1981-ci il. Cenevrə, İsveçrə.** Türkiyə konsulluğunun katibi Məhmət Savaş Ergüz fədaimiz tərəfindən odlu silahla açılan atəş nəticəsində qətlə yetirilib. Qətli törədən Martin Camoqçyan polis tərəfindən həbs olunub. Camoqçyanın həbsi ASALA tərəfindən "9 iyun təşkilatı" adlı yeni qisas dəstəsinin yaranmasına səbəb olub, bu dəstənin üzvləri sonradan İsveçrədə və ondan kənarda yerləşən bir neçə İsveçrə şirkətinin ofislərində partlayışlar törədiblər.

**63. 19 iyun, 1981-ci il. Tehran, İran.** "Svis Eyr" aviaşirkətinin ofisində partlayış baş verib, partlayışa görə məsuliyyəti ASALA-nın "9 iyun təşkilatı" öz üzərinə götürüb.

**64. 19 iyul, 1981-ci il. Bern, İsveçrə.** İsveçrə parlamentinin binasında partlayış baş verib, zibil qabına qoyulmuş partlayıcı qurğu işə düşüb. Partlayışı "9 iyun təşkilatı" törədib.

**65. 20 iyul, 1981-ci il. Sürix, İsveçrə.** Fədailərimiz Sürix beynəlxalq hava limanında yerləşən fotoavtomatın içərisinə partlayıcı

qurğu qoyaraq partlayış törədiblər. "9 iyun təşkilatı" partlayışa görə məsuliyyəti öz üzərinə götürüb.

**66. 21 iyul, 1981-ci il. Lozanna, İsveçrə.** Lozanna univermağında qadın geyimləri bölməsində partlayış baş verirb, 20 nəfər qadın alıcı müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Partlayışa görə məsuliyyəti "9 iyun təşkilatı" öz üzərinə götürüb.

**67. 21 iyul, 1981-ci il. Cenevrə, İsveçrə.** Cenevrə dəmir yolu vağzalının saxlanma kamerasına qoyulmuş partlayıcı qurğunun işə düşməsi nəticəsində dörd nəfər yaralanıb. Bu aktı "9 iyun təşkilatı" törədib.

**68. 11 avqust, 1981-ci il. Kopenhagen, Danimarka.** İki partlayıcı qurğunun işə düşməsi nəticəsində "Svis eyr" aviaşirkətinin ofisinə ciddi ziyan dəyib, bir nəfər amerikalı turist yaralanıb. Partlayışa görə məsuliyyəti "9 iyun təşkilatı" öz üzərinə götürüb.

**69. 20 avqust, 1981-ci il. Paris, Fransa.** "Al İtaliya" aviaşirkətinin Paris nümayəndəliyinin qarşısında partlayış baş verib. Partlayışa görə məsuliyyəti "3 oktyabr erməni hərəkatı təşkilatı" öz üzərinə götürüb.

**70. 22 avqust, 1981-ci il. Paris, Fransa.** Yunanıstana məxsus "Olimpik Eyrlayns" şirkətinin Paris filialının binası qarşısında partlayış baş verib. Partlayışa görə məsuliyyəti "3 oktyabr erməni hərəkatı təşkilatı" məsuliyyət daşıdığını etiraf edib.

**71. 15 sentyabr, 1981-ci il. Kopenhagen, Danimarka.** Türkiyə aviaşirkətinin ofisinin qarşısında baş vermiş partlayış nəticəsində iki nəfər yaralanıb. Təəssüf ki, polis ikinci partlayıcı qurğunu aşkar edərək zərərsizləşdirə bilib. Terror aktına görə məsuliyyəti "Altıncı erməni azadlıq ordusu" adlı qrup öz üzərinə götürüb.

**72. 22 sentyabr, 1981-ci il. Tehran, İran.** Partlayış nəticəsində Tehrandakı İsveçrə səfirliyinin binasına ciddi ziyan dəyib. Partlayışa görə məsiliyyəti ASALA-nın törəməsi olan "9 iyun təşkilatı" öz üzərinə götürüb.

**73. 24 sentyabr, 1981-ci il. Paris, Fransa.** Möhtəşəm bir qisas əməliyyatı. Fədailərimiz Parisdəki Türkiyə konsulluğuna basqın təş-

kil edib. "Van əməliyyatı" adlanan bu parlaq əməliyyat zamanı dörd nəfərdən ibarət əslən Livan ermənisi olan fədai qrupu konsulluğun binasına daxil olub, konsul Kaya İnalı və təhlükəsizlik xidmətinin əməkdaşı Cəmal Özəni ağır yaralayıblar. Fədailərimiz konsulluqdakı 56 nəfəri girov götürərək 15 saat ərzində konsulluq binasını girovlarla birgə öz nəzarətlərində saxlayıblar. Bu qəhrəmanların adlarını mütləq çəkməliyik. Dəstənin başçısı Vazgen Sislyan, onun döyüşçüləri Gevork Gözəlyan, Akop Culfayan, Aram Basmacyan binanı tam ələ keçirdikdən sonra öz tələblərini irəli sürüblər. Tələbləri isə Türkiyədə həbsdə olan bir neçə erməni və kürd fədaisinin azad edilməsi olub. Lakin Türkiyə hökuməti bu tələbə rədd cavabı verib, bundan sonra terrorçular məcburən təslim olaraq Fransa hökumətindən siyasi sığınacaq istəyiblər.

**74. 3 oktyabr, 1981-ci il. Cenevrə, İsveçrə.** Fədailərimiz Cenevrə şəhər poçtunun və məhkəməsinin binasında partlayışlar törədiblər. Partlayışın baş verdiyi məhkəmə binasında ASALA-dan olan bir fədaimizin məhkəmə prosesi keçirilməli imiş, o, qətldə təqsirləndirilirdi. Partlayışa görə məsiliyyəti ASALA-nın "9 iyun təşkilatı" öz üzərinə götürüb.

**75. 25 oktyabr, 1981-ci il. Roma, İtaliya.** Silahlı fədaimiz Romadakı Türkiyə səfirliyinin ikinci katibi Gökberk Ergenekona atəş açıb. Qolundan yaralanmış diplomat maşından çıxıb fədaimizə cavab atəşi açaraq onu yaralayıb, yaralı vəziyyətdə olan fədaimiz hadisə yerindən qaçmağa müvəffəq olub. ASALA bu akta görə məsuliyyəti öz üzərinə götürüb və aksiyanın Parisdə türk konsulluğuna basqın təşkil etmiş erməni fədailərinin şərəfinə təşkil olunduğunu bildirib.

**76. 25 oktyabr, 1981-ci il. Paris, Fransa.** Paytaxtın Yelisey çöllərindəki bahalı "Beaute" restoranında partlayış baş verib. Partlayış nəticəsində restoranın işçilərindən 3 nəfər yaralanıb. Olaya görə məsuliyyəti 1981-ci il sentyabrın 24-də Parisdəki türk konsulluğuna basqın etmiş erməni fədailərinin şərəfinə yaranmış "September Frans" qrupu öz üzərinə götürüb.

**77. 26 oktyabr, 1981-ci il. Paris, Fransa.** Fədailərimizin aksiyalar üçün çox bəyənərək seçdikləri Yelisey çöllərində növbəti aksiya həyata keçirilib, orada yerləşən aptekin qarşısında park edilmiş avtomobildə quraşdırılmış partlayıcı qurğu işə düşüb. Partlayışa görə məsuliyyəti "September Frans" qrupu öz üzərinə götürüb.

**78. 27 oktyabr, 1981-ci il. Paris, Fransa.** "Ruasi" beynəlxalq hava limanının avtomobil dayanacağında partlayış baş verib. Partlayışa görə məsuliyyəti "September Frans" qrupu öz üzərinə götürüb.

**79. 27 oktyabr, 1981-ci il. Paris, Fransa.** "Ruasi" beynəlxalq hava limanında eskalatorun yanında yerləşən zibil qutusuna qoyulmuş partlayıcı qurğu işə düşüb, bir neçə nəfər xəsarət alıb. Partlayışa görə məsuliyyəti "September Frans" qrupu öz üzərinə götürüb.

**80. 3 noyabr, 1981-ci il. Madrid, İspaniya.** "Svis Eyr" aviaşirkətinin ofisinin qarşısında baş vermiş partlayış nəticəsində 3 nəfər yaralanıb, ətrafdakı binalara ciddi ziyan dəyib.

**81. 5 noyabr, 1981-ci il. Paris, Fransa.** "Qar de Lion" dəmir yolu vağzalında baş vermiş partlayış nəticəsində yaralananlar olub, saxlanma kameralarına ciddi ziyan dəyib. Özünü "Orli təşkilatı" adlandıran dəstə bu aksiyaya görə məsuliyyəti öz üzərinə götürüb.

**82. 12 noyabr, 1981-ci il. Beyrut, Livan.** Fransa mədəniyyət mərkəzinin, Fransa konsulunun evinin və "Eyr Frans" aviaşirkətinin binalarının qarşısında eyni vaxtda partlayışlar baş verib. Partlayışlar nəticəsində binalara ciddi maddi ziyan dəyib. Bu partlayışlara görə "Orli təşkilatı" adlanan qrup məsuliyyəti öz üzərinə götürüb. Fədailərimiz Fransada Orli hava limanında üzərində saxta sənədlər gəzdirən və fransız polisi tərəfindən həbs olunmuş həmyerlimizin sərbəst buraxılmasını tələb ediblər. Digər tələb isə həmin vaxt terror ittihamı ilə həbsdə olan erməni qəhrəmanı, xalqımızın sevimlisi Monte Melkonyanın azadlığa buraxılması olub.

**83. 14 noyabr, 1981-ci il. Paris, Fransa.** Eyfel qülləsinin yaxınlığında partlayış baş verib, partlayış nəticəsində yaxınlıqda park edilmiş avtomobil yararsız vəziyyətə düşüb. "Orli Təşkilatı" məsuliyyəti

öz üzərinə götürüb və bunun Fransa hökumətinə "ilk xəbərdarlıq" olduğunu bildirib.

**84. 14 noyabr, 1981-ci il. Paris, Fransa.** Fədailərimiz Sena çayında gəzintidən sonra sahilə çıxan xarici turistlərdən ibarət qrupa bir neçə qumbara atıblar. Aksiyaya görə "Orli Təşkilatı" məsuliyyəti öz üzərinə götürüb.

**85. 16 noyabr, 1981-ci il. Paris, Fransa.** "Qar de Lest" dəmir yolu vağzalının saxlanma kamerasına qoyulmuş bombanın partlaması nəticəsində iki nəfər yaralanıb, vağzala isə maddi ziyan dəyib.

**86. 13 yanvar, 1982-ci il. Toronto, Kanada.** Qisas əməliyyatlarımızın coğrafiyası genişlənərək Şimali Amerikanın Kanada dövlətinə də çatıb. Partlayış nəticəsində Türkiyənin Torontodakı konsulluğuna ziyan dəyib.

**87. 17 yanvar, 1982-ci il. Cenevrə, İsveçrə.** Avtomobil dayanacağının yaxınlığında iki partlayıcı qurğu işə düşüb, "9 iyun təşkilatı" adlı dəstə partlayışa görə məsuliyyəti öz üzərinə götürüb.

**88. 17 yanvar, 1982-ci il. Paris, Fransa.** Paris Bank İttifaqının ofislərinin birində partlayış baş verib.

**89. 19 yanvar, 1982-ci il. Paris, Fransa.** Konqress sarayında "Eyr Frans" aviaşirkətinin ofisində partlayış baş verib. Partlayışa görə "Orli təşkilatı" məsuliyyəti öz boynuna götürüb.

**90. 26 mart, 1982-ci il. Beyrut, Livan.** Beyrutun erməni məhəlləsində maraqlı bir qisas planı işə düşüb, orada türk filmlərinin nümayiş olunduğu kinoteatr partladılıb, türk filmindən feyziyab olanlar cəzalarını alıblar.

**91. 8 aprel, 1982-ci il. Ottava, Kanada.** Fədailərimiz Türkiyə səfirliyinin ticarət attaşesi Gəni Güngürə hücüm edib onu ağır yaralayıblar.

**92. 10 may, 1982-ci il. Cenevrə, İsveçrə.** İki Cenevrə bankında partlayış baş verib, partlayışlar nəticəsində banklara maddi ziyan dəyib.

**93. 26 may, 1982-ci il. Los-Anceles, ABŞ.** Partlayış nəticəsində İsveçrə Bank Korporasiyasının ofisinə ziyan dəyib.

**94. 30 may, 1982-ci il. Los-Anceles, ABŞ.** Üç nəfər ASALA üzvü olan fədaimiz “Eyr Kanada” aviaşirkətinin yük terminalının qarşısında partlayıcı qurğunu işə salıblar. Partlayıcı qurğu Los-Anceles polisinin xüsusi dəstəsi tərəfindən zərərsizləşdirilib, fədailərimiz həbs olunublar. Amma bu aksiya yeni qisas aksiyalarının yaranmasına rəvac verib.

**95. 21 iyul, 1982-ci il. Paris, Fransa.** Sent Servin meydanında yerləşən kafenin yanında partlayış baş verib, partlayışa görə məsuliyyəti “Orli təşkilatı” öz üzərinə götürüb. Fədailərimiz mətbuata ünvanladıqları müraciətdə partlayışın Fransa hökumətinə xəbərdarlıq olduğunu bildiriblər. Bildirək ki, Fransa hökuməti vədinə əməl etməyərək türk konsulluğuna basqın etmiş 4 erməniyə siyasi sığınacaq verməməkdə ittiham olunurdu.

**96. 26 iyul, 1982-ci il. Paris, Fransa.** “Pab Sent Jermen” kafesində baş vermiş partlayış nəticəsində iki qadın yaralanıb. Partlayışa görə məsuliyyəti “Orli təşkilatı” öz üzərinə götürüb.

**97. 2 avqust, 1982-ci il. Paris, Fransa.** Fədaimiz Pyer Qumulyan özünün hazırladığı partlayıcı qurğunun işə düşməsi nəticəsində öz mənzilində həlak olub. Hərəkatımız daha bir qəhrəman övladını itirib.

**98. 7 avqust, 1982-ci il. Ankara, Türkiyə.** Fədailərimiz beynəlxalq hava limanına hücum təşkil edib, tapanca və əl qumbaraları ilə silahlanaraq gözləmə zalında olan insanlara atəş açıb. Bir fədai hava limanının restoranında 20 nəfəri girov qötürüb, digəri isə polis tərəfindən yaxalanıb. Girovları öldürəcəyi ilə hədələyən fədaimiz ilə atışma zamanı biri ABŞ vətəndaşı olmaqla 9 nəfər həlak olub. Qisas aktımız zamanı 82 nəfər yaralanıb.

Məşhur fədaimiz Levon Əkməkcyan məhkəmənin hökmü ilə edam cəzasına məhkum olunub. Bununla belə, onun adı xalqımızın yaddaşında daim yaşayacaqdır.

**99. 8 avqust, 1982-ci il. Burqas, Bolqarıstan.** Türkiyə konsulluğunun inzibati məsələlər üzrə attaşesi Bora Suelkan evinin qarşısında qətlə yetirilib.

**100. 22 yanvar, 1983-cü il. Paris, Fransa.** İki fədaimiz Türk hava yollarının Parisdəki bürosuna əl qumbaraları atıb. Onlardan biri həbs olunub.

**101. 28 fevral, 1983-cü il. Paris, Fransa.** "Marmara Travel Agency" turizm şirkətinin ofisində baş vermiş partlayış nəticəsində şirkətin əməkdaşı fransız Rone Marin həlak olub, daha 9 nəfər Fransa vətəndaşı yaralanıb. Partlayışdan bir neçə dəqiqə sonra ASALA məsuliyyəti öz üzərinə götürüb.

**102. 24 may, 1983-cü il. Brüssel, Belçika.** Türk turizm şirkətinin və Türkiyə səfirliyinin mədəniyyət mərkəzinin binası qarşısında partlayışlar baş verib. Səyahət bürosunun milliyətcə italyan olan direktoru partlayış nəticəsində yaralanıb.

**103. 16 iyun, 1983-cü il. İstanbul, Türkiyə.** Əl qumbaraları və avtomatik silahla silahlanmış fədaimiz Mkrtıç Mardaryan İstanbulda "Kapalı Çarşı" ticarət mərkəzində türklərə hücüm edib, nəticədə iki türk vətəndaşı həlak olub, 21 nəfər isə yaralanıb. Cəsur Mkrtıç hadisə yerində öldürülüb.

**104. 8 iyul, 1983-cü il. Paris, Fransa.** Erməni fədailəri Britaniya Şurasının binasına basqın ediblər. Bununla onlar ASALA üzvlərinə Londonda qurulan məhkəməyə öz etirazlarını bildiriblər.

**105. 14 iyul, 1983-cü il. Brüssel, Belçika.** Türkiyə səfirliyinin attaşesi Dursun Aksoy öz maşınında qətlə yetirilib, ASALA, ESƏD və yeni yaradılan "Erməni inqilab ordusu" təşkilatı bu qətlə görə məsuliyyəti öz üzərlərinə götürüblər.

**106. 15 iyul, 1983-cü il. Paris, Fransa.** Xalqımızın daha bir qəhrəmanlıq nümunəsi. "Orli" hava limanında Türk hava yollarının kassasının qarşısında fədailərimizin təşkil etdikləri partlayış nəticəsində 8 nəfər həlak olub, 60 nəfər yaralanıb. Həlak olanlar arasında Fransa, ABŞ, İsveç və Türkiyə vətəndaşları yer alıb. Partlayışdan dərhal sonra fransız polisi ASALA ilə əlaqəli olan 51 nəfəri həbs edib, onlardan 11 nəfəri dindirilmək üçün prokurorluğa gətirilib və 6 nəfərə "terror aktının təşkili" ilə əlaqədar ittiham irəli sürülüb. Həbs olunan 6 nəfərin arasında qisas aktının əsas təşkilatçısı və dəstənin başçı-

sı Suriya ermənisi olan qəhrəman Varujan Karapetyan da yer alıb. Karapetyan oz günahını boynuna alaraq istintaqa verdiyi ifadələrdə bildirib ki, içində bomba olan çemodan hava limanında Türk Hava Yollarının kassasının qarşısında yox, təyyarə göydə olarkən partlamalı imiş. Təsəvvür edin, daha təsirli və daha gözəl bir qisas həyata keçməli imiş. Lakin əfsus ki, plan baş tutmayıb və bomba vaxtından əvvəl partlayıb.

**107. 22 iyul, 1983-cü il. Tehran, İran.** Fransanın Tehrandakı səfirliyində və "Eyr Frans"ın ofisində partlayışlar baş verib. Partlayışlara görə məsuliyyəti "Orli təşkilatı" öz üzərinə götürüb.

**108. 29 iyul, 1983-cü il. Tehran, İran.** Fədailərimiz Fransa səfirliyini raketlər ilə atəşə tutacaqları ilə təhdid ediblər, onların tələbi Fransada həbsdə olan 21 nəfər erməni terrorçusunun azadlığa buraxılması olub.

**109. 10 avqust, 1983-cü il. Tehran, İran.** İçərisində partlayıcı maddə qoyulmuş maşın Fransa səfirliyinin qarşısında partladılıb.

**110. 17 avqust, 1983-cü il. Tehran, İran.** "Eyr Frans" şirkətinin Tehrandakı nümayəndəsi öz maşınında avtomatik silahla atəşə tutulub.

**111. 25 avqust, 1983-cü il. Bonn, Almaniya.** Fransa səfirliyində baş vermiş partlayış nəticəsində 2 nəfər həlak olub, 23 nəfər yaralanıb.

**112. 9 sentyabr, 1983-cü il. Tehran, İran.** Fransa səfirliyinə məxsus iki avtomobil partladılıb. Partlayışlar nəticəsinddə səfirliyin iki əməkdaşı yaralanıb.

**113. 1 oktyabr, 1983-cü il. Marsel, Fransa.** Beynəlxalq ticarət yarmarkasında baş vermiş partlayış nəticəsində SSRİ, ABŞ və Əlcazirə məxsus pavilyonlara ziyan dəyib, bir nəfər həlak olub, 26 nəfər yaralanıb. Partlayışlara görə məsuliyyəti "Orli təşkilatı" öz üzərinə götürüb.

**114. 6 oktyabr, 1983-cü il. Tehran, İran.** Fransa səfirliyinin avtomobili partladılıb, iki nəfər fransız diplomatı yaralanıb. Partlayışlara görə məsuliyyəti "Orli təşkilatı" öz üzərinə götürüb.

**115. 29 oktyabr, 1983-cü il. Beyrut, Livan.** Fransa səfirliyinin qarşısında dayanmış avtomobildən çıxan fədaimiz səfirliyin pilləkanlarına əl qumbarası atıb.

**116. 28 mart, 1984-cü il. Tehran, İran.** Çoxplanlı qisas aksiyasında Tehranda çalışan bir sıra türk diplomatlarına hucumlar təşkil olunub. Həsən Servet Ötgemə – Türkiyə səfirinin katibinə evindən çıxarkən fədailərimiz hücum ediblər, diplomatı yaralayıblar. İki fədaimiz baş çavuş İsmayıl Pamukçuya atəş açaraq onu ağır yaralayıb. Səfirliyin inzibati məsələlər üzrə ataşesi polisə onun evinin qarşısında duran iki nəfər şübhəli şəxs barədə məlumat verib. Əfsus ki, polis türk diplomatının evinin qarşısında və Türkiyə səfirliyinin qarşısında beş fədaimizi həbs edib. Suren Qriqoryan adlı fədaimiz isə türk diplomatının maşınına quraşdırmaq istədiyi partlayıcı qurğunun vaxtından əvvəl işə düşməsi nəticəsində həlak olub.

**117. 28 aprel, 1984-cü il. Tehran, İran.** Türkiyə səfirliyinin əməkdaşı Sədiyyə Önder həyat yoldaşı İşık Öndərlə birgə avtomobillə irəliləyərkən avtomobil motosiklla hərəkət edən iki fədaimiz tərəfindən atəşə tutulub. Bu zaman İşık Öndər həlak olub.

**118. 13 avqust, 1984-cü il. Lion, Fransa.** Lion dəmir yolu vağzalında partlayış baş verib.

**119. 10 sentyabr, 1984-cü il. Tehran, İran.** İranda çalışan bir neçə türk şirkəti ASALA-dan hədələyici məktublar alıb, türk tikinti şirkətlərindən birinin ofisinə qumbara atılıb, bir nəfər türk vətəndaşı yaralanıb.

**120. 25 dekabr, 1984-cü il. Beyrut, Livan.** Fransaya məxsus iki bina partladılıb.

**121. 3 yanvar, 1985-ci il. Beyrut, Livan.** "Frans Press" informasiya agentliyinin ofisində partlayış baş verib, partlayış nəticəsində binaya ciddi maddi ziyan dəyib.

**122. 17 mart,1986-cı il. Lion, Fransa.** Liondan Parisə gedən qatarda partlayış baş verib.

**123. 20 oktyabr, 1987-ci il. Beyrut, Livan.** Fransanın Livandakı səfirliyinə hücum təşkil olunub.

**124. 11 dekabr, 1991-ci il. Budapeşt, Macarıstan.** Türkiyənin Macarıstandakı səfirinə hücum edilib.

**125. 26 fevral, 1992-ci il. Xocalı, Dağlıq Qarabağ, Azərbaycan.** Xalqımızın daha bir qəhrəmanlıq səhifəsi! Baş verən bu olay miqyasına görə adi qisas sayıla bilməz, belə ki, bir və ya bir neçə şəxsdən yox, böyük bir rayonun düşmən əhalisindən qisas alınıb. Bu qisas nəticəsində onlardan: uşaqlar – 63 nəfər; qadınlar – 106 nəfər; qocalar – 70 nəfər olmaqla 613 nəfər türk həlak olub. 8 ailə tamamilə məhv edilib; 25 uşaq hər iki valideynini itirib; 130 uşaq valideynlərindən birini itirib; 487 nəfər yaralanıb, onlardan; uşaqlar 76 nəfər olub; 1275 nəfər əsir götürülüb; 150 nəfər itkin düşüb. 1 şəhər, 1 qəsəbə, 8 kənd, 2495 yaşayış evi, 31 sənaye obyekti, 15 kənd təsərrüfatı obyekti, 20 təhsil, 14 səhiyyə müəssisəsi, 56 mədəniyyət, 5 rabitə obyekti və s. dağıdılıb.

**126. 3 fevral, 1993-cü il. Riqa, Latviya.** Cəsur oğullarımız “Latviyas Layks” qəzetinin redaktoru, tanınmış jurnalist Tatyana Çaladzeyə sui-qəsd ediblər. T.Çaladze 90-cı illərin əvvəllərində Rusiyada Latviya Xalq Cəbhəsi qəzetinin və “Azad Avropa” radiosunun xüsusi müxbiri işləmiş və “erməni terror təşkilatlarının cinayətlərini ilk olaraq işıqlandıran jurnalistlərdən biri” adını daşımışdır.

**127. 28 fevral, 1993-cü il. Qudermes, Rusiya.** Fədailərimiz Qudermes stansiyası yaxınlığında Kislovodsk-Bakı sərnişin qatarını partladıblar, nəticədə 11 nəfər həlak olub, 18 nəfər yaralanıb.

**128. 11 dekabr, 1993-cü il. Bağdad, İraq.** Fədailərimiz Türkiyə səfirliyinin attaşesi Çağlar Yüceli qətlə yetiriblər.

**129. 4 iyun, 1994-cü il. Afina, Yunanıstan.** Türkiyə səfirliyinin diplomatı Xaliq Sipahoğlu qətlə yetirilib.

**130. 3 iyul, 1997-ci il. Moskva, Rusiya.** Dövlət Dumasının müdafiə komitəsinin sədri, general Lev Roxlin dumanın iclasında Ermənistana bir milyard dollarlıq qanunsuz silah satılması barədə hesabat verdiyi üçün bağ evinin yanında fədaimiz tərəfindən qətlə yetirilib.

**131. 11 may, 2001-ci il. İsrail, Təl-Əviv yaxınlığı.** Misilsiz bir qisas aksiyamız çox təəssüf ki, həyata keçməyib. Təl-Əvivdən on-

larca kilometr şimalda İsrail hava hücumundan müdafiə qüvvələri Livanın "Sessna" təyyarəsini vurub salmışdır. Təyyarəni milliyyətcə erməni olan fədaimiz Stefan Ohanes Nikolyan idarə edirdi. Kamikadze Nikolyan İsrailin yaşayış məntəqələrindən birini məhv etməli idi, məqsədi baş tutmamışdır.

Biz xalqımızın 131 adda uzun bir qisas siyahısı ilə tanış olduq. Nəzərə alanda ki, bu siyahı tam çəkildə özündə 500 rəqəmini ehtiva edir, onda əzəmətli xalqımızın qəhrəmanlığı bizi heç bilirsinizmi necə coşdurur? Təkcə son 30 ildə müxtəlif fədai qruplarımız 200-dən artıq qisas aktı törətmiş, 70 siyasi qətlə rəvac vermişlər. Fədailərimiz 1500 düşmən insana müxtəlif bədən xəsarəti yetirmişlər. Üstəlik, Xocalı zəfəri!

Erməni gənci! Sən öz xalqının bu cür şərəfli tarixi ilə qürur duymalı, onu öyrənməli, təbliğ etməlisən! Sən bu tarixi davam etdirən sıra nəfəri olmalısan!"

## On altıncı hissə

## MƏŞHURLAR ERMƏNİLƏRƏ NİYƏ SÖYÜB?

Kirayənişinlərimin terror siyahısı, onların bu siyahı ilə qürrələnmələri əvvəl məndə onlara qarşı elə bir nifrət yaratdı ki, nəyi gizlədim, xüsusən Moskva metro teraktı və Xocalı soyqırımı hissələrində bu elitar təhsil müəssisəsində təhsil alan tələbələrin insan olmasına belə şübhələrim yarandı, onları həmən evimdən qovmaq da keçdi ağlımdan. Amma tez də nifrətim başqa hisslə əvəzləndi, onlara – öz millətçi böyüklərinin zərərli təsiri ilə zehinləri korşalmış bu gənclərə sadəcə yazığım gəldi.

Zibilə qalmış kitablarının bu ən mürtəce hissəsində onlara nə kimi P.S. yazmaq barədə çox baş sındırdım, axırda qərara gəldim ki,

bu səfehlərə məlum bir həqiqəti çatdırım, o həqiqəti ki, onların mənsub olduqları xalq həmişə qulaqardına vurub, etiraf etməkdən qaçıb. Bir tarix, ədəbiyyat kitablarını vərəqləyin, bir google axtarış şəbəkəsində axtarış verin, görün yer üzərində başqa hər hansı bir xalq barədə bu qədər yaramaz ifadələr, təhqirlər görə biləcəksinizmi? Yolları ermənilərlə kəsişmiş hər bir xalqın məşhur şəxsləri bu xalqın iç üzünü görcək onlar barədə neqativ fikir səsləndiriblər. Tarix boyu belə olub. Mən də belə sitatlardan bir qismini toplayıb kirayənişinlərimin dırnaqarası şərəf tarixinin növbəti hissəsi üçün P.S. hazırladım.

**1.** "Sən kölәsən, sən qorxaqsan, çünki sən ermənisən." *(Böyük rus şairi Aleksandr Sergeyeviç Puşkin)*

**2.** "Ermənilərin əsas eybi bədfel, kündəbədən, oğru, gözügötürməyən, bir ayağı qaçmaqda olmaqlarındadır, əmrə baxmayan, yersiz hay-küy salan, vəfasız, riyakar, söyüşsöyən, ürəyi xıltlı olmalarındadır, ağasına vəfasız olmalarında, ona düşmən çıxmalarındadır." *("Qabusnamə" eposu)*

**3.** "İndi olduğu kimi keçmişdə də qədim hayların ağızlardan-ağızlara keçən nəğmələrə həvəsləri olmayıb. Ona görə də belə kəmağıl, nadan və vəhşi adamlar haqqında danışmaq artıqdır." *(Qədim dövr tarixçisi Moisey Xorenatsi)*

**4.** "Bu bir ikiüzlü xalqdır ki, həm xarakterinə, həm də coğrafi yerləşməsinə görə rimlilərə nifrət, parfiyalılara qibtə aparmaqdadır." *(Qədim Roma tarixçisi Korneliy Tasit)*

**5.** "Ermənilər həmişə başqa dinə qulluq edən hökmdarların hakimiyyəti altında olmuşlar. Nəticədə öz fikir və duyğularını gizli saxlayan hiyləgər və kələkbaz adamlara çevrilmişlər." *(Böyük fransız yazıçısı Aleksandr Düma)*

**6.** "Erməniləri bir millət kimi yer üzündən silmədiyim üçün gələcəkdə ya məni alqışlayacaq, ya da lənətləyəcəklər. Düzdür, onların arasında hərdən yaxşıları ilə də rastlaşarsan, amma ümumilikdə yaramaz millətdir. Heç vaxt sənin üzünə söz deməyib mədəni görünər, amma ilk əlverişli məqamdaca səni zəhərləyər." *(Məşhur sərkərdə və hökmdar Əmir Teymur)*

**7.** “Ermənilər də xalqdır, amma evdə dörd ayaq üzərində gəzirlər.” *(Qədim Roma tarixçisi Ovidi)*

**8.** “Ermənilər ağ insanlar arasında ən pis qullardır. Onların zəif qaməti və çirkin ayaqları var. Heç bir şeydən utanmırlar, oğurluqla tanınırlar. Əgər sən erməni xidmətçisini bir an sərbəst buraxsan, səni quyunun dibinə qədər aparacaq. O, qamçı altında qorxduğu üçün çalışır.” *(İsveç səyyahı Adam Mets)*

**9.** “Mərkəzi Rusiya torpaqlarında ermənilərin məskunlaşmasına icazə verməyin. Onlar elə bir tayfadandırlar ki, bir neçə il yaşadıqdan sonra bütün dünyaya car çəkəcəklər ki, bu torpaqlar bizim atalarımızın, ulu babalarımızındır.” *(Tanınmış rus dramaturqu Aleksandr Qriboyedov)*

**10.** “Erməni yer üzünün ilanıdır, insanlığın düşmənidir.” *(Məşhur fars şairi Sədi Şirazi)*

**11.** “Ermənilər acgöz və tamahkardır. Onlar istənilən bir cəfəngiyyatı böyütmək üzrə abırsız dərəcədə mahirdirlər və bunları yalnız özlərindən başqalarına edirlər.” *(İngilis səyyahı Uilson)*

**12.** “Türklərlə iş görəndə sözlə danışmaq kifayətdir, müqavilə bağlamağa da ehtiyac yoxdur. Əgər yunanla iş görmək istəyirsinizsə, mütləq müqavilə bağlayın. Erməni ilə belə bir fikriniz olarsa, onda heç bir sənədləşmə aparmağın əhəmiyyəti yoxdur, sadəcə şərə rast gələcəksiniz. Erməni ilə rastlaşmaq təhlükəlidir, onu yuxuda görmək də xeyir gətirmir.” *(Alman səyyahı Alfred Kyorte)*

**13.** “Ermənilərin yoxsulluq və əzab-əziyyət çəkmələri məndə onlara qarşı böyük rəhm oyatmasına baxmayaraq onların haramzadalığı, kələkbazlığı o dərəcədə biabırçı, o qədər hiddətləndirici idi ki, mən heç vaxt onlara bağlana bilmədim.” *(Fransız səyyahı Qraf De Şöle)*

**14.** “Ermənilər ilk xalqdırlar ki, yaşamaq üçün öz qadınlarını başqa xalqların kişilərinin altına itələmişlər.” *(Dünya şöhrətli tarixçi və sosioloq Karl Marks)*

**15.** ”Ermənilər haqqında çox-çox qədimlərdən pis fikir yaranıb və heç şübhəsiz ki, bu, əsassız deyildir, əsası olmasaydı bütün bir

xalq haqqında, həm də müxtəlif dövrlərdə belə bir fikir yarana bilməzdi. Məhz ermənilər hər cür bəhanə ilə hay-küy qoparmaq qabiliyyətinə malikdirlər. Onları özgə evinə buraxmadıqda, yaxud hər hansı bir hiylələrinin üstünü açdıqda, ya da oğrularını məhkəməyə verdikdə təkcə özləri hay-küy qoparmırlar, həm də özgə xalqdan olan, səfeh, yaxud satqın adamları da hay-küy qoparmağa məcbur edirlər. *(Rus tədqiqatçısı Vladimir Veliçko)*

**16.** “Ermənilərin «qeyri-təbii» adətləri var idi. Başqa qüvvətli dövlətləri onlara kömək etməyə vadar etmək üçün özlərini təhlükəyə məruz qoyurdular. Məndə olan əsaslı dəlillər belə qənaətə gəlməyə imkan verir ki, bu bədbəxtlər türkləri cinayətkar kimi qələmə vermək və Amerikanın Türkiyəyə müharibə elan etməsi ümidi ilə amerikalı missionerləri öldürmək planı qurmuşdular. 1896-cı ildə isə Malatya bölgəsində fransız rahiblər monastırdan qaçarkən bu əclaf köpəklər 200 yardlıq məsafədən onları atəşə tutmuşdular ki, avropalılardan birinin öldürülməsi güclü dövlətləri bu işə qarışmağa vadar etsin. *(ABŞ yazıçısı Mark Sayks)*

**17.** “Ermənilər gürcülərə məxsus olan xram və monastırlarda gürcülərin izini məhv edir, daş üzərində gürcü yazılarını qaşıyır, yaxud silir, daşın özünü tikintidən çıxarır və onların əvəzinə erməni yazıları ilə əvəz edirlər.” *(Gürcü yazıçı və mütəfəkkiri İlya Çavçavadze)*

**18.** “Eçmiədzin kilsəsi bir müddət saxta pul düzəldənlərin yuvası olmuşdur. Bu monastır məndə dini mərkəzdən çox siyasi mərkəz təəssüratı yaratdı.” *(Fransız alimi de-Buan)*

Dünya şöhrətli şəxsiyyətlərin ən kəskin saydığım bu 18 sitatını ardıcıl düzəndən sonra kirayənişinlərimə “Qatil və terrorçuları qəhrəman adlandırıb vəsf etməniz yalançılıq, xəyanət, ikiüzlülük kimi digər xüsusiyyətlərdən qaynaqlanır, ermənisayağı özünüqoruma instinktinin tərkib hissəsidir. Görün, bütün bunlar necə sizin əleyhinizə işləyib, sizi dünyada necə də sevmirlər. Bütün mənfilikləriniz isə saxta “Böyük Ermənistan” xülyasına tutulmağınız səbəbindəndir” qeydini qoyub rus diplomatı, general Mayevskinin bu sitatını da gətirdim: “Ermənlərin xalq qəhrəmanlığı barəsində bir şey eşidən

olubmu? Onların azadlıq uğrundakı mübarizlərinin adları harada həkk edilib? Heç yerdə! Çünki ermənilərin "qəhrəmanları" həmişə öz xalqlarının xilaskarlarından daha çox cəlladı olublar."

Bu dəfə də P.P.S. qoymaqdan özümü saxlaya bilmədim.

"Gəncliyimizdə lətifələrlə çox maraqlanardıq. Bu lətifələr dillər əzbəri idi. Ən çox siyasi lətifə Çapayev və Petya, İosif Stalin, Leonid Brejnev barədə, ən çox məişət lətifəsi isə qoca yəhudilər Avramla İza, bir də erməni radiosu barədəydi. Lətifələrdən biri çox kəskin idi, düzü, ilk dövrlərdə lətifə yaradıcılarını bir milləti təhqir etmələrinə görə qınayırdım da. Məzmunu bu cür idi:

"Bir gün dünya xalqlarına müraciət olunur ki, bəs ən pis xalq hansıdırsa, boynuna alsın. Üç gün heç bir xalqdan səs çıxmır. Dördüncü gün erməni radiosundan belə bir cavab gəlir. Nə olsun, konyakımız ki, hamınınkından yaxşıdır?".

Zatikyan və dostları məlum metro terrorunu törədəndə mənə bu lətifənin sərrastlığı tam mənada gəlib çatdı. Boşuna heç nə olmur. Folklorun bir qolu olan lətifələrə tam ciddi yanaşmaq lazımdır. Bəlkə də elə məşhurların bu sitatlarına, bax, bu sayaq lətifələrə vaxtında diqqət yetirilsəydi erməni terrorizmi dünyanı bu cür ağuşuna almaz, bir xalqın əli bu qədər qana batmazdı. Çox təəssüf!

## On yeddinci hissə

## MÜƏLLİFDƏN
## DAHA BİR P.P.S.

Evin sirrini ev yiyəsindən yaxşı kim bilər? Bu mənada dostum Stepan Arsenyeviçin P.S.-nə erməni xalqı barədə məhz ermənilərin öz xadimlərinin söylədikləri fikirləri P.P.S. şəklində əlavə etmək qərarı verdim. Bu fikirləri bəzi erməni xadimləri səmimiyyətdən, xətər elədiklərini düşünmədən söylədikləri halda bəziləri açıq-aşkar erməni

millətçiliyini tənqid ediblər. Doğrudan da qiymətli xəzinədir. Çox təəssüf ki, erməni işbazlar bu mənbələri yox etməklə məşğuldurlar. Xüsusən SSRİ-nin ilk dönəmlərində bütün erməni millətçiliyinin iç üzünü açan erməni sovet tədqiqatçıları, tarixçiləri pleyadası olub ki, onların kitablarını erməni millətçiləri yandırıb, dünyanı lazımlı bir irsdən məhrum ediblər.

Bu da bəzi sitatlar:

**1.** “Türklərlə ermənilər arasındakı ziddiyətlərin yaranmasının əsas səbəblərindən biri də türk və Azərbaycan xalqlarının humanizminə, qayğıkeşliyinə, vətənpərvərliyinə qarşı erməni millətçilərinin aramsız qəddarlığıdır”. *(L.Z.Sürməliyan. “Xanımlar və cənablar, müraciətim sizədir” kitabından)*.

**2.** “1828-ci ildə məşhur “Türkmənçay” müqaviləsi olmasaydı, Qriboyedov və Abovyan olmasaydı, rus əsgərləri olmasaydılar bu gün müasir kənd və şəhərlərə çevrilən yüzlərlə yeni yaradılan erməni ocaqları da olmayacaqdı. Təkcə son onillikdə, 60-70-ci illərdə vətənimiz Ermənistana iki yüz mindən çox erməni köçmüşdür”. *(Zori Balayan. “Ocaq” kitabından)*.

**3.** “Daşnakların dövründə İrəvan qəzasında yaşayan tatarlar *(yəni azərbaycanlılar-red.)* İrana qaçmışdılar, onların yerində ermənilər məskunlaşdırılmışdı. Ermənistan Nazirlər Şurasının 28 sentyabr 1921-ci il tarixli dekreti ilə bütün qaçqınların öz yerlərinə qayıtmaları qərara alınsa da, tatarların yalnız bir hissəsi qayıda bilmişdir”. *(Marietta Şahinyan. “Sovet Ermənistanı” kitabından)*

**4.** “Daşnaklar “Daha çox türkü öldür, talan et, heç kimə rəhm etmə!” şüarı altında hərəkət edirdilər, erməni kəndlərini gəzərək əhalini silahlandırır, dinc müsəlman əhalisini öldürür, kəndləri yandırırdılar. Onlar silah sarıdan korluq çəkmirdilər, canişin Vorontsov–Daşkovun xüsusi icazəsi ilə erməni yepiskopları Xoren və Surenin müvəkkilləri tərəfindən tam təmin olunurdular. *(O.Harutyunyan. “Vospominaniye” memuarından)*

**5.** “Erməni daşnaklar bir dəfə menşevik Gürcüstanı ilə, iki dəfə Türkiyə ilə, bir neçə dəfə Azərbaycanla müharibə etdilər. Onlar ölkə

daxilində türklərin fiziki məhv edilməsi siyasətini həyata keçirdilər. Ağbabada, Zəngibasarda, Vedibasarda və Şərurda on minlərlə türk sakini doğradılar. Bu sakinlərin əmlakları qarət edilərək daşnak komandirlərinin mülkiyyətinə verildi." *(X.Hovsepyan. "Mübarizə və qurtuluşun 10 ili" kitabından)*

**6.** "1920-ci il martın 20-də Ermənistandan göndərilən silahlıların və hərbi sursatın yardımı ilə erməni komitələri üsyan qaldırdılar və gecəyarısı qəflətən Şuşadakı azərbaycanlı əsgərlərə hücuma keçdilər. Silah səslərinə oyanan şuşalılar mühasirədə qalan azərbaycanlı əsgərlərin köməyinə gəldilər. Şəhərdə qırğın və talanlar başladı. Azərbaycanlı əhali vəhşicəsinə qırğına məruz qaldı. *(Stepan Lisitsyan. "Dağlıq Qarabağın erməniləri. Etnoqrafik oçerk" əsərindən)*

**7.** "1916-cı ildə İrəvan quberniyasında 373582 nəfər azərbaycanlı qeydə alındığı halda, 1920-ci ilin noyabrında Ermənistan SSR-də cəmi on iki min nəfər azərbaycanlı qalmışdı. Ümumiyyətlə, son 200 ildə indiki Ermənistan ərazisində iki mindən artıq azərbaycanlı yaşayış məntəqələri müxtəlif yollarla siyahıdan silinmiş, tarixi Azərbaycan torpaqlarında monoetnik Ermənistan dövləti yaradılmışdır." *(Zaven Korkodyan. "Sovet Ermənistanının əhalisi. (1831-1931)" kitabından)*

**8.** "Tarixi qədimlik təsəvvürünə görə ermənilərin Böyük Ermənistan hesab etdikləri həqiqi vətənləri Rusiya İmperiyası hüdudlarından kənarda, daha doğrusu Kiçik Asiyada yerləşir. Dağlıq Qarabağda yaşayan ermənilərə gəlincə, onların bir hissəsi aborigen olub, xristian dinini qoruyub saxlayan qədim albanların nəslindəndir. Bir hissəsi təqib və hücumlardan qurtarmaq üçün Azərbaycan torpaqlarında sığınacaq tapan İran və Türkiyə qaçqınlarıdır". *(B.İşxanyan. "Qafqaz xalqları" kitabından)*.

**9.** "Bakıda ermənilər ingilislərin yardımı ilə bu böyük neft şəhərini ələ keçirdilər və şəhərin türk əhalisindən 25 000 nəfərini qırdılar". *(Ohanes Apresyanın xatirələrindən. "İnsanlar belədir. 1918-1922-ci illər. Azərbaycan hadisələri bir erməninin xatirələrində" kitabından)*.

**10.** "Daşnak nümayəndələri ətraflarına çoxlu könüllü silahlı dəstələr yığaraq müharibə gedən türk ərazilərində qadın, uşaq,

qoca və əlilləri amansızcasına doğrayıb tökürdülər". *(A.Lalayan. "İnqilabi Şərq" jurnalından).*

**11.** "Erməni hökumətinin daşnak agentləri Qarabağı Ermənistana birləşdirməyə çalışırlar. Bu, Qarabağ əhalisinin Bakıdakı həyat mənbəyindən məhrum olması, heç zaman heç nə ilə əlaqəsi olmayan Yerevanla bağlanması deməkdir. Qarabağın erməni kəndliləri təsadüfi deyil ki, beşinci qurultayda Azərbaycanı tanımağı və ona birləşməyi qərara aldılar". *(Anastas Mikoyan. Leninə məktubundan).*

**12.** "Ermənistan bir dövlət kimi bəşəriyyət tarixində heç bir mühüm rol oynamamış, onun adı ermənilərin səpələndiyi coğrafi termin olub güclü dövlətlərin – assuriyalıların, midiyalıların, iranlıların, yunanların, monqolların, rusların öz mübahisələrini həll etdikləri yer olmuşdur". *(P.Kerop Patkanov. "Van yazıları və onların Ön Asiyanın tarixi üçün əhəmiyyəti" kitabından).*

**13.** "Ermənilərin mahnılarla qarışıq dastanları yoxdur, bunlar ancaq türkcədir". *(Xaçatur Abovyanın bir çıxışından).*

**14.** "Biz ermənilər hələ də britan nağıllarına inanır, onları öyrənib tirajlayır, təbliğ edirik. Hər yerdə öz fantastik keçmişimizdən danışırıq. Bu zaman həqiqi tarixi də təhrif edirik. Mən bizim bəlamızı obrazlı şəkildə həmişə belə ifadə edirəm: Biz ermənilər, bütün xalq birlikdə virtual reallıqda məskunlaşmışıq. Və mən tam məsuliyyətlə deyirəm ki, məhz avropalılar tərəfindən XX əsrin ortalarında "genosid" sözü kəşf edilib. Onlar bu sözü beynəlxalq hüququn termini etməklə Birinci Dünya Müharibəsinin Osmanlı İmperiyası ərazilərindəki hadisələrini "genosid" anlamının içinə soxuşdurmuşlar. Ermənilər də bu halvadan istifadə edərək Türkiyədən kosmik təzminatlar və nəhəng ərazilər tələb etmişlər". *(Filipp Vartanoviç Ekozyants. YouTube kanalı vasitəsilə erməni xalqına müraciətindən).*

**15.** "1905-1906-cı illərdə ermənilər tərəfindən Cəbrayıl qəzasında 5, Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Zəngəzur qəzasında isə 43 müsəlman kəndi, ümumilikdə isə həmin bölgələrdə 75 kənd dağıdılmış, minlərlə insan qətlə yetirilmişdir". *(Stepan Zavaryan. "Qarabağın iqtisadi şəraiti və 1906-1907-ci illər aclığı" əsərindən.)*

## On səkkizinci hissə

# OSMANLI DÖNƏMİ

Həqiqət onsuz da həqiqətdir, onu qəbul edib etməyəcəyindən asılı olmayaraq o mövcuddur, sənin təsdiqinə də ehtiyac duymur. Həqiqəti həqiqət edən riyazi dillə desək, onun aksiom olmasıdır, yüz illərin qalın-qalın kitabları, ictimai və siyasi fikrin trendinə çevrilməsidir. Bununla belə, həqiqətin hər halda iki növünün olması, bunlardan birincidə həqiqətin sənin qavramağından kənarda, ikincidə isə sənin qavramağın daxilində mövcudluğu da diqqətçəkən amildir. İkincidə bilavasitə sən bu həqiqətə şəxsən şahid olur, onun içində yerləşirsən, bu da səni mövcud ola biləcək ən zərrə boyda şübhələrdən belə yan keçirir, səninçün mütləq həqiqət statusu daşıya bilir. Yetmiş illik həyatımda Türkiyə ilə bağlı cəmi iki epizoda rast gəlmək olar. Cəmi iki epizod mənə türkləri tanıdıb. Bunlardan biri 90-cı illərin əvvəllərinə təsadüf edir, onda ki, məşhur Çerkizovo bazarı yeni açılmışdı, Qalina məni hər şənbə-bazar dartıb ora aparırdı, özünə münasib qiymətə dəri palto, yaxud xəz kürk, Vasyayla mənə də gündəlik geyim-kecim hayındaydı. Gedirdik, ucsuz-bucaqsız bazarda sıra ilə cərgələri gəzirdik, arada da su içir, "dönər" deyilən çörək arasına qoyulmuş közdə bişmiş ətdən dadırdıq. Bazarda əsasən Çin və Türkiyə malları satıldığından bu malları pərəkəndə gətirən türklər bazarda çox idilər. Bir dəfə onlardan biri ilə tanış olmuşduq, Ergin bəy deyilən ortayaşlı, mehriban bir türk ilə. Dəri palto axtardığımızı bilib *(həmin gün dördüncü dəfə idi həftəsonunu bu bazarda keçirməli olmuşdum, Qalinanın arzusunu qiymətlərin baha olması səbəbindən heç cür reallaşdıra bilmirdik) bizi öz dükanına dəvət etmiş, qarşımıza türk qəhvəsi qoyub (mən həyatımda bundan dadlı qəhvə içməmişdim)* nə qədər pulumuz olduğunu öyrənmiş *(real satış qiymətinin*

*yalnız üçdə biri varımız idi)*, digər həmkarları ilə xeyli məsləhətləşib inanılmaz bir işi reallaşdıraraq Qalinanı dünyanın ən xoşbəxt insanına çevirmişdi. Demişdi ki, Rusiya bazarı yeni açılıb, eybi yox, qoy, bu sövdada mən xeyli itirim, ancaq bunun müqabilində qoy sizin timsalınızda rus insanı həm türk malının keyfiyyətini görsün, həm də türk insanının alicənablığını.

İkinci epizod isə 2000-ci ilin yayında baş vermişdi, Qalina işləyən müəssisənin səkkiz qadın işçisi həmkarlar komitəsinin ucuz putyovkası ilə Türkiyəyə – Alaniyaya millenium səyahətinə getmişdilər. Bir həftəlik səyahətdən qayıdan Qalina düz bir il türk qarsonların, xadimələrin, ofisiantların, administratorların mehribanlığından, qayğıkeşliyindən, türk mətbəxinin təkrarsızlığından, Türkiyənin Aralıq dənizi bölgəsinin gözəlliklərindən ağızdolusu danışmışdı. Vəssalam, cəmi iki epizod.

Ermənilər barədə isə sonradan dəfələrlə bu millətin insanları ilə yolumuz toqquşsa da, ünsiyyətim olsa da, hətta hazırda evimdə üç ermənini kirayənişin saxlasam da cəmi bir xatirəm var idi, 1977-ci il, yanvarın 8-i, İzmaylovo metrosu.

Bax, bu idi mənim adi həqiqətlə mütləq həqiqət arasındakı seçim hüdudsuzluğumun mənbəyi.

Növbəti axşam Qaqik kompüterin arxasında əyləşib Arturla Stepana "Türklər sizin üçün kimlərdir" sualını verəndə anladım ki, kitablarının növbəti hissəsi türk məsələsinə həsr olunur.

Artur belə cavab verdi:

– Türklər mənim ana vətənim Qərbi Ermənistanı zəbt edən düşmənlərdir.

Stepan belə dedi:

– Mənimçünsə türklər xalqımı genosidə məruz qoymuş azğın insanlardır ki, yeganə amalım bu heyfi onlarda qoymamaqdır.

Onların fikirlərini klavişləri şaqqıldadaraq kompüterin yaddaşına köçürdükdən sonra Artur öz cavabını dilə gətirdi:

– Mənim dünyaya göz açdığım kənd bilirsiniz axı, Ermənistan – Türkiyə sərhəddinə yaxın yerləşir, bizim pəncərəmizdən əzəmətli

Ararat dağı görünür, o dağ ki, bizim qürur rəmzimiz olmaqla həm də kədər və nisgil rəmzimizdir, işğalçı türklər onu bizdən alıblar. Türklər Araratımızı Ağrı dağı adlandırırlar. Bəlkə də, təsadüfdən zərurət doğub, axı Ararat indi bizim məhz ən böyük ağrımızdır. Mən gözümü açandan düşməndə qalan Araratımızın, uluslarımızın həsrətini çəkmişəm. Mənimçün türklər ən böyük ağrımdır.

Ertəsi gün "üçlər"in Osmanlı bölümünü oxuyanda gözünü açandan uşaq zehni valideynləri, müəllimləri tərəfindən zəhərlənən Arturun, onun dostlarının bu qədər nifrətə niyə köklənmələri artıq mənə bəlli idi.

"**7-ci bölmə.** Bəli, Osmanlı İmperiyası. Qərbi Ermənistanımızı əlimizdən alan, bizi vətənsiz qoyan, üstəlik 1915-ci ildə yüz minlərlə ermənin qətlinə fərman verən qanlı imperiya. Erməni məsələsinin iki qolu var, biri Osmanlı, digəri Rusiya imperiyalarındakı erməni torpaqlarının aqibətidir. Bəli, biz Rusiyada müstəqil Ermənistanımızı qurduq, hətta gec olsa belə Artsaxı da geri qaytardıq. Əfsus ki, Türkiyədə biz öz torpaqlarımızı itirdik. Amma erməni xalqı heç vaxt bu itkiylə barışmayıb, daim vuruşub, uğurlar qazanıb, düşmənin gözünü ovub. Getdik e!

XIX əsrin 80-ci illərindən üzübəri bir mübarizə yolu keçib xalqımız. "Osmanlıda erməni muxtariyyatı" hərəkatı, ondan doğan antitürk qiyamları iki xalq arasındakı münasibəti tam düşmənçilik səviyyəsinə çatdırb, biz türklərə anlatmışıq ki, sizin təbəəniz olmaq istəmirik, öz torpaqlarımızı müstəqil edib özümüz özümüzün ağası olmaq istəyirik. 1915-ci illərdə Osmanlıda düşmən türklərin qanlarını tökməklə əsasən qəhrəmanlarımız Kerinin, Hamazaspın, Dar Pastirmaçiyanın, Andranikin, Karakinin və Hayk Liantsın komandanlığı altında dəstələr şücaət göstəriblər.

İlk dövrlərdə bir qədər kortəbii olan erməni qiyamları miqyası ilə insanı heyrətləndirirdi. Təkcə 1895-ci ildə Osmanlı İmperiyasının Anadolu bölgəsinin 24 mühüm şəhərində erməni qiyamları baş tutub: 29 sentyabrda Divriqidə, 2 oktyabrda Trabzonda, 6 oktyabrda Eqində, 7 oktyabrda Dəvəlidə, 9 oktyabrda Akhisarda, 21 oktyabrda

Ərzincanda, 26 oktyabrda Bitlisdə, 27 oktyabrda Maraşda, 27 oktyabrda Bayburtda, 29 oktyabrda Urfada, 30 oktyabrda Ərzurumda, 2 noyabrda Diyarbəkirdə, 2 noyabrda Siverekdə, 4 noyabrda Malatyada, 7 noyabrda Xarputda, 9 noyabrda Ərəbkirdə, 15 noyabrda Merzifonda, 15 noyabrda Sivasda, 16 noyabrda Antepdə, 18 noyabrda Maraşda, 22 noyabrda Muşda, 3 dekabrda Kayseridə və həmin gün həm də Yozqatda. Qürur hissi ilə deyə bilərik ki, məhz bizim ermənilər Osmanlı İmperiyasının parçalanmasında həlledici rol oynayan milli qiyamların pioneri olmuşlar, türklər əleyhinə ilk qiyamları biz başlamışıq, bizdən sonra isə istibdad altında olan yunanlar, bolqarlar, makedoniyalılar da qiyama qalxıblar.

Əsası 1887-ci ildə Cenevrədə Avetis Nazarbekyan tərəfindən qoyulan "Qnçak" partiyası isə kortəbii qiyamları mərkəzləşdirib, türklər əleyhinə yönəlmiş "Böyük Ermənistan" uğrunda savaşın ilk irimiqyaslı təşkilatlanması olub. Bu partiyanın proqramında Rusiya, İran və Türkiyədəki bütün erməniləri öz bayrağı altında birləşdirərək Osmanlı İmperiyasının Qərbi Ermənistan və Şərqi Ermənistana aid Samsun, Van, Ərzurum, Kilikiya və digər bölgələrində "Böyük Ermənistan" yaratmaq, eləcə də Rusiya İmperiyasına aid İrəvan quberniyası, Qarabağ, Qazax, Zəngəzur, Axalkalaki, Axarsix və digər torpaqlarını da buraya birləşdirmək nəzərdə tutulub. Həmin partiyanın fəaliyyətinin üç ili ərzində az qisaslar alınmayıb. Belə ki, 1890-1892-ci illərdə Zeytun və Samsunda üsyanlarımız təşkil edilib. Silahlı dəstələrimiz altmış beş mindən artıq *(bəzi mənbələrdə hətta yetmiş min)* silahsız türk qocalarını, qadınları, uşaqları məhv edərək qisas alıb. Silahlı dəstələrimizə çar ordusunun zabitləri başçılıq edib. Qərbin, xüsusən Britaniyanın və Fransanın hakim dairələri tərəfindən ermənilərimiz həvəsləndirilib, hər cür dəstək alıb. 1862, 1878 və 1884-cü illərdə Zeytun, 1880-ci ildə Samsun, 1884-cü ildə Van vilayətlərində törədilən milli qırğınlar isə ən əhəmiyyətliləridir.

1876-cı ildə bizim ermənilər Kiçik Asiyada türklər əleyhinə ümumi üsyan qaldırmağa cəhd etdilər, amma digər xalqları səfərbər edə bilmədilər deyə cəhdləri boşa çıxdı. Belədə, fədailərimiz

xarici ölkə səfirlərini müdaxiləyə sövq etmək ümidi ilə İstanbulda bir-birinin ardınca daha təhlükəli planlar qurdular. Onlar tapança və qumbaralarla silahlanaraq Osmanlı bankına hücum etdilər və 12 mühafizəçini öldürdülər, avropalı işçiləri girov götürdülər və binanı partlatmaqla hədələdilər. Eyni zamanda Böyük Pera küçəsinə də qumbaralar atıldı və İstanbulun bu boş küçəsindəki evlərin damında özlərinə mövqe tutmuş sui-qəsdçilər küçədən keçən adamlara atəş açdılar. Türklərin gözlərini qorxutmaq üçün bu ilk həmlə kifayət qədər effektiv oldu.

Türklərə qarşı mütəşəkkil erməni silahlı qruplarının yaradılmasında dostumuz və müttəfiqimiz Fransa o dönəmdə əhəmiyyətli rol oynamaqda idi. Fransanın maliyyəsi ilə Osmanlıda erməni silahlı qruplaşmalarının üç qərargahı – Monarqada, Doqquzevlərdə, Lefkoşada fəaliyyət göstərirdi. Kipr adasında isə böyük bir erməni hərbi düşərgəsi salınmışdı. Fransız hərbçiləri orada bizim döyüşçülərə hərbi təlim keçirdi. Liderlərimiz Kirkor, Karabet və Arti bu döyüşçülərə rəhbərlik edirdi. Bu düşərgədə 102 çadır qurulmuşdu, düşərgənin özəl kilsəsi, hətta həbsxanası var idi. Eyni zamanda Qərb Osmanlı üzərində qələbəmizi təmin etmək üçün "Erməni yardım komitəsi" adlı qurum da yaratmışdı, Yunanıstandan, Fransadan, ABŞ-dan yardım adı altında pullar gəlirdi, bu pullarla Urfada, Maraşda, Antepdə və Adanada minlərcə türk qətlə yetirilirdi.

Başlanan Birinci Dünya müharibəsi Osmanlıdakı erməni məsələsinin həllində əhəmiyyətli rol aldı, xüsusən 1915-ci ildə türklərlə mübarizəmiz öz apogey nöqtəsinə çatdı. Həmin ildə Osmanlının Abaağa, Bitlis, Tərcan, Malazagird, Edremid vilayətlərində dəhşətli yanğınlar və qətliamlar törədildi, təkcə Qars və Ərdahanda otuz min türk qətlə yetirildi. Həmin qətllərin əsas törədicilərindən biri "Hnçaq" təşkilatının ideoloqu, Türkiyə parlamentinin deputatı, erməni xalqının qəhrəmanı Stepan Ter Danielyan idi. O, öz seçicilərinin bütün ailə üzvləri ilə birlikdə qətlə yetirilməsini, körpələrinin diri-diri tonqalda yandırılmasını əmr etməklə ümumerməni işinə böyük töhfələr vermişdir. Erməni Milli Yığıncağına Üsküdardan de-

putat seçilmiş Atom təxəllüslü Şaxrikyan isə digər bir qəhrəmanımız idi. Həmin dönəmdə o, “Azatamart” qəzetində erməniləri türklərdən qisas almağa səsləyən məqalələrlə çıxış edirdi, Şərqi Osmanlıda “Böyük Ermənistan” qurmaq ideyası ilə Şaxrikyan ideoloji iş aparır, ermənilərin silahlanmasını təşkil edir, qətliamların ilhamvericisi kimi tanınırdı.

Biz 1915-ci ildə böyük zəfərlər qazanmışdıq, hətta Vanda erməni bayrağını dalğalandırmağa müvəffəq olmuşduq.

Çox əfsus ki, Osmanlı rəhbərliyi həmin dönəmdə xalqımıza qarşı genosid həyata keçirməklə mübarizəmizi yarıda qoydu. Osmanlının Ali Baş Komandanının əmri ilə 1915-ci il aprelin 24-də Daxili İşlər Nazirliyi bütün erməni komitələrinin – İstanbuldakı və Türkiyənin digər iri şəhərlərindəki bütün təşkilatlarımızın dərhal bağlanması barədə sərəncam verdi. Elə həmin gün müxtəlif vəzifə kürsülərində əyləşən 2345 nəfər erməni lideri həbs edildi. Paralel olaraq da, “erməni təhlükəsini dəf etmək” adı altında Osmanlı hökuməti Şərqi Anadolu ermənilərini Suriyaya köçürməyə başladı. Məhz həmin həbs-qətimkan tədbirinin və köçürmənin başlandığı gün – 1915-ci il aprelin 24-ü türklərin ermənilərə qarşı genosid günü kimi tarixə düşdü. Həmin dönəmdə Osmanlı imperiyasında iki milyon üç yüz min erməni yaşayırdı. Tarixçilərimizin yazdığına görə, 1915-ci ildə Anadoluda türklər tərəfindən onların bir milyon beş yüz min nəfəri qətlə yetirilib. Bu tarixi heç zaman unutmayacağıq. Hər bir erməni aprelin 24-nü matəm günü kimi qeyd etməli, ölənlərin ruhuna şam yandırmalı, düşmənə qarşı daha da səfərbər olmalıdır.”

Elmi-bədii cümlələrlə bu nadanlara cavab vermək istəyim nə qədər güclü olsa da özümdən asılı olmayaraq yazdığım ilk cümlə belə oldu: “Ayıb olsun sizə. Bu dərəcədə həyasızlıq olarmı? Həm abırsız-abırsız öz əlinizlə yazırsınız ki, minlərlə dinc türkü qılıncdan keçirmişik, həm də dalınca ağlayıb-sısqayırsınız ki, türklər bizim ideoloqlarımızı tutublar, camaatımızı Suriyaya sürgün ediblər. Yox, ideoloqlarınızı tutmayaydılar, camaatınızı sürgün etməyəydilər, deyəydilər ki, bizim xalqı qırmaqda davam edin? Bu nə xəstə təxəy-

yüldür? Gözümü açandan "türklər tərəfindən genosidə məruz qalan əzabkeş xalq" moizələrinizi eşitmişəm, həmişə bir az yazığım da gəlib sizə. Hətta məlum metro terrorundan sonra da bu acıma duyğusu qəlbimdən tamamilə çıxmayıb. İndi özünüz öz əlinizlə öz paxırınızı açanda, genosid deyilən nəsnənin kökünü öyrənəndə vallah heyrətləndim. Sərsəmləmə də yox, bu, şizofreniyadır. Ay qardaşlar, gedin özünüzə iş tapın, gedin saflaşın, təmizlənin, təzə zəmanəyə, yeni dünyaya uyğunlaşın. Qurtarın bu cəfəngiyyatı. Hətta, deyim ki, türklər sadəlövhdürlər, genişqəlblilikləri onlara asi çıxmaqdadır. Mən türk rəhbəri olsam, nəinki sizin dünyanı bu genosidi təsdiqləməyə çağırmağınız, təzminat istəməyiniz müqabilində müdafiə olunaram, əksinə hücuma keçib sizin özünüzü türklərə qarşı genosid törətməkdə ittiham edərəm. Təsir əks-təsirə bərabərdir. Nahaq haqqı tapdalayırsa, haqq revanş götürməlidir mütləq."

Birnəfəsə yazdığım bu qəzəbli kəlmələrdən sonra isə araşdırdığım bol materiallar içindən bəzilərini seçib P.S.-imi yazdım...

"P.S. Tanınmış Amerika tarixçisi, qafqazşünas Jorj De Malevilinin "1915-ci il erməni faciəsi" adında çox məşhur kitabı var ki, o kitabın adı gələndə siz ermənilərin təzyiqi qalxır, ilan-qurbağadan çimçişən insanın halını alırsınız o kitabı görəndə. Niyə? Çünki uydurduğunuz Osmanlıdakı erməni genosidi nağılının ən gözəl təkzibi həmin kitabdadır. Malevili yazır: "1915-ci ilin fevral ayında Osmanlı imperiyasında erməni terror və quldur birləşmələri tərəfindən planlı surətdə məhv edilən Şərqi Anadolunun dinc müsəlman əhalisindən olsa-olsa bir milyon altı yüz min nəfər sağ qalmışdı. Hətta iş o yerə çatmışdı ki, bölgədəki bir çox rus zabitləri insan qanına susayan ermənilərin törətdikləri qırğınlardan, qocalara, qadınlara, südəmər körpələrə belə rəhm etmədən, hamısını ucdantutma qırıb doğramalarından hiddətlənərək erməni cəlladlara qarşı güc tətbiq etməyə başlamışdılar. Dinc əhaliyə qarşı törədilən vəhşiliklər və qətl-qarətlərlə yanaşı, erməni təbliğat-təşviqatının açıq-aşkar ikiüzlülüyü Osmanlı dövlətinin səbr kasasını daşırdığından məcburi tədbirlərə əl atıldı. Ali Baş Komandanının əmri ilə 1915-ci il aprelin

24-də Daxili İşlər Nazirliyi bütün erməni komitələrinin – İstanbuldakı və Türkiyənin digər iri şəhərlərindəki terror təşkilatlarının dərhal bağlanması barədə sərəncam verdi. Elə həmin gün müxtəlif vəzifə kürsülərində əyləşib, özlərini türk xalqına dost libasında təqdim etsələr də, dövlətçilik əleyhinə gizli təxribati işlərlə məşğul olan 2345 nəfər cinayətkar erməni lideri həbs edildi. Buna paralel olaraq da, erməni təhlükəsini dəf etmək üçün Osmanlı hökuməti Şərqi Anadolu ermənilərinin Suriyaya köçürülməsinə başladı. Erməni millətçiləri məhz həmin həbs-qətimkan tədbirinin və köçürmənin başlandığı günü – 1915-ci il aprelin 24-nü "türklərin ermənilərə qarşı genosid günü" kimi qeyd etmək ənənəsi qoydular".

Hər şey necə də qısa və aydın əks olunub, timsah göz yaşları tökərək, ətək-ətək pul xərcləyərək dünyanı inandırmağa çalışdığınız bir siyasətinizin çürük mahiyyətini sevdiyiniz Amerikanın bir vətəndaşı beləcə daşdan keçən arqumentlərlə ortaya qoyub.

Başqa bir amerikalıdan da iqtibas gətirimmi? Buyurun. Amerika alimi Castin Makkarti "Anadolu erməniləri 1912-1922-ci illərdə" əsərində yazır: "Erməni quldurları 1915-ci ildə altı yüz min, bütövlükdə 1912-1922-ci illərdə isə iki milyon beş yüz min günahsız türkü öz doğma ata-baba torpaqlarında amansızcasına qətlə yetirmiş, şəhər və kəndlərini yandırıb xarabazara çevirmişlər. Müsəlmanları son nəfərinədək qırıb torpaqlarına sahib olmağı qarşılarına məqsəd qoymuş ermənilərin hətta rus-türk müharibəsində döyüş zonasından yüz kilometrlərlə kənarda yerləşən Sivas əyalətində dinc və əmin-amanlıq şəraitində yaşayan yüz səksən min nəfər türkü qılıncdan keçirib qətlə yetirmələri faktı da məlumdur."

Bəs etdimi? Etmədisə də, indi ətəyindən yapışmaq istədiyiniz Amerikanın daha bir tanınmışından da sitat gətirə bilərəm. Tarixi mənbələr xəsis deyillər, istədiyini birə-beş sənə verirlər. Zavallı kitabyazarlar, buyurun, bu da növbəti mənbə: Tanınmış Amerika alimi C.S.Şou yazıb: "1915-ci ildə Rus İmperiyasının Osmanlı İmperiyasına qarşı apardığı müharibədə erməni generallarından Hamazaspın, Pastirmaçiyanın, Andranikin, Karakinin, Liantsın və Kerinin

komandanlığı altında iyirmi dörd minə yaxın erməni əsgəri, 11 kazak taboru, bir kazak alayı, minlərlə erməni könüllüsü iştirak edirdi. Onların ümumi sayı əlli min nəfərdən artıq idi. Onlar Türkiyənin müxtəlif bölgələrində etnik təmiz zonalar yaratmaq üçün yüz minlərlə dinc sakini qılıncdan keçirib qanına qəltan etmiş, ev-eşiklərini yandırıb külünü havaya sovurmuş, insan cəsədlərindən nəhəng tonqallar qalamışdılar. Bu cinayətkar aksiyalardan hiddətlənmiş türk hökuməti Van gölü ətrafında yaşayan və Osmanlı imperiyasına qarşı mübarizədə ruslara canfəşanlıq göstərən satqın erməniləri müharibə zonasından ölkənin uzaq guşələrinə köçürmüş və köçürmə zamanı ermənilərdən bir qrupu xəstəlikdən dünyasını dəyişmişdi. Sonralar erməni tarixçiləri bu köçürməyə "erməni soyqırımı" damğası vurmuş və türkləri tənqid hədəfinə çevirmək üçün bu faktdan böyük məharətlə istifadə etmişlər. Halbuki Amerika mənbələrinin məlumatlarına görə həmin vaxt erməni quldur və terror dəstələri tərəfindən qətlə yetirilən müsəlmanların sayı ölən ermənilərin sayından qat-qat çox idi".

Məsələnin mahiyyəti belədir. O ki qaldı köçürülməyə məruz qalmış ermənilərlə bağlı rəqəmlərə, burada da saxtakarlıq edirsiniz. Sizin tarixçilərin saxta məlumatlarına görə, guya birinci dünya müharibəsi illərində Osmanlı imperiyasında iki milyon üç yüz min erməni yaşayırmış. Halbuki Böyük Britaniyanın Xarici İşlər Nazirliyinin rəsmi məlumatına görə, həmin vaxt onların sayı cəmi 1 milyon 200 min nəfər olub. Yalançı tarixçilərinizin yazdığına görə, guya 1915-ci ildə Anadoluda türklər tərəfindən bir milyon beş yüz min nəfər erməni qətlə yetirilib. Halbuki əhali siyahıyaalınması məlumatlarına görə, həmin vaxt Anadoludda altı yüz min nəfər erməni həlak olub. Əksəriyyəti də köçürmə vaxtı, bir türk gülləsinə belə tuş gəlmədən, sadəcə, aclıq və xəstəlikdən ölüb.

Bu məsələdə məni ən çox təsirləndirən isə odur ki, bir xalqı öz dövlətində, öz bayrağı altında qılıncdan keçirdiyiniz halda həmin xalq sizə qarşı münasibətdə hədsiz mülayimlik, humanizm göstərib. "Bizi sıxırlar, bizimlə kölə kimi davranırlar" bəhanəsi ilə qiyam-

lara başlamısınız, halbuki özünüzə aid “Jamanak” nəşriyyatının çap etdiyi “Türkiyədəki ermənilər haqqında həqiqət” kitabında yazılıb ki, XVIII əsrin sonlarında Osmanlı dövlətində ermənilərdən 29 paşa, 22 nazir, 33 millət vəkili, 7 səfir, 11 baş konsul, 411 yüksək məmur vəzifəsi daşıyan olub. 1461-ci ildən İstanbulda erməni patriarxlığı, 1863-cü ildən isə Erməni Milli Məclisi fəaliyyət göstərib. 1700-cü ildən erməni mətbəəsi fəaliyyət göstərib, 1866-cı ildə təkcə İstanbulda ermənicə 14 qəzet çıxıb.

“Bizi genosidə məruz qoyublar” iftiranızın qarşılığında isə törətdiyiniz qətliamların müqabilində Osmanlı hökumətinin məcburən vermiş olduğu köçürülmə qərarının özündə belə rast gəlinən hədsiz ürəyiyananlıq, humanizm işartıları isə əslində sizə – erməni millətçiliyinə tutulmuş ambulator xəstələrə bir ittihamdır. Diqqət edin:

“Osmanlı dövlətinin 27 may 1915-ci il Təhcir, *(yəni köçürülmə -red.)* qanunundan çıxarış.

– Köçürülən ermənilər bütün heyvan və daşına bilinəcək əmlaklarını özləri ilə apara biləcəklər;

– Onlar gedəcəkləri yerlərə qədər təhlükəsiz şəkildə müşayiət olunacaqlar;

– Yollarda onların rahatlıqları, can və mal təhlükəsizlikləri təmin olunacaq;

– Getdikləri yerlərdə tam yerləşdirilmələrinə qədər güzəranlarını və yeyib-işməklərini təmin etmək üçün onlara hər cür yardım ediləcəkdir;

– Onlar ən əlverişlı şəhər və kənd zonalarında yerləşdiriləcəklər;

– Hökumət tərəfindən onlara ev tikiləcəkdir;

– Maddi vəziyyətlərindən asılı olaraq onlara maddiyyat ödəniləcəkdir;

– Əkinçiliklə məşğul olanlar, sənətkarlar istədikləri texnika və mateiallarla təmin olunacaqlar;

– Boşaldılan şəhər və qəsəbələrdə ermənilərə aid daşınmaz əmlakın siyahısı tutulacaq, onların qiymətləri müəyyənləşəcək, həmin miqdarda pul köçürülənlərə ödənəcək;

– Onların istifadəsində olmuş dükanlar, fabriklər, anbarlar, zeytunluq, tutluq, meyvə bağları icarəyə veriləcək, gələn gəlir köçürülən mal sahiblərinə veriləcək".

## On doqquzuncu hissə

## MÜƏLLİFDƏN: CƏNAB MORQENTAUNUN QURBANLARI

Heç nə ideal, azacıq nöqsanlardan xali olmadığı kimi heç kəs də ideal, xırda qüsurlardan xali deyil, bu, sübut olunmuş bir həqiqətdir. Bəzən özündən asılı olmayaraq insan səhvlər edir, insani münasibətlərin nizamlanmasına hesablanan bu xırda məişət səhvləri üst-üstə qalanır, onların təsir gücünü azaltmaq, fasiləsiz hücumunu səngitmək məcburiyyətində qalan insan çıxış yolu tapmadığından yalanlara əl atmalı olur, inandırır, and içir, aldadır. Belə bir deyim var, hansısa şərq xalqına aiddir, "aldatma, aldadılarsan" deyirlər müdriklər. Mənsə əzəl gündən əks fikirdə olmuşam. Daha effektiv və inandırıcı "Döymə taxta qapımı, döyərəm dəmir qapını" deyimi var, mənası "dəymə mənə, dəyməyim sənə"dir. Burada psixoloji anlamda fiziki təsir, fiziki müdaxilə əsas götürülür, elə qədim səmavi kitablarda "göz əvəzinə göz, diş əvəzinə diş" deyilmirmi? Zərbə almağıın, incidilməyinin müqabilində ani qəzəb hissindən doğan bir qisas aktı. Tarix boyu insan şüuruna yerləşmiş bir həmləyə qarşı adekvat tədbir reaksiyası. Heç həmlə fiziki güc tətbiq edilməklə sonuclanmasa da, adicə söyüş, təhqiretmə şəklində olsa belə yenə də bizim kvalifikasiyaya uyğun gəlir, anında bu cür həmlə əks reaksiya ilə üzləşir. "Aldatma, aldadılarsan"da isə sənə qarşı təşkil edilmiş həmlənin kökündə daha hazırlıqlı bir proses dayanır, sənə olunan basqı daha düşünülmüş şəkildə aparılır, təsiri də bir zərbə, yaxud

bir söz ağrısı keçənə qədər deyil, daha uzunmüddətli olur. Hansısa mənafe, hansısa merkantil maraqlar səbəbindən, hansısa müdhiş bir həqiqəti ört-basdır etmək üçün sən aldadılırsan. Burada insan şüuru ilə yanaşı insan altşüuru belə hərəkətə gəlir, aldanıldığını biləndə yenə də adekvat cavaba əl atırsan. Amma bu adekvat cavab əsla səni aldadanı sənin aldatmağın formasında olmur. Fiziki güc tətbiqi, təhqiretmə kimi hər bir kəsə aid silahlara məhz eyni silahla cavab vermək vərdişi olduğu halda, refleksvari cavab verilməsi normal sayıldığı halda burada artıq insan xarakterlərində heç də kütləvi hal sayılmayan "yalandanışma" faktoru güc mərkəzində dayanır. Əks tərəf bu halda onu aldadan opponentinə onu aldatmaqla cavab vermir, daha populyar cavab metodu seçir, tutalım, ona incikliyini bildirir, onu acılayır, onunla münasibəti kəsmək həddinə qədər gedib çıxa bilir.

Bu fərqli davranışlar bəzən siyasətdə də özünü göstərə bilir, bir insanın bir insana yönəli aqressiyası deyil, burada artıq söhbət mövzusu bir xalqın digər bir xalqa, bir dövlətin başqa bir dövlətə olan münasibətindən gedir. Bu dəfə səbəbin hansı olmasından asılı olmayaraq nəticə dağıdıcı olur.

Stepan Arsenyeviçin "erməni genosidi" mifini dağıdacaq yüzlərlə faktlardan ən tutarlılarını seçməsi, özü də arqumentlərini kiçikdən böyüyə, inkişaf xətti üzrə verməsi məni çox təsirləndirdi, o mənə məhz erməni tələbələrin yazmaq istədikləri kitabı öz əlavələri ilə oxuyanda ona bildirdim ki, əziz Stepan, mütləq əsərin bu hissəsinə məndə olan faktları da əlavə etmək lazımdır. Stepan Arsenyeviç erməni tələbələri "erməni genosidi" mifini alt-üst edən ən məşhur Amerika mənbələri ilə vurmuşdu, bəlkə də "niyə məhz Amerika" sualının cavabını özü də bilmirdi. İş onda idi ki, bu məsələni məhz amerikalılar ortaya atmış, bədbəxt ermənilərin şüurlarını zəhərləmişdilər. Bu "zəhər", görünür, uyuşdurucu maddələrə hədsiz tələbat duyan ermənilər üçün göydəndüşmə olmuşdu, yüz ildir ki, ona aludədirlər, bundan sonra da ciddi müalicə olunmasalar, aludəçilikdən canlarını qurtara biməyəcəklər.

Osmanlı İmperiyası Qərb dünyası üçün əsl başağrısı idi, dünyanın böyük bir ərazisinə nəzarət edən qüdrətli müsəlman dövlətinin parçalanaraq süqut etməsində dünyanın əsas güc mərkəzləri sayılan ABŞ, Fransa, İngiltərə, Almaniya və Rusiya maraqlı idilər. Təxribatdan, əks təbliğatdan, təbəəlikdə olan xalqları qiyama qaldırmaqdan tutmuş silahlı münaqişəyəcən, müharibə elan etməyəcən onlar hər şeyə əl atmışdılar. Məhz olduqca orijinal görünən "Erməni genosidi" ideyası isə amerikalılara məxsusdur, onun xaç atası 1913-1916-cı illərdə ABŞ-ın Osmanlıdakı səfiri olmuş Henri Morqentau sayılır. Morqentau erməni daşnak Arsak Şmavonyanı özünə baş köməkçi götürmüşdü. Bütün məsələlərdə ermənilərin yanında olur, sultana "xırda azlıqların hüququnu pozdunuz", "ermənilərə qarşı haqsızlıq etdiniz" kimi iradlarını bildirirdi, erməni millətçi komitələrini təqibdən qoruyur, erməni petisiyalarını belə redaktə edirdi. O, hətta Amerika missionerlərini həmin dönəmdə erməniləri protestant xristianları etmələri kampaniyasını həyata keçirirdi, protestantlığı qəbul edən gəncləri Amerikada oxumağa yollayırdılar, həmin gənclər türklər əleyhinə mübarizədə öncüllərə çevrilirdi. Həmin dövrdə ABŞ-da antitürk kampaniyası ilə məşğul olan əsl erməni koloniyası yaradılmışdı. Guya 1915-ci ildə Osmanlıda genosid həyata keçirilməsi, 600 min -1 milyon erməninin məhv edilməsi barədə isə Morqentau səfirlik dönəmi bitəndən sonra öz kitabında yazmışdı. Sonradan bu məlumatı Qərb dairələri və ermənilərin özləri tirajlayaraq ona "tarixi fakt" statusu geydirməyə çalışmışdılar.

Və burada mütləq bir çox vacib detala da diqqət yetirmək lazımdır. Bütün Osmanlı İmperiyası dəftərxana sənədlərində, tarixi mənbələrdə ermənilərin Suriyaya köçürmə tarixi dəqiq göstərilir, bu 1915-ci ilin may ayında olub. Bəs niyə ermənilər 24 aprel günündən yapışıb məhz həmin günü genosid günü kimi qeyd edib vay-şivən qoparırlar? İş ondadır ki, həmin gün onlar həqiqətən də zərbə alıblar, amma insan tələfatı şəklində deyil, digər bir xalqa qarşı yönəli mürtəce planlarının iflası şəlkində. Bəli, məsələ məhz bu cürdür. 1915-ci ilin 24 aprel günündə erməni millətçiləri dövlət çev-

rilişi edib, sultanın hakimiyyətini devirib Anadoluda erməni dövləti yaratmaq istəyirdilər, Çevriliş edəcəkləri günü ermənilər öncədən “Erməni dövlət günü” adlandırmışdılar, amma Osmanlı hökuməti onların bu mənfur niyyətlərindən duyuq düşüb istəklərini gözlərində qoydu. Bütün milli erməni komitələri bağlandı, həbslər həyata keçirildi. Eçmiədzin katalikosu Gevorkun həmin gün ABŞ Prezidentinə “Aman zamanıdır, müsəlmanlar xristianları qırırlar, gəlin bizi xilas edin” mövzusunda müraciət məktubu var.

Nəhəng bir fatehlər imperiyasının, dünya siyasətinin güc mərkəzi olan azman bir dövlətin daxilindəki satqın təbəələrindən onunla müharibə aparan xarici aqressorlara dəstək verməklə, yüz minlərlə vətəndaşını qətlə yetirməklə zərbə almasına göz yummaması, bu murdarlığı cəzalandırması məgər cinayətdir? Onda həmin dövrdə Amerikanın, Fransanın, İspaniyanın öz müstəmləkəçilik siyasətlərində əsarət altında saxladıqları xalqlara qarşı həyata keçirdikləri qətliamlar niyə unudulur?

O ki qaldı ermənilərin öldürülməsi faktoruna, burada da yanlışlıq hədsizdir, çünki söhbət bilavasitə öldürülməkdən getmir. Osmanlı əsgərləri silah götürüb erməniləri güllələməyiblər. Həmin dövrün iqtisadi-siyasi şəraitini gəlin, göz önünə gətirək. Osmanlı İmperiyası olduqca ağır müharibə şəraitindəydi, ölkədə böhran hər sahədə özünü göstərirdi. Ermənilərin köçürülməsinə müharibə, sərt qış, nəqliyyat vasitələrinin azlığı, qida və dərman çatışmazlığı ciddi maneələr yaradırdı. Buna görə də insan itkiləri anlaşılandır. Erməni mənbələrinin üç milyon öləndən danışması isə mahircəsinə uydurulmuş erməni feykidir. Osmanlının Daxili İşlər Nazirliyinin 7 dekabr 1916-cı ildə Baş Nazirliyə verdiyi raporta görə, cəmi yeddi yüz üç min nəfər erməni köçürülmüş, bunlardan üç yüz mini yollarda və yeni yaşayış məskənlərində insan müdaxiləsi olmadan həlak olmuşdur.

“Erməni genosidi” adlanan nəsnə məhz budur!

## İyirminci hissə

## VAN ÜSYANI

Tələbələrin kitablarının növbəti bölməsinin də Osmanlıda erməni məsələsinə aid olması, təbii ki, başadüşüləndir. Osmanlı – onların yaralı yeridir. Bir az da öz iç üzlərini açdılar, bir az da öz saxtakarlıqlarını dünyaya faş etdilər. Bir bunların qələmə aldıqlarına diqqət edin:

"**8-ci bölmə.** Osmanlıda türklərlə mübarizəmiz dönəmində ən böyük zəfərimiz isə, şübhəsiz, Van zəfəri olub ki, bu barədə öncəki hissədə fikir bildirsək də, bu hissədə ayrıca danışmaq istəyərdik. Hazırsınız? Onda getdik!

Van Ermənistanın tarixi mərkəzlərindən biridir, lap qədimdə Vaspurakan çarlığının paytaxtı olub. Onu XI əsrdə səlcuqlar işğal ediblər. İşğala qədər Van erməni mədəniyyətinin, siyası və iqtisadi həyatının tam mərkəzi sayılıb, ermənicə ilk qəzet də məhz orada çıxıb. Bu, Ayrik Xrimyanın nəşr etdiyi "Artsiv Vaspurakan" qəzeti olub. İlk erməni siyasi partiyası da orada yaradılıb. Bu isə Armenakan partiyasıdır.

Konstantinopol patriarxlığının məlumatına görə, 1880-ci ildə Van əyalətində 315480 əhali yaşayıb ki, onların da 239480 nəfəri erməni olub, bütün əhalinin 76 faizi qədər.

Birinci Dünya müharibəsi dövründə türklərin başı ruslarla və ingilislərlə vuruşmağa qarışanda bizim ermənilər bundan istifadə etmək qərarına gəldilər, yerli jandarmeriyaya qarşı hərəkata başladılar. Həmin dönəmdə bizim ermənilər həm türklərin verdiyi zülmə tablaşırdılar, həm kürdlərin təzyiqlərinə məruz qalırdılar. Ona görə də bu mənfur düşmənləri yerlərində oturtmaq, Vanda müstəqil erməni əyaləti qurmaq vacib idi.

Öncə silahlanmış ermənilərimiz Van vilayətinin Şatax, Ayots Dzor, Aoçeş, Timar, Aldcavaz uyezdlərində yerli hakimiyyətə qarşı çıxışlara başladı. Sonra isə bir ay çəkmiş Van üsyanı başladı. Düzdür, bizim millətçi tarixçilərimiz ümumerməni məsələsinə xidmət edərək, Osmanlıda erməni soyqırımı söhbətinin aktual saxlanmasına dəstək verərək Vanda bizim ermənilərin yalnız müdafiə olunduğunu söyləyib Van üsyanının mahiyyətini kiçildirlər. Hətta Van zəfərinın – bu cahanşümül yürüşün adını özünümüdafiə aktı adlandırırlar. Amma Van zəfərdir, erməni xalqının Osmanlıdakı müstəqillik hərəkatının apogey nöqtəsidir.

Bizimkilər üsyana xeyli müddət hazırlaşıblar, Osmanlı ordusundakı əsgər və zabitlərimiz, silah qaçaqmalçılarımız əhalini silahlandırıb, hərbi orqan yaradılıb. “Vanda erməni özünümüdafiəsi hərbi orqanı”nın rəhbər tərkibinə Fanos Terlemezyan, Armenak Ekaryan, Aram Manukyan, Kaysak Arakel, Bulqaratsi Qriqor, Qabriel Samadjyan və Qrant Qalikyan daxil idilər. Silah emalatxanaları yaradılmışdı ki, orada tüfənglər təmir olunur, əhaliyə barıt paylanırdı. Üstəlik, ustalarımız bu emalatxanalarda iki top da hazırlamışdılar. Üsyançılara ərzaq bölüşdürmə məntəqəmiz də yaradılmışdı. Vanda “Qadınlar ittifaqı” da yaradılmışdı ki, bu ittifaqda qadınlar döyüşçülər üçün hərbi paltar tikirdilər. Hər üç erməni partiyası – daşnaklar, qnçakçılar və ramkavarlar da birləşib bir partiya kimi fəaliyyət göstərirdi.

Vanda Osmanlının daimi ordusunun 12 min əsgəri, bir neçə könüllü silahlı birləşməsi, kürdlərin baçıpozuq dəstələri, 12 artilleriya nöqtəsi, Van gölündə hərbi gəmiləri təşəkkül tapmışdı, bizim ermənilərin isə cəmi 1500 əsgəri, 505 tüfəngi, 750 mauzeri var idi, patron çox az idi, döyüşçülərə bərk-bərk tapşırılırdı ki, gülləni yalnız dəqiq hədəfə atsınlar.

Hərbi rəhbərlər Vanı beş müdafiə rayonuna bölmüşdülər, 73 pozisiya qurulmuşdu. Silahlı münaqişə isə bizimkilərin qəşəng bir hiyləgərlik planı ilə başladı. 31 martda Şüşnatsdan Ayqestana mövcud hakimiyyətə etiraz şüarları çağıraraq irəliləyən erməni qadınları

təxribat yaradıb jandarmeriya ilə qarşıdurmaya getdi, bizim döyüşçülər də silahdan istifadə etdilər. Nəticədə türklər də silaha əl atdılar, toqquşma başladı. Döyüşün ürəyi və canı isə bizim milli qəhrəmanımız Aram Manukyan oldu. Onu hamı sevə-sevə "Aram paşa" adlandırmağa başladı. Tezliklə bizimkilər türklərin silah anbarını partlatdılar, poçtu, polis idarəsini tutdular. Vandakı türk hərbçilərini tam qovub çıxarandan sonra oradakı inzibati binalardan erməni bayrağı asıldı. Bu, möhtəşəm bir qələbə idi.

Sultan bizimkilərin üstünə Kazım bəy başda olmaqla beşinci sərbəst diviziyanı göndərdi. Düşmənin böyük qüvvəsi bizimkiləri sıxışdırıb mövqelərindən çıxartdı. Amma bəxt üzümüzə güldü. Bu arada müttəfiqimiz Rusiya da cavab verəsi oldu, dördüncü Qafqaz ordusunun hissələrini, eləcə də Zabaykalye kazak briqadasını general Truxinin başçılığı altında Vana yeritdi. Bu da az olmasın deyə Zakaspiysk kazak korpusu da general Nikolayevin komandanlığı ilə bizimkilərə köməkçün göndərildi.

6 mayda birləşmiş erməni-rus ordusu şiddətli döyüşlərdən sonra Vana daxil oldu, yerli ermənilər silahlılarımızı gül-çiçəklə qarşıladı. Yeri gəlmişkən, əhalimiz də bu arada dinc durmurdu, Vanda yaşayan türk və kürd əhalisinin dərsini verirdi, öldürülən öldürülür, sağ qalan da şəhərdən qaçırdı.

Van zəfərində düşmən min nəfər itki verdi, bizim fədailərimizdən isə 350 nəfər qəhrəmanlıqla həlak oldu.

O şərəfli zəfərimiz barədə Amerika tarixçisi Stenford C.Şou özünün "Osmanlı İmperatorluğunun tarixi" kitabında yazırdı: "Birinci dünya müharibəsi ərzində müsəlmanların ermənilər tərəfindən dəhşətli, amansız, kütləvi qırğını davam etmişdir. Bir milyondan çox türk kəndlisi doğma ocaqlarından didərgin düşmüşdür. Minlərlə qaçqın tikə-tikə doğranmış, qol və ayaqları, burun və qulaqları kəsilmiş, gözləri çıxarılmışdı.

1915-ci il iyunun 22-də Osmanlı qoşunları ermənilərin ələ keçirdikləri Van şəhərinə daxil olarkən onların gözləri qarşısında dəhşətli bir mənzərə canlanmışdı: meyitlər bir-birinin üstünə qalaqlanmışdı.

Erməni birləşmələri burada vaxtında qaçıb canını qurtara bilməyən bütün müsəlman əhalini – türkləri, azərbaycanlıları, kürdləri vəhşicəsinə qətlə yetirmiş, 1000 körpəni diri-diri boğmuşdular. Həmin il iyulun 1-də rus generalı Nikolayev öz məlumatında təkcə Van şəhərində on beş min nəfər türkün ağır işgəncələrə məruz qalmasından, bu ağlasığmaz cinayətin Tero və Xeso adlı iki erməni tərəfindən törədildiyindən söz açırdı."

Bəli, bu, erməni xalqının şərəf tarixidir, onun zəfər tarixidir.

Aram Manukyan rəsmən Vanın çarı elan olundu, taxta çıxdı. Qəhrəmanımız rus çarı II Nikolaya belə bir teleqram vurdu:

"Əlahəzrət imperator, iş elə gətirdi ki, sizin ad gününüz bizim rus ordusunun köməyi ilə Ermənistanın paytaxtı Vanı azad etməyimiz gününə təsadüf etdi. Biz sizdən xahiş edirik ki, Vanı da öz qanadlarınızın altına alıb Rusiya İmperiyasına qatasınız. Qoy sizin nəhəng, rəngbərəng imperiya çiçəkləri buketinizdə muxtar Van kiçik bir bənövşə olsun."

"Üçlər"ə Osmanlı İmperiyasında erməni məsələsi ilə bağlı əvvəlki hissədə ətraflı və sərrast cavab yazmışdım deyə bu dəfə dərinə getmədim. Cəmi bir irad qeyd etdim:

"Tarixi saxtalaşdırmayın. XIX əsrin sonlarında, XX əsrin əvvəllərində Vanın erməni əhalisinin sayını şişirtməyin. Konstantinopol patriarxlığının gətirdiyi rəqəm heç də 76 faiz olmayıb, 58,9 faiz olub. Yəni ki, Van əhalisinin 58,9 faizini ermənilər təşkil eləyiblər. Kristofer Valkerin gətirdiyi rəqəm isə Birinci Dünya müharibəsi öncəsi Vanın erməni əhalisinin dəqiq sayını göstərir – 52,9 faiz.

76 faizi isə sizin saxta tarixçiniz Mesrop Kirkoryan ortaya atıb, iddia edib ki, guya tarixi mənbələr ermənilərin sayını qəsdən azaldıb".

Və kitab boyu ilk dəfə müəlliflərini alqışladım da. Yazdım ki, siz qeyri-ixtiyari böyük erməni saxtakarlığını faş etmisiniz, özünüz etiraf etmisiniz ki, Vanda yüzillik erməni tarixinin iddia etdiyi baş verməyib, ermənilər türklərin tərəfindən soyqırıma məruz qaldıqları üçün silahlanıb müdafiə olunmayıblar. Onlar müstəqillik əldə

etmək, Vanı türklərdən qoparıb ruslara calamaq üçün açıq-aşkar silahlı üsyan təşkil ediblər.

Dil çaşar, düzünü deyər. Erməni dilinin çaşması və düzünü deməsi isə nadir hal olduğundan, yalan ermənilərin həyat tərzinin ayrılmaz bir atributu hesab edildiyindən, sizin bu addımınız alqışa layiqdir.

## İyirmi birinci hissə

## “BÖYÜK ERMƏNİSTAN” SAVAŞININ BAŞLANĞICI

“Vətən haradan başlayır?” sualına necə cavab vermək olar? Bəlkə bu cür: dünyaya göz açdığın mənzilin kandarından başlayır vətən.

Dünya olduqca nəhəngdir, yüzlərlə irili-xırdalı xalqlar, etnoslar mövcuddur. Bu xalqlar, etnoslar hamısı bir-birinə qaynayıb qarışır, buna görə də sərhədlər nisbi xarakter alır, daha yaxşı həyat axtarışı ilə insanlar mühacirət yolunu seçirlər. Belədə, de-fakto vətənlə de-yure vətən fərqli olur, insan bir yerdə doğulursa onun valideynlərinin, nəslinin, ulusunun doğulma məkanı fərqli olur. Demək, insanın doğulduğu yer onun mikro, mənsub olduğu yersə makro vətəninə çevrilir. Bu vətənlər arasındakı məsafə bəzən çox qısa olur, bir kəndin, şəhərin, ölkənin hüdudları daxilinə sığır, bəzənsə nəhayətsiz dərəcədə uzanır, ölkələr, qitələr, materiklər aşır.

Bu məqamı da nəzərə alsaq, onda “Vətən haradan başlayır” sualının cavabını daha da təkmilləşdirib “Vətən sənin doğulduğun mənzilin kandarından başlayıb sənin əcdadlarının doğulduqları torpaqda bitir” şəklində söyləyə bilərik.

Kirayənişinlərinin kitablarının növbəti hissəsini oxuyarkən Stepan Arsenyeviç bir müddət “vətən” sözünün ətrafında improvizasi-

yalar etmişdi, mən də həmin an beynimə gələn bu fikirləri yaddaş dəftərimə yazmışdım.

Mənim vətənim doğma, əziz Azərbaycanımdır, Vətənimin başlanğıc nöqtəsi isə Azərbaycanın barlı-bərəkətli cənubudur, Lerik rayonunun Nuravud kəndidir. Rəsmi statistikaya görə, cəmi 602 nəfərin yaşadığı, sıldırım dağların qoynunda yerləşən, misilsiz təbii gözəlliyə malik olan bu kəndin min illik tarixi vardır desəm, yanılmaram. Kəndimizin adının mənşəyi də çox maraqlıdır. Nur – qədim monqol dilində "sıldırım qaya", vud isə Azərbaycan dilinin dialektlərində "təpəlik" mənasını ifadə edir, hərfi mənası "sıldırım dağların qoynundakı təpəlikdəki yurd yeri"dir.

Bir çox mənbələrin yazdığına görə, kəndimizin əhalisi Çindən köçmüş qədim oğuz türk tayfalarına məxsusdur.

Coğrafi koordinatlarına görə, İranla dövlət sərhədinin yaxınlığında, Lerik şəhərdən təqribən 10 km məsafədə, 38 dərəcə şimal enində və 48 dərəcə şərq enində yerləşən Nuravud mənəvi koordinatlarına görə mənim qəlbimin mərkəzində yerləşir. Bizim Azərbaycanda hər kəsdə belədir, hər kəs üçün doğulduğu yer qiblədir. Biz ömründə nə özümüzün, nə əcdadlarımızın ayağı dəyməyən yerə vətən deyə bilmərik, diksinərik, eymənərik. Yada doğma deməkmi olar?

Çox təəssüf ki, bizim bədnam qonşularımız "harada yaxşıdırsa, ora bizimçün vətəndir" deyib dünyanın dörd yerinə səpələnərək ev sahiblərinin qonaqpərvərlikləri müqabilində onlara qarşı torpaq iddiası qaldırmaqdadırlar. Get-gedə dünya erməni millətçiliyinin iç üzünə daha dərindən bələd olmaqdadır. Bu gün Azərbaycanın Dağlıq Qarabağ, Türkiyənin Şərqi Anadolu, Gürcüstanın Axalkalaki, Rusiyanın Armavir, Ukraynanın Krım bölgələrinə torpaq iddiası qaldıran ermənilərin sabah da bütün maliyyə resurslarını əllərində cəmlədikləri Argentinaya, yerli mental qayda-qanunları belə dəyişib adının Erməni İsfahanı kimi dəyişdirilməsinə səbəb olduqları İranın İsfahan bölgəsinə, lobbiçilik fəaliyyəti ilə quduzlaşıb hətta qanunların verilməsinə belə korrektə etməyi bacardıqları ABŞ-ın Kalifor-

niya ştatına qarşı da torpaq iddialarında bulunmayacaqlarına kim zəmanət verə bilər?

Çox məntiqsiz, absurd, reallıqla uzlaşmayan qanunlara söykəniblər ermənilər, bu qanunlar isə sadəcə insanlığı fəlakətə sürükləyir.

İndi də ermənilərin uzun-uzadı, sicilləmə yazıb doldurduqları "Böyük Ermənistan savaşının başlanğıcı" fəslinin bir hissəsini və Stepanın P.S.-ini oxucularımı çox da intizarda saxlamadan təqdim edirəm.

"**9-cu bölmə.** Bizi sevməyənlər, bədxahlarımız xalqımızın Böyük Ermənistan uğrunda savaşının tarixini ötən əsrin 50-ci illərinə, SSRİ-nin Stalin dönəmi idarəçiliyinə gətirib çıxarmaqla hərəkatımıza kölgə salmaq istəyirlər, halbuku bu tarix xeyli qədimə gedir. Haçana? Onda getdik!

Xalqımızın Böyük Ermənistan uğrunda savaşının tarixi tam XVII əsrdən başlayır. İsrail Ori! Bu ad hər bir erməniyə tanışdır, kimə tanış deyilsə də, ona ar olsun. Qadınlar qoy bundan sonra bətnlərindəki körpələrə belə Orinin adını pıçıldasınlar ki, erməni xalqı bu böyük şəxsiyyətini heç zaman unutmasın. O, biz ermənilərin milli-azadlıq hərəkatının ən görkəmli nümayəndəsidir, başlanğıcdır. Bizim erməni mənbələri göstərir ki, Osmanlıda erməni məsələsinin, dolayısı ilə "Böyük Ermənistan" qurulması planının ilk izi 1699-cu ilə gedib çıxır, həmin il erməni məlikləri İsrail Orini arximandrit Minasla birgə Almaniyaya yola salıblar. İsrail Ori qədim erməni torpaqlarını geri qaytarmaq üçün hazırladığı 36 bənddən ibarət planı Almaniya rəhbərliyinə təqdim etməliymiş. Əfsus ki, bu planla tanış olan alman knyazı İohann Vilhelm yekəbaşlıq edərək nümayəndələrimizi danlayaraq saraydan qovdurub. O, özlərinə rəqib olmaq gücündə olan qədim xalqın yenidən qüvvətlənəcəyindən qorxaraq belə addım atıb.

İsrail Ori ruhdan düşməyib, İtaliyada və Avstriyada da danışıqlar aparıb, Böyük Ermənistanı – xristian dünyasının bir parçasını müsəlman işğalından – Osmanlı imperiyasından qoparmağın zərurətini başa salıb. Amma yenə də uğursuzluğa düçar olub. Heç bir Avropa

dövlətinin ermənilərin mənafeyi naminə Osmanlı ilə müharibəyə girməyəcəyinə tam əmin olduqdan sonra Ori son ümid yerini Rusiyaya bağlayıb. Belədə, "Böyük Ermənistanı" yaratmaq Osmanlıdan xeyli zəif olan İran dövlətinin torpaqlarına – Cənubi Qafqaza transfer olunub.

1701-ci ilin yayında İsrail Ori arximandrit Minası da yanına alıb I Pyotrun görüşünə yollanıb. Onlar Almaniya knyazı İohann Vilhelmə təqdim etdikləri "proqramı" bir qədər təkmilləşdirilmiş şəkildə rus çarı I Pyotra təqdim ediblər. I Pyotr Qafqazla, xüsusilə Azərbaycanla çoxdan maraqlanırdı. Məhz buna görə də bizim ermənilərlə marağı üst-üstə düşürdü. I Pyotr münbit cənub torpaqlarına olan iştahını boğmayıb, bizim ermənilərə havadarlığı öz boynuna götürüb, Cənubi Qafqazı ələ keçirib ermənilərimizin orada müstəqil dövlət qura biləcəklərinə vəd verib. Üstəlik, İsrail Orini polkovnik rütbəsi ilə təltif edərək İran Səfəviləri dövlətinə göndəriləcək nümayəndənin başçısı təyin edib. İsrail Ori 1703-cü ildə Böyük Ermənistanın xəritəsini hazırlayıb I Pyotra təqdim edirb. Xəritədə İran Azərbaycanının tərkibində olan qədim İrəvan xanlığından, Zəngəzur, Qarabağ mahallarından, bir də Osmanlı İmperiyasına aid Anadolunun bir hissəsindən bəhs olunub.

Mənbələrdən aydın olur ki, bizim ermənilər sonradan I Pyotrdan sonrakı bütün rus çarları ilə də mütəmadi əlaqə saxlayıblar. Ermənilərimizin əsl böyük qardaşı isə I Nikolay olub. O, 21 mart 1828-ci il tarixli fərmanı ilə ermənilərimizin üstündən bədxahlarımızın bizə qoyduqları "qul" adını götürüb. 1828-ci il Rusiya – İran müharibəsi müttəfiqimiz olan rusların parlaq qələbəsi ilə nəticələnib, Türkmənçay müqaviləsindən sonra Azərbaycanın əlində olan ərazilər Rusiya ilə İran arasında rəsmən bölünüb. Beləliklə, İrandan Cənubi Qafqaza, xüsusilə İrəvan xanlığına və Azərbaycana bizim ermənilərin kütləvi axını başlanıb.

1828-ci il mart ayının 20-də I Nikolay Türkmənçay müqaviləsini təsdiq edibsə də, ertəsi gün – martın 21-də isə Naxçıvan və İrəvan xanlıqlarının yerində erməni vilayətinin yaradılması haqqın-

da fərman imzalayıb. 1829-cu ildə bağlanmış Ədirnə müqaviləsindən sonra isə Türkiyədən də Cənubi Qafqaza xeyli miqdarda bizim ermənilərimiz gətirilib. 1828-1830-cu illər arasında Zaqafqaziyaya İrandan 40 mindən artıq, Türkiyədən isə 84 min bizim ermənimiz köçürülüb.

Əsası 1887-ci ildə Cenevrədə gənc tələbə, böyük erməni Avetis Nazarbekyan tərəfindən qoyulan, haqqında əvvəlki bölmələrdə geniş bəhs etdiyimiz "Qnçak" partiyası İsrail Orininin başladığı mübarizəni artıq təşkilatlanmış halda davam etdirib, Rusiya, İran və Türkiyədə yaşayan bütün ermənilərin partiyanın bayrağı altında birləşərək mübarizəyə atılması, Osmanlıdakı Samsun, Van, Ərzurum, Rusiyadakı, İrəvan, Qarabağ, Qazax, Zəngəzur, Axalkalaki, Axarsix bölgələrində "Böyük Ermənistan" yaradılması məqsədi qoyulub. Ardınca "Daşnaksutyun" partiyası da yaranaraq bu mübarizəni daha da mütəşəkkil hala gətirib.

XIX əsrin sonları, XX əsrin əvvəllərində Osmanlı hökuməti əleyhinə qaldırılan qiyamlar, 1918-ci ildə Azərbaycanın Bakı, Şamaxı, Quba bölgələrində aparılan zəruri etnik təmizləmələr xalqımızın şərəf və zəfər tarixidir. Çox təəssüf ki, sonrakı dönəmlərdə Rusiya İmperiyası boynuna götürdüyü öhdəliklərə tam əməl etməyib, xalqımız nə edibsə öz gücünə edib. SSRİ dönəmində tam müstəqil olmasa belə, yenə də Qafqazda erməni dövləti qura bilməyimiz Böyük Ermənistan yolunda ən əhəmiyyətli addımımız olub. 1991-ci ildə Sovet Ermənistanının müstəqil dövlətə çevrilməsi, 1993-cü ildə Artsaxa sahib olmağımız növbəti uğur salnaməmizdir.

Qarşıda isə bu nailiyyətləri qoruyub saxlamaqla keçmişdə Böyük Ermənistan olan digər torpaqları da geri almaq vəzifəsi dayanır. Hər bir erməni gənci and içməlidir ki, bu amal uğrunda canını qurban verməyə belə hazırdır."

"P.S. Dostlar, heç bilirsiniz məni nə qədər şənləndirdiniz, güldürdünüz? Saxta tarix yazmaq yolunda o qədər çətinlikləriniz var ki, bəzən nəyi demək, nəyi deməmək lazım olduğunu belə düzgün qərarlaşdıra bilməyərək özünüz özünüzü təkzib edirsiniz. Bir baxın,

özünüz də fərqinə varmadan Dağlıq Qarabağda ermənilərin aborigen xalq olmadığını, İrandan və Türkiyədən Car Rusiyası vasitəsilə ora sonradan gətirildiyini yazmısınız. Ay dostlar, millətçiləriniz sizin başınızı üzər bu yanlışlığa görə, heç fərqindəsiniz? Siz axı erməni kitabı yazırsınız, orada hər şey saxta və yalan olmalıdır. 1978-ci ildə Mardakert adlandırdığınız Ağdərə ərazisində ermənilərinizin Dağlıq Qarabağa köçürülməsinin 150 illiyi münasibətilə abidə tikmişdiniz, sonradan onu da uçurtdunuz. Tarixi saxtalaşdırmaq çox çətindir, neynəsən də həqiqi tarixin izi tam itmir. Cənubi Qafqazdakı hazırkı Ermənistan ərazilərində isə, sayınız çox az olub, yenə də köçürülmə dadınıza yetib. Bu barədə öz tarixçiniz V.A.Parsamyan açıq-aydın yazıb: "Rusiyaya birləşənə qədər Şərqi Ermənistanın 169 min 155 nəfər əhalisinin 57305 nəfəri, yaxud 33,8%-i erməni, 84089 nəfəri yaxud 49,7%-i müsəlman, 26911 nəfər, yaxud 16%-i kürd və 850 nəfər, yaxud 0,55%-i kənar millətlər idi".

Bir baxın, tarixi saxtalaşdırmaq sizin xalqda nə qədər fobiyalar yaradıb. Nə qədər çətinlikləriniz var. Bir yandan yaradıcı intuisiya, orijinal nağılçılıq qabiliyyətini ortaya qoyub yeni-yeni tarixi faktlar uydurur, dünyanın dörd bir yerində daşlara ermənicə yazılar yazıb tarixin erməni izlərini yaradırsınız, quruculuq fəaliyyətindən beş dəfə də çox dağıdıcılıq fəaliyyəti göstərib abidələr dağıdır, kitablar yandırır, insanları təhdid edir, hətta öldürürsünüz.

Əvvəlki fotogörüntüləri hər halda qalsa belə paxırınızı açan Ağdərədəki abidəni dağıtmağa cəhd etdiniz, amma paxırınızı açan Bibliyanı necə yox edə bilərsiniz axı? Bibliyada erməni xalqının adı yoxdur. Siz iddia edirsiniz ki, dünyanın ən qədim və ən böyük xalqısınız, ancaq dünyanın ən qədim, ən müqəddəs səmavi kitabında adınıza rast gəlinmir. Yəhudilər var, bizanslılar var, romalılar var, yunanlar var, misirlilər var, amma ermənilər yoxdur.

Bütün Rusiya tarixindəki mənbələrdə aşkar olaraq göstərilir ki, 1827-ci ildə Rus qoşunları İrana aid İrəvan quberniyasını ələ keçirərkən oranın əhalisi yerli-dibli Qafqaz müsəlmanları olan azərbaycanlılardan, eləcə də az sayda xristian gürcülərdən ibarət olub,

tək-tük erməni qul kimi əldə-ayaqda işləyirmiş. 1828-ci ildən Rusiya İmperiyası İrəvana İrandan xristian ermənilərinin köçürülməsi qərarını verib. Bu fakt hazırda Ermənistanın paytaxtı olan Yerevanın erməni şəhəri olması, qədim Romadan sonra dünyanın ən qədim ikinci şəhəri sayılması feykinizi alt-üst edir, amma Rusiya arxivlərini necə dağıdasınız axı?

Bütün dünya mənbələrində sizin ermənilərə aid İlahə Anahit kultu deyilən bir inanc əksini tapıb. Siz ermənilərin bineyi-qədimdən xristian olduğunu yazıb öz yalanınız ayaq açsın deyə hətta xristianlığın tarixini belə saxtalaşdırmağa çalışırsınız. Halbuki, xristianlığın qəbuluna qədər sizin ermənilər İlahə Anahitə səcdə edirdilər. Qədim mənbələr İlahə Anahiti fahişəlik rəmzi hesab edirlər. Düzdür, arada çığır-bağır salırsınız ki, tarixdə İlahə Anahit deyilən bir kult yoxdur, arada da nala-mıxa vurmağınız İlahə Anahiti fahişəlik rəmzi deyil, məhsuldarlıq rəmzi kimi qələmə verməyiniz formasına keçir. Amma nə edə bilərsiniz ki, yazı elə yazılıb ki, onu pozmaqda tam acisziniz. Məsələn, "Ermənilər ilk xalqdırlar ki, yaşamaq üçün öz qadınlarını başqa xalqların kişilərinin altına itələmişlər" söyləyən nəhəng Karl Marksın adını tarixdən necə silmək olar axı?

Müasir Ermənistanın ərazisindəki bütün toponimlər türklərə aiddir. Zamanında bu toponimləri dəyişsəniz də tarixi uyğunsuzluq, coğrafi fərqlər bu işi axıra çıxarmanıza imkan verməyib. Bəzilərini də tələffüz dəyişkənliyinə məruz qoymaqla kifayətlənmisiniz. Paytaxtınız İrəvana Yerevan deməklə elə bilirsiniz hər şey bitir? Yerevan sözünü ermənicə təhlil edə bilərsiniz? Təbii ki, yox. Çünki İrəvan türk sözüdür, rəvan – axıcı, səlis deməkdir. "İ" hərfi isə Azərbaycan dilində "r" samiti ilə başlayan adlara "i" saitinin əlavəsindən ibarət orfoepiya qanununun təzahürüdür.

Türkiyəyə torpaq iddiası etdiyiniz halda tələb etdiyiniz torpaqların adlarına bir baxın: Sivas, Qars, İqdır, Ərzurum. Bu adların sizlərlə axı nə əlaqəsi var? İşğal etdiyiniz Qarabağın adı da eynən, türk adıdır. Qara – türkcə rəng adıdır, bağ isə gül-çiçək salınan ərazi deməkdir. Üzgörənlik edib onun adına Artsax deməyiniz də özünü

doğrultmur. Çünki bu ərazilərdə ilk insan məskunlaşan dövrdən buralar Qarabağ adlanıb. Tarixdə Qarabağ var, Artsax yoxdur.

Sizlər tarixi saxtalaşdırırsınız, amma bəzən çox gülünc vəziyyətə düşürsünüz, çünki elə məqam gəlir ki, yalanınızı isbat etmək üçün mental xüsusiyyətləriniz, milli xarakteriniz belə təhlükə altına alınır. Bu gün bütün dünyadakı erməni ailələrində mütləq matriarxat hökm sürür. Ailədə qadın tam hökmrandır, onun razılığı olmasa heç bir iş həyata keçə bilməz. Məğrur Qafqazda partiarxat hökm sürdüyü yerdə, kişilərin söylədiyi qadın üçün qanun olduğu bir halda, ermənilərin matriarxatı suallar doğurmurmu? Necə olur ki, buradakı bütün xalqlarda – azərbaycanlılar, gürcülər, çeçenlər, ləzgilər, avarlar, tabasaranlar, osetinlər, kabardinlər, balkarlar, çərkəzlər, acarlar və abxazlarda söz sahibi kişilərdir, yalnız ermənilərdə qadınlardır? Bu müqayisə sizin insaflı tədqiqatçıları həmişə hiddətləndirməkdədir. Hətta bəziləri üzüsulu halda ermənilərin Qafqazda gəlmə xalq olduqlarını təsdiqləməyə məcbur olurlar.

Əziz dostlar, vallah halınıza acıyıram, çox zor bir işin altına girmisiniz. Real dünyada yox, uydurma bir aləmdə yaşamaq əzabları hədsizdir, duyuram.

Mən Moskvanın Vernadski prospektində dünyaya göz açmışam, illərdir burada da yaşayıram. Binamız on altı mərtəbəli, iki bloklu, doxsan doqquz mənzilli panel binadır. Prospektimiz ötən əsrin 40-cı illərində yeni yaranmış Yuqo-Zapadnoye rayonu ilə Moskva Dövlət Universiteti arasında vasitəçilik missiyasını yerinə yetirməyə hesablanıbmış, Lomonosov prospektinəcən uzanırmış. Prospektimiz gündoğanda yerləşdiyindən "Şərq şəfəqi" adını alıbmış. 1958-ci ildə Lujnetsk körpüsü açılanda prospektimiz xeyli uzadılıb, Komsomolsk prospekti ilə birləşdirilib, 1967-ci ildə Yuqo-Zapadnaya metro stansiyasına, 1974-cü ildə isə Lenin prospektinəcən uzadılıb. 1959-cu ildə burada trolleybus xətti çəkilib, 1971-ci ildə burada SSRİ-nin ən məşhur kinokomediyası – baş rollarda ayrılmaz üçlük – Nikulin, Vitsin və Morqunov rol almış "Müvəffəqiyyət centlimenləri" filmi çəkilib, 1975-ci ildə isə bizim qonşu binada hər yeni

ildə bütün sovet xalqının sevə-sevə tamaşa etdiyi “Talenin ironiyası, yaxud həmişə təmizlikdə” filmi çəkilib. 1978-ci ildə mən prospektimizdə Brejnevi, 1989-cu ildəsə Qorbaçovu canlı görmüşəm. Prospektimizdəki MDU, Beynəlxalq Münasibətlər İnstitutu, Geokimya və analitik kimya institutu, Radiotexnika institutu kimi məşhur təhsil ocaqlarından savayı, Böyük Moskva Dövlət Sirki, Mərkəzi Uşaq Musiqi Teatrı, “Zvyozdnıy” kinoteatrı, Mixail Arxangel kilsəsi, general Skobelevin, kosmonavt Qaqarinin abidələri də var.

Moskva böyük bir meqopolisdir, amma mənimçün vətən anlayışı məhz öz prospektimlə bağlıdır. Vətən nə qədər geniş bir anlamı ehtiva etsə belə, o həm də lokaldır, dar çərçivəyə sığır. Mənim heç bir başqa guşədə gözüm olmayıb, olmayacaq da. Oğlum bir müddət Çində yaşadı, daha gözəl güzəran, daha çox pul var idi orada. Amma dönüb çinli ola bilməzdi axı. Bilirsiniz, biz rusların maşın istehsalatından başımız yaxşı çıxır. Bizim “Jiquli”lərimiz, “Volqa”larımız, “QAZ”larımız, “Moskviç”lərimiz olub zamanında, yüz milyonlarla insan bu maşınları sürüb. Bizdə bəzən aşağı prestijli 01,05,07 və s. modellərdən “Jiquli”lər buraxılırdı, amma müştəri bu maşınların mühərrikini soruşurdu ki, mühərriki hansındandır. Əgər deyilsəydi ki, 06 mühərrikidir, bu zaman həmin maşını alıcı əlbəəl alırdı, 06 mühərriki ən yaxşı mühərrik sayılırdı. Maşının mühərrik mənsubiyyətini mən məhz insanın doğulduğu vətən mənsubiyyəti ilə bir tuturam. Sən Amerikada yaşaya bilərsən, ancaq sən russansa, demək, mühərriki rus olan amerikalısan.

Dostlarım, qapılın öz vətəninizə, öz elatınıza, başqalarının süfrələrində gözü qalan heç vaxt doya bilməz, vallah yazıqsınız.

Gedin dərsinizi oxuyun, bu cəfəngiyyatı yazıb özünüzü biabır etməkdən əl götürün.

Eşidirsiniz məni?!”

## İyirmi ikinci hissə

# TAYQULAQ ANDRANİK

Növbəti axşam kirayənişinlərim evə bir qədər tez gəldilər, məndən icazə alıb süfrə açdılar, donuz qabırğaları almışdılar, qızartdılar, kələm şorabası və qırmızı turş çaxırla süfrəyə qoydular. Məni də süfrələrinə dəvət etdilər. Demə, içlərinin yekəpəri olan Arturun doğum tarixiymiş, iyirmi yaşı tamam olurmuş. Mən də dəvətlərini qəbul edib onlarla süfrə arxasında əyləşdim. Əslində dükan-bazara getmiş, kommunal xərcləri ödəmiş, Vasyanın uşaqlarının bağçasını dəyişmək üçün bir-iki ünvana baş çəkib hədsiz yorulmuşdum, dəhşətli dərəcədə ac idim. Tibbi maskada gəzmək də məni üzmüşdü. Üstəlik, nə vaxtdır dilimə içki dəymirdi deyə məmnuniyyətlə vurmaq da istəyirdim. Amma bu üç tələbənin dəvətini qəbul etməyim üçün bunlar kifayətedici arqumentlər sayıla bilməzdi. Gördükləri işə görə, ümumən, hansı millətin nümayəndələri olmaları səbəbindən onlarla yemək yeməyim mənə nuş ola bilməzdi. Birgə oturmağa cəmi bir səbəbdən razılıq verirdim. Doğrudan da hələ heç nəyin bitmədiyini düşünüb bu uşaqlara kömək etmək, onları səhv yoldan çəkindirmək istəyirdim. Mən axı yapışdığım işdən sonuna çıxmayınca əsla vaz keçən biri deyiləm. Yazdıqları kitabın faydalı yox, əslinə ziyanlı olması, onların qəhrəman deyil, saxtakar, riyakar, yalançı amplualarında görünməsini onların özlərinə sübut etmək istəyim böyük idi. Odur ki, birgə yeyib-içməyi onların başına ağıl gətirmək işində bir vasitə kimi qavrayırdım.

Adətən, bu sayaq məclislərdə böyük planlar həyata keçirmək mümkün olur. Mən də öz planımı həyata keçirmək məqsədi güdürdüm. İnsafən, pis uşaq deyildilər, zərərli vərdişləri, tərbiyəsizlikləri yox idi, çalışqan və savadlı idilər. Amma bütün bu müsbət xüsusiy-

yətlər mənfi işlər görməyə sərf olunurdu, bütün enerjilərini bu lüzumsuz işə xərcləyirdilər. Dərslərdən belə geri qaldıqları mənə bəlli idi. Distant təhsilə keçilmişdi, amma onlar virtual dərslərə girmirdilər, işləri-gücləri yalnız yazdıqları kitab idi.

Ad günü olan şəxs təbrik edildikdən sonra növbəti badəni erməni və rus xalqlarının sağlıqlarına qaldırdıq, amma üçüncü sağlıqda mən içməkdən imtina edib *(bu sağlıq "Böyük Ermənistan"ın şərəfinə idi)* onlara dolayısı ilə gördükləri işin necə mənasiz bir iş olduğunu anlatmaq istədim, hətta az qaldı sirrimi açıb dostlara deyim ki, yazdığınız hər bir arqumentə əks arqumentlər gətirib kitabınıza əlavə edirəm, siz tam səhvsiniz, qərəzli və saxtakarsınız. Amma özümü güclə saxlayıb sirrimi aşkarlamadım, gördükləri işin lüzumsuz olmasını ümumi cümlələrlə başa salmaq istəyəndə isə üçü də yerindən hoppandı. Ağızlarını var gücləri ilə açaraq bu kitabı xalqlarının bugünkü qələbəsi, gələcək toparlanması yolunda əsas silah hesab etdiklərini, onu yazmaqla tarixə düşəcəklərini, qəhrəman olacaqlarını söylədilər. Demək, bu xalqın hər bir üzvü qəhrəmanlığa can atırdı, qəhrəmanları adi insanlarından çox olan xalq kimi də bunlar dünyanın nömrə bir xalqı olmaq amacında idilər.

Məclisin müəyyən bir hissəsi arxada qalmışdı, bu dəfə hər kəsdən öz arzularını söyləmək xahiş olundu.

Sadə bir mütəxəssisin nə arzusu ola bilər ki? Adi insanların böyük dühalardan fərqi də məhz onların arzularının da sadə və əlçatan olmasındadır. Nobel, Oskar, fəxri ad, Olimpiya çempionluğu, prezidentlik, lap elə nazirlik gözləntisi kimi çox yüksəkdə olan hədəflərə çatmaq arzusunda bulunan qeyri-adi, məhdud bir zümrəni əhatə edən insanlardan fərli olaraq biz əksəriyyəti təşkil edən adi insanlar müəyyən yaş həddimizə kimi özümüz üçün arzular icad eləyib *(ali məktəbə girmək, yaxşı bir peşə sahibi olmaq, babat iş tapıb işləmək, ailə qurmaq, məzuniyyətdə isti ölkələrə gedə bilmək, ev almaq, daha dərinə getsək, bağ, maşın almaq və s.)* bu arzular üçün çarpışırıqsa, ahıl yaşa çatanda yeganə arzumuz oğul-uşaq toyu görmək, nəvə böyütmək, onların uğuruna sevinmək olur. Odur ki, arzularımı dilə

gətirərkən dedim ki, ən böyük arzum oğlumun, nəvələrimin xoş günlərini görməkdir.

Kirayənişinlərim isə başladılar, nə başladılar.

Adaşım dedi, indilikdə təbii ki, ən böyük arzum kitabımızın əla çıxması, ümidlərimizi doğrultması, ondan da vacibi – müharibəni qazanmağımızdır. Ümumiyyətlə isə, xalqımın ən layiqli diplomatı olmaq, Ermənistanı ən ali dünya qurumlarında təmsil etmək istəyirəm.

Yubilyarın da arzuları oxşar oldu. Təkcə özəl arzusunda bir konkretlik ortaya qoydu. Ən böyük özəl arzusu Amerikada Ermənistanın səfiri olmaq, dünyanın bu ən böyük güc mərkəzini öz balanslaşdırılmış diplomatik xidməti ilə Ermənistanın ən yaxın dostu etmək idi.

Növbə gəlib Qaqikə çatanda isə onun çəlimsiz vücudu ilə söylədikləri, "qan-qan deməsi" düzü, məni xeyli dərəcədə təəccübləndirdi. Ararat adlandırdıqları Ağrı dağına panoramı açılan, Türkiyə ilə həmsərhəd bir kənddə doğulduğunu dilə gətirən Qaqik söylədi:

– Mən gözümü açanda Ararat dağının qarlı zirvəsini görmüşəm. Anam mənə çaldığı bütün laylalarda nəqərat olaraq dağın ö üzündəki Qərbi Ermənistanı əlimizdən alan türklərə nifrət motivləri ortaya qoyurdu, balasını bir vaxt at belində, çiyni tüfəngli gedib yurdu yağılardan azad edəcəyinə ümidini dilə gətirirdi. Böyüdükcə isə nənə-babam hər söhbətlərində türklərdən qisasdan danışar, məni bu mübarizəyə kökləyərdilər. Onlar türklərin bizim ermənilərə necə divan tutmalarından, başlarını kəsib Ağrı dağı boyda ikinci bir dağ yaratdıqlarından danışır, içimdə nifrət yaradırdılar. Buna görə də mənim qanım-canım bu nifrətdən yoğrulub, ən böyük arzum əlimə silah alıb Andranik Ozanyan kimi, Amazasp Srvandzyan kimi, Dro və Njde kimi türklərə qan uddurmaqdır. Hədəfim azı yüz yürk öldürməkdir!

Bu sözləri eşidəndə millətçiliyin bu uşaqların qanını tam zəhərlədiyinin bilavasitə şahidi oldum. Geriyə dönüş ola bilərdimi? Olsaydı da çox çətin olacaqdı.

Kirayənişinlər tezbazar süfrəni yığıb kompüterə cumdular, sanki alkoqoldan cəsarətləndikləri səbəbdən idi ki, bu gün məhz ən qanlı mövzuya müraciət etdilər. Ötən əsrin əvvəllərindəki azərbaycanlı qırğınlarına, ermənilərin "şərəf tarixi" hesab etdikləri, yüz min insanın qanına qəltan olunduğu şərəfsizlik tarixinə.

"**10-cu bölmə.** Mənfur düşmənlərimiz olan azərbaycanlıların bir filmi var, adı "O olmasın, bu olsun"dur. Təbii ki, biz o filmi görməmişik, amma Sovetlər dönəmində bir bayraq altında yaşayarkən valideynlərimiz görüb. Valideynlərimizin həmin filmin adını misal kimi addımbaşına çəkmələri səbəbindən bu sözlər bizim də yaddaşımızda qalıb. Burda maraqlı bir hədəfəçatma fəlsəfəsi var. Yaşı çox olan tacir Məşədi İbad cavan bəy qızını almaq istəyir, amma oxu daşa dəyəndə "o olmasın, bu olsun" deyib qızgilin qulluqçusunu alır. Burda tam məğlubiyyətlə barışmayıb ən azı qismən qələbə çalmaq teoriyası özünü göstərir. Gözəl nəzəriyyədir. Başladığın bütün işlərin gedişatında uğursuzluğa düçar olacağını hiss etdinsə, dərhal valı doxsan dərəcə dəyişib B, C variantlarına əl atmalısan. Xalqımız da o vaxt belə etdi. Getdik e!

Osmanlı türkləri gözəlimiz Qərbi Ermənistanı əlimizdən aldıqdan, bizi ağlar qoyduqdan, müttəfiqlərimiz kömək vəd etsələr də vədlərinə əməl etməyib bizi olduqca nəhəng bir imperiyanın döyüşkən xalqı ilə təkbətək qoyduqdan sonra dədə-babalarımız məhz "o olmasın, bu olsun" həqiqətinə söykənərək Osmanlı türklərinin kiçik qardaşı olan Azərbaycan türklərinə səlib yürüşü elan etdilər, XIX əsrin əvvəllərində başlanan bu yürüş 1918-ci ildə düşmənlərimizin kütləvi qətliamı ilə öz apogey nöqtəsinə çatdı, digər zəfərimiz isə artıq əsrin sonundakı Qarabağ müharibəsi, bundan öncəki və sonrakı dövrlərdə düşmənə qarşı törətdiyimiz növbəti qətliamlar oldu ki, bunların da başında, şübhəsiz, bizim Xocalı zəfərimiz durur.

Bəli, erməni xalqı xalq olaraq heç vaxt həm 1918-ci ildəki Andranik və Hamazaspın, həm də 1992-ci ildəki Melkonyanın şücaətini unutmayacaq. Erməni gəncləri onların adlarını daim qəlblərinin başında gəzdirəcək, erməni əsgərləri onlar kimi qəhrəman olmağa

çalışacaq, erməni anaları dünyaya gələn övladlarına onların adlarını verəcək.

Türk mənbələrinə baxaq, türklərin yazdıqlarını təbəssümlə qarşılayaq:

"Tarixinin ən böyük cinayətkarı Ozanyan Andranik...

Şəxsən özünün 60 000 türkü öldürdüyü iddia olunur...

Çox əfsus ki, erməni xalqı bu cinayətkarı qəhrəman kimi vəsf etmək debilliyinə əl atır...

Heyif ki, bu canini beynəlxalq tribunala vermək mümkün olmadı..."

Və s. və i.a.

Biz, bu kitabın hər üç müəllifi Andranikin tərcümeyi-halını, keçdiyi şanlı həyat yolunu, türklərə qarşı göstərdiyi qəhrəmanlığı əzbər bilirik, bircə mənbəyə belə müraciət etmədən hər şeyi başımızdan yazırıq. Niyə? Çünki uşaqlıqdan bu qəhrəmanların adlarını ata-analarımız sırğa kimi qulaqlarımıza pərçimləyiblər. Onlara isə öz ata-anaları Sovetin Lenin baba ideologiyasının əvəzinə Andranik baba, Qaregin Njde baba ideologiyasını yeridiblər.

Xalqımızın ən böyük qəhrəmanlarından biri Ozanyan Andranik Torosoviç 1865-ci ildə Osmanlı İmperiyasının Sivas bölgəsində, Qarahisar köyündə dünyaya gəlib. Bir yaş yarımlıq olanda Andranik anasını itirib, atasının himayəsində böyüyüb. Məktəbi bitirəndən sonra atası gənc yaşlarında onu evləndirib ki, evdə qadın hənirtisi duyulsun, amma həyat dalbadal ikinci dəfə qəhrəmanımızın üzünə sərt silləsini vurub, uşaq dünyaya gətirərkən onun həyat yoldaşı vəfat edib. Bədbəxtlik həmişə ardıcıl gəlir. Ardınca körpə də dünyasını dəyişib. Əvvəl ana qayğısından məhrum olması, ardınca həyat yoldaşını və övladını itirməsi Andranikə olduqca mənfi təsir edib, o çox əsəbiymiş, konfliktlərə meyilli, davakar imiş. Bir yandan da şəxsi uğursuzluqlar fonunda qəhrəmanımız xalqının əsarətdə olması, türk məmurları, jandarmları tərəfindən incidilməsini görüb sarsılırdı. Elə bu səbəbdəndir ki, o, artıq gənc yaşlarından türklər əleyhinə erməni milli-azadlıq hərəkatında yaxından iştirak edib. 1882-ci ildə – cəmi

17 yaşı olarkən isə artıq adı xalqının dilində dolaşmağa başlayıb. Küçədə bir ermənіyə qarşı sərt rəftar edən türk jandarmına hücum etməsi səbəbindən həbs olunub. O dövrdə xalqımızın birliyi müdhiş idi, biri həbsə düşəndə hamı ayağa qalxıb onun azadlığını tələb edirdi, türk məmurlarla şəxsi tanışlıqlar da işə salınır, hətta maliyyə kanalları da hərəkətə buraxılırdı ki, həmin şəxs tezliklə azadlığa çıxsın. Dostlarının köməyi ilə tezliklə Andranik də həbsxanadan qurtulmağa müvəffəq olub, mübarizəsini davam etdirib. 1888-ci ildə o, yeni yaranmış və hər bir ermənininin simpatiyasını qazanmış "Qnçak" millətçi-erməni partiyasına üzv olub, ardınca öz partiya mənsubiyyətini daha radikal millətçi partiyaya – "Daşnaksutyun"a dəyişib. Burada o, həm erməni əhalini türklər üzərinə qaldırmaq təbliğatıyla məşğul olub, həm qiyamlarda iştirak edib, həm də Türkiyədə fəaliyyət göstərən erməni silahlı dəstələri üçün silah qaçaqmalçılığı işinin başında durub. "Daşnaksutyun" partiyasında Andranikin ilk böyük işi isə 1892-ci ildə Konstantinopolun polis rəisini qətlə yetirmək olub. Qəhrəmanımız ciddi qorunan düşmən rəisini qətlə yetirməklə yenidən xalqın gözündə ucalıb. Osmanlıda bütün cəza qüvvələri onu ələ keçirməyə yönələndə isə o, ölkədən qaçıb, Rusiya İmperiyasına – Krım və Zaqafqaziyaya pənah aparıb.

1895-ci ildə türklər əleyhinə fəaliyyətdən uzaq düşməsi ilə barışmayan qəhrəmanımız yenidən Osmanlı ərazisinə dönüb, yenidən əldə silah türklər əleyhinə qiyamlarda iştirak edib. Xüsusən Sasun bölgəsində o, erməni fədailərinin liderlərindən birinə çevrilib. Sasun üsyanlarının başında duran mərd fədaimiz Serobun ölümündən sonra Sasun fədailərinin komandanlığını Andranik öz üzərinə götürüb. Serobun türklər bir neçə il idi ovuna çıxmışdılar, amma onu türklər yox, kürdlər öldürə bildilər.

Əziz gənclər, tarixdən bəllidir ki, XIX əsrin sonları, XX əsrin əvvəllərində Osmanlıda bizim ermənilərin düşmənləri tək türklər deyildi, həm də kürdlər idi. Kürdlər əhalimizə divan tuturdu, bizi türklərdən incik salan həm də bu idi, dədə-babalarımız türk Sultanının üzərinə gedirdilər ki, sən niyə kürdlərin qarşısını ala bilmirsən, onlar

bizim camaatımızı qırır. Əlqərəz, Serobu da kürdlərin lideri Bəşir Xəlil öldürmüşdü. Mərd qəhrəmanımız Andranik Bəşir Xəlili və onun 17 cangüdənini məhv etdiyinə, göstərdiyi inanılmaz şücaətinə görə “paşa” təxəllüsü aldı, bununla da o, ermənilərimizin əsl liderinə çevrildi. Andranik komandir kimi Sasun döyüşündə şəxsən qəhrəmanlıq göstərməyə də müvəffəq olub Sasunski təxəllüsünü qazandı.

Qəhrəmanımızın, kumirimizin şöhrəti sərhədlər aşmışdı, Rusiya İmperiyasındakı ermənilərin belə and yeri idi. Hətta İsveçrənin “Frankfurtter Zeytunq” qəzeti yazırdı ki, “Andranik Paşa 1897-ci ildən 1904-cü ilədək 31 döyüş keçirib, heç birində də yaralanmayıb. Bu şəxs böyük qəhrəmandır.”

1904-cü ildə Sasun üsyanı yatırılandan sonra şəraitin tələbinə görə Andranik yenidən Osmanlını tərk etməli olub, bu zaman türklər əleyhinə mübarizəsinin coğrafiyasını Avropaya dəyişib. 1912-ci ildə Yunanıstan, Bolqarıstan və Serbiya-Çernoqoriya Osmanlı ilə müharibəyə başlayanda bunu rəğbətlə qarşılayan Andranik millət atası Qaregin Njde ilə birlikdə könüllü ermənilərdən ibarət 270 dəstə yaradıb, türklərin üzərinə yürüdüb. Xüsusən onun Bolqarıstan ərazisində şücaəti dildən-dilə düşüb, Şipka döyüşündə türklərə qan uddurub, Bolqarıstan rəhbərliyi ona uğurlu döyüşünə görə bolqar vətəndaşlığı və ömürlük təqaüd kəsib.

Qəhrəmanımız diyar-diyar gəzib harda münbit şərait yaranıbsa orada türklərin qanını töküb. Bir insan mübarizəsini bir cəbhədə edər, mübarizə bitəndə dinc fəaliyyətə qayıdar. Amma Andranik əsla usanmayıb, bir yerdə mübarizə səngiyəndə başqa yerə adlayıb. Elə əvvəldə dediyimiz “o olmasın bu olsun” seçimi Andranikin də əsas həyat tərzinə çevrilib. Birinci dünya müharibəsi başlayanda Bolqarıstanın Osmanlı ilə müttəfiqliyini görüb Andranik Bolqarıstanı tərk edərək bu dəfə Rusiya İmperiyasına – Tiflisə güzar edib. Çar hakimiyyəti onu sevinc və coşqu ilə öz ordusuna üzv eləyib, ona ermənilərdən ibarət bir alayın komandanlığı tapşırılıb. Bu dəfə qəhrəmanımız çar ordusunun tərkibində Osmanlı ilə vuruşaraq Vanın, Muşun, Bitlisin alınmasında şəxsən fərqlənib. Qəhrəmanımızı

Rusiya çarı Osmanlı imperiyasına yetirdiyi zərbələrə görə Georgiyevsk xaçı ilə təltif edib. 1917-ci ildə Ərzurumun müdafiəsini həyata keçirərkən Andranikin alayı ilk ciddi məğlubiyyətini alıb, çoxsaylı itkiləri olub, Sarıqamış – Qars – Aleksandropol istiqamətində geri çəkilməyə məcbur olub. Bundan sonra isə qəhrəmanımızın növbəti şərəf səhifəsi açılıb. O türklərin qisasını bu türklərdən – Çar Rusiyası təbəələri olan azərbaycanlılardan almaq dönəmi başlayıb.

1918-ci ildə Anrdranik siyasi gediş edib, Rusiya İmperiyasını devirən bolşeviklərlə ittifaqa girib, onlara sədaqət andı içib. Bolşeviklər onu Erməni Ordusu Korpusunun diviziya komandiri təyin ediblər. Həmin ildə Rusiyanın bolşevik Qafqaz ordusunun komandanlığı ona general-mayor rütbəsi də verib. 1918-ci ildə Andranik bolşevik-rus ordusu general imtiyazı ilə Rusiyanın maraqları bayrağı altında erməni xalqının maraqlarını təmin etmək üçün əlinə düşən fürsətdən ustalıqla yararlanmağa başlayıb. O, Qafqazda ən böyük əraziyə malik Azərbaycanda törədilən qətliamların əsl təşkilatçısına çevrilib. Xüsusən Bakıda və Şamaxıda bu qətllər daha geniş vüsət alıb, ardınca Andranik Xoy başda olmaqla İran ərazilərində də azərbaycanlıların qırğınını təşkil etməyə müvəffəq olub. Ermənilərimizin Qafqazda azərbaycanlıların kökünü kəsib çox böyük ərazilərə yiyələnməsi üçün yetişmiş tarixi şəraitdən Andranik maksimum yararlanıb, bir insanın görə bilməyəcəyi miqyasda işlər həyata keçirib.

1918-ci ilin oktyabr ayında qəhrəmanımız bolşevik hakimiyyətini tanımaq istəməyən Naxçıvanı bolşeviklər üçün almaq, onu bolşevik hakimiyyətində yüksək post tutan həmyerlimiz Şaumyanın verdiyi vədə görə Ermənistanla birləşdirmək yolunda mücadiləyə girişib. Naxçıvanda qəhrəmanımızın mübarizəsi zəfərlə bitməyib, daha güclü olan düşmən Andraniki geri oturdub, o, Zəngəzur dağlarına çəkiləsi olub. Kim kim, amma Andranik mübarizədən qorxub usanarmı? Əsla yox! Davamı gəlir!

Bu dəfə qəhrəmanımız Zəngəzurdakı müsəlman kəndlərini talan etməyə, azərbaycanlıları qırmağa başladı. Qısa müddətdə 18 kəndi yer üzərindən silməklə 50 000 azərbaycanlını məhv etdi.

Ardınca Cavad, Cavanşir və Cəbrayıl uyezdlərində 100 kəndi yerlə yeksan etdi. Artsaxı Ermənistana birləşdirmək mövzusu o zaman da aktual idi, qəhrəmanımız bu yöndə də çabalar göstərdi. Dağlıq Qarabağdakı azərbaycanlı kəndlərinə basqınlar etdi, xüsusən Şuşada xarüqələr göstərdi, 10 000 insanın qətlini həyata keçirdi. Andranik düşmən azərbaycanlıları sakit ölümə tüş gətirməmək barədə göstəriş verməklə də əsl mübarizliyini, qisasçılığını göstərmişdi. Onun döyüşçüləri hamilə qadınların qarnına süngü keçirir, insanları bellərinə qaynar samovar şələləyərək qaçmağa vadar edir, körpələri göyə atıb altlarına süngü tuturdular. Göz çıxarmaq, bədəni ayrı-ayrı hissələrə şaqqalamaq, bağırsağı yerə tökmək... Bir-birindən gözəl qisas üsulları idi bunlar!

Sonrakı dönəmdə siyası hadisələr Andraniki Rusiya ərazisindən getməyə vadar etdi. O, Amerikaya köçdü, orada ikinci dəfə ailə həyatı qurdu. Vətənə xidmətin spektri də dəyişdi. Bu dəfə qəhrəmanımız diaspora xətti ilə Ermənistana və ermənilərə milyonlarla dollarlıq yardımlar təşkil etdi. Çox əfsus ki, qəhrəmanımız 1927-ci ildə ürək xəstəliyindən Kaliforniyada dünyasını dəyişdı. Bütün həyatını türklərə qarşı mübarizədə keçirən, 50-60 min türkün qanını tökən həmyerlimiz dünyadan köçməklə sanki Ermənistanımız kiçildi, xalqımız yetim qaldı.

İndi qəhrəmanımızın xatirəsinin necə əbədiləşdirilməsinə nəzər yetirək. Bir neçə ölkədə *(Ermənistan, Fransa, Argentina, Bolqarıstan və s.)* onun adına meydanlar, küçələr, məktəblər var. Gümrü-Qars magistral yolu, ABŞ-in Konnektikut magistralı, Yerevanda metro stansiyası onun adını daşıyır.

O ki qaldı abidələrə, Buxarestdə *(Rumınıya)*, Varnada *(Bolqarıstan)*, Le-Pessi Robinsonda *(Fransa)* onun monumental abidələri göz oxşayır. Çox təəssüf ki, rus şovinistləri 2011-ci ildə qəhrəmanımıza Soçidə qoyulmuş abidəyə mənfi yanaşdılar, onu sökdürdülər, amma rusların əlimizdən aldıqları Armavir şəhərində qəhrəmanımızın fəxri lövhəsi asılıb, Beloreçensk şəhərində Erməni Apostol Kilsəsinin ərazisində isə onun büstü ucaldılıb.

Yerevanda Andranik muzeyi fəaliyyət göstərir. Onun adına ASALA qruplaşmalarından biri, Qarabağda döyüşən bir dəstə, Livanda bir idman klubu adlandırılıb.

Var olsun qəhrəmanlıq, var olsunlar qəhrəmanlar!

* * *

"P.S. Gəlin, hər şeyi kənara qoyaq, sizin – dünyanın ən elitar ali diplomatiya məktəbində oxuyan 20 yaşlı gənclərin öz iradənizlə, öz düçüncələrinizin bəhrəsi olaraq yazdığınız cümlələri sakit başla nəzərdən keçirək.

"Andranikin döyüşçüləri hamilə qadınların qarnına süngü keçirir, insanları bellərinə qaynar samovar şələləyərək qaçmağa vadar edir, körpələri göyə atıb altlarına süngü tuturdular. Göz çıxarmaq, bədəni ayrı-ayrı hissələrə şaqqalamaq, bağırsağı yerə tökmək... Biri birindən gözəl qisas üsulları idi bunlar!"

Bir daha yazdıqlarınıza kənar gözlə baxın. Bunu hansısa bir vəhşi Afrika qəbiləsinin nümayəndəsi yazsa belə insanlar oxuyub ikrah duyarlar, müəllifə nifrət edərlər. Görün, özünüzü hansı vəziyyətə salırsınız. Gözünüzü millətçilik pərdəsi gör necə qapayıb! Ayıb olsun sizə. Yazdığınız kitaba görə inanın ki, sizə cinayət məsuliyyəti düşür. Sizin bir tarixçiniz var, Anahid Lalayan. Onun yazdığı "Əksinqilabi "Daşnaksutyun" və 1914–1918-ci illər imperialist müharibəsi" adlı məşhur məqalə var, o, sizin kimi Andraniki vəsf etmir, demək, içinizdə az da olsa obyektiv insanlar da var, o, Andraniki bu cür ittiham edir: "Andranikin başçılıq etdiyi daşnak dəstələri türk kəndlilərinin, uşaqların, qadınların və qocaların qətli zamanı "böyük sücaət" göstərirdilər. Daşnak dəstələri tərəfindən tutulmuş müsəlman kəndlərində sağ adamlar qalmırdı, onlar insan qalıqları ilə dolu, xarabalığa çevrilirdi. "Daşnaksutyun" partiyasının quldur dəstələrinin Basarkeçərdə törətdikləri vəhşiliyi erməni zabiti Vahram belə nəql edirdi: "Mən Basarkeçərdə heç nəyi nəzərə almadan türk əhalisini qırdım. Lakin bəzən gülləyə heyfim gəlirdi. Bu itlərə qarşı ən yaxşı üsul odur ki, döyüşdən sonra salamat qalanların hamısını su qu-

yusuna doldurub, üstündən ağır daşları tökəsən ki, onlardan əsər-əlamət qalmasın. Mən elə də etdim: bütün kişiləri, qadınları və uşaqları öldürüb doldurdum quyuya və üstünü də daşla doldurdum".

Bu, sadəcə, bir xalqın şərəfsizlik tarixidir. Vəssalam.

İndi isə sizə ritorik bir sual verəcəyəm. Səcdə etdiyiniz Andranikin müasir şəkillərində, abidələrində heç bir fiziki qüsuru göstərilmir, eləmi? İlk baxışda iki gözü, iki qulağı, bir burnu, bir ağzı olan normal şəxsdir o. Bəs niyə keçmiş videolarda o obyektivdə görünərkən fokusu itirir, obyekti dumanlandırırlar? Çünki Andranik Ozanyan 1890-ci illərdə Osmanlı imperiyasına xəyanət etdiyi üçün cəza kimi onun bir qulağı dibindən kəsilib. Onun ən məşhur ləqəbi Tayqulaq Andranik olub. Əlbəttə ki, sizin yaşlı nəsil ermənilər üçün onların ən böyük qəhrəmanlarının tayqulaq olması utancgətiricidir, bunu yeni nəsildən gizləmək istəyirlər. İnsanın qulağı – onun ən böyük şərəfsizliyi üzə çıxarkən cəza olaraq kəsilir. Sizin "Şərəf tarixi" adlı cəfəngiyat tarix kitabınızın ən şərəfli qəhrəmanının şərəfsizlik damğası elə bu saat sizi başladığınız bu mənfur işdən əl götürməyə vadar etməlidir.

Rüsvayçılıq ona necə don geydirməkdən asılı olmayaraq rüsvayçılıqdır ki, var!"

## İyirmi üçüncü hissə

## MÜƏLLİFDƏN ƏSƏB VƏ HİKKƏ YAĞMURU

Bəli, Stepan Arsenyeviçlə biz bir-birimizi tamamlayırıq. Tayqulaq Andraniklə bağlı erməni üçlüyə onun P.S. hücumunun ardınca mən də bir hücum edəsi oldum, çünki erməni xislətinin murdarlığını açıb ortaya qoyan o qədər mənbə var ki, xüsusən erməni mənbələrindən iqtibaslardan yan keçmək mümkün olan iş deyil. Evin sirrini

ev yiyələrindən başqa kim daha dərindən bilə bilər ki? Zaman-zaman bu ev yiyələri arasında nisbətən insaflı-mürvətli tapılırdı ki, qaniçənliyi millətçilik adlandıranlara yerini göstərsinlər.

Ermənilərin erməni millətçiliyini təbliğ etməsi xəstəlikdir. Bir yazıçı, elm adamı olaraq dəqiq deyirəm, müəyyən bir zaman gələndə bu xəstəlik kənarda yaşayanlara sadəcə yumor, komediya kimi görsənəcək. Zaman gələndə həm də bu millətçilikdən dolayı tökülən qanlara görə ermənilər bir xalq kimi cavab da verəcəklər. Çünki tarix boyu bütün kəsilən başlar, tökülən qanlar bumeranq kimi hərlənib-fırlanıb cəlladın ünvanına qisas şəklində qayıdıb. İstər fiziki cəza olsun, istər mənəvi, fərq etməz.

Erməni tarixçilərindən öncə Stepan İvanovun də bəhs etdiyi Anahid Laloyan adlı birisi var ki, məhz onun irsini ortaya qoymaqla erməni xalqını Beynəlxalq Haaqa Məhkəməsinə vermək olar. Sovetlərin ilk dövründə sovet tarixçisi kimi erməni millətçiliyinin, daşnak hərəkatının bütün gizlinlərini, törədilən qətliamları, deportasiyaları, irili-xırdalı digər cinayətləri üzə çıxaran, sandığı açıb pambığı tökən bu şəxsi təbii ki, müasir Ermənistanda düşmən hesab edir, irsini isə məhv etməyə çalışırlar. Halbuki, bu irs Rusiya arxivlərində qalmaqdadır, onu sadəcə tozunu çırparaq ittiham kimi ermənilərin gözünə soxmaq lazımdır.

Laloyan qeyd edib ki, mənfur "Daşnaksutyun" partiyasının əsas siyasəti sayılan Ermənistanı "erməniləşdirmə" siyasəti azərbaycanlı əhalini məhv etməyə, yerdə qalan milli azlıqları isə təqib etməklə ölkədə milli ədavəti qızışdırmaq yolu ilə həyata keçirilmişdir. Daşnakların hakimiyyətdə olduqları 1918-ci ilin mayından 1920-ci ilin payızınadək olan dövr ərzində Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı faktiki müharibə aparıldığını bildirən müəllif o dövrün aktual olan "Müsəlmanlar bizim düşmənimizdir" şüarını da üzə çıxarmışdır. Ermənistan Dövlət Arxivində saxlanılan sənədlərə istinadən o, daşnak ordusunun zabitlərinin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər barədə də ətraflı məlumat vermişdir. Həmin sənədlərdən birində daşnak ordusunun Baş Gərnidəki dəstəsinin

rəisi, podpolkovnik Melik–Şahnazarovun 7 noyabr 1918-ci ildə diviziya komandirinə yazdığı raportuna istinad edilir, belə ki, raportda bölgədəki 30 türk kəndinin bombardman edilərək ələ keçirildiyi, qalan 29 kəndinsə bombardman edilməsi üçün diviziya komandirindən icazə istənildiyi bildirilir. Laloyan 105 saylı 1920-ci il tarixli “Joğovurd” qəzetinə istinadən bu faktı da ictimailəşdirib: Ermənistanın daşnak hökumətinin zabitlərindən olan Muradyan erməni hökumətinin Göyçə gölünün şimal sahilində olan azərbaycanlı kəndlərini viran qoyan bandit dəstələrinin əməllərini bu cür təsvir edibmiş: “... Hökumətimizin gördüyü tədbirlər nəticəsində Toxluca, Ağbulaq, Ardanış kəndlərinin müsəlman əhalisi Ermənistanın sərhədlərini tərk etmişdir. Mən sahibsiz qalan kəndləri gördüm, orada bir neçə pişik, iki-üç it qalmışdı. İtlər ölü sükutdan vahimələnərək qəribə səslə ulayırdılar. Bu kəndlərin əhalisi çox böyük sahələrdə kartof, buğda və arpa əkini qoyub getmişlər. Hökumət bu kəndlərdən iki milyon pud buğda və yarım milyon pud kartof götürə biləcəkdi...”

Ermənistan daşnak hökumətinin baş naziri olmuş, tarixin ən qatı millətçilərindən sayılan Ovanes Kaçaznuninin 1923-cü ildə “Daşnaksutyun” partiyasının qurultayında etdiyi hesabat məruzəsini də Laloyan öz monumental işlərində insanlara çatdırmışdır. Kaçaznuni partiyadaşlarının hakimiyyəti illərində Zəngəzurda, Ağbabada, Vedibasarda, Naxçıvanda, Şərurda kütləvi surətdə müsəlman əhalisini necə qırdıqlarını, yaşayış məntəqələrini necə dağıtdıqlarını etiraf etmişdir.

Ermənilərin millətçi cinayətkarlığını üzə çıxaran başqa bir şəxs isə tarixçi Hovannes Ter-Martirosyandır. O, “A-Do” imzası ilə çap “Qafqazda erməni-türk toqquşmaları *(1905–1906-cı illər)* sənədli, statistik, topoqrafik izahlarla” adlı kitabında Cənubi Qafqazın 12 qəzasında və 7 şəhərində baş verən qırğınlar barəsində xronoloji ardıcıllıqla məlumat verib. Kitabda az qala hər bir səhifədə Andranikin şəxsən adı keçməsə də onun əməllərindən bəhs edilir. Kitabdan seçmələr gətirək:

"Zəngəzur od saçırdı. Mayın 26-da Mədinə adlı türk kəndinə hücum olundu. Daha sonra Məngüs kəndi ətrafında qızğın döyüşlər getdi. Azərbaycanlı əhalinin kəndi tərk etmək məcburiyyətində qalmasından sonra ermənilər evləri talan etdilər. 1905-ci ildə təkcə İrəvan qəzasında 7 türk kəndi hadisələrin qurbanı oldu. Həmin türk kəndləri bunlardır: Güvəcik, Güllücə, Məngüs, Məsimli, Damagirməz, Tutiyə və Kamal".

"Eçmiədzin qəzasının Üşü kəndində törətdilən faciənin miqyası daha böyük idi, öldürülənlərin sayı 100-ə çatırdı, qadın və uşaqlar, qoca və körpələr qırğınlardan qurtulmaq üçün vay-şivən qoparırdılar. Üşü yandırıldı, dağıdıldı, yerlə-yeksan edildi, bir kənd də belə silindi, administrasiya yenə də yox idi. Üşünün faciəsi türklərin üzərində elə bir dəhşətli iz buraxdı ki, iyunun 5-də bir sıra kəndlər bir tərəfdən boşalır, digər tərəfdən isə ermənilər tərəfindən talan edilir və yandırılırdı. Nəziravan və Təkiyə kəndləri yandırıldı, Persi, Əngirsək, Kürdəli, Hamamlı kəndləri və Çobankərə kəndi talan edildi. Əştərək bölgəsinin ümumən 9 türk kəndi talan edildi, yandırıldı və əhalisi çöllərə düşdü".

"Talanlar və qırğınlar Gəncə quberniyasından da yan keçmədi, quberniyanın 8 qəzası faciə yaşadı. 1905-ci il dekabrın 17-də erməni silahlı dəstələri 102 evdən ibarət Böyük Cicimli və 26 evdən ibarət Kiçik Cicimli kəndlərinə hücum etdilər. Kiçik Cicimli tamamilə darmadağın edildi, Böyük Cicimli kəndinin əhalisi qaçmağa müvəffəq olsa da, evlər qarət edildi".

"Zəngəzurun ermənilərlə azərbaycanlıların qarışıq yaşadıqları Dərabas kəndində daşnakların törətdikləri vəhşiliklərə şəxsən şahidlik etmişəm. 1905-ci il dekabrın 26-da erməni silahlıları azərbaycanlıların evlərinə hücum etdilər. Kəndin əhalisinin bir hissəsi dağlara qaçdı, qalanları isə kənddəki üç böyük evdə – Molla Əbülhəsən, Ələkbər bəy və Abbas Ələkbər oğlunun evlərində sığınacaq tapdılar. Ermənilər bu üç evə od vurub insanları içində diri-diri yandırdılar. Cinayət alovlar və dağıntılar içində həyata keçirildi və çoxlu insan məhv oldu. Biz o yanmış evlərin insan sümükləri ilə qarışmış

külünü gördük və sarsıldıq, o qatilləri, dəhşətli cəhənnəmi törədənləri lənətlədik... Öldürülmüş və yandırılmış, meyitləri səpələnmiş türklərin sayı 272 nəfərə çatırdı".

"1905-ci il dekabrın 29-da Tatev erməniləri azərbaycanlıların yaşadıqları Kürdlər kəndinə hücuma keçsələr də, çoxsaylı itki verərək geri qayıtmışdılar. Sonradan isə kənd talan edilmiş, yandırılaraq xarabalığa çevrilmişdi."

"1905-1906-cı illərdə Şuşa şəhərində iki dəfə qırğınlar olmuşdur. 1905-i il avqustun 16-da baş verən birinci qırğın nəticəsində ermənilər 100 nəfər, azərbaycanlılar isə bundan 2–3 dəfə çox itki vermişdilər. Şuşada ikinci dəfə 1906-cı il iyulun 12-dən 22-dək qırğınlar törədilmişdi. İkinci qırğınlar zamanı azərbaycanlıların itkiləri yenə də qat-qat çox olmuş, böyük əksəriyyəti onlara məxsus olmaqla, 200-dən artıq ev yandırılmışdı".

"Noyabrın 27-dən 30-dək Dəmirli, Çıraqlı, Hacıqərvənd və Pürxud kəndlərini erməni quldurları talamış və yandırmışlar. 1905-ci ilin və 1906-cı ilin avqust aylarında erməni silahlı dəstələrinin hücumları nəticəsində Cəbrayıl–Qaryagin qəzasında 10 azərbaycanlı kəndi darmadağın edilmişdi. Tərtər dərəsində salamat qalan yeganə azərbaycanlı kəndləri Umudlu və İmarət Qərvənd idi. Dekabrın 23-də ermənilər Umudlu və İmarət Qərvənd kəndlərinə də hücuma keçdilər. Bir neçə saatlıq müqavimət müsəlmanları qırğınlardan qurtarmadı. Ermənilər bu iki kəndə daxil olub heç kimə aman vermədən qarşılarına çıxanı öldürdülər. Sağ qalıb qaçmağa məcbur olanların bəziləri isə uzun yol gedə bilməyib, meşələrdə qalaraq dondular."

Ermənilərin xalqımızın başına açdığı oyunlardan xalq olaraq tarix boyu xəbərsiz qalmaq kimi bir ittihamla üzləşmişik, "xalqlar dostluğu" boşboğazlığı səbəbindən rayonlarımıza Stepan Şaumyan, küçələrimizə Ovsepuyan, Avakyan kimi daşnakların adlarını vermişik. Amma "el dili yüyrək olar" deyiblər. Nənə-babalarımız eyhamla olsa belə bizlərə 1905-1907-ci illər, 1918-ci il qırğınları barədə xatırlatmalar ediblər, Tayqulaq Andranikin adı isə çoxumuza bəlli

olub. Hətta el arasında biri digərinə qəzəblənəndə "Qulağını Tayqulaq Andranikin qulağı kimi kəsərəm" xəbərdarlığı edib. Nə gizlədim, nə qədər beynəlmiləlçi olsam da, özümü millətçidən daha çox kosmopolit saysam da millətimə divan tutmuş Andranikə həmişə nifrət etmişəm. Dünyadan köçərkən bu cinayətkarın altmış iki yaşı olub, 1927-ci il avqustun 31-ində ABŞ-ın Kaliforniya ştatının Riçardson-Sprinqz şəhərində vəsiyyət edərkən də axıradək qərəzli millətçi olan bu mənfur şəxs söyləyib: "Mən indiyədək öz həyatımda heç vaxt şəxsi rahatçılıq, xoşbəxtlik ardınca qaçmamışam. Daim yalnız bir şey naminə mübarizə aparmışam: öz xalqımın azadlığı və rifahı naminə. Mən öz fəaliyyətimin gələcəkdə dəyərləndirilməsini belə arzulamıram. Arzuladığım tək şey odur ki, xalqım xoşbəxt olsun. Nə gizlədim, mən öz işimi yekunlaşdıra bilmədim. Türklərdən xalqımın tam intiqamımı ala bilmədim."

60 000 insanın qanını tökən bəşər tarixinin ən qatı cinayətkarı son nəfəsində belə qandan doymadığını, daha çox qan tökmək amacında olduğunu bəyan edir. Bunu heç bir xalq edə bilməz, bunu məhz dövlət siyasəti başqa xalqları məhv etmək olan erməni xalqının nümayəndəsi edə bilər.

Düzü, mən bilmirəm indiyə kimi necə olub ki, ermənilərin ağlına Andranik Torosoviç Ozanyanın adını "tarixin ən böyük qatili" kimi Ginnesin rekordlar kitabına saldırmaq düşməyib. Orada mən biləni, kolumbiyalı Pedro Alonso Lopesin adı ən məhsuldar qatil kimi hallanır. Pedro 2006-cı ildə Ekvador, Kolumbiya və Peru ərazisində 300-dən artıq qətl törətməkdə ittiham olunur. Andranikin goru çatlayar ki, altmış mini qoyub niyə 300-dən dəm vururlar.

İdeyanı mən verdim, inanın ki, bunu reallaşdırmaq istəyən ermənilər mütləq tapılacaq. Onsuz da, ideologiyaları çürük, adları bədnamdır, qoy özlərini tam biabır etsinlər.

## İyirmi dördüncü hissə

## MESENATLAR?

İşləri korlamışdılar. Olduqca əndişəli idilər. İnstitutdan qovulma təhlükəsi ilə üzləşmişdilər. Tims proqramıyla keçirilən dərslərə əsla girmədikləri üçün, seminarlarda iştirak etmədikləri səbəbindən çoxlu qayıbları yaranmışdı. Xüsusilə başbilənləri olan Qaqikin vəziyyəti çıxılmaz idi. Fakültə onun məsələsini rektorat qarşısında qoymuşdu.

Kirayənişinlər düşünürdülər ki, evlərinə zəng vurub valideynlərdən birinin gəlib danışıqlar aparmasını təmin etsinlər, yaxud pul-para istəsinlər, bir yol tapıb rüşvətlə-filanla məsələni yoluna qoysunlar. Evə zəng etməyi içlərinin ən üzüyolası olan adaşımın boynuna qoydular. O da zəng edib anasıyla danışdı, bir mərəkə qopdu, gəl görəsən. Anası hönkürtüylə ağlayır, boğazından kəsib onu oxutduğu halda onun bu vicdansızlığı etməsini Allahdan göndərilən cəza hesab edirdi.

Sonrasının necə olduğunu bilmədim, yatmaq vaxtım çatmışdı. Kirayənişinlərim mən mürgüləməyə başlayanda institut böhranından necə çıxmaq məsələsini təxirə salıb kitabları üçün növbəti mövzuya keçmişdilər, mövzu isə ilk baxışda olduqca cazibədar olan "erməni mesenatlığı" idi.

* * *

"**11-ci bölmə.** Kitabımızın bu yerində bir qədər gəzişmə edib fərqli bir mövzu ortaya qoyacağıq. Marağınız oyandı, deyilmi? Onda getdik!

Məlumdur ki, heç bir başlanğıc maliyyə dəstəyi olmadan sonuca yetişə bilməz. O cümlədən bizim ümumerməni işimiz də tarix boyu maliyyə dəstəyi hiss etməsəydi uğur qazana bilməzdi. Odur

ki, biz bir qədər erməni donorları barədə danışmaq istəyərdik. O insanlar barədə ki, onlar Böyük Ermənistan uğrunda mübarizəmizə, erməni genosidinin tanınmasına, ümumdünya erməni lobbiçiliyi fəaliyyətinə, Dağlıq Qarabağın müstəqilliyi prosesinə xəzinələrinin ağzını açaraq milyardlarla pullar xərcləmişlər. Beləleri çoxdur, onların ən əhəmiyyətli sandıqlarımız barədə danışacağıq.

**– Lazarevlər nəsli.**

XVII əsrdə İsfahanda yaşayan tacir Emmanuel Lazaryanla başlayan bu böyük nəsil xüsusən Rusiya İmperiyasında erməni xalqının maariflənməsi, milli mənsubiyyətini qoruyub saxlaması yolunda böyük pullar xərcləyərək inanılmaz işlər görmüşdür. 1815-ci ildə Lazarevlər Moskvada "Erməni Lazarev məktəbi"ni qurmuşlar ki, nizamnaməsində əsas qayəsi "erməni maarifçiliyi işinin mühərriki olmaq" yazılan bu məktəb sonradan erməni inqilabi demokratiyasının ideoloqu Mikael Nalbandyan kimi lider siyasətçilər yetirmişdir. Hazırda bu məktəb Moskvanın mərkəzində yerləşən, erməni fikir mərkəzini formalaşdırmış tanınmış bir təhsil ocağına – Lazarev adına Moskva Şərq Dilləri İnstitutuna çevrilmişdir. Xalq üçün xərclənən pullar bir görün necə böyük dividendlər gətirirmiş.

**– Poqos Nübar Paşa.**

XVIII əsrin sonları- XIX əsrin əvvəllərində Osmanlıdakı erməni milli azadlıq hərəkatının əsas donorlarından olmuş bu şəxsin adı Ermənistan tarixinə qızıl hərflərlə yazılıb. Atası Misirdə dövlət naziri olmuş ərəb, anası erməni olan bu şəxs həm diplomat, həm ictimai-siyasi xadim kimi misilsiz işlər görmüş, həm də Osmanlı ərazilərindəki erməni qiyamlarını silahlandırmaq işinə maliyyə ayırmış, ermənilərin Avropada diplomatik əlaqələr qurmasını mütamadi olaraq maliyyələşdirmişdir. Böyük hünərdir.

**– Asatur Vaçyants.**

Ötən əsrin əvvəllərində Bakı milyonçusu olmuş bu şəxs şəhərin ictimai həyatında kifayət qədər rol alıb. O, neft mədənlərinə rəhbərlik edib, 26 il şəhər dumasının qlastnısı olub, Bakı Birja Komitəsinin, Bibiheybət körfəzinin torpaqlanması, Bakı-Şollar su kəməri,

şəhər texniki peşə məktəbləri, tramvay nəqliyyatı və elektrik qatarı komissiyalarının, Marinsk Qadın Gimnaziyası qəyyumlar şurasının üzvü olub. Asatur Bakıda erməni burjuaziyasının əsas təşəkkülçüsü kimi erməni milli hərəkatının da lideri olub, qəzetləri, gizli ədəbiyyatları maliyyələşdirib, 1918-ci ildə Bakıda yerli müsəlmanlarla toqquşmalarda ermənilərin silahlandırılması yolunda var-dövlətini əsirgəməyib.

**– Stiven Kandaryan.**

Müasir dövrdə yaşayan tarixin ən varlı ermənisi sayılan bu şəxs ABŞ-da "Mettlayf" sığorta şirkətinin prezidentidir. Hazırda ABŞ-ın ən böyük korporativ şirkətləri "Mettlayf"ın müştəriləridir. Kandaryanın sərvəti 25 milyard dollardır. Səxavətli və vətənpərvər həmyerlimiz hər il ABŞ-da erməni lobbiçiliyinin fəaliyyətinə milyonlarla dollar pul xərcləyir.

**– Sergey Qalitskiy.**

Ənənəvi olaraq "Forbes"in dünyanın ən varlıları siyahısında yer alan, əsl soyadı Arutyunyan olan bu milyardçımız Rusiyada ən varlılardan biridir, VTB bankı müşahidə şurasının üzvü, "Maqnit" pərakəndə satış şəbəkəsinin sahibi, "Krasnodar" futbol klubunun investorudur. "Forbes" son dərcində onun sərvətini 10,3 milyard dollar göstərir. Qalitski erməni fondlarının böyük xeyriyyəçisidir, onun xalqımıza, ideyamıza verdiyi töhfə əvəzsizdir.

**– Serj Çuruk.**

Əsl soyadı Çurukyan olan, Fransada yaşayan, uzun illər "Total" neft-qaz, "Alkatel" mobil rabitə kimi ən iri Fransa kompaniyalarına başçılıq edən bu həmyerlimizin sərvəti 10 milyard dollardır. Erməni xalqının maraqlarını maddi cəhətdən daim təmin edən Çurukyan qatı millətçi kimi tanınır. Bu şəxsin milli sevgisi o qədər nəhayətsizdir ki, hətta həyatında gedib bir müddət Qriqoryan monastırında da yaşayıb ki, cismən olduğu kimi ruhən də "haylığa" bağlana bilsin.

**– Samvel Karapetyan.**

Rusiyada daşınmaz əmlak bazarının kralı hesab edilən, 5,1 milyard dollar sərvəti olan Samvel xalqımızın əsl qürur yeridir, hamımı-

zın sevimlisidir. Əfsanəvi erməni milyardçısı Kirk Kerkoryanı ilk dəfə sərvətinə görə məhz Karapetyan geridə qoyub. Karapetyan "Taşir" qrupuna rəhbərlik edir. O, ümumerməni "Hayastan" Fondunun direktorlar şurasının üzvüdür. Fonda 1 milyon dollar ödədiyinə görə bu şərəfə nail olub. Böyük xeyriyyəçi və millətçidir. Hər il erməni xalqının çiçəklənməsi məqsədilə milyonlarla pul xərcləyir.

**– Kirk Kerkoryan.**

Biz ermənilərin fəxri babası titulu daşıyan, canımız-gözümüz Kirk! Dünyadan köçəndə bu dahi şəxsiyyətin rəsmən 4,2 milyard dolları olub. O, bu pulun 2 milyardını Ermənistanın inkişafı və çiçəklənməsi üçün vəsiyyət edib. Bir xalq üçün belə şəxsiyyətlərin varlığından qürurverici daha nə ola bilər? Kirk Kerkoryan Los-Ancelesdə kazinolar kralı kimi tanınırdı, həm otel və kazino, həm avtomobil biznesindən milyardlar qazanırdı. Üstəlik, o, Hollivud kino industriyasında da böyük pay sahibi idi. Kirkoryan rəsmən himayədarlıq və xeyriyyəçilik fəaliyyətinə 1992-ci ildə başlamışdı. O, ilk məbləği Dağlıq Qarabağın müstəqilliyi üçün ayırmışdı. Bu məbləğ o dövr üçün fantastik idi – 224 milyon dollar. Babamızın tarixi vətəninə ayırdığı pullarla müstəqilliyin ilk illərində – 1992 -1994-cü illərdə Ermənistanda strateji magistral yollar çəkilmiş, tunellər istifadəyə verilmişdi, şəhər təsərrüfatları kommunikasia xətlərindən başlayaraq yenilənmişdi. Məşum 1988-ci ildə zəlzələdən dağılan şəhərlərdə, xüsusən Spitakda Kerkoryan yüzlərlə yeni evlər tikdirmiş, mikrorayonlar saldırmışdı. Xeyriyyəçilik işləri üçün o, "Linsi" adında məxsusi Fond da təsis etmişdi. 1998-ci ildə ömründə ilk dəfə yaşadığı Amerikadan tarixi vətəninə gələn Kerkoryan bu gəlişində mədəniyyət sahələrinə dəstək göstərmiş, muzey, teatr, rəsm qalereyalarını təmir etdirmişdi. O, ABŞ-dakı erməni diasporunun da ən böyük donoru idi. Kaliforniya Universitetinə 250 milyon dollar, ABŞ-da və Ermənistanda müxtəlif elmi-tədqiqat işləri üçün 1,1 milyard dollar xərcləmiş babamız idmanı da unutmamış, erməni əsilli məşhur tennisçi Andrey Aqasinin tennis məktəbinə 18 milyon dollar ianə vermişdi. Onu bütün ermənilər ömürləri boyu unutmayacaqlar.

**– Daniel Xaçaturov.**

Rusiyada “Rosqosstrax” kompaniyasına prezidentik edən, 3,3 milyard dollar sərvətlə Rusiyanın ən varlı ailələri sırasında yer alan Xaçaturov da xalqımıza daim başucalığı gətirməkdədir. Onun bütün avtobioqrafiyalarında “Tanınmış erməni xeyriyyəşisidir” ifadəsi yer alır.

**– Eduardo Ernikyan.**

Amerika mənşəli daha bir qürur mənbəyimiz! Argentinada yaşayan, “Beynəlxalq Argentina aeroportu” kompaniyasının rəhbəri olan, 32 Argentina aeroportunu, eləcə də Uruqvay, Ekvador və Ermənistan aeroportunu idarə edən Ernikyan Argentinanın ən varlı şəxsidir, Cənubi Amerikanın ən varlı 5 şəxsindən biridir. Onun sərvəti 1,8 milyard dollardır. Ernikyan təkcə Ermənistan aviasiyasına kömək etmir, həmçinin mütəmadi Latın Amerikası ölkələrindəki erməni icmalarına, eləcə də Ermənistanın və Dağlıq Qarabağın müxtəlif dirçəliş fondlarına böyük maliyyə yardımları ayırır.

**– Sergey və Nikolay Sarkisovlar.**

Rəsmən 1,5 milyard dollara malik bu iki qeyrətli erməni övladı RECO kompaniyasına başçılıq edirlər, biri Ermənistanın Los-Ancelesdəki, digəri Liondakı baş konsuludur. Erməni hərəkatına, ümumerməni işinə “uf” demədən pul xərcləyirlər, dünyada xalqımızın imicinin formalaşmasında böyük rol almışlar.

**– Kayli Djenner.**

ABŞ-da yaşayan bu məşhur model, biznesledi öz böyük bacısı, dünya pornoulduzu Kim Qardaşyanla birgə geyim və aksessuar sahəsində dəb diktə etməkdədirlər. Kayli dünyanın ən gənc xanım milyardçısı hesab edilir, onun sərvəti 1,66 milyard dollardır. Millətçi və xeyriyyəçi kimi tanınan bu erməni gözəli hazırkı Qarabağ müharibəsində də bacısı, qürurumuz və fəxrimiz Kim Qardaşyanla birgə boş dayanmır, təbliğat-təşviqat işlərinə, ordumuzun silahlanmasına böyük ianələr ayırır.

**– David Yan.**

ABBYY şirkətinə rəhbərlik edən, sərvəti yarım milyard dolları keçmiş, atası çinli, anası erməni olan bu şəxs erməni xalqının gələ-

cəyi üçün sərmayə qoyan ən birincilərdəndir. Onun yaratdığı "Ayb" erməni məktəbi savadlı, intellektual gənc erməniləri yetişdirərək dünyanın hər yerinə səpələməklə məşğuldur.

**– Ruben Vardanyan.**

Ermənistanda yaşayan bu investor "Troyka dialoq broker" kompaniyasının yaradıcısı, KamAZ-ın direktorlar şurasının üzvüdür, sərvəti 1 milyard dollardır. Vardanyan da olduqca böyük xeyriyyəçidir. O, da xüsusən təhsilə böyük pullar ayırır, erməni uşaqlarının Avropada təhsil alması üçün milyonlar xərcləyir.

**– Kerolin Rafaelyan.**

Daha bir erməni biznes ledisi! Daha bir kişilər qədər qeyrətli və vətənpərvər qadınımız. ABŞ-da yaşayan, "Alex and Ani" brendinin yaradıcısı, Birləşmiş Ştatların ən varlı zərgəri olan xanım Rafaelyan qatı millətçiliyi ilə seçilir, özünün dünyaca məşhur brendində belə erməni kəlməsi olan "Ani"-ni yerləşdirib. Xanım Rafaelyanın sərvəti 1 milyard dollardır. İllik gəlirinin azı 20 faizini o, xeyriyyəçiliyə, ümumerməni mənafeyinə xərcləyir.

Hər bir erməni bu cür insanların varlığı ilə fəxr etməlidir. Nə qədər ki, xalqımızın bu qədər mesenatı var, demək, ümumerməni işinə yönələn istənilən layihəmiz həyata keçəcək.

Gənclər, hər biriniz bu qəhrəman erməni mesenatlarının adlarını ürəklərinizin başına yazın!"

Düzü, yenə də olmazın dərəcədə əsəbiləşdirdi məni kirayənişinlərim. P.S.-i yazanda kompüterin düymələrini elə bərk çırpırdım ki, indicə qırılacaqlarını zənn edirdim. Bəzən insanlar onlara zərər vermiş insanların hayıfını əşyalardan alırlar. Bu da bir mazoxizmdir. Amma neqativ bir şey olsa belə, bəzən bu, bizim iradəmizdən kənar baş verir.

"P.S. Tanış oldum sizin dırnaqarası "mesenatlar"la. Niyə dırnaqarası? Fikirlərimi kifayət qədər aydın, sadə dillə izah edəcəyəm və elə arqumentlərlə əsaslandıracağam ki, sizi yanlışlığınıza inandıra biləcəyəm, buna əminəm də.

Heç bilirsiniz mesenatlıq sözünün mənşəyi hara gedib çıxır? Mesenatlıq və ya xeyriyyəçilik, filantropiya – fiziki şəxs və ya xey-

riyyə təşkilatı tərəfindən həyata keçirilən, maddi və ya digər yardıma ehtiyacı olan fiziki şəxslərə, o cümlədən xeyriyyə təşkilatlarına təmənnasız kömək göstərməkdən, o cümlədən əvəzsiz pul köçürməkdən ibarət olan fəaliyyətdir. İkinci anlamda isə ictimai mənafelər naminə həyata keçirilən elmi, təhsil, mədəniyyət naminə fəaliyyətdir.

Mənşəyi isə gedib sizin bəyənmədiyiniz türklərə çıxır. Mesenat – Qədim Roma ərazisində yaşamış mənşəcə qədim türklərlə qohum hesab edilən etruskların tarixi şəxsiyyətlərindən birinin adıdır. Tarixi qaynaqlarda göstərilir ki, e.ə.I minillikdə yaşamış Mesenat insanlara yaxşılıq etməklə, xeyirxah işlər görməklə yaddaşlarda qalmışdır.

Mən sizin mesenatlar barədə fikir söyləməzdən öncə sizə bir sual ünvanlamaq istəyirəm. Dünyanın ən səxavətli insanlarının top-siyahılarına heç nəzər yetirirsinizmi? Keçmişdən danışmayacağam, elə bugünümüzə nəzər salacağam, birgə baxaqmı dünyanın varlıları mesenatlıq deyərkən, xeyirxahlıq deyərkən pullarını hara xərcləyirlər?

Bir vaxtlar Amerikanın ən birinci filantroplarından olmuş Endryu Karneqi demişdi ki, "Başqalarının varlanması üçün çərait yaratmadan heç kəs özü varlana bilməz. Var-dövləti ilə birgə ölmüş şəxs rüsvay olaraq ölmüş şəxsdir." "Facebook"un sahibi Mark Zukerberqi tanımamış olmazsınız, bu şəxs şirkətinin aksiyalarının 99 faizini xeyriyyə işlərinə sərf edəcəyinin elanını verib, xeyriyyə işləri deyəndə ehtiyacı olanlara səhiyyə xidmətlərinin göstərilməsi, sosial vəziyyətlərinin yaxşılaşdırılması dayanır. Təsadüfi deyil ki, onu zəmanənin ən böyük filantropu sayırlar.

2018-ci ildə Wealth-X analitik şirkəti dünyanın əsas mesenatlarının "səxavət indeksi"ni müəyyənləşdirmişdi, bu barədə xəbər mediada geniş əks-səda doğurmuşdu. Hətta Çak Fini kimi maqnatın xeyriyyə işlərinə özünün malik olduğu puldan çox pul qoyması xəbəri hamını təəccübləndirmişdi. Sizə başağrısı olmasın, mən dünyanın ən səxavətli 10 şəxsinin siyahısını sizin gətirdiyiniz ən səxavətli ermənilərin siyahısının qarşılığı olaraq göstərmək istəyirəm:

**– Corc Kayzer.**

VOK maliyyə korporasiyasının sədri. Kapitalı 9,3 milyard dollar, xeyriyyəyə ayırdığı pulun miqdarı 3,3 milyard dollardır. Səxavət indeksi 35 faizdir. Xeyriyyəçilik sahələri təhsil, səhiyyə, sosial, dini sahələridir, regional layihələrdir. Əhatə dairəsi – ehtiyacı olan bütün ölkələr və xalqlar.

**– Eli Brod.**

KB Home və Sun Amerika-nın rəhbəri. Kapitalı 7,3 milyard dollar, xeyriyyəyə ayırdığı pulun miqdarı 3,3 milyard dollardır. Səxavət indeksi 45 faizdir. Xeyriyyəçilik sahələri ictimai təhsil,elm, incəsənətdir. Əhatə dairəsi həm yaşadıqları Kaliforniya ştatı, həm də ehtiyacı olan bütün ölkələr və xalqlardır.

**– Karlos Slim Elu.**

Planetin ən varlı insanlarından biri, Grupo Carso şirkətinin sahibi. Kapitalı 27,2 milyard dollar, xeyriyyəyə ayırdığı pulun miqdarı 4 milyard dollardır. Səxavət indeksi 15 faizdir. Təkcə Ümumdünya Vəhşi Təbiət Fonduna 100 milyon dollar ayırmışdır. ABŞ internatlarında yaşayan Latın Amerikasından olan uşaqlar üçün 3 milyon dollar ödəmişdir. Xeyriyyəçilik sahələri təhsil, səhiyyə, sosial, dini sahələridir, regional layihələrdir. Əhatə dairəsi həm yaşadığı Meksika ölkəsi, həm də ehtiyacı olan bütün ölkələr və xalqlardır.

**– Qordon Mur.**

İntel korporasiyasının qurucusu. Kapitalı 6,5 milyard dollar, xeyriyyəyə ayırdığı pulun miqdarı 5 milyard dollardır. Səxavət indeksi 77 faizdir. Həyat yoldaşı ilə Qordon və Betti Mur Xeyriyyə Fondunu yaradıb. Ətraf mühitin mühafizəsi, dəniz problemlərinin həlli, xəstələrə xidmət, elm və sosial problemlər – əsas xeyriyyəçilik sahələridir. Əhatə dairəsi – yaşadıqları San-Fransisko şəhəri və ehtiyacı olan bütün ölkələr və xalqlardır.

**– Süleyman ibn Əbdül Əziz əl Raci.**

İslam Bankının sahibi. Kapitalı 590 milyon dollar, xeyriyyəyə ayırdığı pulun miqdarı bundan dəfələrlə çox – 5,7 milyard dollardır. Səxavət indeksi 966 faizdir. Süleyman bin Əbdül Əziz əl Raci

Endowments Holding Company adlı xeyriyyə kompaniyası vasitəsi ilə elm, təhsil, səhiyyə, sosial, din sahələrində nəhəng xeyriyyə işləri həyata keçirir. Əhatə dairəsi – həm yaşadığı Səudiyyə Ərəbistanı, həm də ehtiyacı olan bütün ərəb dünyasıdır.

**– Çarlz Frensis Fini.**

Pərakəndə ticarət maqnatı. Kapitalı 1,5 milyon dollar, xeyriyyəyə ayırdığı pulun miqdarı isə dəfələrlə çox – 6,3 milyard dollardır. Səxavət indeksi 420000 faizdir. Atlantic Philanthropies adlı Fond yaradaraq bütün həyatını xeyriyyə işlərinə sərf etmək qərarı verən, bütün gəlirini qəpiyinəcən bu məqsədlər üçün xərcləyən bu şəxs həqiqətən fenomenal şəxsdir. Xeyriyyəçilik sahələri təhsil, elm, insanların vətəndaş hüquqlarının qorunması sahələridir. Əhatə dairəsi ABŞ, Vyetnam, Bermud adalarıdır.

**– Azim Premji.**

Wipro konsaltinq kompaniyasının sahibi. Kapitalı 15,9 milyard dollar, xeyriyyəyə ayırdığı pulun miqdarı 8 milyard dollardır. Səxavət indeksi 50 faizdir. Azim Premji xeyriyyə fondunu yaradaraq məktəb təhsili sistemlərində islahatlara, imtahanların keyfiyyətinin qaldırılmasına, daha savadlı müəllimlərin hazırlanmasına yardım edir. Əhatə dairəsi yaşadığı Hindistan, habelə Asiya ölkələridir.

**– Corc Soros.**

Dünya şöhrətli Açıq Cəmiyyət təsisatının, Soros Fondunun yaradıcısı. Kapitalı 24,4 milyard dollar, xeyriyyəyə ayırdığı pulun miqdarı 8 milyard dollardır. Səxavət indeksi 33 faizdir. Yaratdığı xeyriyyəçilik şəbəkəsi dünyadakı xeyriyyə fondlarına regional inkişaf, sosial iş, təhsil və səhiyyə sahələri üzrə ianələr ayırır. Açıq Cəmiyyət təsisatı isə əsasən vətəndaş azadlıqlarını müdafiə edir. Aparteid dövründə qaradərili CAR tələbələrinə təqaüdlərin ayrılması Sorosun ilk dünyanı lərzəyə gətirən mesenatlıq işi olub. Əhatə dairəsi bütün dünya ölkələridir.

**– Uorren Baffet.**

Berkshire Hathaway holdinq kompaniyasının başçısıdır. O, dünyanın ən varlı adamlarından biri olduğu kimi həm də dünyanın ən

böyük mesenatlarından da biri hesab edilir. Kapitalı 61 milyard dollar, xeyriyyəyə ayırdığı pulun miqdarı 21,5 milyard dollardır. Səxavət indeksi 35 faizdir. Baffet gəlirlərinin 85 faizini Bill və Melinda Geyts Fonduna vəsiyyət edib. Xeyriyyəçilik sahələri vətəndaşların ehtiyacı olan bütün sahələridir. Əhatə dairəsi bütün dünyadır.

**– Bill Qeyts.**

Microsoft kompaniyasının qurucusudur. O da dünyanın ən varlı adamlarından biri olduğu kimi həm də dünyanın ən böyük mesenatlarından biri hesab edilir. Kapitalı 84, 2 milyard dollar, xeyriyyəyə ayırdığı pulun miqdarı 27 milyard dollardır. Səxavət indeksi 32 faizdir. Həyat yoldaşı ilə Bill və Melinda Geyts Fonduna yaradaraq o, bütün diqqətini mesenatlıq fəaliyyətinə yönəltmişdir. Bu fond kənd təsərrüfatının inkişafı, qlobal kitabxanalara kömək, şəhərlərdə yoxsulluqla mübarizə, ümumdünya təhsil və səhiyyə üzrə müxtəlif layihələrə qrandlar ayırır ki, əsas tərəfdaşları da YUNİSEF təşkilatı, QİÇS, vərəm və malyariya əleyhinə Ümumdünya Fondlarıdır. Əhatə dairəsi bütün dünyadır.

**– Mark Zukerberq.**

Facebook-un yaradıcısı və baş direktoru. Kapitalı 40,3 milyard dollar, xeyriyyəyə ayırdığı pulun miqdarı 45 milyard dollardır. Səxavət indeksi 111 faizdir. Dünyanın ən varlı insanları siyahısında 7-ci olan Zukerberq həyat yoldaşı Prissilla ilə qərar qəbul etmişlər ki, Facebookun aksiyalarının 99 faizini xeyirxah işlərə yönəltsinlər. Bu qərarı ailə Maks adlı qızları dünyaya gələndə veriblər. Mesenatlıq fəaliyyətlərinin yönümü "insan potensialının inkişafı və ümumi bərabərliyin inkişafı" adlanır. Buna kimi isə Zukerberq təhsil və səhiyyə sahəsində böyük xeyriyyə işləri görüb. Əhatə dairəsi bütün dünyadır.

İndi isə gəlin fərqlərə nəzər yetirək. Sizin ermənilərin mesenatlıq diapozonu yalnız erməni xalqı və Ermənistana yardımla məhdudlaşır. Dünya mesenatları isə öz xalqları ilə digərlərinə fərq qoymadan bütün dünya boyu köməyə ehtiyacı olanlara dəstək olurlar. Bu, həm də, sizin xalqın digər xalqlardan fərqlilik dərəcəsini göstərir. Milli özünəqapanma, milli eqoizm və nihilizm. Varlılarınızın çox az qismi

Ermənistanda yaşayır. Rusiyanın, ABŞ-ın, Fransanın, Argentinanın, digər ölkələrin vətəndaşı olaraq həmin ölkələrin resurslarından istifadə etməklə, yaratdıqları münbit şəraitdən tam yararlanmaqla qazandıqları milyardların bircə faizini belə əvəz olaraq bu ölkələrə qaytarmır, hamısını öz ermənilərinə xərcləyirlər. Bu əsil parazit həyat tərzi deyilmi?

İndi isə ikinci məsələyə keçək. Dünya mesenatlığında əsas hədəf sahələrinə bir baxaq: İnsanların sağlamlığı, təhsili, sosial vəziyyətlərinin düzəldilməsi, ekologiyanın, ətraf mühitin mühafizəsi, mədəniyyət layihələrinin icrası. Hamısı bəşəriyyət üçün, insanlıq üçün ən faydalı olan sahələrdir.

İndi sizinkilərə baxaq. Az qala hamısında militarizm, başqa xalqların soyqırımını həyata keçirmək üçün kütləvi silahlanma başlıca yer tutur. Əksəriyyətində təhsil və maarifçilik adı altında gənc nəslin beynini millətçiliklə zəhərləmə həyata keçirilir. Kerkosyanda ailələrə bədbəxtçilik gətirən qumar biznesi, Kardaşyanda isə tərbiyəsizlik və pozğunluğu təbliğ edən pornoindustriya.

Bax, budur erməni mesenatlığı. Əslində bu şəxslər mesenat deyillər, cinayətkarlığı maliyyələşdirən cinayətkarlardır. Hər şeyi öz adı ilə çağırmaq lazımdır, dostlar.

## İyirmi beşinci hissə

## MÜƏLLİFDƏN PRİTÇA

...Biri olur, biri olmur, küçəyə atılıb qalmış bir fitil olur. İnsanlar keçib gedirlər, onu tapdalayırlar, ayaqları ilə irəli-geri vururlar, onu yağış isladır, gün döyəcləyir, o daim ağır anlar keçirir.

Bir gün ordan keçən bir insan fitili yerdən götürür, aparıb evdə yuyub-təmizləyir, nöyütləyib lampasına keçirir, lampanı yandırır ki, mənzili işıqlansın.

Küçə məşəqqətindən qurtulub isti, rahat evdə öz sevimli işinə qovuşmaqla fitil xeyli xoşbəxt olur, məmnun olur. Amma bununla belə, fitil alovu artmağa qoymur, işığı gizləyib öz dibinə vurur, deyir, qoy bu işıq başqalarına qismət olmasın, niyə mənim yaratdığım alovdan başqaları xeyir götürsün ki.

Ev sahibi fitilin yaxşı alovlanmadığını, yaxşı işıq vermədiyini görüb onu yararsız hesab edir və çıxarıb yenidən keçəyə tullayır.

Eqoist fitilin aqibəti yenidən yağışda islanmaq, günəşdə yanmaq, ayaq altında tapdanmaq olur.

Bu pritçanın çox didaktik məzmunu var. O, erməni millətçiliyinin iç üzüdür sanki. Başqalarından bəhrələnib ağ günə çıxmaq, bununla belə onların ziddinə gedib yalnız özünü, öz mənafeyini düşünmək. Əsrlərdir ki, erməni xalqı bu mərama xidmət edir, bu məram da ona sonda eqoist fitilin aqibətini qismət etməkdədir.

Stepan Arsenyeviç mesenatlıq mövzusuna keçdikdə istər-istəməz ona Azərbaycan tarixinin ən böyük mesenatı sayılan Hacı Zeynalabdin Tağıyev barədə danışası oldum.

Elə şəxsiyyətlər var ki, onların adları tarixə qızıl hərflərlə yazılır. Azərbaycanlı Hacı Zeynalabdin Tağıyev elə şəxsiyyətlərdəndir. Şəxsən mənim üçün tarixdə örnək götürəsi beş-on kişidən biridir Zeynalabdin Tağıyev.

Onun tərcümeyi- halını belə əzbər bilirəm. 1823-cü ildə Bakıda kasıb başmaqçı ailəsində anadan olmuş Zeynalabdinin cəmi 10 yaşı olarkən anasını itirməsi onun kiçik yaşlarından təmkinli və zəhmətkeş kimi böyüməsinə dəlalət edib. On yaşında atası onu bir bənnanın yanına usta köməkçisi işinə qoyub, 12 yaşına çatanda o, artıq daş yonurmuş, 15 yaşında isə bənnalıq etməyə başlayıbmış. Bir müddətdən sonra Zeynalabdin tikinti ustası və təşkilatçısı kimi tanınırmış. Sonradan o, özünü ticarətdə və yüngül sənayedə də sınayıbmış. Hər ikisində qabiliyyəti ilə uğur qazanmış, dükanlara və manufakturaya sahib olubmuş.

1872-ci ildə neft Bakısı kimi tanınan Bakıda neftli torpaqlar hərraca qoyulduqda Zeynalabdin də torpaq payı icarəyə götürüb, bəxt

zəhmətkeşlərin, xoş niyyətlilərin həmişə üzünə gülür, onun icarə götürdüyü torpaqdan neft fəvvarə vurub. “H.Z.Tağıyev” adlandırdığı neft şirkətini qeydiyyata aldıran Zeynalabdin mədənində ustalara yüksək maaş verir, ən yeni avadanlıq quraşdırır. Nəticədə onun gəlirləri sürətlə artmağa başlayıb. Bundan sonra o, həm də neft zavodları alıb. 1882-ci ildə Tağıyev 1-ci gildiya tacir rütbəsinə layıq görülüb. 1896-cı ildə onun neft şirkəti 32 milyon pud neft hasilatı ilə ən yüksək göstəriciyə nail olub. 1897-ci ildə neft mədənlərini Britaniya şirkətlərindən birinə satan Tağıyev qeyri-neft sektoruna sərmayə qoymağa başlayıb. Onun inşa etdirdiyi Bakı toxuculuq fabriki Azərbaycanda yeni istehsal sahəsində başlanğıc olub. Toxuculuq fabrikini xammalla təmin etmək məqsədi ilə Tağıyev Yevlax rayonunda pambıq əkini üçün torpaq sahəsi alaraq 1909-cu ildə Cavad bölgəsində pambıqtəmizləmə zavodu tikdirib. Bakının ən iri ticarət mərkəzi sayılan ticarət evini də Tağıyev təşkil edib. Zeynalabdinin əl qoyduğu başqa bir sahə balıqçılıq sahəsi olmuşdur ki, o, Xəzərin Azərbaycan sahillərindən tutmuş Dağıstan sahillərinə qədər uzunluğu 300 kilometr olan torpaq sahəsi alıb vətəgə salmışdı. Kür qırağındakı vətəgələri də dövlətdən icarəyə götürmüşdü. Bir dönəmdə balıqçılığın zəiflədiyini görüb bu fenomenal şəxsiyyət maraqlı bir fəndə əl atmışdı. Qızıl üzüyünü bir balığın ağzına atıb balığı dənizə buraxmışdı, bunu eşidən balıqçılar həmin balığı tutmaq arzusu ilə dənizə tökülüşmüşdülər, tonlarla balıq ovlanmışdı.

Belə böyük bir biznes şəbəkəsinə malik olan bu şəxs daha çox mesenatlıq fəaliyyəti ilə məşhurlaşmışdı, şöhrəti sərhədlər aşmışdı. O, həm açdığı iş yerləri ilə minlərlə insana çörək verirdi, ölkəsinin çiçəklənməsinə, xalqının rifah halının yaxşılaşdırılmasına xidmət edirdi, həm tikdirdiyi binalarla yaşadığı Bakının simasını gözəlləşdirirdi. Məsələn, onun 125 il əvvəl tikdirdiyi, hazırda Tağıyevin evi kimi tanınan saray hələ də Bakının hüsnünə bir yaraşıqdır. Tanınmış polyak arxitektor Yozef Qoslavskinin müəllifi olduğu, Avropa order memarlıq üslübundan istifadə edilərək fərdi kompozisiya kimi yaradılan, bir üzü Bariyantinski, digəri Starıy Politseyski, üçüncüsü

Merkuri, dördüncüsü isə Qarçakov küçələrinə baxan bu saray hər cəhətdən – həm fasadına – xarici arxitekturasına, həm də interyerinə – daxili bər-bəzəyinə görə şəhərin ən yaraşıqlı binalarından biri sayılır. Binanın hər dörd tinində və baş girəcəyinin qabağında nəhəng qaz fanarlarının yanması isə dövründə əsl memarlıq şedevri hesab edilirmiş.

Onun xeyriyyəçilik fəaliyyətində isə yalnız nəciblik, faydalı olmaq əsas keyfiyyəti olub. Hacıyev erməni mesenatları kimi millətçiliyə, silahlanmaya pul xərcləməyib. O, 1901-ci ildə 300 min manatlıq vəsait sərf edərək, Bakıda ilk Qızlar Məktəbi tikdirib. Bu, bütün Zaqafqaziyada yeganə qızlar məktəbi idi. Şərq mentalitetinə görə, qızın təhsil alması yasaq sayılırdı, qaragüruh hətta Zeynalabdinə ölüm fitvası belə kəsmişdi, amma bu şəxs axıradək mübariz olaraq öz inadından dönməmişdi, məktəbi tikdirib istifadəyə vermişdi.

1905-ci ildəki Rusiya inqilabından sonra hökumətin Oktyabr bəyannaməsi ölkədə mədəni-maarif işlərinin canlanmasına səbəb olmuşdu. Ölkənin hər yerində xeyriyyə məqsədi ilə bir sıra cəmiyyətlər yaranırdı. Qəzet və jurnallar çap edilməyə başlanmışdı. Bu cəmiyyətlərin yaradılması, qəzet və jurnalların çap edilməsi birinci növbədə Tağıyevin adı ilə bağlıdır. Bu işdə Tağıyev bir növ təşkilatçı rolunu oynayırdı. Xeyriyyə məqsədilə yaradılan cəmiyyətlər ya Tağıyevin şəxsi iştirakı və vəsaiti ilə, ya da onun yaxından köməyi ilə yaradılırdı.

Onun xeyriyyəçilik fəaliyyəti sırf olaraq humanizmə əsaslanırdı desəm, yanılmaram. O zamanlar Bakıda dustaqları Nargin adlı adada saxlayırdılar. Dustaq yiyələri ora gedib-gəlincə çox əziyyət çəkirdilər. Axırda Zeynalabdinə müraciət edirlər ki, bu işdə bizə kömək elə. O da Quba meydanı ilə Kömürçü meydanı arasında tikdirdiyi beşmərtəbəli dəyimanı dustaqxana üçün verir.

Tağıyev həm də Bakı və Abşeron yarımadasında insanlar üçün əvəzsiz nemət sayılan Bakı-Şollar su kəmərinin tikintisini şəxsi vəsaiti ilə həyata keçirib. O dövr üçün bu sayaq layihələrin həyata vəsiqə alması demək olar ki, mümkünsüz idi, texnikanın kustar vəziyyəti,

məsafənin hədsiz böyük olması, peşəkar işçı qıtlığı, üstəlik də astronomik məbləğin lazım olması Domokl qılıncı kimi başların üstünü kəsdirsə belə, bu insan bu işə əl qoymuşdu. Şimalda – Xudatın yaxınlığındakı meşədən Bakı sakinlərinə sərinlik və firavanlıq aparacaq şəffaf, təmiz bulaq suyunu gətirən su kəmərinin çəkilişi 1909-cu ildə Çar II Nikolayın fərmanı ilə Bakı şəhərinə 27 milyon rubldan çox olmamaq şərtilə istiqraz buraxılmasına icazə verməsindən sonra başlanmışdı, hətta Birinci Dünya müharibəsinin qızğın çağında belə tikinti işləri səngiməmişdi, 1916-ci ilin dekabrında Şollar-Bakı su kəmərinin birinci növbəsinin tikintisi başa çatmışdı.

Tağıyevin mesenatlıq fəaliyyəti təbii ki, tək Azərbaycanla məhdudlaşmamışdı, o, Çar Rusiyasının hər bir guşəsində köməyə ehtiyacı olan insanlara kömək əlini uzatmışdı. Onun Pakistan xalqına yönəli bir mərhəmət aksiyası isə illər ötsə belə Pakistan xalqı tərəfindən əsla unudulmur, böyükdən kiçiyə hər bir pakistanlının dilinin əzbəridir.

XX əsrin əvvəllərində Pakistan ərazisi Böyük Britaniya müstəmləkəsi idi. Həmin dövrdə yerli əhali arasında vəba, malyariya kimi yoluxucu xəstəliklər yayılaraq çox kütləvi hal almışdı, ölkədə pandemiya elan olunmuşdu, əhalini məhvolma təhlükəsi gözləyirdi. Müstəmləkəçilər isə yerli əhalinin kütləvi şəkildə ağır yoluxucu xəstəliyin qurbanına çevrilməsinə heç əhəmiyyət belə vermirdilər. Belə vəziyyətdə Pakistan xalqının yardımına məhz Hacı Zeynalabdin Tağıyev çatdı. Belə ki, o, öz şəxsi vəsaiti hesabına 300 min ampula peyvənd alıb Pakistan ərazisinə göndərməklə pandemiyanın qarşısının tamamilə alınmasını təmin etdi. Maraqlıdır ki, Pakistan 1947-ci ildə müstəqillik əldə etdikdən sonra Hacı Zeynalabdin Tağıyevin xeyirxahlığı ilə bağlı faktlar hətta tarix dərsliklərinə belə daxil edilib. Ona görə də, hazırda 200 milyonluq Pakistan dövləti və xalqı Hacı Zeynalabdin Tagıyevi ehtiramla xatırlamaqla yanaşı, həm də Azərbaycanı dost və qardaş ölkə hesab edir.

Bax, belə olur əsl mesenatlıq.

Bax, budur əsl insanlıq...

## İyirmi altıncı hissə

## STEPAN ŞAUMYAN

Kirayənişinlərim deyəsən bir qədər ruhdan düşmüş kimi görünürdülər. Əvvəlki od-alovları sanki sönmüşdü. Bir yandan institutda yaranan problemləri, bir yandan da canlarını-qanlarını qoyduqları kitab işində maliyyə axtarışı uğursuzluqları. Böyük tirajla rusca və ingiliscə kitab çıxarmaq, onu dünyada yaymaq həddən artıq böyük xərclər tələb edirdi, pullular isə yaxalarını kənara çəkirdilər. Neçə erməni iş adamına müraciət etmişdilər, hamısından rədd cavabı almışdılar.

Hər iki problemlə bağlı müxtəlif yollar arayıb axtarmaqla xeyli müzakirə və mübahisələrə girişdilər. Belə bir gərgin vaxtlarında mən də onları lap qıcıqlandırdım, onlara məni çox maraqlandıran bir məsələ ilə bağlı sual verdim. Təbiətim belədir, bir şeylə maraqlananda marağımı əsla boğa bilmirəm. Rəhmətlik Qalina mənə havayı yerə "Lyubopıtnaya Varvara" demirdi ki.

İki ildən artıqdır, bütün Rusiya üç bacının taleyini izləməkdədir. Söhbət Mariya, Angelina və Krestina bacılarından gedir. Soyadları Xaçaturyan olan bu erməni bacılar ataları Mixail Xaçaturyanı öldürməkdə ittiham olunurlar. İttiham aktına görə bacılar birləşib öz şəxsi mənafeləri baxımından, yəni ki, var-dövlətinə sahib olmaq üçün atalarını öldürüblər. Qızlar isə dirənib durublar ki, ataları daim onları seksual əlaqəyə cəlb edirmiş deyə bu işi görüblər.

Mən kirayənişinlərimdən soruşmaq istəyirdim ki, qızlar günahkardırlar, yoxsa ataları? Amma soruşanda onu da vurğuladım ki, əgər qızlar doğma atalarını var-dövlətinə sahib olmaq üçün öldürüblərsə, bu, bir ailənin adına böyük rüsvayçılıqdır. Yox, əgər ata doğma qızlarına qarşı seksual hərəkətlər edibsə, bu rüsvayçılıqdan

da, rəzillikdən də o yana, adına da bilmirəm nə deyim, bəlkə də əsl şərəfsizlikdir, bir xalq adına silinməz ləkədir.

Onlar da başlarını bulayıb prosesdən guya xəbərsiz olduqlarını söylədilər, hətta Qaqik özlərinə haqq qazandırmaq üçün “Kim bilir, hansı millətdəndirlər, yalandan özlərinə erməni deyirlər ki, diqqəti cəlb edə bilsinlər” deyə mızıldandı da.

Amma öz aramızdır, çox təsirləndirici əhvalatdır, kirayənişinlərim ağılları olsa bunu da öz kitablarına salıb şərəf tarixlərinə nümunə göstərərdilər. Guya onların gətirdikləri nümunələr hansısa baxımdan bu nümunədən pozitivdir ki? Daha dağıdıcı, daha neqativdir hər kəlmələri.

Mesenatlarını ortaya soxduqdan sonra “üçlər” yenidən tarixi ardıcıllıqla keçmişə qayıtmışdılar, bu dəfə dədə-babalarının 1918-ci ildə Azərbaycanda törətdikləri vəhşiliklərdən səcdə gəlmişdilər. Bu əsil manyaklıqdır əslində. Qana susamaq, qan tökməkdən ləzzət almağın manyaklıqdan başqa adımı var?

* * *

“**12-ci bölmə.** Xalqımızın şərəf tarixində çox güman ki, ən önəmli yerlərdə dayanan, qızıl rəngə boyanan hissə 1918-ci ildə azərbaycanlıları öz ərazilərində qırmağımız olub. Tarixdə bu cür qırğınlar genosid adlanır, bir dövlətdə yaşayan əsas xalq oradakı digər xalqları dövlətin tərkib siyasəti olaraq qırıb axırına çıxır. Biz isə daha uzağa gedib başqa dövlətin ərazisində yerli xalqı məhv etmişik, bu əsla genosid deyil, bunun adı ultragenosiddir. Bu cür şücaəti başqa hansı xalq göstərə bilər axı? Getdik e!

1918-ci ildə Cənubi Qafqazda həyata keçirilən qətliamlara tarixi şərait və zərurət baxımından nəzər salsaq, şübhəsiz bizim millət qəhrəmanlarımızın rus bolşevizmi ilə birləşərək “Azərbaycanın bolşevikləşməsi işini həyata keçirmək” zərurətindən necə məharətlə yararlanmaları diqqət çəkir. Bu işdə ən əsas sima isə xalqımızın daha bir qəhrəman oğlu olan Stepan Şaumyandır. Stepan Şaumyan həmin dövrdə Bakı Sovetinin sədri, Qafqaz işləri üzrə Fövqəladə

komissar vəzifəsini daşıyırdı, bolşevizmin rəhbəri olan Vladimir İliç Leninin birbaşa Qafqazdakı elçisiydi, sağ əliydi. Bəri başdan qeyd edək ki, bəzi erməni müəlliflər Şaumyanın bolşevizmə xidmət etməsini qabardaraq onun erməni xalqına verdiyi töhfələrə kölgə salmaq istəyirlər. Amma Stepanın təkcə elə 1918-ci ildə Bakıda oturaraq azərbaycanlıları qırdırması faktı nəyə desəniz dəyər. Böyük şücaətdir, düşmənə əsl dərsdir.

Stepan Şaumyanın qısa tərcümeyi-halını hər bir erməni bilməlidir, buyurun, tanış olun. 1878-ci il oktyabr ayının 13-də Tiflisdə işlər müdiri köməkçisinin ailəsində anadan olmuş Stepan 1889–1898-ci illərdə Tiflis real məktəbində təhsil almışdır. Erkən yaşlarından siyasətlə maraqlanan qəhrəmanımız özündə sağçı meyilləri hiss etmiş, 1899-cu ildə marksist dərnəyi olan "Göyqurşağı"nı təşkil etmiş, ardınca 1902-ci ildə sosial-demokrat birliyini yaratmışdır. Xalqının Osmanlı və Rus imperiyalarının cəngində əziyyət çəkdiyini görüb Stepan nicatı marksizmdə axratmağa başlamış, mübarizəsini bu sahəyə yönəltmişdi. Nə fərqi var, sənin siyasi əqidən necədir? Əsas milli əqidədir, Styopanın milli əqidəsi də erməni xalqının azadlığı və firavanlığı olmuşdur.

1901-ci ilin avqustunda Styopa Riqada ali texniki təhsil almağa başlamış, 1902-ci ilin martında inqilabi fəaliyyətinə görə oradan qovulmuşdu. Tiflisə geri qayıdan Şaumyan 1902-ci ilin sonunda Almaniyaya mühacirət etmiş, orada təhsilini davam etdirmiş, Berlin Universitetinin fəlsəfə fakültəsini bitirmişdir. Berlində olarkən o, Roza Lüksemburq, Karl Libknext kimi aktiv marksıstlərlə təmaslarda olmuşdur. Bu da erməni liderlərə xas olan gözəl bir xüsusiyyətdir. Hər şey təmənnalı olmalıdır, yalnız lazımi adamlarla tanışlıq vacib sayılmalıdır. Lazımsız tanışlıqlara nə lüzum var axı?

1903-cü ilin yazında isə Styopa İsveçrədə misilsiz bir işə imza ataraq Vladimir Leninlə tanış olmuşdur ki, bu da sonradan erməni millətçi hərəkatının rişələnməsində əvəzsiz rol oynamışdır. Bəli, biz hazırda əlimizdə olan müstəqil Ermənistan dövlətinə görə məhz Styopamıza borcluyuq. Styopanın Leninə hədiyyələr verməsi, özünü

hədsiz səxavətli göstərməsi, onun erməni qonaqpərvərliyi Leninin çox xoşuna gəlmişdir.

Arxivlərdə Leninin həyat yoldaşı Nadejda Konstantinovna Krupskayanın 1916-cı ildə söylədiyi gözəl bir xatirəsi ilə də rastlaşdıq, onu da sizinlə bölüşürük. Krupskaya deyibmiş:

"Vladimir İliç evə yorğun gələrdi və mənim ürəyim gəlmirdi ona iş barədə sual verim. Amma hər ikimiz də düşünürdük ki, hər şey barədə bildiyimizi yalnız ən asan yolla danışa bilərdik – gəzərək. Bəzən Petroqradın səssiz küçələrində uzun-uzun gəzərdik. Xatırlayıram, bir dəfə belə bir gəzintini Şaumyan və Yenukidze ilə etmişdik və Şaumyan İliçə bir neçə qızıl döş nişanı vermişdi, demişdi ki, bu hədiyyəni İliçə çatdırmağı ondan oğulları xahiş edib. İliç də gülümsəyərək hədiyyəni qəbul etmişdi."

1905-ci ildə təhsilini başa vurduqdan sonra qəhrəmanımız Gürcüstana qayıtmış, müəllim işləmiş, bolşevik təşkilatının rəhbərlərindən biri olmuşdur. Bəli, məqsəd çarizmi devirmək, bolşevizmi hakimiyyətə gətirmək idi, məhz bu nüans da erməni xalqına müstəqil dövlət qurmaq şansı verməliydi, çünki rus çarları xalqımızı həmişə aldatmış, müstəqillikvermə vədinə əməl etməmişdilər. Həmin il Allahverdi kəndində mis mədəni fəhlələrini çarizm əleyhinə mitinqə də məhz Styopa qaldırmışdır. Paralel olaraq da o, jurnalist kimi parlamış, 1905-ci ilin noyabrında Cənubi Qafqazdakı ilk bolşevik qəzeti olan "Kavkazkiy Raboçiy Listok"a baş redaktorluq etmişdir. Məhz bu zamanlarda artıq Styopa erməni xalqı arasında yaxşı tanınırdı, xalqımızda Şaumyana qarşı fikir haçalanması da məhz həmin dövrdə müşahidə edilirdi. Xüsusən daşnak liderlər onun adını aşağılayırdılar, amma unutmaq lazım deyil ki, Şaumyan qalibdir, 1918-ci il qırğınlarının əsas təşkilatçısı məhz odur. Qalibləri isə mühakimə etmirlər. Birisi erməni xalqının nicatını "Daşnaksutyun"da görürdüsə, Şaumyan da bolşevizmdə görürdü. Və yeri gəlmişkən, 1918-ci il qırğınlarını "Daşnaksutyun" Şaumyana güvənərək, onun rıçaqlarından, maddi və mənəvi dəstyətindən istifadə edərək, kəsəsi, onunla müttəfiqlikdə həyata keçirmişdi. Styopanın əsrin əvvəlində Ermə-

nistanda çıxan ermənicə "Qığılcım", "Yeni söz", "Günlər", rusca çıxan "Vperyod" və "Proletar" adlı qəzetlərdə daşnakları və menşevikləri tənqid etməsi isə sırf əqidə məsələsi olub dövrün tələblərindən qaynaqlanırdı. Qəhrəmanımız hətta Moskvaya gedərək Leninlə təkrar görüşəndən sonra məşhur "Pravda" qəzetində də işləmişdir, bolşevizmin əsas dayaqlarından biri olmuşdur, bunu ona əskiklik saymaq yox, bununla qürurlanmaq hər bir ermənin borcudur.

1911-ci ildə Şaumyan Bakıda Leninin tapşırığı ilə gizlin inqilabi fəaliyyət aparmış, lakin həmin ilin sentyabrında həbs edilmişdir. 1912-ci ilin iyun ayında Həştərxana sürgün olunmuş qəhrəmanımıza sonradan 1916-cı ildə həbs cəzası da kəsilmişdir. Başı qilü-qalda olan Styopaya sonradan daha bir sürgünlük həyatı nəsib olmuş, 1917-ci il fevral inqilabından sonra isə o azadlıq qazanıb Bakıya qayıtmışdır. O, tezliklə Bakı Sovetinin sədri seçilmişdir. Ardınca Qafqaz üzrə fövqəladə komissar təyin olunmuşdur. 25 aprel 1918-ci ildə isə bu dəfə Bakı Kommunasının sədrliyinə keçmişdir.

Moskva şəhərində bolşevik arxivlərinə yol tapmaqda bizə kömək edən həmyerlimiz Mkrtıç Arakelyana sonsuz minnətdarlıq bildirərək bu arxivlərdəki şox unikal məlumatları oxucularımıza çatdırmağı özümüzə borc bilirik. Şaumyan 1918-ci il noyabrın 15-də V.İ.Lenin tərəfindən Qafqazın fövqəladə komissarı təyin olunarkən ona rus qoşunlarının işğal etdiyi Türkiyə Ermənistanın muxtariyyət və istiqlalını təmin etmək üçün fərman da təqdim edilibmiş, yəni Styopa Lenindən konkret müstəqilliyimizə zəmanət alıbmış. Bu fakt vəziyyəti əsaslı surətdə dəyişmişdi. Arxasında Leninin nəfəsini duyan Şaumyan "iştaha yemək zamanı gələr" məsəlinə əməl edərək elə Qafqazda da türklərin qırılmasını təmin etmək, xalqının qisasını almaq məqsədi güdməyə başlamışdı. O dövrdə Qafqaz Azərbaycanında çox mürəkkəb siyası vəziyyət mövcud idi. Hələ 1917-ci il noyabrın 9-da yerli millətçi "Müsavat" partiyasının rəhbərliyi ilə Zaqafqaziya müsəlman milli komitələrinin Bakıda keçirilmiş konfransında azərbaycanlıların öz müqəddəratını təyinetmə hüququnu reallaşdırmaq və Azərbaycanın muxtariyyətinə nail olmaq məqsə-

dilə Milli Müəssisələr Məclisini çağırmaq haqqında qərar çıxarılmışdı, bu qərar da Şaumyanın hədsiz qəzəbinə səbəb olmuşdu. Bakıya Leninin tapşırığı ilə Bakı neftinin tamamilə Rusiyaya axıdılmasına nail olmaq və Türkiyə torpaqlarında ermənilərin muxtariyyəti məsələsini həll etmək üçün gəlmiş, paralel olaraq da azərbaycanlıları ən azı çökdürmək, ən azı saylarını azaltmaq məqsədini güdən Styopa barədə arxivlər belə yazırlar ki, o, “Azərbaycan” kəlməsi gələndə qulaqlarını tuturmuş, bu sözü eşitmək belə istəmirmiş. O, heç cür qəbul etmək istəmirdi ki, “Azərbaycan” adlı ərazi vardır. “Müsavat”-la Bakıdakı Sovet hakimiyyəti lideri Styopa arasında münaqişəni, düşmənçiliyi artıran digər fakt isə 1917-ci ilin noyabrında Zaqafqaziyada Müəssislər Məclisinə keçirilən seçkilər olmuşdu. Seçkilərdə iştirak etmiş 2455274 nəfər seçicidən 615816 nəfəri “Müsavat”a, 159270 nəfəri isə Müsəlman Sosialist Blokuna səs vermişdi. Bolşeviklər isə bütün Zaqafqaziyada yalnız 95581 səs toplaya bilmişdilər.

Seçkilərin nəticələri bir daha təsdiq etmişdi ki, bolşeviklər Zaqafqaziyada çox zəif bazaya malikdirlər, Azərbaycanda isə Bakı rayonundan başqa digər heç bir bölgədə nüfuza malik deyillər. Şaumyanın başçılıq etdiyi Bakı Sovetinin və onun İcraiyyə Komitəsinin Bakının özündə də mövqeyinin kifayət qədər möhkəm olmadığını isə belə bir faktdan aydın görmək olar ki, beş aylıq hakimiyyətləri dövründə – 1918-ci il mart hadisələrinə qədər bolşeviklər şəhərdəki vəziyyətə tam nəzarət etməyə nail ola bilməmişdilər. Sovet hakimiyyəti nə kapitalistlərin və menşeviklərin müqavimətini qıra bilmiş, nə şəhər dumasının və milli şuraların fəaliyyətini dayandırmış, nə milli ordu hissələrini tərkisilah etmiş, nə də azərbaycanlı qoçuların antibolşevik çıxışlarına son qoya bilmişdi. Belə şəraitdə qüvvələr nisbətini dəyişə bilməklə Şaumyan birdən-birə bir güllə ilə iki dovşan vururdu. Həm Leninin tapşırıqlarını yerinə yetirərək bolşevizmə sədaqət nümayiş etdirirdi, həm də erməni millətinin müstəqilliyi yolunda revanş addımlarını ataraq türkləri zəiflədirdi.

Styopanın fəaliyyətinin xalqımız üçün faydalarına toxunarkən mütləq bir detalı da qeyd etməliyik. Styopa bolşevik ordusuna gür-

cü və azərbaycanlıları yox, hətta rusları da yox, məhz erməniləri üzv etməklə onları tam silahlandırıb millətçilik zəminində müsəlmanları məhv etmələrinə şərait yaratmaqla işini bitmiş hesab etmirdi, o, bununla, həm də ermənilərimizi işlə, pul-para ilə təmin edir, güzəranlarını yaxşılaşdırırdı, nüfuz yiyəsi edirdi. Bir sözlə, Styopa əsl çörəkverən idi.

Bir qədər qabağa gedib sonsuz həzz və ləzzətlə xatırlatmaq istəyirik ki, 1918-ci il qırğınlarını həyata keçirən, on minlərlə azərbaycanlınınn məhvinə nail olan Şaumyana sonradan azərbaycanlıların abidələr qoyması, rayonlara, küçələrə onun adını verməsi erməniçilik əqidəsinin sonsuz təntənəsi olmuşdu. Var olsun Styopa və onun rus bolşevik ordusu adı altında əslində daşnak-erməni ordusu!

İndi isə keçək bilavasitə hadisələrin özünə. Arxivlərdə 1918-ci il Bakı hadisələri Şaumyanın qırmızı ordu dəstəsinə azərbaycanlılar tərəfindən açılan provokativ atəşi əsas götürməsi ilə başlayır. Bu hadisələr SSRİ dövründə millətçi müsavat partiyasının provakasiyası kimi tədris edilib. Styopa özü bu barədə yazırdı:

"Bizim ordumuza açılan ilk atəşdən istifadə edərək biz bütün cəbhə boyu hücuma keçdik... Bizim 6 minə yaxın silahlı dəstəmiz vardı. "Daşnaksutyun"un da bizim tabeçiliyimizə verilmiş 3–4 minə yaxın milli ordusu vardı. Döyüş soyqırım formasını almışdı, ancaq bundan qaçmaq mümkün deyildi. Biz buna bilərəkdən getdik. Bakını ələ almasaydıq, o Azərbaycanın paytaxtı elan ediləcəkdi".

Həmin dövrdə bolşevik sıralarında olan azərbaycanlı lider Nəriman Nərimanov adlı bir şəxs idi ki, onu Şaumyan Şəhər təsərrüfatı üzrə xalq komissarı təyin etmişdi. Əslində Styopadan olsaydı, yüksək vəzifəyə bircə düşmən nümayəndəsini belə qoymazdı, amma gözdən pərdə asmaq da vacib idi. Necə olmasa da bura Azərbaycan sayılırdı, bütün vəzifələrdə ermənilər otursa da barı bir vəzifədə azərbaycanlı da oturmalı idi.

Bax, həmin Nərimanov öz növbəsində hadisələri belə xatırlayırdı:

"Bolşevik olan bir müsəlmana belə aman verilmədi. Müsəlmanlara hər cür cinayəti etdilər. Nəinki kişilər, hətta hamilə qadınlar da daşnaklardan canlarını qurtara bilmədilər".

1918-ci il qələbəmizə, düşmənə verdirdiyimiz itkilərə ayrıca toxunacağıq. İndilikdə isə Styopanın həyat və fəaliyyəti barədə məlumatı yekunlaşdırmaqla kitabımızın bu hissəsini də yekunlaşdırmaq istəyirik.

Bakıda, Şamaxıda, Qubada və digər Azərbaycan bölgələrində yerli azərbaycanlıları qırıb-çatmağımıza təbii ki, əsas düşmənimiz olan Türkiyə biganə qala bilməzdi, oradan Qafqaz İslam Ordusu adı altında Azərbaycana ordu yeridildi. Türk ordusunun Azərbaycana yaxınlaşması xəbərini alan Lenin 24 may 1918-ci ildə Şaumyana mümkünsə gürcü menşeviklərinin lideri Noy Jordaniya ilə ittifaqa girməsini və bu da alınmasa, diplomatiyaya əl atmağı tapşırmışdı, nəyin bahasına olursa-olsun, türklər Bakıya buraxılmamalı idilər. Qafqaz İslam Ordusunun Bakıya yaxınlaşdığı dövrlərdə Bakı kommunasının menşevik və eser üzvləri isə şəhəri müdafiə üçün ingilislərdən kömək almağı müzakirə edirdilər. Buna Lenin 22 iyul 1918-ci ildə Şaumyana göndərdiyi radio teleqramla etiraz etmişdi. İngilislər tutduğunu buraxanmı idilər? Bakıya girsəydilər, hakimiyyəti təzədən Leninə qaytarmazdılar axı.

Britaniyanın Bakıdakı vitse-konsulu Ranald MakDonnel iyulun 7-də Şaumyanın evini ziyarət etmişdi, ona Qafqaz İslam Ordusuna qarşı ingilis dəstəyini təkidlə təklif etmişdi. Lakin cəsur Styopa ingilis sərkərdəsi Lionel Denstervilin Bakıya girməsinə icazə verməmiş, müdafiəni özlərinin davam etdirəcəklərini bildirmişdi.

Hadisələr lap kritik məqama çatanda, artıq türklər sərhədi keçəndə – 26 iyul 1918-ci ildə Bakı Kommunasında ingilis yardımına münasibət haqda səsvermə keçirilmişdi, bolşeviklər ingilislərin 236 əleyhinə, birləşmiş menşevik-daşnak-eser fraksiyası isə 259 lehinə səs vermişdi. 31 iyulda isə Şaumyanı üstələyən bu əksinqilabi mənfurlar Sentrokaspi Diktaturasının qurulduğunu elan etmişdilər. Qəhrəmanımız hakimiyyəti itirdiyini, tam təkləndiyini görüb 16 avqust-

da hərbi gəmilərlə Bakı limanından qaçmağa çalışarkən əfsus ki, həbs olunmuşdu. Bununla belə, bir ermənin in dadına həmişə başqa bir erməni gəlir axı, Şaumyan 14 sentyabrda həmin bu Sentrokaspi diktaturasında vəzifə tutan həmyerlimiz Anastas Mikoyanın köməkliyi ilə həbsdən azad olunmuşdu. Mikoyan Styopanın Bakıdan qaçmasını da təşkil etmişdi. Əfsus ki, Styopanın "Türkmən" gəmisi ilə Krasnovodska yollanmasından xəbər tutan Zakaspi Müvəqqəti Hökuməti Krasnovodskda qəhrəmanımızı yenidən həbs etmişdir. Onu və digər iyirmi beş Bakı Komissarını.

Şaumyan o dövrdə bütün regionun dev siyasətçisi sayılırdı, üç gün sonra ingilis generalı Vilfrid Malleson Şaumyanın Məşhəd şəhərindəki ingilis qərargahına göndərilməsini Zakaspi hökumətindəki attaşesi vasitəsilə tələb eləmişdir. Lakin attaşe bu xəbəri hökumətə çatdırmadığı üçün Styopa 20 sentyabr 1918-ci ildə Zakaspi rəsmisi Fyodor Funtikovun əmri ilə Ağcaqum çölündə edam olunmuşdur.

Sonrakı dönəmlərdə Styopa ilə bağlı maraqlı olaylar da baş vermişdir.

1920-ci ildə Şaumyan və digər Bakı komissarlarının cəsədləri Ağcaqumdan gətirilərək Bakıdakı "Sahil" parkındakı məzarlıq-abidə kompleksində yenidən basdırılmışdır. 2009-cu ilin yanvar ayının 24-də orada aparılan abadlıq işləri adı altında Azərbaycan millətçiləri məzarlığın başqa yerə köçürülməsini təşkil etmişlər. Məzarlığın köçürülməsinə ilk etirazlar Ermənistan Kommunist Partiyasının baş katibi Ruben Tovmasyandan gəlmişdi, bununla belə köçürülmə baş tutmuşdu. Köçürülmə zamanı azərbaycanlılar anatomik tədqiqatlar da keçirmişlər və Styopanın nəşinin digər nəşlər arasında olmadığını bildirmişlər. Düzü, bu xəbərin feyk xəbər olub-olmadığını düşünmədən biz ermənilər buna sevinmiş, qəhrəmanımızın taleyinin Ağcaqum çöllərində namərdcəsinə bitməməsi xəbərini bayram etmişdik. Mənbələr Styopanın Krasnovodsk ermənilərinin dəstəyi ilə güllələnməkdən qurtularaq Hindistana qaçması iddiaları ilə çıxış edəndə sevincimizin həddi-hüdudu olmamışdı. Onun izlərini Hindistanda axtarmağa başlamışdıq. Amma Styopanın nəvəsi Tatyana

Şaumyan son nöqtəni qoyaraq bu fikrin absurd olduğunu iddia etmiş, Styopanın məhz Ağcaqumda güllələndiyini təsdiqləmişdir.

Bəli, nə olursa olsun, qəhrəmanlar unudulmur.

Gənc nəsil həmişə onlardan örnək götürməlidir”.

## İyirmi yeddinci hissə

## 1918-Cİ İL BAKI QIRĞINI

Bu qadın kim idi, evimə girmişdi? Öz dilində kirayənişinlərimə hey nəsə qırıldadırdı, səsini başına atıb lap qışqırırdı, arada əl atıb Stepanın xirtdəyindən yapışırdı, hərdən də hönkürüb ağlayırdı.

Kommunal xərcləri ödəyib, yüngülcə alış-veriş edib evimə qayıtmışdım, çağırılmamış qonağın səsini blokdaca eşidib həyəcanlanmışdım. Hətta üzbəüz qonşum elə pilləkən meydanındaca qabağımı kəsib – “ Arsenyeviç, sizdə davadır”, – söyləmişdi.

İçəri keçən kimi kirayənişinlərimdən nə baş verdiyini soruşdum. Deməzsənmiş, institutda yaranmış problemlə bağlı Stepanın anası Razdan rayonundan durub gəlmişdi, kənd əhli olması ondan gələn kəsif qoxudan, bir də şəhər mənzilində, özü də Moskva kimi nəhəng bir meqapolisin mərkəzindəki bir mənzildə qonşuları narahat edəcək həddə çığır-bağır salmasından sezilirdi.

Məsələdən dərhal agah olmaq üçün adaşımdan nə baş verdiyini soruşdum. Düzü, bu dəfə ona adaş deyə müraciət etmədim. Əvvəlki adaşlıq mehribançılığını daha bir erməni Stepanın mövcudluğu tam yox etməyə müvəffəq olmuşdu. Stepan Şaumyan adlı digər erməni ilə də – quldur və qatillə də adaş olmağım utandırıcı idi deyə, adaşlıq söhbətini kökündən yığışdırmaq qərarı vermişdim. Ümumiyyətlə, ermənilərin mədəniyyət, tarix, torpaq oğrusu olduğu, hər xalqdan bir şey çırpışdırdığı demək olar ki, hamıya bəllidir.

Ərazilərindən bayraqlarına, saxta "mədəniyyət"lərindən mətbəxlərinə, qondarma tarixlərindən hətta soyad sonluqlarınacan hər millətdən bir şey oğurlayan talançı ermənilər bildiyim qədər Stepan adını da ruslardan əkişdiriblər. Təəssüf ki, adını Stepan qoyduqları neçə nəfər erməni də tarixə qara iz salan vəhşi quldur, islaholunmaz qatil və terrorçu olub. Heyif, o Stepan adından ki, ruslarla yanaşı bu rəzillər də daşıyırlar...

İnstitut rektorluğu hər üç erməni tələbəni qovulmaq təhlükəsi barədə məlumatlandırıbmış, valideynlərinin gəlməsi tələb edilibmiş. Üçlük içlərində ən üzüyola olan Stepana anasını bura çağırmağı həvalə edibmiş. Qadın da gəlib instituta yollanmış, məsələdən agah olanda əsl stress keçirmişdi, indi də evdə az qala oğlunu boğub öldürmək həddində idi.

Rusca sözlərin qol-qabırğasını qıra-qıra mənə məsələni nəql edir, şikayətlənirdi, bir yandan koronavirusun, digər tərəfdən başlanan müharibənin onsuz da ağır durumda olan, yeməyə çörək tapmayan erməni kəndlisinə vurduğu zərbələrdən söz açır, yeganə ümidini oğlunun alacağı diploma, yaxşı yerdə işləyib evə qazanc gətirəcəyinə bağladığı halda oğlunun bu nankorluğunun ona vurduğu zərbənin miqyasını göstərmək istəyir, yolpulu etmək üçün iki iri donuzu aparıb Razdan bazarında satmasını göz yaşları ilə nəql edirdi. Sonradan qadın hətta ağını çıxarıb uşaqlara nəzarət etmədiyim üçün məni danladı da. İşə bir bax. Demə, mən evimdə qalan bu uşaqların təlim-tərbiyəsinə də cavabdeh olmalı imişəm. Ay səni, erməni məntiqi. Harda varsansa, orda özünü düz, digərlərini səhv çıxarmağa xidmət edirsən.

Qadına övladının dərsdən soyuması səbəbini dərhal dedim. O qorxurdu ki, uşaq yəqin narkomanlığa meyl edib, yaxud mafiyaya qoşulub, pozğunluq edir, bəlkə lap cinayətkarlığacan gedib yuvarlanıb. Biləndə ki, təhsilini risk altında qoyub, diplom almasına təhlükə yaradıb kitab yazır, azacıq toxtadı. Hətta oğlunun vətən yolunda nəsə faydalı bir iş gördüyünə inanıb kövrəldi də. Bu yerdə mən qəzəblənib ona bu kitabyazmanın o düşündüyü pozğunluqlardan,

cinayətlərdən belə daha rəzil olmasını xırdaladım. Acığa da düşüb onlara səs salıb mənim rahatlığımı pozmamağı tapşıraraq otağıma keçdim.

Həmin axşam saxta tarixçilər 1918-ci ildə dədə-babalarının Bakıda törətdikləri qırğına işıq salacaqdılar. Lampasız elektrik çılçırağı, fitilsiz neft lampası, tətiksiz şam, içi boş kibrit qutusu. Bunların tarixə işıqsaçma yolları bunlardan keçir əslində.

* * *

"**13-cü bölmə.** 1918-ci il Bakıda və Azərbaycanın digər bölgələrində bolşevik-daşnak birləşmələrinin törətdikləri qəhrəmanlıqlar azərbaycanlıları sarsıtmışdı, əzmişdi, yerlə bir etmişdi. Tarixi mənbələr necə də ilhamvericidir. İlham almaq istəyirsiniz? Onda getdik!

Düşmənlərimiz bu faktları araşdırmaq üçün Yelizavetpolda Azərbaycan Xalq Cumhuriyyəti adlı hökumətləri tərəfindən Fövqəladə Təhqiqat Komissiyası yaratmışdılar. Komissiyanın üzvü, qeyri-müsəlman Aleksandr Kluqenin hasabatına baxaq: "1918-ci ilin martında Bakının müsəlman hissəsini talayan erməni əsgərlərinin başında tüfənglə və tapança ilə silahlanaraq dayanan aşağıdakı şəxslərin iştirakı təsdiqlənmişdir: Artyom Nikolayeviç Ter-Akopov, Stepan Lalayev, Jorj Melikov və Asatur Vaçyants!"

Bu nə deməkdir? Bu o deməkdir ki, Bakı qırğınları erməni xalqının növbəti qəhrəmanlarını – bax, bu şəxsləri yetişdirib. Var olsun qəhrəmanlarımız! Amma mart qırğınları tək Bakıyla da bitmir, Azərbaycanın bir çox bölgələrində də davam etdirilib. Qırğın martın 31-dən aprelin 2-si gecədən xeyli keçənədək davam edib. Təkcə Bakıda 12000-dən çox azərbaycanlı öldürülüb. Bolşevik-daşnak birləşmələri Şamaxı, Quba, Kürdəmir, Salyan və Lənkəran qəzalarında da soyqırımını davam etdiriblər. S.Lalayans və T.Əmirovun daşnak dəstələri aprelin 3-16-da Şamaxı əhalisinə qanlı divan tutublar, 8000-dən artıq azərbaycanlı əhalini öldürüblər. 72 kəndi dağıdıblar. Hamazaspın rəhbərlik etdiyi daşnak dəstələri isə Quba qəzasının 162 kəndini yandırıblar. 16000-dən çox müsəlman öldürüblər. Bu

soyqırımı zamanı ümumilikdə şücaətli erməni əsgərləri 50000-ə qədər azərbaycanlını qətlə yetiriblər.

Bəli, bizim ermənilərin Birinci Dünya müharibəsi dövründə Şərqi Anadoluda müstəqil erməni dövləti yaratmaq niyyətləri baş tutmadıqdan sonra rus qoşunlarının Türkiyə torpaqlarından geri çəkilməsi yekunlaşmışdı, indi yeganə ümid Cənubi Qafqazda erməni dövləti yaratmağa qalmışdı. Rusiyada 1917-ci il oktyabr çevrilişindən sonra rus qoşunlarının tərkibində Qafqaz cəbhəsində Türkiyəyə qarşı vuruşan bizim erməni əsgər və zabitləri əllərində silah Cənubi Qafqaza qayıtmışdılar. 1918-ci il fevralın 12-də Osmanlı İmperiyası Vanda silahlı üsyanla hakimiyyəti ələ almaq səviyyəsinədək çatan üsyanımızı həzm edə bilməyib əks-hücuma keçmişdi. Andranikin, Hamazaspın, Njdenin və Dronun fədai dəstələri türk qoşunlarının önündən geri çəkildikcə müsəlman yaşayış məntəqələrini talan edir, əhalisini soyqırımına məruz qoyurdular. Onların da gedib çıxdıqları son məntəqələri azərbaycanlılar yaşayan Qafqaz əraziləri olmuşdu. Üstəlik, Şərqi Anadolu ərazilərindən həmin dövrdə 260 minə yaxın qaçqınlarımız da Cənubi Qafqaza gəlmişdilər.

Bakı qırğınının başlamasında erməni siyasi hiyləgərliyi, düzü, bizləri valeh edir.

Bizim siyasətçilərimiz ermənilərimizin Styopanın komandanlığı altında bolşevik sıralarında müsəlmanlara qarşı vuruşub onları qıracağını planladığı halda müsəlman liderlərinə də başqa moizələr oxumuş, onların sadəlövhlüyündən istifadə edərək başlarının altlarına yastıq qoymuşlar.

Martın 18-də keçmiş şəhər rəisi ermənimiz Qaik müsəlmanların iclası keçirilən "İslamiyyə" binasına gələrək Erməni milli şurası və "Daşnaksutyun" partiyasının adından bildirmişdi ki, müsəlmanlar bolşeviklərin əleyhinə çıxsalar, onda erməni qoşun hissələri müsəlmanlara qoşular və bolşevikləri Bakıdan qovub çıxarmaqda onlara kömək edər.

Erməni milli şurasının başqa bir nümayəndəsi Ter Zaxaryan isə həmin gün Müsəlman Milli Şurası və "Müsavat" partiyasının binası-

na gələrək müsəlmanlara demişdi ki, daşnaklar müsavatçılarla birlikdə bolşeviklərin əleyhinə çıxmaq üçün məsləhətləşmək istəyirlər, bu mübarizə siyasi əqidələr üstündə mübarizədir, müsəlman və erməni milli şuraları birlikdə çıxış etmək üçün sazişə gələ bilərlər.

Burada bizim erməni siyasətinin həm də ikibaşlı oyunu özünü göstərirdi. Daşnaklar Şaumyan baççılıq etsə belə, yenə də bolşevik hakimiyyətinə çox da bel bağlamırdılar, fürsət düşərsə bolşeviklərin çiynində deyil, öz gücləri ilə Bakıda hakimiyyəti zəbt etmək kimi B planını da gündəmdə saxlayırdılar. Buna görə də "ümumi düşmənə", yəni bolşevik hakimiyyətinə qarşı birgə çıxış müqabilində onlar müsəlmanlar qarşısında belə bir şərt irəli sürürdülər: Erməni milli şurasının da, daşnakların da başlıca şərti bundan ibarət idi ki, bolşeviklər qovulduqdan sonra Bakıda birgə müsavat-daşnak hökuməti yaradılsın.

Amma müsavatçılar Bakının idarə olunmasında ermənilərin də tam səlahiyyətli olduğunu rəsmi qaydada təsdiq etməklə razılaşmadılar. Müsavatçıların qəti mövqeyi ilə rastlaşan bizimkilər əsla ruhdan düşmədilər. Bizim millətin həmişə A-dan başqa nəinki B, hətta C, D planları da olur. Belədə bizimkilər yeni bir təklif irəli sürdülər. Həmin təklifin mahiyyəti bundan ibarət idi ki, müsavatçılarla bolşeviklər arasında vuruşma başlanacağı təqdirdə daşnaklar bitərəf qalacaqlar və guya rəğbət bəslədikləri azərbaycanlılara silah verməklə yardım göstərəcəklər. Əslində isə, bizimkilər dinc yolla hakimiyyətə gəlməyəcəklərini anlayıb müsavatçılarla bolşevikləri toqquşdurmaq, müsavat hərbi hissələrini Bakı Soveti qoşunlarının əli ilə tərksilah etmək, dinc müsəlman əhalisinə divan tutmaq planını seçmək qərarı vermişdilər.

Planı həyata keçirmək məqsədi ilə tarixdə "Evelina münaqişəsi" adını almış münaqişə törədildi. Azərbaycanın neft milyonçusu Hacı Zeynalabdin Tağıyevin Lənkəranda xidmət edən oğlu Məhəmməd Tağıyev təsadüfən öz əlindəki silahdan açılan atəş nəticəsində həlak olmuş, "vəhşi diviziya" adlanan müsəlman alayının zabitləri onun dəfnində iştirak etmək üçün Lənkərandan Bakıya gəlmişdilər. Dəfn

mərasimindən sonra zabitlər "Evelina" gəmisi ilə Lənkərana qayıtmalı idilər. Əlverişli məqamın yetişdiyini görən liderlərimiz gizli şəkildə Rus Milli Şurası, Xəzər matrosları, eser və menşevik partiyaları arasında belə bir şayiə yaydılar ki, guya "Evelina" ilə gedən zabitlər Lənkəranda olan müsəlman hərbi dəstələri ilə birlikdə Muğandakı rus-molokan kəndlərini məhv etmək tapşırığı almışlar. Möhtəşəm bir gediş idi! Bu təxribat xarakterli şayiə öz nəticəsini verdi, Bakıda olan bütün qeyri-azərbaycanlı siyasi və hərbi qüvvələr "Evelina" gəmisinin tərk-silah edilməsinə tərəfdar oldu. Təcili şəkildə, martın 30-da "Evelina"nın Lənkərana yola düşməsi dayandırıldı və gəmidəki zabitlər tərksilah edildi. Təbii ki, bu, Bakının müsəlman əhalisinin qüruruna toxundu, onlar məscidlərə toplaşaraq yığıncaqlar təşkil etdilər, silahların qaytarılmasını tələb etdilər. Vəziyyətin ciddi xarakter aldığını görən Azərbaycanın milli təşkilatlarının nümayəndələri İnqilabi Komitəyə gəlib alınmış silahları "Hümmət" müsəlman bolşevik komitəsi vasitəsilə qaytarmağa cəhd göstərdilər.

Martın 30-da əvvəlki hissədə adını çəkdiyimiz Nəriman Nərimanovun evində Styopa ilə keçirilən görüşlərdə müəyyən razılıq əldə edilməsinə, silahların qaytarılmasına vəd verildi, amma bolşevik-daşnak koalisiyası sözünə əməl etmədi, çünki başlanan işi müvəffəqiyyətlə başa çatdırmaq lazım idi.

Elə Styopa Nərimanovla danışan müddətdə Qızıl Ordunun süvari dəstəsinin Şamaxı küçəsində təxribat nəticəsində güllələbaran edilməsi barədə xəbər gəldi. Styopa əsəbi halda dərhal insidentə görə azərbaycanlıları günahlandırdı, halbuki insidentin səbəbkarları əsla müəyyənləşdirilməmişdi, beləcə danışıqlar kəsildi, hərbi əməliyyat başladı.

Sonradan dahi Styopa etiraf edəcəkdi ki, "Bu göydəndüşmə insident xəbəri Müsavat başda olmaqla müxalifəti məhv etməyə əsl bəhanə oldu. Bütün cəbhə boyu hücuma keçdik. Tiflisdən – Sarıqamışdan "Qafqaz Ordusu" hərbi-inqilabi komitə köməyimizə yetdi, silahlılarımızın sayı 6 min nəfərə çatdı. "Daşnaksutyun"da da bizim tərəfimizdə olan 3-4 min milli silahlı var idi. Düzdür, ikincilərin mü-

daxiləsi konfliktə vətəndaş müharibəsi xarakteri gətirdi, milli zəmində qətliama səbəb oldu, amma bunsuz keçinmək mümkün deyildi. Kasıb müsəlmanlar çox ciddi zərbə aldılar, amma indi artıq onlar bolşeviklərin ətrafında birləşməyə başlayıblar.”

Həmin saatdan etibarən Bakı Soveti ilə daşnak silahlıları birgə müsəlman məhəllələrinə hücuma keçdilər. Bu məhəllələrin bombalanması üçün aeroplanlardan istifadə olunurdu, Xəzər donanmasının iki gəmisi isə sahildən bu məhəllələri atəşə tuturdu. Ələ keçirilən müsəlman məhəllələrində talan və zorakılıq baş alıb gedirdi, müsəlman sakinlər, o cümlədən qadınlar və uşaqlar öldürülürdü. Zəif silahlanmış müsəlman dəstələri heç bir müqavimət göstərə bilmirdi, barışıq xahiş edirdi.

Bakı Sovetinin yaratdığı İnqilabi Müdafiə Komitəsi Müsavata ultimatim yolladı, ultimatum 3 bənddən ibarət idi:

**1.** Bakı Sovetinin hakimiyyətini müsəlman komitələri və “Müsavat“ partiyası olaraq qeyd-şərtsiz qəbul etmək, onun bütün əmrlərini sözsüz icra etmək;

**2.** Bakı ərazisindən azərbaycanlıların “vəhşi diviziyası”nın dərhal çıxarılması;

**3.** Bakı-Tiflis, Bakı-Petrovsk dəmir yolunun açılması, qatarların rahat irəliləməsinə təminat.

Martın 31-də Müsavat rəhbərliyi bütün şərtlərlə razılaşdığını bildirdi, ertəsi gün, aprelin 1-də bütün müsəlman evlərindən ağ bayraqlar asıldı. Amma buna baxmayaraq bizim daşnaklar planlarını həyat keçirməklə talan və qətliamı davam etdirdilər. Rəsmi mənbələrə görə, azərbaycanlıların qətliamı 5 aprelə, köhnə təqvimlə 24 marta kimi davam etdi.

1918-ci ilin həmin 30 mart günündə – saat 16.40-da Bakıdakı erməni kilsəsinin yanında toplaşan daşnak dəstələri müsəlmanlara ilk atəş açdılar və soyqırıma başladılar. Martın 31-də səhər tezdən bolşevik-daşnak dəstələri azərbaycanlılar yaşayan “Kərpicxana”, “Məmmədli” və digər Azərbaycan məhəllələrinə hücum etdilər. Styopanın xahişi və Leninin xüsusi göstərişi ilə Rusiyanın Tsaritsın

şəhərindən göndərilən iki təyyarə havadan, hərbi gəmilər isə dənizdən şəhərin azərbaycanlılar yaşayan məhəllələrini bombalamağa başladılar. Erməni neft sənayeçilərinin barjlarında qoyulmuş toplardan Abşeronun şimalındakı kəndlər də atəşə tutuldu. Martın 31-də səhərə yaxın bütün erməni hərbi dəstələrinin başçıları və silahlanmış erməni ziyalıları İnqilabi Müdafiə Komitəsinin qərargahına gəldilər. Onlar qısa vaxtda təlimatlandırılaraq müsəlman məhəllələrinə göndərildilər. Yaxşı silahlanmış və hazırlanmış erməni əsgərləri müsəlmanların evlərinə soxulur, sakinləri öldürür, onları xəncər və süngü ilə doğrayır, uşaqları yanan evlərin içinə atır, körpə uşaqları süngülərin ucuna keçirirdilər. Xüsusən onlar müsəlman qadınlarını daha ağır formada qətlə yetirirdilər. Şəhərin təkcə bir yerində – Zibillidərə deyilən yerdə qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 50-dən artıq müsəlman qadının meyiti tapılmışdı. Bir neçə gənc qadını diri-diri divara mıxlamışdılar.

Qaçıb canını qurtarmağa çalışan əhalini güllələbaran etmək üçün şəhərin müvafiq yerlərində əvvəlcədən pulemyotlar da qoyulmuşdu.

Dəhşətli soyqırımına məruz qalan azərbaycanlılar martın 31-də müqaviməti dayandırdılar. Lakin bizim fədailər soyqırımını aprelin 2-si gecədən xeyli keçənədək davam etdirdilər. Heyif ki, Şaumyana digər bolşevik rəhbəri Caparidze mane oldu. Bu gürcü nadan dərhal qətliam dayandırılmasa bolşevik ordusunun erməniləri tərksilah edəcəyini bildirdi, işimizi son müsəlman qırılanadək davam etdirməyə qoymadı.

Rəsmi məlumatlara görə, mart soyqırımı nəticəsində Bakıda 12 000-dən çox azərbaycanlı qətlə yetirilmişdir, "Kaspi" mətbəəsi, "Açıq söz" qəzetinin redaksiyası, "İsmailiyyə" binası yandırılmışdır, "Təzəpir" məscidinin minarələri top atəşi ilə zədələnmişdir.

Styopa təsadüfi deyildi ki, mart hadisələrini Zaqafqaziyadakı sovet hakimiyyətinin triumfu hesab edərək söyləmişdi: "Döyüş nəticələri bizimçün möhtəşəm oldu. Müsəlman millətçi partiyalarına görə Bakıda sovet hakimiyyəti həmişə havadan asılı qalmışdı. Bu

bəy-xan partiyaları və ziyalılar qorxaq menşeviklərin sayəsində Yelizavetpolda və Tiflisdə möhkəmləndikləri halda Bakıda da aqressivləşmişdilər, bizim üzərimizə də hücuma keçirdilər. Zaqafqaziyanın taleyi həll olunurdu. Onlar Bakını da tutub Azərbaycanın paytaxtı elan etmək istəyirdilər. Məqsədləri bütün qeyri-müsəlmanları məhv etmək idi. Amma biz onların niyyətlərini gözlərində qoyduq. Düşmən tamamilə məhv edildi.”

Əziz ermənilərimiz, Bakıdakı Britaniya vitse-konsulu mayor MakDonnelin yazdığına diqqət edin, şərəflənin. O yazırdı: “Bakıda qırğın elə bir miqyasa çatmışdı ki, dilənçi və səfilləri çıxmaq şərti ilə bircə normal müsəlman qalmamışdı”.

1918-ci ildə fədailərimizin Bakıda müsəlmanlara qan uddurması tariximizin ən şərəfli səhifələrindəndir. Bu səhifələr qızıl hərflərlə yazılıb. Həmin tarixi Ermənistan rəsmən niyə də bayram etməsin? Müəlliflər olaraq Ermənistanın mövcud rəhbərliyindən tələb edirik ki, hər il mart ayının 31-nin erməni xalqının zəfər günü kimi qeyd edilməsi, təqvimə qırmızı hərflərlə yazılması barədə qanun imzalasınlar. Özü də dərhal!”

Kirayənişinlərim məni növbəti dəfə sarsıtdılar. Bu dərəcədə qana susamaq, cinayətlərdən, xüsusən uşaqların, qadınların işgəncələrlə, qəddarlıqlarla qətlə yetirilmələrindən vəcdə gəlmək insanlığa necə yaraşa bilər axı?

“Nikolay küçəsilə hücuma keçmiş erməni əsgərlərinə başlıca olaraq erməni ziyalılarının nümayəndələri rəhbərlik ediblər. Belə dəstələrdən biri evə girib, səkkiz qadın və uşağı güllələmişdir. Başqa dəstə Fars küçəsində Bala Əhməd Muxtarovun evinə girərək doqquz müsəlmanı küçəyə çıxarmış və kilsə meydanında güllələmiş, meyitlərin ikisini “Dağıstan” mehmanxanasının alovu içinə atmışdır...”

Hər sətrindən amansızlıqdan törənmiş inilti, sızıltı yağan bu sətirlər bilirsiniz haradandır? 1918-ci il iyunun 15-də yeni elan olunmuş Azərbaycan Xalq Cumhuriyyəti Zaqafqaziyada bolşevik-daşnak cütlüyünün törətdiyi qətliamların istintaqını həyata keçirmək üçün Fövqəladə Təhqiqat Komissiyası yaratmışdı. 1919-cu ilin avqustun-

da toplanan materiallar 36 cild – 3500 səhifəyə bərabər idi. Təkcə 6 cild – tam 740 səhifə Bakının müsəlman əhalisinə qarşı törədilmiş zorakılıq aktlarından ibarət idi. Burada çox sayda müsəlman və qeyri-müsəlman insanın şahid ifadələri yer almışdı. Yuxarıdakı ifadələr də komissyanın materialları arasındandır.

Komissiya əvvəl Xarici İşlər, sonra Ədliyyə Nazirliyi yanında fəaliyyət göstərmişdir, sədri Ələkbər bəy Xasməmmədov idi. 7 nəfərlik tərkibdə təsis edilmiş komissiyanın işinə sonradan Bakı və Gəncə şəhərlərinin istintaq-prokurorluq və məhkəmə orqanlarının nümayəndələri cəlb edilmişlər, tərkib çoxmillətli olmaqla, əsasən polyak, rus, alman, litvalı, tatar və Rusiya universitetlərinin məzunları olan azərbaycanlılardan – peşəkar hüquqşünaslardan ibarət idi. Fəaliyyət göstərdiyi dövr ərzində – 15 iyul 1918-ci ildən 1 noyabr 1919-cu il ilədək komissiya tərəfindən, yuxarıda qeyd etdiyim kimi 36 cilddən ibarət istintaq materialı toplanmışdır ki, onun da 6 cildi ermənilər tərəfindən Bakı şəhəri və onun ətrafında müsəlman əhalisinə qarşı törədilmiş zorakılıq hallarını əks etdirirdi. İstintaq materialının digər cildlərində Şamaxı, Quba, Göyçay, Cavad, Nuxa qəzalarında, Gəncədə, Qarabağda, Zəngəzurda ermənilər tərəfindən törədilmiş amansız cinayətlər təhqiq edilirdi.

Komissiya artıq 1918-ci ilin sentyabr-oktyabrından geniş təhqiqat işlərinə başlamışdı. Komissiyanın üzvü, milliyyətcə rus Mixaylov 1918-ci il oktyabrın 26-da həmin ilin sentyabrın 22-dən oktyabrın 23-nə qədər olan müddətdə Göyçay qəzasında aparılan təhqiqat işləri haqqında məlumat vermişdi. Məlumata görə, göstərilən müddət ərzində 500 nəfərdən çox şahid dindirilmiş, Kürdəmir dəmir yolu vağzalına və Kürdəmir polis sahəsinə aid 7 kəndə baxış keçirilmişdir.

1918-ci il noyabrın 22-də komissiyanın sədri Ə.Xasməmmədov Azərbaycan Xalq Cümhuriyyətinin ədliyyə nazirliyinə göndərdiyi məruzələrdə Bakı quberniyası, Göyçay qəzasının Kürdəmir, Qarabucaq, Ərəb Mehdibəy kəndlərində, Şamaxı şəhəri və Şamaxı qəzasının müsəlman kəndlərində, habelə Bakı şəhərində azərbaycanlıla-

ra qarşı törədilmiş zorakılıqların təhqiqinin ilkin vəziyyəti haqqında ətraflı məlumat verirdi.

1919-cu il yanvarın 6-da Fövqəladə Təhqiqat Komissiyasının sədri Ə.Xasməmmədov Paris sülh konfransına gedən nümayəndə heyətinə təqdim etmək üçün Bakı, Quba və Şamaxı şəhərlərində, Şamaxı, Göyçay, Cavad, Quba qəzalarında ermənilər tərəfindən müsəlmanlara qarşı törədilmiş vəhşilikləri əyani şəkildə sübut edən məlumatları məktubla birlikdə xarici işlər nazirinə göndərmişdi. Məlumatda göstərilirdi ki, Lənkəran qəzasında daşnak polkovnik Avetisovun silahlı quldur dəstələri tərəfindən, Cavad qəzasının bir hissəsində, həmçinin İrəvan quberniyasında, Gəncə quberniyasının 4 qəzasında – Cavanşir, Cəbrayıl, Şuşa və Zəngəzurda böyük dağıntılar törədilmiş, azərbaycanlı əhali ucdantutma məhv edilmişdir. Komissiya xaricə göndərilən nümayəndə heyəti üçün əşyayi-dəlil kimi altı cilddən ibarət ilkin təhqiqat materialı və 95 ədəd fotoşəkil də hazırlamışdı.

1919-cu il yanvarın 16-da komissiya Gəncə quberniyasının Ərəş və Nuxa qəzaları, Quba şəhəri, Quba qəzası kəndlərində ermənilərin törətdiyi soyqırımları, qətl-qarətlər və digər zorakılıq hərəkətləri haqqında təhqiqat materialları əsasında ətraflı məruzələr hazırlamışdır. 1919 il avqustun 27-də komissiyanın üzvü Ç.B.Klossovski komissiyanın fəaliyyəti ilə əlaqədar tərtib etdiyi arayışda göstərirdi ki, toplanmış materiallar 36 cild və 3500 vərəqdən ibarətdir. Azərbaycanlılara qarşı törədilmiş cinayət hərəkətlərinin təşkilatçıları və iştirakçıları olan şəxslərə qarşı cinayət işi qaldırmaq haqqında 128 məruzə və qərar layihəsi hazırlanmış, 194 nəfər erməninin cinayət məsuliyyətinə cəlb edilməsi barədə məsələ qaldırılmışdı.

1919-cu il avqustun 23-də komissiyanın sədri Ə.Xasməmmədov ədliyyə nazirinə Bakı və Şamaxı şəhərlərində və Şamaxı qəzasında azərbaycanlılara qarşı törədilmiş vəhşiliklərdə müqəssir olan şəxslərin artıq məsuliyyətə cəlb edilməsi işinə başlanıldığını bildirərək qeyd edirdi ki, Bakı şəhərində hələlik 24, Şamaxı şəhəri və Şamaxı qəzasında isə 100 nəfərə yaxın müttəhim istintaqa cəlb olunmuşdur.

Azərbaycan Hökumətinin 21 mart 1919-cu il Qərarına görə komissiyanın səlahiyyətləri genişləndirilmiş və ona məhkəmə-istintaq hakimiyyətinin bütün hüquqları verilmişdi. Fəaliyyətinin yekunu olaraq 128 məruzə və qərar layihəsi hazırlanmış, onların əsasında müxtəlif cinayətlərdə müqəssir bilinən 194 erməniyə qarşı cinayət işi qaldırılmışdır.

Komissiya Azərbaycan Hökuməti tərəfindən onun üzərinə qoyulmuş vəzifəni yerinə yetirərək 1 noyabr 1919-cu il tarixdə rəsmi surətdə ləğv edilmişdir. Ə.Xasməmmədov 1920-ci il yanvarın sonuna qədər FTK-nın istintaq işlərini respublikanın prokuror və məhkəmə orqanlarına verilməsi ilə məşğul olmuşdur. Materiallar üzrə 1918-ci ildə Bakıda mart hadisələrinə görə 24, Şamaxı hadisələrinə görə isə 100-ə yaxın şəxs haqqında cinayət işi qaldırılmışdır. Müttəhimlərin bir hissəsi respublikanın hüquq-mühafizə orqanları tərəfindən həbs olunmuş, qalanları axtarışda elan edilmişlər.

Mən bütün bu faktları P.S.-imdə kirayənişinlərimin diqqətinə çatdıraraq onlara millətlərinin törətdiyi amansız qətliamın miqyasını tam olaraq izah etdim, sonda isə bu nadanlara törətdikləri vəhşiliyin müqabilində qarşı tərəfin inanılmaz reaksiyasını xatırlatdım.

Müttəfiq Dövlətlərin Ali Şurası tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin de-fakto tanınması ilə bağlı olaraq və Azərbaycan dövlətinin necə sülhpərvər, Azərbaycan xalqının necə humanist olmasını nümayiş etdirmək məqsədi ilə Azərbaycan Parlamenti tərəfindən 9 fevral 1920-ci il tarixdə qəbul edilmiş Amnistiya haqqında qanuna əsasən milli düşmənçilik zəminində baş vermiş və "Fövqəladə Təhqiqat Komissiyasının icraatında yaranmış" bütün bu cinayət işlərinə xitam verilmişdir.

Bəli, bəli, məhz xitam verilmişdir.

Şəxsən bu addımının qarşısında Azərbaycan xalqının qarşısında mən baş əyirəm. Bir xalqa sevgi, digərinə nifrət məhz bu yerdə qaynaqlanır.

Birinin "şərəf tarixi"nin əslində necə bir şərəfsizlik tarixi olmasına məgər bundan da gözəl sübut tapmaq mümkündürmü?

## İyirmi səkkizinci hissə

## ŞAMAXI QIRĞINI

Fövqəladə iş görən, xalqlarının "şərəf tarixi"ni yazan erməni tələbələr aldıqları ilk zərbədən bilmirəm nə dərəcədə sarsılmışdılar, amma həmin axşam çox fikirli və qəmgin görünürdülər. Stepanın bir gecə evimdə qalmış anasını Ermənistana yola salıb öz otaqlarında mısıb oturmuşdular. Aldıqları zərbə isə içlərinin ən radikalı olan, kitabyazma təşəbbüskarı Qaqikin institutdan qovulması idi. Digər iki kirayənişinimdən fərqli olaraq bu adam rektoratlıqdan üzr istəmək, təlim-tərbiyə sahəsində daha axsamayacağını bildirib möhlət almaq əvəzinə kəskin bəyanat vermiş, 1977-ci ildə Sovet məhkəməsi qarşısında ittiham nitqi söyləyən terrorçu Stepan Zatikyanı nümunə gətirərək məhz onun kimi biz rusları ermənilərin müstəqilliklərinin düşməni adlandırmışdı.

Bunlar xəstədirlər, vallah, billah, bunlar xəstədirlər.

Kitablarının növbəti hissəsini isə daha əzmlə, daha qətiyyətlə gecəyarı yazmağa başladılar. Bunlar 1918-ci ildə Bakıda dinc əhalini süngüdən keçirən qatil dədə-babalarının bu dəfə eyni ssenarini Şamaxıda təkrarlamalarından vəcdə gəlmişdilər.

* * *

"**14-cü bölmə.** Bakı zəfərindən sonra bizim liderlərimiz müvəffəqiyyəti davam etdirməklə bütün Azərbaycanda yerli azərbaycanlıları məhv etmək, hər yerdə erməni dövləti üçün plasdarm qurmaq yolunu tutdu, bu yöndə ən vacib addım isə bolşevikləşdirmə adı altında Şamaxıda və Qubada qırğınlar təşkil etmək oldu. Getdik e!

Bu iki məkanın seçilməsi fərqli anlamlar daşıyırdı. Şamaxı çox sayda erməninin yaşadığı üçün azərbaycansızlaşdırılmalıydı. Quba-

da isə ermənilərimiz kütləvi məskunlaşmamışdılar, şimalda yerləşən bu məkan bizim liderlərimizə strateji baxımdan lazım idi, ora Rusiyaya açılan qapıydı. Tarixi faktlar aydın göstərir ki, ermənilərimiz bu qırğını həyata keçirmək üçün əvvəlcədən möhkəm hazırlaşmışdılar. Styopa şəxsən bir əlində xəritə, digərində şəhərlərin planı əməliyyatın başında dayanmışdı.

Öncə Şamaxıdan başlayaq. Şamaxı yürüşünün başına Styopa öz müavini Atabekovu qoymuşdu. Atabekov məhz Styopanın yaxından köməyi və məsləhəti ilə Şamaxı qəza rəisinin köməkçiləri rus Serebryakov və erməni Gülbəndov ilə əlaqə saxlamış, qısa müddət ərzində bu regionda bütün erməni əhalisini qabaqcadan silahlandırmışdı. Cəmi bir həftə ərzində Bakıdan göndərilən xeyli silah, pulemyot və topla təchiz olunmuş erməni kəndləri mərkəzdən veriləcək əmri gözləyirdilər. Bizim liderlər həyata keçirəcəkləri qırğında tək erməni kəndlilərinə arxalanmırdılar, orada yaşayan molokanlar da bəzən dilə tutularaq, bəzən qorxudularaq tərəfimizə çəkdirilmişdilər. Qırğının təşkilati mərkəzi isə Mədrəsə kəndiydi. Bakıdan, habelə Ermənistanın müxtəlif nahiyələrindən kəndə xeyli silahlı dəstə gətirilmişdi.

Təbii ki, bizim ermənilərin silahlanmasından yerli azərbaycanlılar duyuq düşdülər, məsləhətləşib öz aralarından nümayəndə heyəti təşkil edib Mədrəsəyə yolladılar. Bakıda olduğu kimi burda da biz öz erməni hiyləgərliyimizi ortaya qoyub onları aldatdıq. Onları arxayın etdik ki, guya yerli Azərbaycan əhalisi ilə heç bir işimiz olmayacaqdır, xarici təcavüz gözlənilir, məqsəd onu dəf etməkdir. Riyakarlıqdan uzaq olan sadəlövh azərbaycanlılar bizimkilərin bu vədlərinə inandılar. Tam hazır olandan sonra bizimkilər əməliyyatı qəfil başladılar. Şamaxı şəhəri şiddətli top atəşinə tutuldu. Axşamüstü isə silahlı dəstələrimiz müqaviməti yararaq şəhərə daxil oldular, əvvəlcədən nəzərdə tutulan qırğını həyata keçirdilər. Evlər yandırıldı, talan edildi, insanlar qətlə yetirildi. Heç bir silahı olmayan yerli əhali özünü müdafiə edə bilmədi.

Hadisənin üçüncü günü soyqırımı müvəqqəti olaraq dayandırıldı. Vahimə içində olan sağ qalmış şəhər əhalisi qorxudan küçəyə

belə çıxa bilmirdı. Bizim qəhrəmanlar özlərinin yerli hökumətini yaratdılar. Hökumət hamıya evdə oturmaq, küçəyə çıxmamaq barədə göstəriş verdi. Gözəl bir plan idi. Əhaliyə belə bir fikir təlqin edildi ki, küçəyə çıxmayanlara qarşı heç bir cəza tədbirləri görülməyəcəkdir. Küçələrdə ins-cins tam kəsiləndə, bizimkilər şəhərə tam sahib olanda isə salamat qalmış, yandırılmamış müsəlman evlərinə soxuldular, silah və hədə-qorxu gücünə soyğunçuluq etməyə başladılar. Onlar kişiləri “idarəyə aparırıq” adı ilə evdən çıxarıb kütləvi şəkildə öldürdülər.

Şamaxı qırğınının sədası tezliklə hər tərəfə yayıldı. Gəncədən müsəlmanların silahlı dəstələri bura göndərildi, onlar gələnə qədər bizimkilər fürsəti fövtə verməyib sonadək qırğını davam etdirdlıər, mənfur düşmənin Gəncədən köməyə gələn silahlı dəstələri Şamaxıya girəndə isə şəhəri tərk etdilər. Amma biz axı yenilməzik. Styopa bu işi belə qoymadı. Müsəlmanlar küçələrdə qalaqlanan meyidlərini dəfn eləməyə macal tapmamış Bakıdan gələn əlavə bolşevik-erməni silahlı dəstələrinin təzyiqi altında Gəncə silahlıları şəhəri tərk etməyə məcbur oldular, Şamaxı yenə də bizim ermənilərin əlində qaldı.

Bir neçə gün sonra isə bizim cəsur fədailər Şamaxını ikinci dəfə qan ocağına çevirdilər. Bu dəfə müsəlmanları sadəcə öldürməklə kifayətlənməyib başlarına min bir oyun açmaları bizim fədailərin həm də gözəl fantaziyalar yiyəsi olmalarından xəbər verir. Onlar qadınların və kişilərin cinsiyyət orqanlarını kəsir, insanın belinə qaynayan samovar şələləyib onu qaçmağa məcbur edir, körpə uşaqları yüzlük mismarla yerə mıxlayırdılar. Şəhərin din xadimləri də yaxşıca cəza almışdılar. Məsələn, şəhərin axundunun əvvəlcə dilini, qulaqlarını, burnunu kəsmiş, sonra isə fədailərimiz başının dərisini soymuşdular.

Şamaxı qırğınının başında duran komandanlarımız isə Stepan Lalayev, Samson Aspirov və Aşot Saatsazbəyov olmuşdur. Xüsusən əslən elə Şamaxıdan olan Styopa Lalayev xarüqələr yaratmış, böyük həzzlə müsəlmanların qanlarını axıtmışdır. Stepan Şaumyan erməni qəhrəmanlıq tarixində Birinci Styopa kimi qalacaqsa Stepan Lalayev də İkinci Styopa kimi qalacaq, bu şəksizdir.

İkinci Styopa Şamaxı əhalisinin əlindən çox yanıqlı idi. 1905-ci ildə Çarizm tərəfindən törədilmiş erməni-müsəlman qırğını zamanı onun atası və əmisi müsəlmanlar tərəfindən öldürülmüşdü. Həmin dövrdə ermənilərə dəyən başqa bir zərbə isə Şamaxı müsəlmanlarının basqısı nəticəsində bizim erməni Atabekyanın şəhər komissarı vəzifəsindən çıxarılması olmuşdu. İkinci Styopa bu tarixi faktı yaddan çıxarmazdı axı, əllinə düşən fürsəti niyə fötə versin? Şamaxı əhalisindən layiqincə qisas almaq işində minlərlə insanın xüsusi amansızlıqla qətlə yetirilməsi dayanmışdı gündəmdə.

Yerli Şamaxı ermənilərinin başında isə mülkədar Gülbəndov dayanırdı.

Çox gözəl bir qəhrəmanlıq epizodu isə şəhər məscidini almağımız oldu. İkinci Styopa Gülbəndova öz dəstəsiylə məscidi mühasirəyə almağı tapşırdı. İkinci Styopada dəqiq məlumat var idi ki, fağır müsəlman əhli, xüsusən onların qoca, qadın və uşaq qismi qırğından salamat qurtarmaq üçün Allahın evinə pənah aparıblar. İkinci Styopanın Gülbəndova növbəti əmri məscidi yandırmaq, çıxanlara aman vermədən güllə ilə öldürmək oldu. Məscidə toplanmış, ümidlərini Allahın dərgahına bağlayan yüzlərlə müsəlman qaçıb canlarını xilas edə bilmədən nəhəng alov dilimlərinin qurbanı oldular, diri-diri yandırıldılar. Qaçmaq istəyənlər isə dərhal pulemyotlarla güllələndilər.

İkinci Styopanın mənfur düşməndən daha bir qisas planı var idi. Onun əmri ilə fədailərimiz cavan və gözəl qadınları, qızları seçib onun Şamaxıdakı evinə aparırdılar. Burada onlara silah gücünə əvvəlcə spirtli içki içdirir, sonra soyunduraraq zurna musiqisi sədaları altında rəqs elətdirirdilər. Styopa və fədailər elə oradaca bu gözəlçələri zorlayır, bir qismini öldürür, bir qismini isə hündür eyvandan küçəyə atırdılar.

Əziz oxucularımız, tarixi faktlar göstərir ki, bu hadisələrdə Şamaxının kəndləri daha amansız soyqırımına məruz qalmışdır. Ərəbqədim kəndində fədailərimiz 200 nəfər kişi, 100 nəfər qadın, 78 nəfər uşaq, Dilman kəndində 300 nəfər kişi, 235 nəfər qadın, 50 nəfər

uşaq, Tağılı kəndində 360 nəfər kişi, 412 nəfər qadın, 152 nəfər uşaq öldürmüşlər. Bütövlükdə yalnız Şamaxının 58 kəndində 7000 nəfərdən çox azərbaycanlı məhv edilib.

Düşmənlərimiz İkinci Styopanın onlara necə qan uddurmasını, təbii ki, həzm edə bilmirdilər. Şamaxı hadisələrindən bir qədər sonra onların Fövqəladə Hərbi İstintaq Komissiyasının başçısı Kocemyako qırğından xilas olmuş şamaxılıların müraciətinə əsasən Bakıda İkinci Styopanı həbs etmək istəmişdir. Belə olduqda, qəhrəmanımız Kocemyakonu söymüş, elə onun yanından Birinci Styopaya zəng vurub ona hal-qəziyəni bildirmişdir. Bakı Xalq Komissarları Sovetinin sədri olaraq yüksək post tutan Birinci Styopa da elə oradaca Kocemyakonu telefona çağırıb demişdir: "Lalayevi həbs etmək yaxşı iş deyil, bu nə deməkdir?"

Beləcə, İkinci Styopa həbsdən qurtulmuş, öz mühafizəçiləri ilə birgə Bakı küçələrində azad və şən gəzərək düşmənlərə yanmışlıq vermişdir.

Bəli, 1918-ci ilin Şamaxı zəfəri erməni xalqının şərəf tarixində xüsusi yer tutur, bu şəksizdir".

* * *

Hər bir xalq öz liderləri ilə tanınır, bu aksiomdur. Erməni tələbələrin öz qəhrəmanları barədə yazdıqlarını gördükdən sonra ilk olaraq ağlımdan keçən bu oldu ki, bu binəvalara qəhrəmanlığın millətçilikdən deyil, ümumbəşərilikdən yoğrulduğunu başa salım. Necə yəni, bir xalqın bütün qəhrəmanları, bütün liderləri ancaq bir amala – hiylə, məkr, saxtakarlıq, qəddarlıq göstərməklə başqa xalqın torpaqlarını zəbt etmək, başqa xalqları müxtəlif məhrumiyyətlərə, hətta qətliamlara məruz qoymağa necə xidmət edə bilər axı?

Görün bir, bu anormallar nədən həzz alırlar. Yazdıqlarına diqqət edin: "Bir neçə gün sonra isə bizim cəsur fədailər Şamaxını ikinci dəfə qan ocağına çevirdilər. Bu dəfə müsəlmanları sadəcə öldürməklə kifayətlənməyib başlarına min bir oyun açmaları bizim fədailərin həm də gözəl fantaziyalar yiyəsi olmalarından xəbər verir.

Onlar qadınların və kişilərin cinsiyyət orqanlarını kəsir, insanın belinə qaynayan samovar şələləyib onu qaçmağa məcbur edir, körpə uşaqları yüzlük mismarla yerə mıxlayırdılar. Şəhərin din xadimləri də yaxşıca cəza almışdılar. Məsələn, şəhərin axundunun əvvəlcə dilini, qulaqlarını, burnunu kəsmiş, sonra isə fədailərimiz onun başının dərisini soymuşdular".

Məncə, hətta ən qəddar manyak belə törətdiyi cinayətdən ermənilər qədər ləzzət almayıb, almayacaq da. Bu, tək bu gənclərin fikri deyil, bu, ümumiləşmiş erməni millətçiliyinin fikridir.

Kitab yazan gənc dostlarım, onu bilin ki, erməni millətçilərinin üz tutduğu və sizin də getmək istədiyiniz bu yol düzgün yol deyil. Oxuyun, öyrənin, beyninizdəki qara-qura düşüncələri dağıdın, işıqlı fikirlərə can atın. Hara getdiyinizin fərqində olun. İnsanlar zülməti yox, günəşi seçirlər, kədəri yox sevinci, göz yaşını deyil qəhqəhəni üstün tuturlar. Onlara məhz bunları yaşadanları qəhrəman sayırlar. Bunu qulaqlarınızda sırğa edin!

## İyirmi doqquzuncu hissə

## MÜƏLLİFDƏN ZƏRURİ ƏLAVƏ

Şamaxı qırğını barədə hələ lap uşaq vaxtlarımda qocalardan çox şeylər eşitmişdim. Azərbaycanlılarla ermənilərin eyni ölkədə yaşaması, Bakıda şəxsən şahidi olduğum can bir qəlbdə qonşuluqları müqabilində belə bir şeyləri eşitmək adama inandırıcı gəlmirdi, sanki xəyal idi, yuxu idi.

Şamaxı hadisələri barədə çoxlu arxiv materialları ilə tanış olmuşam, ürək ağrısı ilə o günlərin acı reallığı barədə məlumatlanmışam. Ermənilərin törətdikləri vəhşiliklər o qədər dəhşətli olmuşdu ki, hətta o dövrdə bolşevik mətbuat orqanları belə baş vermiş bu faciələrə

öz münasibətlərini gizlədə bilməmişdi. Baş verənlər bir cümlə ilə ifadə olunmuşdu: “Dinc əhaliyə qarşı da bəzi haqsızlıqlar törədildi”. Göründüyü kimi, bolşevik mətbuatı olduqca böyük bir qətliama nisbətən kiçik miqyasda – minlərlə günahsız, dinc əhalinin vəhşicəsinə öldürülməsinə, evlərin yandırılmasına, işğal edilməsinə “bəzi haqsızlıq” aktı kimi yanaşmışdır, amma bunun özü belə bolşevizmin hər şeyi pərdələmək siyasəti müqabilində böyük iş idi. Həmin dövrdə “Azərbaycan” qəzeti isə bu fakta öz münasibətini bildirərək yazırdı: “Şamaxıda müsəlman əhalinin bütünlüklə qırğına məruz qalması, hamilə qadınların qarnının cırılması, ismətlərinin ayaqlar altına atılıb tapdanması, sonra isə diri-diri odda yandırılması kimi halların daşnak vəhşiliyinin “bəzi haqsızlığı” kimi qələmə verilməsi nə dərəcədə düzgündür?”

Hadisə hər bir kəsi, hətta Azərbaycan bolşeviklərini də sarsıtmışdı. Bolşevik hakimiyyətində təmsil olunan Nəriman Nərimanov 1918-ci ilin iyulunda ürək ağrısı ilə yazmışdı:” Mən Şaumyana məktubumda yazdım: “Siz Azərbaycan xalqına göstərməlisiniz ki, mart hadisələri bizim iradəmizlə, yəni Sovet hakimiyyətinin iradəsiylə baş verməyib, bu hadisələr xainlər və Sovet quruculuğunun düşmənləri tərəfindən törədilib.” Ancaq bədbəxtlikdən, mənim sözlərimə əhəmiyyət verilmədi”.

Nərimanov Şaumyana yazdığı həmin məktubunda digər bir azərbaycanlı bolşevik – Şaumyanın rəhbərlik etdiyi Bakı Kommunasında yer alan Məşədi Əzizbəyovun Şamaxı qırğınını eşidən kimi dərhal ora getməsini və dəhşətli faciələri öz gözləri ilə gördüyünü də təsvir etmişdi: “Şamaxıdan qayıdandan sonra mənim əziz yoldaşım M.Əzizbəyov göz yaşı içində şahidi olduğu faciəni mənə danışdı. T.Əmirovun və S.Lalayevin əvvəllər Bakıda olan silahlı dəstələri yaşına və cinsinə məhəl qoymadan bütün azərbaycanlıları öldürdülər. Onlar hələ dünyada görünməmiş bir cinayət törətdilər, uşaqları süngü və qılıncdan keçirdilər, adamları məscidə toplayıb kerosin tökərək yandırırdılar. Mənim üçün aydın oldu ki, Bakıda Sovet hakimiyyəti daşnaklardan asılıdır. Bu da aydındır ki, erməni bandala-

rı tərəfindən azərbaycanlı əhaliyə edilən bu qədər zülmdən sonra Azərbaycan proletariatının Sovet hakimiyyətindən üz döndərməyə, öz burjuaziyasının hamiliyi altına keçərək onlardan və Türkiyədən kömək gözləməyə haqqı var idi."

Bu qanlı hadisədən bir neçə ay sonra qırğından nə yollasa xilas olmuş Şamaxı ziyalısı Hacı Soltan Zamanov Bakıya gəlmiş Britaniya qoşunlarının baş komandanı, general Tomsona yazdığı məktubda Stepan İvanovun nadan kirayənişinlərinin qürurla "İkinci Styopa" adlandırıb vəsf etdikləri quldur Lalayev barədə bunları qeyd eləmişdi: "Stepan Lalayev vəhşiləşmiş bir insandır, onu şamaxılıların başlarına gətirdiyi müsibətlərə görə hərbi məhkəməyə vermək lazımdır. S.Lalayev mart ayında özü bolşevik adı altında quldur dəstəsi ilə Şamaxıya gələrək bütün kəndləri, yaşayış məskənlərini dağıtmış, yandırmış, əhalisini isə, demək olar, bütünlüklə qırdırmışdır. Onlar bütün kişiləri şəhərdə qılıncdan keçirmiş, hətta körpə oğlan uşaqlarına belə rəhm etməyərək öldürmüşlər. Kişilərin gözləri qarşısında qadınları, qızları zorlamışlar. Şəhər tam soyulub talandıqdan sonra yandırılmış, şəhərdə mövcud olan beş min evdən yalnız məktəbin binası salamat qalmışdır. Hazırda Şamaxı şəhəri qəbiristanı xatırladır. Bütün bu faciənin əsas günahkarı yalnız Stepan Lalayevdir. Belə bir cəllad cəzasız qalmamalıdır".

Qeyd etdiyimiz kimi, Azərbaycan Demokratik Respublikası qurulduqdan sonra Bakı, Quba və Şamaxıda erməni cəlladlarının törətdikləri qırğınları təhlil etmək məqsədilə dərhal Fövqəladə İstintaq Komissiyası yaradılmışdı. Şamaxı şəhərinin sakini Mövsüm Sadıqbəyovun bu komissiyaya verdiyi ifadə çox diqqətçəkəndir. O demişdir: "Mən hələ Kürdəmirdə olduğum vaxt eşitdim ki, ermənilər Mədrəsəyə yanvar ayının əvvəllərindən başlayaraq on altı araba silah gətirmişlər. Bundan ehtiyat edən müsəlmanlar ermənilərə öz etirazlarını bildirərkən ermənilər özünümüdafiə dəstələri yaratmaq üçün hazırlıq gördüklərini, müsəlmanlara heç bir xətər toxunmayacağını bildirmişdilər. 1918-ci il martın ortalarında şəhərdə belə bir xəbər yayıldı ki, iki min nəfərə yaxın erməni əsgəri silah, hərbi

sursat yüklənmiş altmışa yaxın araba ilə Şamaxıya gəlir. Bu xəbəri eşidən Şamaxının müsəlman əhalisi silah arabalarının gətirilməsinin hər bir vəchlə qarşısını almağa çalışdı. Lakin böyük silahlı qüvvəyə malik olan ermənilər bütün maneələrə baxmayaraq, gətirdikləri yükləri Mədrəsə kəndinə çatdırdılar. Ermənilər ertəsi gün hiyləyə əl atıb müsəlman əhalisi ilə danışıqlar aparıb sülh bağladılar. Elə bu da bizim müsəlmanlarda arxayınlıq yaratdı. Müsəlmanlarımız sülh bağlamaqla təhlükənin sovuşduğunu güman etdilər. Lakin martın 18-də sübh tezdən ermənilər Mədrəsədə yerləşdirilmiş toplardan Şamaxı şəhərinə atəş açdılar. Yuxudan hövlnak duran şəhər əhli pal-paltarını geyinmədən hara gəldi qaçmağa başladı. Şamaxıda yaşayan molokanlar da ermənilərə qoşularaq şəhərin müsəlman əhalisinə qarşı vuruşdular. Demək olar, heç bir silahlı müqavimətə rast gəlməyən ermənilər şəhərin aşağı hissəsinə daxil oldular. Onlar evlərə soxulub, qabaqlarına çıxan müsəlmanları öldürür, evləri talan etdikdən sonra yandırırdılar...”

Azərbaycan hökuməti yanında təşkil edilmiş Fövqəladə İstintaq Komissiyasına Şamaxı sakini Məhiyyəddin Əfəndi oğlunun verdiyi ifadədə isə deyilir: “Ermənilər Şamaxını top atəşinə tutduqdan sonra əhali küçəyə qaçdı və gördü ki, erməni silahlıları şəhəri üç tərəfdən, molokanlar isə bir tərəfdən mühasirəyə almışlar. Bir neçə saatdan sonra ermənilər şəhərə basqın edib evləri yandırmağa və adamları güllələməyə başladılar. Bu qırğına Qavril, Qaraoğlanov, poçt-teleqraf idarəsinin rəisi Gülbəndov, Qaramanov, dəllək Samvel, dəllək Ovanes, Stepan Lalayev, mədrəsəli Sidrak və bir çox başqaları rəhbərlik edirdilər. Bu qırğından birtəhər canlarını qurtarıb qaçan azərbaycanlılar Kürdəmirdə, Gəncədə özlərinə sığınacaq tapdılar.

Martın 28-də Şamaxıya erməni əsirliyində qalmış müsəlmanları xilas etmək üçün Gəncədən İsmayıl xan Ziyadxanovun çox da böyük olmayan bir dəstəsi göndərildi. Ermənilər silahlı toqquşmadan ehtiyat edərək molokanlar yaşayan Qozluçay kəndinə çəkildilər və burada qüvvə toplamağa başladılar. İsmayıl xan Qozluçay kəndindən nümayəndə çağırıb erməni quldurlarını təhvil verməyi tələb

etdi. Molokanlar vəziyyətin çox kəskin şəkil aldığını görüb onlara iki gün möhlət verilməsini bildirdilər. İki gündən sonra isə molokanlar erməniləri təhvil verməyəcəkləri və onlarla birgə Şamaxıdan gedəcəkləri barədə xəbər göndərdilər. İsmayıl xan məcburiyyət qarşısında qalıb Qozluçay kəndinə hücum əmri verdi. Lakin atışma başladıqdan bir qədər sonra o, daha çox saya malik və daha güclü silahlanmış erməni silahlı qüvvələrinin üstün gələcəyini görüb Şamaxıya geri çəkildi. Ermənilərin hərbi qüvvəsi İsmayıl xanın dəstəsindən bir neçə dəfə çox olduğunu dərk edib İsmayıl xanın dəstəsini elə həmin gün axşamüstü Şamaxını da tərk eləməyə vadar etdi. Şamaxını tərk edərkən İsmayıl xan yerli sakinlərə şəhərdən çıxmağı, yaxın rayonlara sığınmağı tapşırdı. Yenidən Şamaxının qara günləri başladı. Ermənilər şəhərə daxil oldular. Ziyadxanovun sözünə məhəl qoymayıb şəhərdə qalan əhalinin, demək olar ki, hamısı vəhşicəsinə qırğına məruz qaldı".

Şamaxı qəzasının Qalaybucurt kəndinin sakini Məmmədzər Qəhrəman oğlu isə başlarına açılan müsibət barədə komissiyaya belə məlumat verib: "Şamaxı faciəsindən bir neçə gün sonra kəndimizə 100 nəfərlik bir silahlı dəstə gəldi. Molokanlardan və ermənilərdən ibarət olan bu dəstəyə Stepan Lalayev başçılıq edirdi. Bu dəstədə Çuxuryurd kəndinin sakinləri Baros-Ovanes oğlu, Palanq və Semyon Qara İvan oğulları, Semyon Popov və Matvey Qarayev, tanıdığımız başqa ermənilər də var idi. Stepan Lalayev özünü bizim padşahımız elan edib bildirdi ki, əmlakımız və özümüz ona məxsusuq. O, mal-qaranı, əmlakımızı və bütün varidatımızı bir yerə toplamaq barədə əmr verdi. Sonra bizi heyvan sürüsü kimi qabaqlarına qatıb aparmağa başladılar. Meşəyə çatdıqda S.Lalayev hamını güllələmək əmri verdi. Yüzlərlə günahsız, dinc əhali meşədə amansızcasına öldürüldü. Bu qırğından cəmi dörd nəfər xilas ola bildik".

Şamaxı qırğınının ürək dağlayan bu dəhşətli təfərrüatları dünya sivilizasiyasının bar-bar bağırıb humanizmdən dəm vuraraq, guya ermənilərin Dağlıq Qarabağda azərbaycanlılar tərəfindən təhdid edildiyini söyləyən ədalətsiz sıra nəfərlərinin sifətinə şapalaq kimi

vurmaq lazımdır. O vaxt qırğından salamat qalan qaçqınlar Göyçay qəzasının müxtəlif rayon və kəndlərinə pənah aparmışdılar. Qaçqınların bir qismi qəzanın Kürdəmir bölgəsinə gəlmişdilər. Lakin bu qırğından təxminən iyirmi-otuz gün sonra ermənilər Kürdəmirə də basqın edib evləri yandırdılar, əhalini gülləbaran etdilər. Əhali xilas olmaq üçün bu dəfə Göyçay qəza mərkəzinə qaçdı. Amma Qarasu deyilən bataqlığı keçə bilmədiklərindən elə oradaca qalmalı oldular. Qaçqınlar həftələrlə orada hər cür məhrumiyyətə dözdülər, aclığa, soyuğa sinə gərdilər. Bataqlıqdan içdikləri su isə onları kütləvi şəkildə qırdı, heç kəs salamat qalmadı...

## Otuzuncu hissə

## QUBA QIRĞINI

Azərbaycan gözəl ölkədir, xüsusən onun Quba bölgəsi təkrarsız və unikaldır. Bu barlı-bağatlı, ecazkar təbiətə malik qədim diyarın o qədər özəllikləri var ki. 2014-cü ildə oğlumgil yayda ora getmişdilər. On gün qalıb qayıtdılar, o qədər zəngin təəssüratları yaranmışdı ki, oğlum da, gəlinim də, nəvələrim də daha on gün Qalinayla mənimlə bu təəssüratları bölüşdülər. Bakıdan 168 km şimalda, Böyük Qafqaza aid Şahdağının yamaclarında, dəniz səviyyəsindən 600 metr yüksəklikdə, Qudyalçayın sahilində yerləşən Qubanın özəllikləri çoxdur, bunlardan biri dünyaca məşhur Quba almasıdır. Xüsusən, burada yetişən ağ alma çox unikaldır. Oğlumgil bir zənbil alma gətirmişdilər, sulu, yeyəndə xoş xırçıltı qoparan bu nemət o qədər dadlı idi ki, Qalinayla mən onun dadını xeyli müddət unuda bilmədik, hər dəfə alma yeyəndə bir-birimizə "Quba alması yadında?" xatırlatması etdik.

Quba dünyada həm də öz xalçaları ilə məşhurdur. Dünyanın bir çox muzeylərində, şəxsi kolleksiyalarda orijinal naxışları ilə seçilən

Quba xalçalarına rast gələrsən. Onların bəzilərinin adlarını belə yadımda saxlamışam: "Qolluçiçi", "Alpan", "Qımıl" ... Sovetlər dönəmi bitəndə, kapitalizmə qədəm qoyanda qapı-qapı gəzib "starımal" yığan dəllallar Zinger paltar maşını axtaranda Təbriz, Qarabağ və Quba xalçaları da axtarırdılar, hətta qonşum Vasiliy Kuzmiçin çar dövründən qalma bir Quba xalçasına da qəşəng pul vermişdilər.

Qubanın başqa bir unikallığı rayon ərazisindəki qeyri-adi kənd və qəsəbələrə malik olmasıdır. Burada dəniz səviyyəsindən 2500 metr yüksəklikdə Xınalıq kəndi mövcuddur ki, kəndin əhalisinin ayrıca öz dili vardır. Eyni zamanda Qubada dünya yəhudilərinin ən böyük icmalarından birinin yaşadığı məşhur Qırmızı Qəsəbə yerləşir. "Qafqazın Yerusəlimi" adını alıb bu qəsəbə.

Oğlumgil rayon ərazisində XI-XII əsrə aid müdafiə qüllələri, XVI-XIX əsrlərə aid Subaba və Ağbil türbələri, Tağlı körpü, Cümə məscidi, Ələmu qalası, Atəşpərəstlər məbədi kimi qiymətli memarlıq abidələrində də olmuş, XVII-XIX əsrlərə aid edilən Çuxur hamamından isə ayrıca danışmışdılar. Şərq memarlığının incilərindən sayılan bu abidəni məşhur fransız yazıçı Aleksandr Düma da vəsf edibmiş, Qafqaz səyahəti zamanı burada çimən Düma hədsiz məmnunluq hissi keçiribmiş. Unutmayaq ki, o dövrdə Avropada çimmək mədəniyyəti belə yox idi, insanlar sadəcə dini mövhumata aldanıb çimmirdilər.

Qubanın ecazkar təbiəti isə sadəcə bir möcüzəymiş, deyim ki, Vasyagil danışanlar Qalyayla mənə bir yuxu kimi gəlirdi. Necə bir gözəllik! Bol sulu, əzəmətli Qudiyalçay, təbii bulaqları ilə, itburnu, zoğal, yemişan, cır alma-armud, əzgil, qoz-fındıq kimi bitkilərlə, müalicəvi əhəmiyyətli otlarla zəngin olan, dərinliklərində ceyran, qaban, tülkü, canavar, ayı kimi heyvanlar yaşayan əfsanəvi Qəçrəş meşəsi, 50-60 metr hündürlüyə malik Afurca şəlaləsi, çiçək-ot qoxusu ilə adamı valeh edən Təngəaltı dərəsi virtual olaraq bizləri özlərinə çəkdi, o yerləri biz də gördük, o gözəlliklərdən biz də ilhamlandıq.

Mənim nadan kirayənişinlərim 1918-ci ildə erməni faşistlərinin o cənnəti necə cəhənnəmə çevirməyə çalışdıqlarından yazanda bir

daha başa düşdüm ki, Xeyir və Şərin əbədi mübarizəsi sadəcə nağıllarda mövcud deyilmiş, həyatda da var imiş. Daha acımasız, daha amansız!

* * *

“**15-ci bölmə.** Bizim daşnak partiyasının liderləri bolşevik şineli geyindikdən sonra 1918-ci ilin ilk aylarından etibarən Arandan başlayaraq Tiflisə qədər məskunlaşan azərbaycanlıları qırıb Kür çayına, Bakı da daxil olmaqla Qubadan Astarayadək yaşayanları isə Xəzər dənizinə tökməyi planlaşdırmışdılar. Həmin plana uyğun olaraq bizimkilər 1918-ci ilin mart-may aylarında Bakıda, Şamaxıda, Qubada və Göyçayda yerli əhaliyə qarşı kütləvi qırğın tədbirlərinə əl atdılar. 1917-ci ildə Rusiyada çar hökuməti devrildikdən sonra alman və Avstriya cəbhələrində xidmət edən minlərlə erməni əsgəri öz silahları ilə daşnakların niyyətlərini həyata keçirmək üçün Azərbaycanda cəmləşdilər. Üzümüzə gülən bir fakt da o idi ki, o vaxtlar xristian rusların müsəlman azərbaycanlılara etibarı yox idi, bu səbəbdən də rus ordusuna azərbaycanlılar hərbi xidmətə çağırılmırdı. Bizim ermənilərin o dövrdə artan torpaq iştahasını Rusiyada Lenin kimi, Qafqazda isə Birinci Styopa və Mikoyan kimi arxalarımızın olması şərtləndirirdi.

Azərbaycanlıların böyüklərinin uzun illər “dahi rəhbər” deyərək abidəsinə baş əydikləri, kiçiklərinin isə “Lenin baba” deyərək şəninə şeirlər oxuduğu Vladimir Leninin Birinci Styopaya Bakı qırğınından dərhal sonra yazdığı məktubu biz erməniləri necə də qürurlandırır. Lenin Şaumyanın möhkəm və qəti siyasətinə məftun olduğunu bildirir və həmin siyasəti davam etdirməyi məsləhət görürdü.

Bu, Birinci Styopaya Bakı qırğınının miqyasını daha da genişləndirmək üçün kart blanş verirdi. Yəni ki, müsəlmanları qırmaqda davam elə!

Bakı və Şamaxı barədə biz söhbət açdıq. İndi isə Qubadakı erməni qəhrəmanlığından söz açmaq istəyirik. Di getdik!

1918-ci ilin aprelində Bakı şəhəri və Bakı quberniyası bolşeviklərin əlinə keçdiyi bir vaxtda Birinci Styopanın tapşırığı ilə Quba

əyalətində hakimiyyəti ələ keçirmək üçün tədbirlər görülməyə başlandı. Ayın ortalarında Styopa özünün sağ əli David Gelovanini bizim ermənilərdən ibarət iki yüzə yaxın silahlı əsgərlə Qubaya göndərdi. Burada özünü Quba Qəza Komissarı elan edən D.Gelovani yerli əhaliyə bildirdi ki, onlar mütləq bolşeviklərin hakimiyyətini tanımalıdırlar. Qubalılar ondan düşünmək üçün möhlət istədilər. Gelovani razılaşdı, amma siyasət nəzakəti sevməz, iki gündən sonra Gelovanı qeydsiz-şərtsiz hakimiyyətə yiyələndi. Bir neçə gündən sonra Qubada sakitliyin yarandığını görən D.Gelovani ilk bizim xeyrimizə, müsəlmanlarınsa əleyhinə olan əmrini verdi. Yerli camaat Bakıda və Şamaxıda baş verənlər barədə məlumatlı olduqlarından hər ehtimala qarşı Qubada yaşayan az qisim ermənimizi – iki yüzə yaxın şəxsi tərksilah edib həbsxanada saxlayırdı. Gelovani həmin erməniləri azadlığa buraxdırdı. Bundan təşvişə düşən müsəlmanlar bolşevik komissara silahlı müqavimət göstərib onun ya Qubanı tərk etməsini, ya da təslim olmasını təklif etdilər.

Gelovani Qubanı tərk etmək məcburiyyətində qaldı. Şəhərdən çıxarkən, o, buradakı ermənilərimizi də özü ilə apardı. Hadisə Birinci Styopanı bərk qəzəbləndirdi. Şahidlərin ifadəsinə görə, o, hətta qəzəbdən bığlarını çeynəyirmiş. Styopa mülayim Gelovaninin yerinə məşhur daşnak zabiti, qaniçən kimi tanınan, türk düşməni Amazaspı seçdi, qisas planını ona tapşırdı. Gelovani Qubadan qovulduqdan iki həftə sonra – may ayının 1-də Amazaspın başçılığı ilə ancaq bizim ermənilərdən ibarət olan böyük hərbi dəstə Qubanı mühasirəyə alaraq şəhəri toplardan və pulemyotlardan atəşə tutdu. Amazaspın dəstəsi də adi əsgərlərdən ibarət deyildi, xüsusi "Cəza dəstəsi" adı altında birləşən, vəhşilikləri ilə seçilən cəsur ermənilərdən ibarət iki min nəfərlik tərkibdə qoşun hissələri idi. Dəstəyə qatı millətçi Venunts dəstə komissarı, Nikolay adlı hərbçi isə köməkçi təyin edilmişdi. Müharibə qan-qadanı, vəhşiliyi sevər, humanizmi sevməz ki? Təkcə qarşındakı əsgərlər sənə düşmən deyil ki? Tək onları öldürməklə iş bitmir ki! Onları böyüdüb ərsəyə çatdıran qocalar da, onlara sevgi bəxş edən qadınlar da, onları yolunu gözləyərək

qələbəyə ruhlandıran övladları da düşməndir, hamısı bir nəfərinə qədər məhv edilməlidir! Məhz buna görə də erməni millətinin nümayəndələrinə, habelə bolşevizm ideyalarına xor baxan qubalılar sərt şəkildə cəzalandırılmalı idilər.

İndi isə daha bir böyük qəhrəmanımız – Amazasp barədə daha dolğun məlumat vermək zamanıdır. Çünki bu şəxs türklərə qan uddurmaqda böyük Andraniklə bir sırada dayanmağa layiqdir.

Amazasp Srvantsyan 1873-cü ildə Osmanlı İmperiyasında – Vanda anadan olub, 1921-ci ildə Yerevanda vəfat edib. Onun general rütbəsi var. 1905-ci ildə azacıq Osmanlı ordusunda, daha sonralar – 1918-ci ildə bolşevik ordusunda, 1918-1920-ci illərdə Ermənistan ordusunda xidmət göstərib. Amazasp çox gənc yaşlarından inqilabi fəaliyyətə qoşulub, Osmanlının sarsılmasına çalışıb. Təsadüfi deyil ki, Sultan onu təqib edib, o da zorən öncə Yerevana, ordan da Şuşaya qaçıb. 1905-ci ildəki erməni-müsəlman qırğınında fəal iştirak etdikdən sonra o, 1908-ci ildə bir neçə daşnak dostları ilə birlikdə dövləti cinayətlərdə fəallıq göstərib. Məqsəd ermənilərə müstəqillik vermək istəməyən Çar Rusiyasını qorxutmaq idi. Sui-qəsdlər, terrorlarla rusların gözünün odunu almaq istəyirdi bizim fədailərimiz. Belə aksiyaların birində Amazasp Çar hökuməti tərəfindən həbs edilərək Sibirə sürgün edilib. Amma sürgün həyatı da uzun çəkməyib. 15 illik sürgün həyatını tam çəkmədən qəhrəmanımız 1913-cü ildə sürgün yerindən qaçıb, öncə Avropaya, ordan da Konstantinopola gedib. 1914-cü ildə Birinci Dünya müharibəsinin başlanması ilə əlaqədar Rusiyada daşnaklara amnistiya veriləndə Amazasp da Qafqaza qayıdaraq üçüncü könüllü erməni drujinasına rəhbərliyi qəbul edib. Onun drujinası Osmanlı İmperiyasında türklərə qarşı bir çox döyüşlərdə iştirak etmişdi, Vanda, Bitlisdə türk əsgərlərinin və türk kəndlilərinin qanını tökmüşdü, bir sözlə, təcrübəli kadrlardan ibarət idi. 1918-ci ildə Bakı qırğını zamanı da Amazaspın 3500 nəfərlik dəstəsi yerli müsəlman sakinlərə amansız divan tutmuşdu, Birinci Styopa şəxsən əlini sıxaraq onu təbrik etmişdi. Düzdür, yanlarında kənar rəsmi şəxslər olduğu üçün Styopa onu “erməni millə-

tinə böyük fayda verən cəsur komandan" yox, "bolşevizmə böyük fayda verən cəsur komandan" adlandırmışdı, amma bələkdə uşaq da bilirdi ki, o dövrdə Azərbaycanda bolşevizm yox, daşnakizm meydan sulamışdı.

Qısaca, Amazaspın bu cəza dəstəsi Quba xarüqəsindən sonra Gəncə və Yevlaxda da eyni ssenari ilə müsəlman əhalinin qətliamını təşkil etmiş, Qafqaz İslam Ordusu ilə dörd ay müharibə aparmışdır. Amma əfsus ki, şərait get-gedə millətimizin ziyanına işləməyə başlamışdı, Birinci Dünya müharibəsində gah bu, gah da digər tərəfin üstün olması situasiyanı get-gedə qəlizləşdirmişdir. 1918-ci ilin iyulunda Amazasp kömək almadan gücdən düşmüş ordusunun qalıqlarını sərhəddən keçirmiş, İrana adlamışdır. Birinci Dünya müharibəsi qurtaranda isə o, Ermənistana getmişdir. Qəhrəmanımız Nor-Bəyazit regionunda erməni ordusunun komandiri təyin edilmişdir. 1920-ci ildə o, bu dəfə türk-erməni müharibəsində iştirak etmişdir. Sovet hakimiyyəti qurulandan sonra qəhrəmanımızı qırmızı rejim guya millətçi fəaliyyətində suçlu bilib həbs etmişdir. Böyük qəhrəmanımız 1921-ci ildə Yerevan həbsxanasında vəfat etmişdir.

Şərəfli bir ömür və şərəfli bir ölüm. Bax, belə!

İndi isə qayıdaq Quba qırğınına. Amazasp Qubaya daxil olanda qubalılara belə demişdir: "Mən erməni xalqının qəhrəmanıyam, onun marağının müdafiəçisiyəm. Mən buraya xüsusi cəza dəstəsi ilə ona görə göndərilmişəm ki, iki həftə əvvəl burada öldürülən ermənilərin hayıfını sizdən alım. Mən buraya qayda-qanun yaratmaq üçün, Sovet hakimiyyətini qurmaq üçün gəlməmişəm. Ermənilərin bu yerlərdə qanını axıtdığınıza görə mənə Xəzər dənizinin sahillərindən tutmuş Şah dağına qədər olan bütün ərazidə yaşayan müsəlmanları məhv etmək barədə göstəriş verilib. Mənə sizin yurd-yuvanızı yerlə yeksan etmək, Şamaxıda törətdiklərimizdən betərini sizin başınıza açmaq, erməni qardaşlarımızın intiqamını almaq tapşırılıb".

Amazaspın dəstəsi həm Qubaya gələrkən yol boyu, həm Quba şəhərində, həm də Qubanın kəndlərində qəhrəmanlıqla obaları, yurd yerlərini dağıdır, yandırır, rastlaşdıqları kişiləri, qadınları, uşaq-

ları qətlə yetirirdilər. Biz erməniləri qürurlandıracaq təfərrüatlar o qədərdir ki... Bir ailənin 14 üzvünün bir-birinin gözü qarçısında növbə ilə başlarını kəsmək. Necə gözəl bir mənzərə! Türk qanı şırıltı ilə axır, erməni qəlbini cuşa gətirir. Körpə uşağı mismarla divara mıxlamaq. Bundan gözəl həzzmi olar? Sabah böyüyb erməniyə diş qıcayacaq körpə küçük bu gün niyə qətlə yetirilməsin ki? Yaxud qəhrəmanımız Amazaspın Qubanın hörmətli ağsaqqallarına əsgərlərini əyləndirmək üçün gözəl müsəlman qadın və qızlarını hüzuruna gətirmək əmri verməsi. Bununla qəti şəkildə razılaşmayan ağsaqqalları yerindəcə güllələməsi.

1918-ci ilin aprelində Quba uyezdində baş verən qətliam nəticəsində bizimkilər uyezdin 122 kəndini yandırdılar. Bircə gün ərzində əsgərlərimiz Qubanın 2000 sakinini öldürdülər, 150 evi dağıtdılar. Ümumilikdə Quba uyezdində 16 min insan qətlə yetirildi ki, bunların 12 mini təkcə ləzgi xalqına aid idi. Digər 4 minin içində isə azərbaycanlılarla yanaşı tatlar, dağ yəhudiləri də var idi. Quba qətliamı fərqli qətliam idi, qətlə yetirilənlərin beynəlxalq tərkibinə görə digərlərindən fərqlənirdi.

Təkcə Qubanın özündə Amazaspın cəsur əsgərləri dörd milyon rubl nəğd pul, xeyli qızıl, daş-qaş, beş milyon rublluq mal, iyirmi-beş milyon rublluq ərzaq ehtiyatı ələ keçirmişdilər. Möhtəşəm uğurdur! Adətən bizim yaşlı nəsil indiyədək tarixin müxtəlif dövrlərində türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımları ört-basdır eləməyə, gizlətməyə çalışıblar. Əksinə ermənilərin törətdiyi soyqırımları türklərə şamil eləmişik, guya ki, biz ermənilər genosidə uğramışıq. Bizim yaşlı nəsil erməni xalqını zavallı, zülmə uğramış, yazıq millət kimi dünyaya tanıtmağa çalışıb. Amma biz gənclər düşünürük ki, bu, kökündən yanlış siyasətdir. Biz niyə əzik xalq kimi dünyaya təqdim olunmuşuq? Bizim bu qədər cəsarətli, mübariz, gözünü qırpmadan minlərlə türkü qanına qəltan edən qəhrəmanlarımız var. Eşq olsun onlara! Dünya onları əsl erməni kimi tanımalıdır! Bu kitabda əslində kim olduğumuzu yazırıq ki, bütün dünya bizdən qorxsun! Biz buyuq! İstədiyimiz vaxt, istədiyimiz yerdə yüzlərlə

insanı öldürəcək gücə və ehtişamlı terror qruplaşmalarına malikik! Qoy, bundan sonra dünya bizi belə tanısın! Ermənilər yazıq deyil! Biz ölmürük, öldürürük!"

Quba qətliamı barədə nadürüst müəlliflər özləri hər şeyi açıqlayıblar, misli görünməmiş vəhşiliklərini qəhrəmanlıq deyə vəsf ediblər. Mənsə bu yazdıqları ilə özləri özlərini rəzil edən bu nadanlara sadəcə qətliamdan uzun illər sonrakı bir hadisəni danışmaq istədim. Elə bu hadisə də mənim P.S.-im oldu.

"P.S. 2007-ci ildə Qudyalçayın sağ sahilində Quba şəhər stadionunun təmiri üçün qazma işləri aparılarkən kütləvi qəbiristanlıq aşkar edildi və işlər təxirə salınaraq bölgəyə mütəxəssislər cəlb olundu.

Sümüklər çayın sahilindəki iki quyuda aşkarlanmışdı. Böyük quyunun diametri 5, kiçik quyunun diametri isə 2,5 metr idi. Quyular arasında 2 metr məsafə vardı. Böyük quyuya yüzlərlə insan skeletləri tökülmüşdü. Skeletlərin bütöv halda tapılmaması insanların öldürüldükdən sonra sanki şaqqalanaraq bura atıldığını göstərirdi. Çoxlu insan kəlləsinə rast gəlinirdi. Uşaq sümükləri də vardı, onların arasından yalnız 35 skeleti bütöv halda götürmək mümkün olmuşdu. Sümüklərin tədqiqatı zamanı ölüm faktının nə vaxt baş verdiyi dəqiqləşdi. Faktdır ki, qədim sümüklərdə sementləşmə gedir, amma Qubada tapılan sümüklər hələ nəmliyini qoruyurdu, bu da ölüm tarixinin təxminən 80-90 il öncə olduğunu üzə çıxarırdı.

Sümüklərin antropoloji tədqiqatı onların müsəlmanlara aid olduğunu təsdiqlədi. Ardınca, tapılan sümüklərin ermənilərin 1918-ci ildə törətdiyi soyqırımı qurbanlarına aid olduğu təsdiqləndı.

2012-ci ildə həmin yerdə Memorial Kompleks inşa edildi. Qubalılar, Azərbaycanın digər bölgələrindən gələnlər, eləcə də ölkəyə təşrif buyuran əcnəbilər gəlib bu kompleksdə erməni vəhşiliyinin şahidi oldular.

Təbii ki, Qubaya gedərkən oğlumgil də bu abidəyə baş çəkmişdilər, kədər və nisgillə yanaşı bu ziyarət onlarda erməni millətçiliyinə qarşı bir nifrət və xof da yaratmışdı.

Stepan, Qaqik, Artur, ey zavallılar, Quba məzarlığı sizin göz dağınızdır, o durduqca insanlar sizə – erməni millətçiliyini yaşadan hər bir kəsə nifrət edəcəklər.

Allah insanlara həyat verir, ömür verir, sizin cəlladlar da bunu onlardan alır.

Allah sizi qəhr edəcək, cəzasız qoymayacaq!

## Otuz birinci hissə

## MÜƏLLİFDƏN ZƏRURİ P.P.S.

Riyakar kirayənişinlərinin hər dəfəsində "Onda getdik" deyib nəql etdikləri bölümlərə bütün vaxtını sərf edib səbirlə, məsuliyyətlə cavab verməklə insanlıq borcunu yerinə yetirən əsgərlik yoldaşıma get-gedə daha çox hörmətim artırdı. Bir yerdə əsgərliyimizi çəkəndə onun bu qədər dünyagörüşlü, savadlı olduğunu kəşf edə bilməmişdim. Türkoloji istiqamətdə aldığı universitet təhsilindən əlavə, onu görmədiyim bu illər ərzində həyat Stepana həm də ağı qaradan, düzü əyridən, haqqı nahaqdan seçməyi də öyrətmişdi. Bəlkə də elə buna görə idi ki, həyat məktəbinin layiqli yetirməsi olan əsgərlik yoldaşım az qala professor kimi danışırdı.

Get-gedə bir şeyə qəti əmin olurdum, riya maskasını cırmaq üçün sənin nə dərəcədə təhsilli, elmli olmağından çox, nə dərəcədə həqiqətlə silahlanman rol oynayır.

Mənim əsgərlik yoldaşım həqiqətlə silahlanmışdı deyə riyakar kirayənişinlərinin min illik saxtakarlığa söykənmiş süni ehkamlarını uçurub dağıtmağa qadir idi.

Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cumhuriyyətinin Fövqəladə İstintaq Komissiyasının arxiv materialları ilə müstəqillik qazandığımız ilk illərdə onlar üzə çıxan kimi tanış olmu-

şam, əzab çəkə-çəkə, ürəyim dağlana-dağlana, həm də düşmənə sonsuz nifrət duya-duya səhifələri səhifələrlə əvəzləmişəm. Orada Quba qırğını ilə bağlı da ürəkdağlayan epizodlar yetərincədir. Həmin komissiyanın üzvü A.Novatskinin hazırladığı məruzə erməni vəhşiliklərini kifayət qədər əks etdirir. O, hətta məruzəsinin sonunda Quba qırğınını törədənlərin ən ağır cəzalara layiq olduqlarını da qeyd etmişdir. Çox təəssüf ki, belə bir qiymətli sənəd uzun müddət xalqımızdan gizlədilmişdir. Sənədlərdən aydın görünür, bir-bir evlərə girib bəzən bütün ailəni məhv edən ermənilər hətta hamilə və uşaqlı qadınlara belə rəhm etməyiblər. Bəzən böyük ailələri bütövlüklə məhv ediblər.

Kərbəlayı Məmməd Tağı oğlunun on dörd nəfərdən ibarət ailəsinin, Məhəmməd Rəsul oğlunun beş nəfərlik ailəsinin başlarını kəsmiş, Məşədi Qənbər Molla Məhəmməd Saleh oğlunu, onun həyat yoldaşını və beş körpə uşağını şaqqalamışlar. Bu qaniçənlər Quba sakinləri Hacı Dadaşbala Qasım oğlunun həyat yoldaşı Məşədi Bibixanımı, oğlu Abdul Qasımı diri-diri oda ataraq yandırmış, Kərbəlayı Abuzər Məstan oğlunu və iki qızı – Hökuməni və Bustanı qucaqlarındakı körpələrlə birlikdə tikə-tikə doğramışlar. Qaniçənlər Qubanın ağsaqqallarından Molla Şahbazı, Usta Məhəmməd Rəsul Bayram oğlunu, Məşədi Musa Zeynal oğlunu, Məşədi Əli Məşədi Feyzulla oğlunu, Kərbəlayı Dadaş Bağır oğlunu, Cabbar Məmməd Əli oğlunu, Molla Şahbazı və onlarca digərlərini qətlə yetirmişlər. Şəhərin bütün gözoxşayan, diqqət çəkən mülkləri, o cümlədən Səttar Məmmədyarova, İbrahim bəy Şıxlarlıya, Məşədi Əli Hüseynova, Orucəli Məmmədova, Bəkir Mehrəliyevə, Hidayət Əmirbəyova, Əlibəy Zizikskiyə, Rəcəb Orucova, Yusif bəy Abdulsəlimbəyova məxsus böyük mülk evləri, şəhərdəki məscidlər, bir sıra inzibati binalar yandırılıb külə döndərillmişdir. Ermənilər bütün kəndlərdəki məscidləri dağıdaraq müqəddəs Quran kitablarını təhqir etmək məqsədilə ayaqlar altına atıb tapdalamışlar, yandırmışlar. Ümumən Quba mahalında erməni cəlladlar 120 kəndi *(Dəvəçi, Siyəzən, Təzə və Köhnə Xaçmaz, Yenikənd, Güləzi, Çiçi, Söhüb, Nohurdüzü, Zərqova, Afuruca,*

*Xəlfələr, Cek, Qırızdəhnə, Nabran, Sədan Çalxana, Dəvəzarat, Sağolcan, Eynibulaq, Ağasıbəyli, Kolanı, Nardərə, Rəhimli, Çurlaq, Aygünlü, Qaraqurdlu, Qaraçı, Nərəcan, Xudat, Aşağı Buduq, Mürşüdoba, Xaspoladoba, Babalı, Mehralıqışlaq, Bəyqışlaq, Canaxır, Qobuqırıq, Urva və s.)* viran qoymuşlar.

Amazasp tərəfindən darmadağın edilmiş və yandırılmış müsəlman kəndlərinin qaça bilmiş sakinlərinin aqibəti də pis olmuşdu, 45 gün dağlarda və meşələrdə sərgərdan dolaşdıqdan sonra, əyin-başları yırtıq, ac, xəstə halda öz köhnə yurdlarına qayıdan insanlar arasında ölüm hallarının sayı minlərlə ölçülürdü.

Bu cür faktları yaddaş tariximizdən əsla çıxarmamalıyıq. Bir baxın, olduqca az mənbələrimiz qalıb ki, erməni faşizmini bizə bəlli etsin. Hamısını sovet dövründə gizlədiblər, millətçilik qadağan edilib, ata-babalarımız beynəlmiləlçi olub ermənilərlə dostluğa məcbur ediliblər.

Fövqəladə İstintaq Komissiyasının arxiv materiallarındakı faktlara baxın, görün bir, onlar necə alov saçırlar:

"Şamaxı uyezdində 1918-ci ilin aprel-may aylarında S.Lalayan və T.Amirovun qaniçən dəstəsi 8000 müsəlmanı öldürmüş, 13 məscidi, o cümlədən 800 il yaşı olan tarixi incini – Cümə məscidini yandırmışlar. Şamaxı uyezdinin 53 kəndində 8027 azərbaycanlı qətlə yetirilmişdir ki, bunların da 2560-ı qadın, 1277-si uşaq idi.

Zəngəzur uyezdinin 115 kəndində 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın və 485 uşaq diri-diri yandırılmışdır.

İrəvan uyezdindəki 199 Azərbaycan kəndindən 62-si yer üzərindən silinmişdir. İrəvan quberniyasında ümumilikdə 211 Azərbaycan kəndi yandırılaraq yerlə-yeksan edilmişdir. 132000 azərbaycanlı isə qətlə yetirilmişdir.

Qars vilayətində 92 kənd yox edilmişdir.

Qətliam və talanlar Lənkəran, Astara, Hacıqabul, Salyan, Kürdəmir və digər Azərbaycan vilayətlərində də həyata keçirilmiş, bu bölgələrdə 6000 insan qətlə yetirilmişdir.

Cənubi Azərbaycan mahalında isə hakim fars rejiminin fəaliyyətsizliyi şəraitində Urmiya, Xoy, Maku və Səlmasda ümumilikdə 100000 azərbaycanlı qətlə yetirilmişdir”.

Vaxtilə, görkəmli ədibimiz Üzeyir bəy Hacıbəyli 1918-ci ilin mart-may aylarında erməni vəhşilikləri ilə bağlı yazırdı: “Əgər Osmanlının turk qəhrəmanları vaxtında köməyə gəlməsəydilər, azğınlaşmış ermənilər nəinki Bakıda, Şamaxıda, Qubada, bəlkə də bütün Azərbaycanda daşı daş üstə qoymayacaqdılar.” Amma xalqımızın bu cür yazılı mənbələrə çıxışı əsla olmayıb. Hər şey xalqın qan yaddaşını pozmağa hesablanıb ki, illər sonra erməni millətçiliyi yenidən ayağa qalxanda xalqımız yenə hazırlıqsız olsun, illər öncə İrəvanı, Göyçəni, Zəngəzuru itirdiyimiz kimi bu dəfə də Dağlıq Qarabağımızı, sərhəd rayonlarımızı ermənilərə peşkəş edək.

Bundan sonra – 2020-ci ildəki zəfərimizdən sonra isə artıq tam əminəm ki, biz xalq olaraq əvvəlki səhvləri etməyəcəyik. Biz daha bu qan düşmənçiliyimizi unutmayacağıq. 1918-ci illərdəki Bakı, Şamaxı, Quba qırğınları, 1992-ci ildəki Xocalı qətliamı əbədi olaraq xalqımızın qan yaddaşına yazılacaq.

O ki qaldı Quba qırğınının başında duranların sonrakı taleyinə, 1918-ci il dekabr-yanvar aylarında Azərbaycan hökumətinin Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Novatskinin başçılıq etdiyi istintaq qrupu Quba qırğınlarını tədqiq edərək 4 cilddən ibarət istintaq sənədləri hazırlamışdı. Bu sənədlər əsasında Quba qırğınının rəhbərlərinə və icraçılarına qarşı müəyyən obyektiv səbəblərə görə cinayət işi açılmasa da tale özü bu cinayətlərin əsas iştirakçılarını cəzalandırdı.

Gelovani bizim komissiya ilə əməkdaşlıq etdiyinə görə 1919-cu ilin oktyabr ayında erməni terrorçusu Sarkis Terunts tərəfindən Bakıda qətlə yetirildi. Amazasp isə Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra həbs edildi, 1921-ci ilin fevralında Yerevan həbsxanasında erməni kommunistləri tərəfindən balta ilə doğranaraq öldürüldü. Öldürülərkən quldurun: “Vəhşilər, məgər adamı belə öldürərlər ?!” deyə çığırması talenin ironiyası deyilmi? Onun bədəni

və başı o qədər eybəcər hala salınıbmış ki, ailəsi meyitini yalnız keçə çəkmələrindən tanıya bilibmiş.

Allahın verdiyi canı bəndələrdən zülm verməklə alanın aqibəti elə məhz bu cür də olmalıymış...

## Otuz ikinci hissə

## VERMAXTA SƏDAQƏT

Kitabın növbəti hissəsini kirayənişinlərim Artursuz yazmalı oldular. “Üçlər” ard-arda ikinci zərbəni almışdılar. Qaqik institutdan qovulduqdan sonra indi də qara buludlar Arturun başının üstünü almışdı. Qapım zərblə döyülürdü, açanda Stepanla Qaqik təngnəfəs, ağlar görkəmdə məndən meriyada, yaxud polisdə tanışımın olub – olmadığını soruşdular. “Nə məsələdir” deyə soruşduğum anda Stepan özünü saxlaya bilməyib hönkürdü, – Arturu tutublar! – dedi.

Hal-qəziyyə belə olmuşdu. Kitabın xərcləri üçün bir sent belə toplaya bilmədikdən sonra dostlar məyus olduqları qədər də aqressivləşmiş, Moskvada eyş-işrət içində yaşayan, çox sayda obyektləri, mülkləri, daşınan və daşınmaz əmlaklardan ibarət sərvətləri olan həmyerlilərini vətən təəssübü çəkməməkdə, satqınlıq və xəyanətdə ittiham etməyə başlamışdılar. XX əsrin əvvəllərində Osmanlı İmperiyasında erməni millətçiləri varlı ermənilərlə davrandıqları sayaq rəftar etmək fikrinə düşərək onları şantaj və hədə-qorxu ilə ümumermәni işinə pul verməyə məcbur etmək istəmişdilər. Yenə də bir şey alınmayanda əli hər şeydən üzülən Artur uzaq qohumu, Moskvada əmlak satışından babat güzaran qurmuş, yaxşı imkanları olan Poqosyanın evinə girmək qərarına gəlmişdir. Poqosyangilin koronavirusa yoluxması səbəbindən ailəlikcə xəstəxanaya yerləşdirilməsindən xəbərdar olan Artur əvvəllər bir neçə dəfə gəldiyi, yolunu-ri-

zini gözəl bildiyi bu Stalinka binasındakı mənzilə gecə saatlarında damdan eyvana düşərək pəncərəni çıxarıb girmişdir. Qohumunun seyfini qurdalayıb açmaq istəyəndə isə kamera nəzarətində olan mənzilə polislər doluşub onu həbs etmişlər. Beləcə, Artur əlli-ayaqlı getmişdi.

Bu bədbəxtlərə fürsətdən istifadə edib xeyli öyüd-nəsihət verdim ki, düz yolda deyilsiniz, dərsləri atıb aqibəti bəlli olmayan cəfəng bir kitab yazmaq, onun xərclərini ödəməyi kimlərdənsə tələb etmək, institutdan qovulmaq, cinayət törədib həbsxanaya düşmək – bu düzgünmü həyat tərzidir?

Nadanlar qıpqırmızı üzümə durub dedilər ki, bu uğursuzluqlar bizi daha əzmlə, daha qətiyyətlə başladığımız işi davam etdirməyə səfərbər edir, biz qalib gələcəyik.

Və alçaqcasına da həmin gün və sonrakı gün öz xalqlarının faşizmə satılmasını, faşizmə xidmət etməsini vəsf etdilər.

"Sözün bitdiyi yer" deyilən bir ifadə var. Məncə, erməni millətinin işləklərini görüb bu ifadəni yaradıblar.

Bunlar necə insandırlar axı?! Yaxşı, türklərlə qan ədavətiniz var, ona görə vuruşursunuz, bəs çörəyini yediyiniz, sizə verdiyi torpaqda məskunlaşdığınız ruslara xəyanətiniz, onları faşistlərə satmağınız nədir?

Bir lətifə var, deyir, Allah Adəmlə Həvvanı yer kürəsinə göndərir ki, gedin orada artıb çoxalın, qoy Yer kürəsi insanlarla dolsun. Adəmlə Həvva yer kürəsinə çatanda görürlər ki, bir əncir ağacının altında ermənilər oturub dolma yeyirlər. Bərk təəccüblənib Allahdan soruşurlar ki, bəs bunlar kimlərdir, yerdə adamlar varmış ki? Allah da qayıdıb deyir, onlar məndən əvvəl yaranıblar.

Bu lətifənin arxasında dayanan bir məntiq var. Özlərini qədimdən qədim xalq elan edib hər bir saxtakarlığa gedən erməniləri incə sarkazmla yuyub sərən bu lətifədə həm də belə bir mesaj da var: "Bu qədər yalan və riya maskasına malik olan bu məxluqlar Allahın yaratdığı bəndələrdən deyillər, nədən, necə əmələ gəldikləri bir sirrdir".

Bu da nadanların Dro və Njde sevgilərinin təzahürü:

"**16-cı bölmə.** Ulu xalqımızın tarixi keçmişində ən şərəfli yerlərdən birini İkinci Dünya müharibəsində Üçüncü Reyxə xidməti tutur. Kitabımızın ən maraqlı hissəsindəyik. Getdik!

Hitler Almaniyası ilə müttəfiqlik, onun müstəqilliyinə qənim kəsilən Sovet Rusiyasından bu yolla qisas almaq o zaman gözəl baş tutdu, erməni xalqı Sovet xalqına və onun müharibədəki müttəfiqlərinə kifayət qədər zərbələr vura bildi.

Ermənistanın Paşinyandan öncəki baş naziri Serj Sarkisyan 2017-ci ildə Almaniyaya – baş nazir Markellə görüşəndə ona faşizmə xidmət etmiş ermənilər, Vermaxtın erməni legionu barədə müfəssəl məlumat vermişdi, bunu da Avropa ölkələrinin liderləri, o cümlədən Rusiya prezidenti Putin pis qarşılamışdı. Faşizmdən ən çox əziyyət çəkdiyini bildirən yəhudilər və ruslar bu jesti pisləyərək hətta etiraz yürüşləri də etmişdi. Etsinlər də. Külək dağdan nə aparar?

Sarkisyanın dövründə Yerevanın paytaxtında Qaregin Njdeyə abidə ucaldıldı. Xaqımız hazırda qəhrəmanımızın ad günündə bu abidəni ziyarət edir, ona təzim edərək önünə tər çiçəklər qoyur. Njdeyə mavzoley tikilməsi, mavzoleyin ziyarət yerinə çevrilməsi isə qədribilən xalqımızın öz qəhrəmanlarına sədaqətinin ifadəsidir.

Nikol Paşinyan isə Sarkisyandan da uzağa gedərək bu yaxınlarda babasının faşistlərə xidmət etməsi ilə qürur duyduğunu bildirdi. Paşinyan general Dro və Qaregin Njde kimi milliyyətcə erməni olan reyx xadimlərinə aşkar rəğbət bəsləməsi ilə tanınmaqdadır.

Vermaxtın erməni legionunun fəaliyyətinə bizim Ermənistanın əvvəlki və indiki hakimiyyətləri tərəfindən daim bəraət qazandırılıb. Hətta Sovetlər dönəmində də bu rəğbət gizli şəkildə olsa belə, yenə də olub. Ermənistanın birinci katibi Karen Dəmirçiyanın babası da erməni legionunda faşizmə xidmət edib.

Xatırladaq ki, erməni legionu Vermaxtın tərkibində erməni xalqının nümayəndələrindən ibarət işğalçı dəstə olub. "Böyük Ermənistan"ın yaradılması – erməni faşizm ideoloqlarının Hitlerdən yeganə umacaqları idi.

Vermaxta xidmət edən əsas qəhrəmanlarımız isə iki nəfər idi. Dro və Njde. Şərəf tariximizin ən şərəfliləri. Qəhrəmanlıq tariximizin ən qəhrəmanları.

Bu şəxsləri daha yaxından tanıyın.

**Dro.**

General Dro kimi tanınan Drastamat Kananyan. Erməni dövlət xadimi, hərbi xadimi, fədaisi.

1883-cü ildə İrəvan quberniyasında anadan olub, 1956-cı ildə ABŞ-ın Boston şəhərində dünyasını dəyişib. İrəvan gimnaziyasında təhsil aldıqdan sonra Dro Pyatiqorsk şəhərində hərbi təhsil alıb, 1903-cü ildə siyası baxışları onu "Daşnaksutyun" partiyasına qoşulmağa vadar edib. 1905-ci ildə qəhrəmanımız ilk ciddi partiya tapşırığını layiqincə yerinə yetirib. Belə ki o, Bakıda meydana gələn erməni-müsəlman qırğını zamanı ermənilərin ölümünə görə günahkar sayılaraq daşnakların fitvasını verdikləri şəhər qubernatoru Nakaşidzeyə qarşı sui-qəsddə iştirak edib, onun faytonuna öz əlləri ilə bomba atıb. Partlayış nəticəsində qubernator həlak olub. Çar jandarmları tərəfindən axtarılan qəhrəmanımız Qafqazdan qaçıb, bir müddət İranda və Türkiyədə yaşayıb, Türkiyədəki erməni dəstələri üçün silah qaçaqmalçılığı ilə məşğul olub.

Birinci Dünya müharibəsi başlananda Dro türklərə qarşı nifrətini büruzə verərək türklərlə vuruşan, türk əhaliyə qarşı kütləvi qırğınlar törədən erməni dəstələrindən birinə başçılıq edib. 1918-ci ildə Erməni Milli Məclisi "general" təxəllüsü verdiyi və general rütbəsiylə mükafatlandırdığı Dronun qarşısında Ararat dağını tutmaq vəzifəsi qoyub, həmin ilin aprelində qurulan Ermənistan Demokratik Respublikası rəhbərliyi onu "Qərbi Ermənistanın hərbi komissarı" təyin edib. Qars cəbhəsində şərəflə vuruşan qəhrəmanımız həmin il Ermənistan Müdafiə naziri təyin edilib. 1918-ci ildə "Dro"-nun silahlı qüvvələri İğdır bölgəsinə hücuma keçib, amma Məlakli-Taşburun arasında gedən döyüşlərdə türklərə məğlub olublar. Əsir düşməkdən son anda canını qurtaran Dro yeni qüvvə toplayıb. O, 1920-ci ildə bu dəfə Qarabağda Azərbaycan ordusuna qarşı

döyüşlərdə iştrak edib, təəssüf ki, yenidən məğlubiyyətə uğrayaraq geri çəkilib.

Daşnak hökuməti süquta uğrayandan sonra, 1921-ci ilə qədər Dro Sosialist Ermənistanının ordusuna rəhbərlik edib. Amma fikri-zikri müstəqillikdə olub, bolşevizmə, sovetlərə nifrət edib. Əsl erməni gedişi. Çiynində onların paqonu, əlində onların kəsən qılıncı, içində isə onlara nifrət, beynində onlardan qisas almaq planları. Bolşeviklərə qarşı daşnakların 1921-ci ilin fevralında qaldırdığı üsyanda Dro aktiv iştrak edib, üsyan yatırıldıqdan sonra Ermənistandan qaçıb. Həmin illərdə Dro Bolqarıstan, Amerika və Yunanıstanda müxtəlif ünvanlarda yaşayıb. İkinci Dünya müharibəsi başlayanda sovetlərdən, ruslardan intiqam almaq zamanı yetişdiyini anlayaraq o, yetirməsi sayıla Njde ilə birlikdə faşistlərin tərəfində döyüşüb və erməni hərbi birləşmələrinin – erməni legionlarının təşkilində fəal iştirak edib. Dro kəşfiyyat və diversiya məqsədləri üçün ermənilərdən ibarət “Dromedar” təşkilatı tərəfindən koordinasiya edilən qruplar da yaradıb, bu təşkilata rəhbərliyi bilavasitə həyata keçirib. Erməni legionlarının yaranmasında, erməni-faşizm müttəfiqliyində Dronun 1942-ci ilin dekabrında faşizm lideri Henrix Himmlerlə görüşü müstəsna rol oynayıb. Himmlerin və General Dronun çağırışı ilə otuz minə qədər ermənimiz alman ordusuna qatılıb və döyüşlərdə iştirak edib.

Faşist Almaniyası müharibədə məğlub olduqdan sonra Dro Avropanı tərk edərək gizlənib. SSRİ onu amansız vətən xaini hesab edirdi, KQB-nin hazırladığı siyahıda ən önəmli hərbi canilər arasında həmyerlimiz başda yer alırdı, bu səbəbdən Ermənistana gedə bilməzdi. ABŞ, İsrail və SSRİ müharibə canilərinin ovuna başladığından Dro yaxalanmamaq üçün gözdən uzaq olan Livana gedib, bir müddət Beyrutda gizlənib. Xeyli sonra livanlı erməni diasporunun yardımları sayəsində “mühacir” statusunda ABŞ-a köçüb, özü ilə bütün ömrü boyu rahat yaşamağa bəs edəcək qədər sərvət də götürərək Boston şəhərində yaşamağa başlayıb. İş ondadır ki, qəhrəmanımız 1918-20-ci illərdə azərbaycanlıları qırarkən, 1942-45-ci

illərdə yəhudiləri tutub faşist düşərgələrinə yollayarkən mənzillərə boşuna girmirdi, ən böyük pul əsginaslarını, ən bahalı qızıl-brilyantı qənimət kimi götürdü, yığdıqları onu hədsiz varlandırmışdı.

Böyük Dro 1956-cı ildə yetmiş iki yaşında vəfat edib, Massaçustesdə basdırılıb. Böyük erməni vəfat edərkən "Yaşasın müstəqil Ermənistan!" deyə hayqırıb.

1990-cı illərdə Ermənistan müstəqillik əldə edəndə yenidən dirçələn millətçilik hərəkatı liderləri Dronun nəşinin qalıqlarının Ermənistana gətirilib dəfn olunması məsələsini qaldırıblar. Onun qalıqlarının Ermənistana gətirilməsi üçün erməni diasporuna yardım çağırışı edilib. Qısa müddət ərzində bu işə bir milyon dollar toplanılıb və Yerevana göndərilib. 2000-ci ildə prezident Robert Köçəryan Dronun sümüklərinin Ermənistana gətirilib Aparan şəhərində, piramida şəkilli abidə-məzarda dəfn edilməsini təşkil edib.

Hər gün yüzlərlə erməni bu məzara baş çəkib xalqın böyük qəhrəmanını yad edir. Qəhrəmanlar unudulmur axı.

**Njde.**

Erməni nasist ideologiyasının banisi, faşist Almaniyasına layiqincə xidmət göstərmiş Qaregin Njde kimi tanınan Qaregin Yeqişeviç Ter-Arutyunyan.

1886-cı ildə Çar Rusiyasının İrəvan quberniyasının Naxçıvan uyezdinin Kuznut kəndində, ruhani ailəsində dünyaya gəlib. Rus məktəbində ilk təhsilini aldıqdan sonra Tiflis gimnaziyasında təhsilini davam etdirib, sonra da Peterburq universitetinin hüquq fakültəsinə daxil olub, amma təhsilini bitirə bilməyib, siyasi proseslərə biganə qala bilməyən qəhrəmanımız marksist inqilabçılarla əlaqəsinə görə universitetdən xaric edilib. Canı ilə, qanı ilə millətçi olan Njde 1904-cü ildə erməni xalqının mayakı olan "Daşnaksutyun" partiyasının sıralarına qəbul olunub. 1906-cı ildə Bolqarıstana gedib, daşnakların gizli fəaliyyət göstərən hərbi məktəbində təhsil alıb. Dörd yüz erməni və bolqara hərbi təlim verib onları Osmanlı İmperiyası ərazisindəki Şərqi Ermənistan və Makedoniya – Bosniya bölgələrinə qiyamlar yaratmaq üçün göndərən bu məktəbdə Njde dərhal seçi-

lib, bölmə lideri olub. Məktəbi bitirdikdən sonra o, Qafqaza qayıdıb, ümumermәni cəbhəsinə üzv olub, Murad Sebastatsinin dəstəsində erməni xalqının azadlığını boğan çarizmə qarşı qisas aksiyalarında iştirak edib. 1909-cu ildə çar hakimiyyəti terror fəaliyyətinə görə 163 daşnak fəalımızı, o cümlədən də Njdeni həbs edib, 1912-ci ilədək qəhrəmanımız Culfa, Naxçıvan və Peterburq həbsxanalarında yatıb. Həbsdən azad olunan kimi o, millətçilik üçün daha əlverişli mühiti olan Bolqarıstana keçib. Orada Birinci Balkan müharibəsində bolqarların tərəfində türklərə qarşı vuruşub, Andraniklə birgə yüzlərlə könüllü ermənini bolqar ordusuna gətirib ki, türkləri sarsıtsınlar. 1913-cü ildə qəhrəmanımız ikinci erməni rotasının komandanı təyin olunub. Belomorye vilayətində Yavər paşanın komandanlıq etdiyi türk ordusu ilə döyüşdə qəhrəmanlığına görə ona Bolqarıstanın və Yunanıstanın ordenləri, Balkan xalqlarının qəhrəmanı adı verilib.

Birinci Dünya müharibəsi başlayanda Njdeyə çar amnistiya verib, o, Rusiyaya qayıdıb, çar ordusundakı könüllü erməni drujinasına başçılıq edib. Sonra Rus ordusunun erməni-yezid bölməsinin komandiri oldu. Birinci erməni alayının tərkibində Türkiyə ərazisində, Qərbi Ermənistanda döyüşlərdə göstərdiyi şücaətə görə çar tərəfindən Müqəddəs Vladimir ordeni ilə təltif olunub, porutçik rütbəsi alıb.

Njde təpədən-dırnağa millətçi və hərbçi olub, 1918-ci ildə Ermənistan müstəqillik elan edəndə bunu şövqlə qarşılayan, proseslərin içində olan qəhrəmanımız yüksək hərbi vəzifə daşımağa başlayıb, erməni ordusunun komandanı Dronun sağ əli, müavini təyin edilib. 1918-1919-cu illərdə o türklərin qisasını bu türklərdən almaq zamanı yetişəndə Njde Andraniklə birgə Vedibasarda və Zəngəzurda azərbaycanlılara qan uddurub. 1919-cu ildə Qafan rayonunda hərbi rəhbər təyin olunub. 1920-ci ildə bolşeviklər Ermənistanı ələ keçirəndə Njde onlara qarşı mübarizəyə başlayıb, ona erməni milli ordusunun baş komandanı fəxri adı olan “snarapet” adı verilib. Njde Sovet Ordusunda sabotaj və casusluq işlərini təşkil edirdi, əhali ara-

sında əks-təbliğat aparırdı. Zəngəzurda Sovet hakimiyyəti əleyhinə qiyamını da o təşkil edib, bolşevik ordusunun bir alayını əsir götürüb, qırmızı ruslara divan tutub, başlarına oyun açıb. Njde təkcə bu üç il ərzində şəxsən 400 türkü və azərbaycanlını, bolşevik rusu və bolşevik ermənini güllələyib. İnanılmaz nəticədir, əsl qəhrəmanlıq nümunəsidir!

Lenin Njdenin varlığından bərk vahiməyə düşdüyündən onun üstünə böyük qüvvə göndərib, ordusu məğlub olanda Njde İrana qaçıb. Oradan da vaxtı ilə qəhrəmanı olduğu Bolqarıstana gedib, paytaxt Sofiyada yaşamağa başlayıb. "Tseqakron" gənclər qrupunu yaradıb, gənclərə millətçilik dərsi verib, onları azadlığa kökləyib, türkə düşmən ruhunda formalaşdırıb. Nəticədə minlərlə erməni gənci millətçi kimi formalaşıb. Njdenin "Tseqakron"u elə özlüyündə faşizm kimi bir ideologiya idi. Həmin illərdə Njde çoxlu kitablar da yazıb, dünya ermənilərinin lideri funksiyasını öz üzərinə götürüb. Armenizm ideologiyası da Njdeyə məxsusdur, armenizmin mənası "Ermənistan – ermənilər üçündür" formulasıdır. O, Bolqarıstanda erməni millətçi partiyasını da yaradıb. Ardınca Erməni Milli Şurasını da təsis edib.

İkinci Dünya müharibəsində Fulxandanyan, Baqdasaryan, Davidxanyan, Papazyan, Njde, Dro və Dartovmasyandan ibarət Erməni Milli Şurası yaradılıb, bu heyətlə nasist Almaniyasına xidmət edəcək erməni legionu yaradıblar. Njde və Dro erməni legionuna başçılıq edərək faşist Almaniyasının tərəfində sovet əsgərlərinə qan uddurub. Sonra müharibənin çarxı çevrilib, ruslar faşistlərə üstün gəlməyə başlayıblar. Xəyanət və satqınlıq deyə bir şey yoxdur, bu, bir yaşamaq taktikasıdır. Sovet qoşunları Bolqarıstanı faşistlərdən azad edəndə Njde sovet qoşunlarının başçısı general Tolbuxinə əməkdaşlıq təklif edib, deyib ki, "Türkiyəylə müharibə edin, mən gedim türkləri qırım". Amma qisasçı sovet rejimi nasistlərlə əlaqəsi tam sübut olunduğu üçün Njdeni 1945-ci ilin oktyabrında həbs edib, Moskvaya – Lyublyanka həbsxanasına salıb. 1946-cı ildə Njde Yerevan həbsxanasına köçürülüb. 1947-ci ildə məhkəmə ona ən ağır cə-

zanı kəsib. Sovetlərdə güllələnmə cəzası qadağan idi deyə o, 25 illik həbs cəzası alaraq Vladimir həbsxanasına göndərilib. 1955-ci ildə vərəm xəstəliyindən həbsxanada vəfat edib. Ermənistandakı satqın sovet rəhbərliyi onun nəşini vətəninə gətirməyə qoymayıb, qəhrəmanımız yiyəsizlər qəbristanlığında dəfn olunub. Amma sonradan əsl ermənilər Ermənistanda hakimiyyətə gəldikdə Njdenin nəşinin qalıqları Ermənistana gətirilərək üç yerdə basdırılıb. Ona Qafanda – Xustup dağında memorial ucaldılıb, ziyarətçilər memorialı ziyarət edəndə iki dəfə məzarının ətrafında dövrə vururlar, kahinlər də ziyarətçilərə söyləyir ki, Njde əsl peyğəmbər olub.

Njdenin Yerevanın mərkəzindəki abidəsi bürüncdən tökülüb, 5,75 metr hündürlüyündədir. Ermənistan Ordusunun mükafatlarından biri “Qaregin Njde” medalı adlanır. Njdenin haqqında çoxlu bədii, sənədli filmlər çəkilib, kitablar yazılıb. Onun fotoları ilə bəzədilmiş açıqcalar, poçt markaları çıxır, onun adına 100 dram dəyərində qızıl sikkələr buraxılır.

Bax, şərəfli ömür yolu keçmiş qəhrəmana xalq səcdəsi danılmazdır. Biz – bu kitabın müəllifləri də Njdeyə oxşamağa uşaqlıqdan and içmişik. Onun kimi millətimizi sevək, onun kimi türkə nifrət edək, onun kimi qətiyyətli, mərd olaq, bu, bizim amalımızdır. Hətta işə baxın ki, bir-birimizi tanımadığımız dönəmlərdə hər üçümüzün otağında Njdenin portreti asılıb. Bəlkə də, bu cür həmfikir olmağımızda Njdenin böyük rolu olub.

İndi də erməni legionunun tarixinə keçid edək. 1941-ci ildə Hitler Almaniyası SSRİ-yə qarşı müharibəyə başlayanda Avropada yaşayan bizim millətçilər Böyük Ermənistan planlarının gerçəkləşdirmək üçün fürsət yarandığını gördülər. Onlar Avropanı işğal etməyə yaxın görünən almanlara ermənilərin almanlarla tarixən eyni bir kökə malik olmaları, hər iki xalqın ari köklü olması versiyasını bildirməklə faşizmə olan meyillərinə don geydirdilər. Bildirdilər ki, Qafqazın bir hissəsi və Türkiyənin qərb hissəsinin 95 faizi erməni əhalisindən ibarətdir və ermənilər müstəqillik əldə etsələr, Hitlerin sadiq təbəələri olacaqlar.

Reyx rəhbərliyinə yol tapmaq prosesində general Dro xüsusi fərqləndi. 1942-ci ilin dekabrında Dro və erməni yazıçısı Qaro Gevorkyan Henrix Himlerin qəbulunda oldular və ona pastor Lepsiusun "Erməni xalqının ölümcül yürüşü" kitabını təqdim etdilər. Himler görüşdən məmnun qalıb Hitleri bilgiləndirdi, Hitler xalqımız barədə məlumatlarla tanış olub xalqımızın kökünün tam araşdırılmasını məqsədyönlü sandı, bu xüsusda nasist partiyasının ideoloqlarından olan Alfred Rozenberqə tapşırıqlar verdi. O da SSRİ-nin Şərqşünaslıq İnstitutunun direktoru olan doktor Artaşes Abegyana ermənilərin antropologiyasını və tarixini tədqiq etmək üçün komissiya yaratmağı tapşırdı, bu komissya tezliklə Hitleri lazımi aktlarla təchiz etdi. Xüsusən xalqımızın ari kökü, Osmanlı və Rusiya imperiyaları daxilində vaxtı ilə törətdikləri qiyam və terrorlardakı əzmkarlığı Hitlerə xoş gəldi, o, xalqımızla əməkdaşlığa girməyə razılıq verdi. Təcili Almaniyada olan erməni mühacirlərlə yığıncaqlar keçirildi, onlar SSRİ və Türkiyə dövlətlərinə qarşı təxribatlara yönəldildilər. Hitler ermənilərə SSRİ-yə qarşı müqəddəs müharibəyə hazırlaşmağı tövsiyə etdi.

"Gertrud planı" adlı alman-erməni razılaşmasına görə Türkiyə dövlətinə qarşı hücüm məqsədilə ermənilər Hitler Almaniyası üçün 100 minlik qoşun toplamalı idilər. Əvəzində ermənilərə Şərqi Anadolu və Kilikiya kimi Türkiyə əraziləri vəd olunmuşdu. Başqa məlumata görə, nasist Almaniyası bizim daşnaklara bütün bu xidmətlərinin qarşılığında həm Türkiyədə adı çəkilən əraziləri, həm də Qarabağı, Naxçıvanı və Axalkalaki bölgəsinin bir hissəsini söz vermişdi.

Erməniləri almanların tərəfinə cəlb etmək, onları Hitlerə xidmət etməyə çağırmaq məqsədilə Almaniyada "Hayastan" qəzeti təsis edildi. Qəzetin bütün redaksiya heyəti ermənilərdən təşkil olundu. Qəzet Üçüncü Reyxin təbliğat naziri Gebbelsin birbaşa nəzarətində idi. Njde vaxtaşırı qəzet məqalələri də yazırdı. Türkiyə dövlətinə qarşı alman planlarınının həyata keçməsində Njdenin yaratdığı "Tseqakron" təşkilatı əsas rol oynayırdı, onun köməyi ilə gənc ermənilərin faşist təşkilatlarının üzvləri olmasına şərait yaradılırdı.

1918-ci il erməni-daşnak hökuməti liderlərindən olan, xalqımızın daha bir qürur mənbəyi Xatisyan 1942-ci ildə ilk erməni olaraq rəsmən Hitlerin xidmətinə girdi. O, ermənilərin çoxluq təşkil etdiyi Qafqaz-Rostov vilayətində erməniləri səfərbər edib Sovet dövlətinin məğlub olmasına yaxından köməklik göstərmələrini təmin etmək üçün Armavir şəhərinə göndərildı. Həmçinin müharibə zamanı daşnaklarımız Qarabağ bölgəsinə yerli erməniləri Sovet hakimiyyətinə qarşı qaldırmaq üçün xüsusi hərbi qruplar və desantlar göndərdilər. Sərkərdəlik qabiliyyətli Dro və Njde isə komandirlər qismində faşistlərin tərəfində döyüşür, habelə erməni hərbi birləşmələrinin təşkilində fəal iştirak edirdılər. Dro kəşfiyyat və təxribat məqsədləri üçün Simferopolda yerləşən “Dromedar” millətçi erməni təşkilatı tərəfindən koordinasiya edilən erməni ordusu da yaratmışdı, ona rəhbərlik edirdı. Tezliklə Dro Alman ordusunda – Vermaxtda ermənilərdən təşkil olunan 812-ci taborun rəhbəri təyin edildi. Dro 1942-ci ildə gizlicə Krıma getdi, Krım daşnak bürosuna rəhbərlik etdi. Almanların Qafqaz və Türkiyənin, xüsusən neftlə zəngin Bakının işğalı üçün strateji planlarının işlənməsində nasist partiyasının əsas ideoloqu Alfred Rozenberqi gizli məlumatlara təchiz etdı.

Bir qədər irəli gedərək onu da deyək ki, Bakının almanlar tərəfindən işğalı bizim ermənilər üçün xüsusən önəmliydi, hətta təxribat məqsədiylə 6 nəfər ermənimiz paraşütlə Azərbaycana da atılmışdı. Lakin əfsus ki, onlar Gəncədə, Xanlarda və Dəstəvurda tutularaq ifşa edilmışdilər.

Sovet ordusu tərəfində müharibəyə yollanıb almanlara əsir düşən, habelə mühacirətdə olan ermənilərdən təşkil olunan 11 döyüş batalyonundan ibarət erməni legionu mübaliğəsiz demək olar ki, döyüşlərdə özünəməxsus qəddarlığı ilə seçilmişdir. Onlar faşist ordusu tərkibində Krımda, Şimali Qafqazda və Hollandiyada mərdliklə döyüşmüşlər. Erməni legionunun şərəfli tarixini qısaca olaraq sizlərə ərz edək.

1942-ci ildə Stalinqrad döyüşü ərəfəsində Üçüncü Reyxin silahlı qüvvələrinin ali komandanlığı erməni legionu yaradılması barədə

əmr verdi. 1942-ci ilin sonunda Polşadan cəbhəyə ilk erməni batalyonları *(808-ci və 809-cu)* yola salındı.

1942-ci ilin mayında Polşanın Radom şəhəri yaxınlığındakı düşərgədə ilk erməni legionu yaradıldı, bu, birinci atıcı briqada idi. Onun adı "Vartan Zoravar", əsgərləri isə Vartanank adlandırıldı. İyunun 20-də Pulavsk şəhərinin mərkəzi meydanında faşist komandanlığının nümayəndələrinin iştirakı ilə ermənilərimiz hərbi and içdilər, Allaha və Adolf Hitlerə and içib axıradək nasional-sosializmə sədaqətli olacaqlarını bildirdilər. Almanlara xidmət göstərən erməni legionunun döyüşçülərinin hərbi andını siz də əzbərləyin, əziz oxucularımız: "Tanrı və Adolf Hitler qarşısında and içirəm ki, alman dövlətinə və erməni torpağına sadiq olacağam. Son damla qanıma qədər nasional-sosializm ideyaları uğrunda bolşeviklərə və imperialistlərə qarşı mübarizə aparacağam".

Həmin gün çox gözəl bir gün idi, şərəf günü idi. Pulavsk meydanında faşist Almaniyasının və Ermənistanın bayraqları asılmışdı.

Erməni legionundakı döyüşçülər Alman ordusunun əvvəlki – 1939-cu ildəki formasını geyirdilər, tünd yaşıl paqonlar, boz petlisalar, qollarına vurulmuş erməni bayrağı fonunda "armenian" sözü, pilotkalarında girdə kokarda fərqləndirmə nişanları sayılırdı.

1943-cü ilin əvvəlində ilk batalyonların ardınca 810-cu, 812-ci və 816-cı, 1943-cü ilin ikinci yarısından 814-cü, 815-ci və 817-ci batalyonlar yaradıldı. Erməni legionunda ən çox "Zeytun" adını almış 809-cu batalyon məşhur idi. 913 erməni və 45 almandan ibarət olan, almanların 128-ci qrenadyor alayının və 48-ci piyada diviziyasının bir hissəsi sayılan bu batalyona alman Herman Bekker başçılıq edirdi. Bu hərbi birləşmə Şimalı Qafqazda – Nalçik və Mozdok döyüşlərində, eləcə də Krımda – Kerç yarımadasının müdafiəsində uğurlar qazanmışdı. Xüsusən Kuban vilayətinin müdafiəsində böyük uğur əldə edilmiş, çoxsaylı sovet əsgəri öldürülmüşdü. Erməni legionçularımıza "Kuban qalxanı" nişanı təqdim olunmuş, ən fərqlənənlər isə general-feldmarşal Evald fen Kleyst tərəfindən minnətdarlıq almış, Dəmir Xaç və Şərq medalları ilə təltif olunmuşdular.

"Zeytun" batalyonunu Reyxstaq 1943-cü ilin oktyabrında Niderlanda atdı, onlar Atlantik həlqəsini müttəfiqlərdən qorumalı idilər. Sissonda təlimlər keçib legionçularımız 1944-cü ilin əvvəllərində Belçikaya adladılar. Avqustda Normandiyaya gəlib çatdılar, amma müttəfiqlərlə – ingilis, amerikalı və fransızlarla döyüşlərdə məğlubiyyətə düçar olmaqla qəhrəman batalyonumuz öz mövcudiyyətini itirdi.

Ümumən bu dövr ərzində cəbhəyə ümumi sayı 33 000 nəfər olan erməni döyüşçüsü göndərildi. Əlində silah cəbhədə vuruşan səhra batalyonlarından kənar müharibə dövründə erməni hərbi əsirlərindən alman ordusuna xidmət edən, ancaq döyüş əməliyyatlarında birbaşa iştirak etməyən 22 tikinti, dəmiryolu, nəqliyyat və digər köməkçi yarımbölmələr də formalaşdırılmışdı, bu da millətimizin faşizmə sədaqətinin bariz nümunəsidir. Bəzi məlumatlara görə, Üçüncü Reyxdə xidmət edən ermənilərimizin sayı 27 000 nəfər olmuşdur, onlardan 3000 nəfəri isə hətta çox irəli gedərək elit birləşmələrdə – SS və "Abver" kəşfiyyatında xidmət etmişlər. Onların ayrı-ayrı nümayəndələri hətta Reyxdə rəhbər vəzifələrədək gedib çıxmışlar. Ştandartanfürer Vartan Saakyan, qruppenfürer Razmik Nazaryan, kapitan Misak Torlakyan erməni xalqının qüruru və iftixarıdır.

Təsəvvür edin ki, müharibə dönəmində İosif Stalin başda olmaqla SSRİ rəhbərliyi bizim ermənilərin qorxusundan necə tir-tir əsirmiş. Xalq daxili işlər komissarı Beriya Stalinə yazırdı: "İosif Vissarionoviç, alman ordusu tərəfindən yaradılan erməni legionu casusluq və pozuculuq işləri üçün qırmızı ordunun arxa cəbhəsində bir neçə erməni komitəsi yaradıbdır, müstəqil Ermənistanın təbliği istiqamətində iş aparırlar. Dünya erməniləri bir ucdan Almaniyanın hərbi ehtiyaclarına sərf etmək üçün vəsait toplayırlar".

İkinci Dünya müharibəsində millətimizin daha bir cahanşümul işi əbədi düşmənimiz olan yəhudiləri cəzalandırmağımız olub. Bir baxın, bu xalq hazırkı dövrdə – İkinci Qarabağ müharibəsində yenə də bizim əksimizə gedir, Azərbaycana müttəfiqlik edir, onu silahla

təchiz edir. O vaxt kaş ki, Hitler onlara qarşı başladığı soyqırımını axıra çatdıra biləydi!

Berlində çıxan 19, 20, 21 avqust 1936-cı il tarixli "Hayastan" qəzetində erməni müəlliflərimiz yəhudilərin "zəhərli və xroniki bir xəstəlik" olduqlarını yazmış və Hitlerin xilaskar olduğunu ifadə etmişdilər. Bu, bir antiyəhudi çağırış idi. 1942-ci ilin sonlarında Erməni Milli Şurasının erməni legionu ilə birləşməsi nəticəsində erməni batalyonları çox sayda yəhudinin qırılmasında əsas rollardan birini oynadılar. Erməni əsgərlərinin çoxundan yenicə istila edilmiş torpaqlarda hərbi polis kimi istifadə olunurdu. Erməni əsgərlərə almanların siyahısında olan bütün yəhudiləri tutmaq tapşırığı verilmişdi. Ermənilərimizin casusluq fəaliyyəti üçün "Aynxait Şturm" qrupu yaradılmışdı ki, onlar sovet ordusuna arxadan zərbə vurmağın yollarını axtarmaqla yanaşı, əsirlərin içərisində yəhudiləri aşkar etməli idilər. Bu qrupla yanaşı 106 saylı oberqrup yaradılmışdı ki, Stepanyan və Sərkisyan adlı iki ermənimiz ona rəhbərlik edirdi.

Bizim ermənilərin "Modus Vivendi" təşkilatının Ermənistanda yerləşən mərkəzinin sədri cənab Ara Papyan təsadüfi deyil ki, yazmışdı: "1915-ci ildə erməni xalqına qarşı türklərin həyata keçirdiyi soyqrımı yəhudilərin planı əsasında olub. 1604-cü ildən bu günə qədər ermənilərin bu günə düşməsinin səbəbi yəhudilərdir və onlar 1918-ci ildə Azərbaycanı işğal etməyimizin də qarşısını aldılar. Biz də İkinci Dünya müharibəsində onlardan öz qisasımızı aldıq."

Biz ermənilər bununla tam qürurlanmalıyıq: Hitler SSRİ-nin qeyri-rus əhalisindən legionlar yaratmaqla Sovet Ordusunu parçalamaq qərarı verəndən sonra qısa müddətdə tatar, ukraynalı, belarus, latış, gürcü, hətta düşmənimiz azərbaycanlılardan ibarət legionlar yaradıldı. Amma bunların hamısının ömrü çox qısa oldu. Yeganə uzunömürlü legion isə bizim erməni legionu oldu.

Faşizm sözü dünyanı lərzəyə gətirir, dünya bu sözə nifrətlə yanaşır. Amma biz ermənilər üçün bu söz doğma və müqəddəsdir. Erməni millətçiliyi ilə faşizm – əkiz qardaşlardır, bir almanın iki üzüdür."

Aman Allah!

On milyonlarla insanın ölümünə səbəb olan, döyüş meydanlarında, əsirlikdə, konslagerlərdə 27 milyon hərbi xidmətçinin həyatını sona yetirən, bundan başqa 25 milyona yaxın dinc əhalinin həyatına son qoyan müharibədə faşist cəlladlarının silahdaşları olmaları ilə fəxr edən bir xalqdan nə gözləmək olar axı?!

Hətta müasir almanlar özləri belə faşizm tarixlərindən utandıqları halda, Adolf Hitlerin adını aşağıladıqları halda bu xəstələr faşizmə xidmətləri ilə qürurlanırlar, Njdeni peyğəmbər adlandırıb ona təzim edirlər.

Xəstədirlər, çox ağır xəstədirlər, can verən xəstədirlər.

P.S.-im xeyli uzun alındı, onlara faşizmin cinayətləri barədə geniş yazdım, bu cinayətə şərik olduqları üçün ermənilərin digər xalqlar qarşısında başıaşağı gəzməli olduqlarını vurğuladım.

İngilis tədqiqatçısı Xristofer Valkerin “The Survival of a nation” adlı kitabından maraqlı bir sitat gətirdim: “Mənə elə gəlir ki, Adolf Hitlerə faşist olmağı Mussolini yox, ermənilər və onların papazları-patrikləri – vazgenləri öyrətmişdilər”.

Bundan sonra isə erməni xəyanətinin daha bir simasını açdım. Alman mənbələrindən iqtibas gətirdim ki, o zaman Hitlerin SSRİ-nin işğalı ilə nəticələnəcək müharibədən sonra Ermənistan SSR-ə müstəqillik verilməsi barədə ermənilərin xahişinə reaksiyası çox müdrik olubmuş, o, Reyx rəhbərliyinə bildiribmiş: “Belə bir şeyi ağlınıza belə gətirməyin. Nə müstəqillik? Çar Rusiyası, Osmanlı İmperiyası və SSRİ-yə qarşı üç dəfə xəyanət edən bir xalq mütləq dördüncü dəfə də bizə qarşı xəyanət edəcək!”

Və sonra da bu xəyanətin özünü çox gözlətmədiyini, elə müharibə dönəmində baş tutduğunu sübuta yetirdim: Faşizmə xidmət edən erməni legionlarından olan, tərkibində 916 erməni vuruşan 808-ci piyada batalyonu 1944-cü ildə Tuapse uğrunda döyüş zamanı rus əsgərlərinin üstünlüyünü sezib güllə atmağı dayandıraraq rusların tərəfinə keçmək barədə qərar qəbul etmişdi. Amma döyüşü hər halda almanlar qazanmışdı, döyüşdən sonra erməniləri satqınlı-

ğına görə Vermaxt cəzalandırmışdı. Onların silahları əllərindən alınmış, özləri də təmir-tikinti işlərinə cəlb olunmuşdu.

Hətta ermənilərin ən məşhur batalyonu olan 809-cu batalyonunu da sonda satqınlıq aqibəti gözləmişdir. Belə ki, Normandiya uğrunda döyüşdə ingilis-fransız-amerikalılardan ibarət müttəfiqlərin ordusu tərəfindən darmadağın edilən 809-cu batalyon təslim olub müttəfiqlərin bayrağı altına keçmişdir.

Satqınlıq və xəyanətin ermənilərdə təkcə başqa xalqlara qarşı olmaması, bir-birilərinə qarşı da olması faktı isə insanı daha dərindən düşünməyə vadar edir. İkinci Dünya müharibəsindən sonra həbs edilən Qaregin Njde İosif Stalinə ünvanladığı məktubunda öz ustadı hesab etdiyi komandiri General Dronun əleyhinə ifadələr işlədib, onun bütün cinayətlərini sadalayıb, "Mən vətən xaini Dronun Ermənistana yönəlmiş planlarını mümkünsüz etdim" cümləsi ilə özünü təmizə çıxarmağa çalışıbmış.

Budurmu sizin "şərəf tarixi"niz, ay şərəfsizlər?!

Xəyanət, satqınlıq, üzədurmaq. Güclülərin qarşısında kölə olub quyruq bulamaq, zəiflərin qanını içmək!

Murdarlıqla, çirkablıqla dolu utandırıcı bir tarix!

Heç nədə, hətta əyrilikdə belə düzgün ola bilməmək!

## Otuz üçüncü hissə

## MÜƏLLİFİN "GÖY ERMƏNİ KOSTYUMU" SİNDROMUNA BAXIŞI

Stepan İvanovun bu təəssübkeşliyi, bu qədər inadla həqiqətin yanında dayanması məni düzü çox təsirləndirdi. Yadıma əsgərlik həyatımız düşdü. 1970-71-ci illər... SSRİ-nin ən ucqar şimal qərb hissəsi. Kalininqrad vilayətinin Baltiysk şəhəri. Mən ali təhsil alma-

ğım səbəbindən il yarım xidmət keçirdim, yaşca Stepangildən böyük idim. Ali təhsilli olduğum üçün mənə hissənin təsərrüfat işlərinə rəhbərlik etmək həvalə olunmuşdu, eyni zamanda yeməkxananın ərzaqla təchiz edilməsi də mənim kurasiyamda idi.

Hərbi hissəmizdə müxtəlif xalqların nümayəndələri xidmət keçirdi. Amma heç bir milli ayrı-seçkilikdən söhbət gedə bilməzdi. SSRİ-də milli məsələ həll edilmişdi, ümumi bir sovet xalqı formalaşmaqda idi. Mən də milliyyətindən asılı olmayaraq hər bir əsgərə eyni gözlə baxırdım. Buna görə də hər kəsin yanında hörmətim var idi.

Stepan bir gecə ac qalmışdı, şam yeməyini ötürmüşdü, rotada vurnuxurdu, hiss edilirdi ki, aclığa tabı yoxdur. Onunla yaxınlığımız həmin gündən başladı, yeməkxananı açdırıb xahiş etdim ki, ona yemək versinlər. Gözləri dolmuşdu, təsirlənmişdi, dedi, sizin millət nə yaman xeyirxahdır belə, insanlıq naminə nizamnaməni belə pozmağa hazırsınız.

Hərbi hissəmizdə ermənilər də az deyildi. Düzü, çaqqal sürüsü kimi dəstə halında gəzirdilər, digər millətlərə elə də qaynayıb qarışmırdılar. Bir-iki dəfə onları ünsiyyətə çəkib ağızlarını aramaq da istəmişdim, bu qəribəliklərinin səbəbini öyrənməyə çalışmışdım. Tam qapalı idilər, dinib danışmırdılar. Amma bir dəfə, xidmətimizin sonlarına yaxın Aşot adlı bir erməni etiraf etdi ki, biz ermənilərlə siz türklər düşmənsiniz, 1905-ci ildə bizim dədə-babalarımızı qırmısınız. Düzü, hiddət və heyrət hissi məni bürüdü. Uşaqkən nənə-babalarımızın öz kommunist övladlarından çəkinərək ürkək-ürkək bizə erməni-müsəlman davasından danışması yadıma düşdü. Bir baxın, biz bu əhvalatları eşidib əsla ciddiliyinə almazdıq, amma bunlar bununla yaşayırmışlar. Üstəlik, günahkar özləri ola-ola, qanı özləri tökə-tökə bizi düşmən gözündə görürlərmiş.

Sən demə, hətta SSRİ-nin qılıncının ən iti kəsdiyi dönəmlərdə belə ermənilər millətçilik mərəzindən əziyyət çəkirmişlər, sadəcə bizlər, beynəlmiləlçi digər xalqlar bundan xəbərsiz idik.

Stepanın şahidi olduğu məlum terakt – 1977-ci ilin 8 yanvar tarixində Moskvada törədilən partlayışları həyata keçirən cinayət-

karların tapılması əhvalatı heç bilirsiniz necə baş verib? Məhz bu epizod erməni millətçiliyinin sovet dönəmlərində də aktual olduğunu, sadəcə, SSRİ rəhbərliyi tərəfindən ustalıqla ört-basdır edildiyini xəbər verir. Həmin gün Moskva vaxtı ilə saat 17:33-də İzmaylovo metro stansiyasında metro vaqonuna qoyulmuş bomba partlayanda, ardınca iki ərzaq mağazasında partlayış törədiləndə, 7 nəfərin öldüyü, 37 nəfərin müxtəlif dərəcədə xəsarət alması müəyyənləşəndə bütün şəhər lərzəyə gəldiyi halda, hadisənin yüzlərlə şahidi olduğu halda SSRİ-nin rəhbərliyi hadisəni ört-basdır eləmək siyasəti tutdu, hadisə barədə yalnız yanvarın 10-da məlumat verildi. Ölkənin ana xəbər agentliyi sayılan TASS *(Sovet İttifaqı Teleqraf Agentliyi – red.)* informasiya agentliyinin verdiyi xəbər çox qısa oldu: "İzmaylovo metro stansiyasında xırda partlayış olub, xəsarət alanlara tibbi yardım göstərilib. Hazırda istintaq gedir." Vəssalam. Digər iki partlayışın adları belə çəkilmədi. Hadisəni araşdıran Dövlət Təhlükəsizlik Komitəsi isə cinayətkarları axtararkən bütün diqqətini üç məkana yönəltdi. Bunlardan biri Rostov şəhəri idi ki, SSRİ-nin kriminal mərkəzi sayılırdı. Digər iki məkan isə Yerevan və Xarkov idi. Dərhal belə bir versiya ortaya çıxmışdı ki, terror aktını erməni və ya ukraynalı millətçilər törədə bilərlər. Çünki həmin dövrdə SSRİ-də cəmi iki gizli millətçilik ocağı mövcud imiş. Qərbi Ukraynada bəzi millətçi ünsürlər – benderlər millətçilik aksiyaları keçirirdi, ermənilərin "Daşnaksutyun" partiyası isə ümumerməni işi yolunda həyata keçirilən terrorlarla dünyanı vahimə içində saxlamaqda idi.

Tezliklə komitəçilər izə düşdülər. Belə ki, 1977-ci il oktyabrın sonunda Moskvanın Kursk vağzalında qəribə bir olay baş vermişdi. Milliyyətcə ləzgi olan bir şəxs öz qatarını gözləyərkən skamyada yiyəsiz qalmış və uşaqların açıb qurdaladıqları çantanın içinə boylanıb orada işə düşmüş saat mexanizmini görmüş, dərhal vağzal milisinə xəbər vermişdi. Çantanın içindən üzərində Ermənistanın gerbi olan göy idman kostyumunun pencəyi və 56 ölçülü qulaqlı papaq aşkarlanmışdı, ekspertiza zamanı qulaqlı papaqdan qara baş tükləri tapılmış, potensial terrorçunun qarasaç olması müəyyən edilmişdi.

Növbəti teraktın qarşısı beləcə alındı, dərhal Zaqafqaziya istiqamətində bütün milis sisteminə pencəyi olmayan göy idman şalvarındakı qarasaç insanın axtarışı tapşırıldı. Terrorçu çox güman vağzalda çantasını qoyub siqaret çəkməyə çıxmışdı, geri dönəndə milisin çantanı ələ keçirdiyini sezib aradan çıxmışdı. Az sonra Gürcüstan–Ermənistan sərhədində 55 saylı Moskva–Yerevan qatarının üçüncü vaqonunda göy idman şalvarındakı qarasaç insan aşkarlandı. Bu, 1949-cu il təvəllüdlü erməni fəhlə Akop Stepanyan idi. Yanındakı yoldaşı isə 1954-cü il təvəllüdlü rəssam Zaven Baqdasaryan idi. Onlar istintaqa Moskvaya nə səbəbə getdiklərini izah edə bilmədilər. Stepanyanın anası oğlunun çantasını dərhal tanıdı, axtarış zamanı Stepanyanların mənzilindən isə 8 yanvar teraktları törədilən partlayıcı qurğunun yenisi tapıldı. Beləcə, cinayət tam olaraq sübuta yetirildi. Bu iki şəxs ilk ifadələrindəcə istintaqa teraktların təşkilatçısının adını bəyan etdilər: Stepan Zatikyan! Onlar Zatikyanın qonşusu imişlər, terror aktına Zatikyan onları qorxudaraq, şantaj edərək məcbur etmişdi. Özü öncələr milli zəmində həbs həyatı keçirdiyindən avtoritet sayılırdı, hamı ondan çəkinir, hətta qorxurdu. Zatikyan Stepanyanla Baqdasaryana aşkarcasına tapşırıbmış ki, Ermənistanı işğal edib erməni xalqını əzdiyinə görə rusları cəzalandırmaq lazımdır. O, erməniləri çöllərdən yığıb onlara dövlətçilik bəxş edən ruslara qarşı bax, bu cür çağırış etmişdi.

Axtarsan, dünyadakı əksər üstü açılmamış terror hadisələri göy idman pencəyini hadisə yerində qoyub qaçan göy idman şalvarlı qarasaç şəxslər tərəfindən törədilib... Belələrinin bir milliyyəti var: erməni. Bəli, tək elə bu fakt erməni millətçiliyinin xroniki xəstəlik olaraq hər bir ermənini yoluxdurduğunu deməyə əsas verir. Əsgərlik yoldaşımın evində qalan erməni tələbələr də bu xəstəliyə yoluxmuş pasiyentlərdir. Erməni millətçiliyi artıq pandemiya şəklini alıb, hər şey fəlakət həddindədir. Bu xalqın nicatı indilərdə baş tutmasa, onların sonu puç olacaq. Özləri özlərini saxtakarlıq və vəhşilik fəaliyyətləri ilə bütün dünyadan təcrid edib nifrət qazanaraq heçliyə gömüləcəklər.

## Otuz dördüncü hissə

# MİŞA VƏ RAİSA

Bloka daxil olub enli pillələrlə mənzilimə qalxırdım ki, pilləkən meydanında hıçqıraraq ağlayan bir qıza tanış bir səsin “Belə alındı, üzürlü say. Bağışla məni” sözləri ilə təsəlli verməsini eşitdim. Yaxınlaşanda gördüm ki, kirayənişinim Stepandır, yaşıdı olmasını təxmin etdiyim bir qızla dayanıb. Məni görcək Stepan sanki ürəkləndi, dedi: “Stepan Arsenyeviç, bu mənim sevdiyim qızdır, Svetadır, məni institutda axtarıb, tapmayıb, bura gəlib, ona son vaxtlar diqqət ayırmadığım üçün inciyib məndən, ayrılmaq istəyir. Allah xatirinə, onu başa salın ki, mən necə vacib bir işlə məşğulam”.

Sveta gözündə yaş: – Əgər sənin məndən vacib işin varsa, qal öz işlərinlə. Mənsə sənin həyatından çıxıram, əlvida – söyləyib getmək jesti göstərdi, Stepan onun qarşısını kəsib yalvarmağa başladı ki, onu atıb getməsin.

İnsan münasibətlərində özümü arif adam sanıram, dərhal hiss elədim ki, bu qız bədbəxt kirayənişinim üçün çox əzizdir. Yalvarışlarında, qəhərlənməsində saxta bir şey yox idi, ürəkdən gəlirdi hər şey.

Qızın da ona sevgi bəslədiyi duyulurdu. Di gəl, qızın ayrılmaq qərarı da qətiydi, nələri qurban verdiyini duya-duya yenə də buna getməkdə israrlı idi qız.

Söhbətə qoşuldum, qızdan xahiş etdim ki, gəl, söhbəti mənzildə çay süfrəsi arxasında davam edək, qətiyyətlə “yox” dedi, artıq qərar verdiyini, bu qərarın müzakirə tələb etmədiyini bildirdi.

İdeoloji düşmənim olsa da Styopaya ürəyim yandı, baxma, üzüm-gözüm ona öyrəşmişdi, gör nə müddət idi, eyni mənzilin havasını udurduq. Mən insanlığın tərəfindəyəm, düşməni belə xoş rəftar göstərib dost etməyin tərəfindəyəm.

Qıza ata öyüd-nəsihətləri verməyə başladım, dedim, sevənlər yüz dəfə küsüb barışarlar, ayrılıq isə əli bıçaqlı qatildir, gələndə sevginin ölümünə fərman vermiş olur.

Nədənsə çox kövrəldim, hətta sarı hörüklərini kürəyinə atmış Svetoçkanı Qalinama oxşatdım, keçmiş sevgi dolu günlərimizi xatırladım... Bizim Vernadski prospektinin bir başında Qalinam yaşayırdı, o biri başında mən. Onu necə evlərinə ötürürdüm, bloklarının qarşısına çatanda necə əl uzadıb kişisayağı sağollaşardı, yanağımdan öpüb necə evlərinə qaçardı...

Əslində həyat çox qəddardır. Bir gün sevdiyin insanı adamın əlindən zor gücünə alır, heç “uf” da demir. Yaralayır, əzib-tapdalayır insanı. Qanının axmasını, yarasının qövr etməsini də sonsuz həzz duyaraq seyr edir.

Öyrəndim ki, beş ildir sevişirlərmiş, öncə virtual, sosial şəbəkə üzərində tanış olub bir-birilərinə bağlanıblarmış, sonra da Stepan instituta girib Moskvaya gəlmiş, ilk gəlişindəcə moskvalı Svetanı arayıb tapmışdı. Hər günləri, hər saatları belə birlikdə keçirirlərmiş. Kitabyazma bəlasına tutulandan Stepan qızı axtarıb aramamış, tez-tez görüntülü zəngləşmək, oxuduğu kollecdən evə yola salmaq, gül dəstələri hədiyyə etmək kimi ənənələri unutmuşdu. Svetanı ən çox incidən isə dünənki ad günündə Stepanın onu təbrik etməməsi olmuşdu. Gecə saat 12-yə kimi göz yaşları içində gözləmiş, bütün gün telefonunda “Stepanım” yazısı bərq vurmayanda qəti qərar vermişdi ki, ayrılsın. Bu gün də bu ünvana qərarını bildirməkçün üz tutmuşdu.

Nə illah elədim, qızı yola gətirə bilmədim.

Qız çıxıb getdi, donub qalmış kirayənişinimə “O kitab sizin axırınıza çıxacaq” tənbehini etməkdən başqa çarəm qalmadı.

Həmin axşam Artur həbsdə olduğu üçün iş prosesində yox idi. Sevdiyindən ayrı düşmüş Stepan key kimi oturmuşdu, donmuşdu, mimikasında bircə tərpəniş sezilmirdi. Qaqik onu ha dindirib, silkələyib prosesə qoşmaq istəsə də nəhayət vəziyyətlə barışıb ondan əlini üzmüş, kitabın davamını təkbaşına yazmağa girişmişdi.

Kitablarının növbəti fəsli müasir tarix idi, onlar Qarabağ savaşına keçmişdilər.

* * *

"**17-ci bölmə.** Artsaxın Azərbaycandan qoparılaraq azad edilməsi, ətraf rayonların da Azərbaycandan zor gücünə ələ keçirilməsi, əzəli və əbədi düşmənlərimizin tam məğlubiyyəti ilə nəticələnən Qarabağ savaşı yeni Ermənistan tarixinin ən qızıl səhifəsidir. Erməni özünüdərkinin oyanışı, Böyük Ermənistan yolunda tarix boyu ilk əhəmiyyətli addımdır.

Var olsun bu qələbənin həm ideoloqları, həm siyasət, həm hərb xadimləri, həm də əlində silah vuruşan fədailərimiz. Getdik!

Hər şey SSRİ-nin növbəti və sonuncu prezidenti Mixail Qorbaçovun personası ətrafında cərəyan etdi, odur ki, milliyyətcə erməni olmasa belə mənən erməni saydığımız bu dahi şəxsiyyətə də xalqımızın sonsuz minnətdarlığı var. Mişaya ermənilərin xüsusi rəğbəti var, onun həyat yoldaşı Raisanı hər bir erməni sevir, onlarla qürur duyur. Var olsun Artsaxı bizə qaytarmaq fədailəri olan bu iki şəxs! Eləcə də bu prosesin ideoloqu olan görkəmli akademikimiz Abel Aqanbekyan və görkəmli yazarımız Zori Balayan.

Öncə Qarabağ zəfərinin bu dörd əsas simalarının dosyesini sizlərə təqdim edəcəyik, əziz oxucularımız. Başlayaq Mixail Qorbaçovdan.

**Mixail Sergeyeviç Qorbaçov.**

Sovet İttifaqı Kommunist Partiyasının sonuncu baş katibi, SSRİ-nin ilk və son prezidenti. 1991-ci ildə SSRİ-ni uğurla dağıtması səbəbindən Nobel sülh mükafatına layiq görülmüş böyük siyasətçi. 1931-ci il martın 2-də Şimali Qafqazın Stavropol diyarında Privolnoye kəndində dünyaya gəlib. Erməni kökü yoxdur. Amma "Böyük Ermənistan" ideologiyasına ən böyük töhfələr vermiş şəxslər siyahısındadır.

Artsaxı nimçədə bizim xalqa ötürməyi ilə yanaşı Mişa 1990-cı il yanvarın 20-də Bakıda qətliam törətməklə də tarix yazıb.

Mişa M.V.Lomonosov adına MDU-nin hüquq fakultəsini *(1955)* və Stavropol Kənd-təssərüffatı İnstitutunu bitirmişdir *(1967)*. Kənddə yaşaması, kolxozçu ailəsində böyüməsi 13 yaşından kolxozda fəaliyyət göstərməsini, böyüklərə kömək etməsini şərtləndirmişdir. 15 yaşından traktor kombaynerinin köməkçisi kimi işləyən Mişa 1952-ci ildə partiyaya qəbul olunmuşdur. 1955-1991-ci ildən komsomol və partiya vəzifələrində fəaliyyət göstərmişdir.

1970-ci ildə Stavropol vilayəti Sov.İKP-nin birinci katibi, 1985-ci ilin mart ayından Sov.İKP MK-nın birinci katibi olmuşdur. 1991-ci il dekabrın 25-də artıq “mövcud olmayan Sovet rəhbərliyin”dən istefa verməklə SSRİ-nin ləğvini rəsmi olaraq təsdiqləmişdir.

1990-cı il martın 15-də Mişa SSRİ-nin prezidenti seçilmişdir. Eyni zamanda 1991-ci ilin dekabrından SSRİ Müdafiə Şurasının sədri, SSRİ Hərbi Qüvvələrinin Ali Baş Komandanı təyin olunmuşdur.

Mişa antialkoqol kampaniyası ilə, Əfqanıstanda müharibənin dayandırılması ilə gündəmə düşdü, ancaq onun hakimiyyətinin kulminasiyası olaraq yenidənqurma və aşkarlıq adı altında kütləvi reformlar və kampaniyalar qeyd edilməlidir. Sonralar bu dəyişikliklər ölkəni bazar iqtisadiyyatının tətbiq olunmasına, sosializmin dağılmasına, kapitalizmə keçidə, SSRİ-nin süqutuna gətirib çıxartdı. Çoxlu sayda qərb siyasətçiləri və jurnalistləri Qorbaçov reformalarını, ölkəyə demokratiya və aşkarlığın gətirilməsini, soyuq muharibənin qurtarmasını, sosialist düşərgənin dağılmasını və yenilənməsini, Almaniyanın birləşməsini ürəkdən alqışlayırdılar. Biz ermənilər isə Artsaxa qovuşa bildiyimizə görə ona təzim etdik.

Mişanın siyasəti lokal milli konfliktlərin yaranmasına gətirib çıxardı, hansı ki, Alma Atada gənclərin mitinqi dağıdıldı, Bakıya, Tbilisiyə, Vilnüsə ordu hissələri yeridildi, dinc nümayişlər dağıdıldı, Özbəkistanda Məshəti türklərinin qətliamı oldu. Biz də Artsaxı tələb edib xalq olaraq ayağa qalxdıq.

Mişa Şimalı Qafqazda doğulduğu, orada da çox sayda ermənilər yaşadığı üçün xalqımıza aşkar simpatiya bəsləyirdi, erməni əsilli Raisa Maksimovnayla ailə həyatı qurması da təsadüfi deyildi.

Mişanın Şaxnazarov və Sitaryan başda olmaqla bir çox erməniyə vəzifə verməsi, Dağlıq Qarabağ məsələsinin ideoloqu sayılan böyük akademikimiz Abel Aqanbekyanı özünə müşavir təyin etməsi də xalqımıza simpatiya bəsləməsi səbəbindəndir. Üstəlik, yenidənqurmanın yaşıl işıq yandırdığı dissidentlər hərəkatının başında duran akademik Saxarov da Mişanın yaxın silahdaşı sayılırdı ki, onun da həyat yoldaşı bizim ermənimiz idi – Yelena Bonner Əlixanyan.

SSRİ dağılandan – 1992-ci ilin yanvarından ta ki indiki zamanadək isə Mişa Sosial-İqtisadi və Siyasi Tədqiqatlar Fondunun prezidentidir. Eyni zamanda 1993-cü ilin martından Beynəlxalq Yaşıl Xaç Cəmiyyətinin idarə heyətinin sədridir.

Bu arada mütləq onu da qeyd edək ki, Qarabağ məsələsində bizim xalqın xeyrinə qərar verib azərbaycanlılar qarşısında guya balanslaşdırılmış siyasət aparırmış kimi "rol oynaması" Mişanın fitri aktyorluq məharətindən də xəbər verirdi. Təsadüfi deyil ki, o, 1993-cü ildə özü özünü Vima Vandersin "Belə uzaqdır, elə yaxındır!" filmində oynamışdır, həmçinin bir neçə sənədli filmlərdə iştirak etmişdir. 1997-ci ildə M.S.Qorbaçov hətta "Pizza Hut" pizza şirkətinin reklamında da çəkilmişdir.

**Raisa Maksimovna Qorbaçova.**

Mişanın həyat yoldaşı, SSRİ dövlətinin ilk və sonuncu birinci ledisi, SSRİ və Rusiyanın ictimai xadimi. 1932-ci il yanvarın 5-də Sibirin Rubtsovsk qəsəbəsində dünyaya göz açmışdır. Orta məktəbi qızıl medalla bitirmiş, Moskva Dövlət Universitetinə imtahansız qəbul olunmuşdur.

Raisa gənc yaşlarında ictimai fəallığı ilə seçilmişdir, həyatının ən ümdə hadisələri isə Mişa ilə ailə həyatı qurduqdan sonra baş vermişdir. Onlar universitetdə 1950-ci ildə tanış olmuşlar, 1953-cü ilin 23 sentyabrında tələbə yataqxanasının pəhriz yeməkxanasında toyları olmuşdur. Mişa möhtəşəm siyasi karyera qurduqdan sonra Raisa Avropa miqyasında fəal ictimai xadim olmuş, bir neçə universitetin fəxri doktoru adını qazanmış, fəlsəfə elmləri namizədi titulunu qazanmışdır. Raisanın ata tərəfi etnik ukraynalılardır, babası

Andrey Titarenko sovetləri sevməyib, həbsxana həyatı yaşayıb. Ata nənəsi Mariya Maksimovna olub. Ana tərəfi sibirlilərdir, ana babası Pyotr Parada çox varlı kəndxudaydı, o da sovetlərə düşmən kəsilib, kollektivləşmə əleyhinə çıxıb, odur ki, güllələnib. Ana nənəsi Anastasiya acından ölüb.

Raisanın atası Maksim dəmiryolçu, anası Aleksandra evdar qadın olub. Raisanın erməni qanı isə deyilənə görə, ata nənəsi Mariya Maksimovnadan qaynaqlanır, Mariya nənəmizin atası ukraynalı-erməni qarışıqlıymış.

Raisa ingilis dilində səlis danışdığı üçün Mişanı bütün rəsmi görüşlərində müşayiət edib, bu görüşlərə hətta nüfuz edib, sərbəst fikir söyləmək azadlığına malik olub. Bu da onun az qala ölkəni Mişa ilə birgə idarə etməsi təsəvvürü yaradıb. Raisaya qulluqçu seçmək üçün KQB kastinq keçirirdi, ondan gənc olmayan, ondan qəşəng olmayan qadınlar seçilirdi. Raisa qəşəng geyinməyi, daş-qaşları da çox sevirdi. Hərçənd, özü müsahibələrində deyirdi ki, "Çoxlu miflər var, guya mənim brilyantlara, dəbdəbəli villalara aludəçiliyim var, guya mən İv San-Lorandan geyinirəm, hamısı jurnalist uydurmalarıdır."

Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-dən ayrılaraq Ermənistan SSR-ə verilməsi təşəbbüsü qalxanda bizim erməni siyasətinin "hədiyyəvermə" adlı ən effektiv vasitəsi Raisa ilə də sınanaraq uğur qazandı. Raisa Qorbaçova həyat yoldaşı ilə Fransada və Amerikada rəsmi səfərdə olarkən bizim erməni icması ilə görüşəndə bizimkilər Artsaxla bağlı məsələdən söz açdılar, ona erməni kökünü xatırlatdılar, ondan kömək dilədilər, o da vədlər verdi. Bu sayaq vədlərinə görə bizim oliqarxlar Raisaya olduqca bahalı zinyət əşyaları hədiyyə etdilər. Atalarımız danışır ki, bu haqda o vaxtkı KQB sədrinin birinci müavini Bobkovun "Mən hər şeyi həll etməyə səlahiyyətli deyiləm. Raisanın Mixail Sergeyeviçə təsiri böyükdür" etirafı bütün ermənilərə hədsiz ləzzət edibmiş. Çox təəssüf ki, Raisa xanım sıralarımızı tez tərk elədi, 1999-cu ildə onda qan xərçəngi sayılan leykoz müəyyənləşdirdilər, Almaniyanın Vestfalsk universiteti tibbi klinikasında müalicə almağa başlayan Raisamız elə oradaca canını tapşırdı.

**Abel Qezeviç Aqanbekyan.**

Dağlıq Qarabağ müharibəsinin ideoloqu. Akademik. Erməni xalqının canlı əfsanəsi. Vaxtı ilə sovet, indi isə Rusiya iqtisadçısı. Bir çox orden və medallar laureatı. Abel Qezeviç 1932-ci il oktyabrı 8-də Tbilisi şəhərində dünyaya gəlib, sənaye istehsalı üzrə mütəxəssisdir, əmək məhsuldarlığı, makroiqtisadiyyat, menecment üzrə mütəxəssisdir, 1963-cü ildə İqtisadiyyat üzrə doktor adını, 1974-cü ildə SSRİ Elmlər Akademiyasının Akademiki adını alıb. 1985-1991-ci illərdə – SSRİ-də "yenidənqurma illəri"ndə Mixail Qorbaçovun iqtisadiyyat məsələləri üzrə müşaviri olub. Rusiya-Britaniya birgə "Link" müəssisəsinin Direktorlar Şurasının sədri, "Lukoyl" şirkəti qəyyumlar şurasının üzvüdür. 1967-ci ildə SSRİ-nin ali mükafatı sayılan Lenin ordeninə layiq görülüb. 1975-ci ildə Qırmızı Əmək Bayrağı Ordeninə, 2012-ci ildə "Dostluq" ordeninə layiq görülüb. Britaniyanın, Bolqarıstanın, Macarıstanın elmlər akademiyalarının fəxri üzvüdür.

Abel Aqanbekyan hər şeydən öncə isə qatı millətçiliyi ilə tanınır, onun ən böyük xidməti erməni millətçiliyinə verdiyi böyük töhfələrdir. O, erməni millətçilərinin 80-ci illərin sonunda Artsaxı Azərbaycandan qoparmaq üçün başladıqları "Miatsum" hərəkatının görkəmli nümayəndələrindən biridir. Qarabağ hadisələrinə – bilavasitə Yerevanın Teatr meydanındakı izdihamlı mitinqlərə və azərbaycanlıların Ermənistan ərazilərindən qovulmasına qəhrəman akademikimizin bir bəyanatı start vermişdir. O, 1987-ci ilin noyabrında Parisdə Fransa Erməni İnstitutunun və Erməni Veteranlar Assosiasiyasının onun şərəfinə təşkil etdikləri tədbirdə Dağlıq Qarabağ Muxtar Vilayəti barədə belə söyləmişdir: "Bir iqtisadçı kimi hesab edirəm ki, Qarabağ iqtisadi cəhətdən daha çox Ermənistana bağlıdır, nəinki Azərbaycana". Dağlıq Qarabağın Ermənistana verilməli olduğu fikrini o, Fransanın "Humanite" qəzetinə müsahibəsində də bəyan etmişdir.

**Zori Hakkoviç Balayan.**

Yazıçımız, jurnalistimiz, siyasi xadimimiz, Qarabağ prosesinin ideoloqu. Təpədən-dırnağa türkün düşməni, tarixin ən qatı erməni millətçisi kimi xalqımızın fəxri.

1935-ci ildə Dağlıq Qarabağın Stepanakert şəhərində doğulan Zori 1957-ci ildə orta məktəbi, 1963-cü ildə Ryazanda tibb institutunu bitirib.1963-1973-cü illərdə Kamçatkada feldşer işləyib. Gənc yaşlarından “Böyük Ermənistan” ideologiyası onu cəlb edib. 1967-1970-ci illərdə o, özünün düzəltdiyi, üzərinə “Böyük Ermənistan” sözləri həkk edilmiş qayıqla Asiya və Avropanın sularında otuz iki min kilometr məsafə qət edib. 1974-cü ildə Balayan Yerevana köçüb. 1975-ci ildən “Literaturnaya qazeta”nın xüsusi müxbiri işləməyə başlayıb, SSRİ-nin bir nömrəli ədəbiyyat qəzetində açıq şəkildə millətçilik nümumələri ortaya qoyub. 1981-cı ildə “Ocaq” kitabını yazdıqdan sonra isə bütün SSRİ-nin ən qatı millətçisi, Qarabağ məsələsinin də bir nömrəli ideoloqu kimi tanınıb. ”Mən Araz çayının sahilində günəşin doğmasına tamaşa etdim, erməni çayı ilə ermənicə danışdım” yazaraq Zori atamız millətlərarası heç bir münaqişə görünməyən, hamının mehriban yaşadığı, Dağlıq Qarabağ və Naxçıvanın Azərbaycanın tərkibinə daxil olduğu SSRİ-də bir ilkə imza atırdı.

Bu kitabı yazdıqdan sonra o, Artsax hərəkatının liderlərindən birinə çevrilib, onun bizim mərd şairəmiz Silva Kaputikyanla SSRİ rəhbəri Mixail Qorbaçovla görüşmələri, Qarabağ məsələsinin həll edilməsini ondan xahiş etmələri əsl fədakarlıq nümunəsidir.

Zori atamız XII əsrdə mövcud olmuş, dünya dənizlərində cövlan etmiş “Kilikiya” erməni gəminin oxşarını hazırlayaraq 2004-2006-cı illərdə Avropa sularında üzməsini təşkil edib, qitəyə əsl bir erməni gücünün nə olduğunu nümayiş etdirib. 2009-2011-ci illərdə isə bu dəfə “Armeniya” adlı yaxtada “Qədim sivilizasiya məkanı Ermənistan” şüarıyla Yer kürəsi boyunca dövrə vurub. Qeyri-adi, orijinal bir millətçilik nümunələri! Onun əlinə silah alıb Dağlıq Qarabağda vuruşması isə bir ayrı qəhrəmanlıq motividir.

Bəs Qarabağ mübarizəsində hər şey necə başlayıb? Ermənistanla Artsaxın birləşdirilməsi ilə bağlı ilk rəsmi müraciətin tarixi 1945-ci ilə təsadüf edir. Ermənistan Kommunist Partiyasının rəhbəri Q.Arutyunov 1945-ci ilin noyabrında İosif Stalinə məktubla müraciət edərək Dağlıq Qarabağ Muxtar Vilayətinin Qarabağ vilayəti kimi Er-

mənistanın tərkibinə daxil edilməsi məsələsini qaldırıb. Azərbaycan Kommunist Partiyasının baş katibi M.C.Bağırova bu barədə sorğu göndərilib. Lakin Bağırov bununla razılaşmayıb, ərazi mübadiləsi təklif edib: əsasən azərbaycanlıların yaşadıqları Şuşa rayonu istisna olunmaqla Dağlıq Qarabağın digər ərazisi Ermənistana keçsin, əvəzində Ermənistanın Azərbaycana bitişik və əsasən azərbaycanlıların yaşadıqları Zəngəzur və Göyçə rayonları Azərbaycana verilsin. Təbii ki, bizimkilər razılaşmayıblar və məsələ açıq qalıb.

1963-cü ildə Qarabağdakı ermənilərimiz Ermənistana birləşmək tələbi ilə ayağa qalxıblar, o vaxtkı SSRİ rəhbəri Xruşşova 2500 Qarabağ ermənisinin imzası ilə petisiya ünvanlanıb. Qarabağda iğtişaşlar yaranıb, ora Sovet ordusu yeridilib, nəticədə 18 nəfər xəsarət alıb, iğtişaşlar yatırılıb. Yaranmış gərginlik 70-ci illərin əvvəllərinə qədər davam edib.

Tarixdə belə bir deyim var. Deyir, həmişə lazım olan anda böyüklər öz münasibətlərini aydınlaşdıranda çalış ki, sənə də kiçik bir rol ayırsınlar, bu rolla sən də öz problemini həll et.

1980-ci illərin əvvəllərində SSRİ-nin dağıdılmasında maraqlı olan xarici kəşfiyyat orqanları Ukraynada və Ermənistanda öz qatı millətçiliyi və şovinistliyi ilə tanınan qələm sahibləri üzərində araşdırmalar aparandan sonra onlardan iki-üçünün üzərində dayanıblar. Bunlardan biri də bizim Zori atamız olub. Onu ABŞ-a dəvət ediblər, Mərkəzi Kəşfiyyat İdarəsində görüşlər aparılıb. "Ocaq" kitabının əsas konturları məhz onda cızılıb, milli münaqişələrlə dağılacaq SSRİ-də millətimiz öz kart-blanşını qazanıb. Kitab öncə ABŞ-da rus dilində çap olunub. Bundan sonra Balayan tez-tez xaricdə erməni lobbisinin qonağı olub. Dağlıq Qarabağ məsələsi alovlananda hər bir erməni məhz Zori Balayana istinad edib. Beləcə, Zori atamız Artsaxın Azərbaycandan alınıb Ermənistana verilməsi layihəsinin baş ideoloquna çevrilib.

1987-ci ilin avqustunda Qorbaçovun "aşkarlıq" siyasətindən yararlanan 75 000 Qarabağ ermənisi öz problemlərini aşkara çıxararaq Qorbaçova vilayətin Ermənistana birləşdirilməsi haqqında

petisiya ünvanlayıb. Ermənistan Elmlər Akademiyası da dövlət başçısına bu xahişlə müraciət edib. Sentyabrda Zori Balayan, oktyabrda isə SSRİ-nin rəhbərlərindən olmuş Anastas Mikoyanın oğlu Sergey Mikoyan xarici mətbuatda Qarabağ mövzusunda çıxışlar ediblər.

1987-ci ilin 17-18 oktyabrında Yerevanda Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı ilk mitinqlər təşəkkül tapıb. Abel Aqanbeqyanın Dağlıq Qarabağın Ermənistan SSR-in tərkibinə verilməsinin məqsədəuyğunluğu haqqında yuxarıda qeyd etdiyimiz Paris bəyanatı bu mitinqlərin əsas ilhamvericisi olub.

1987-1988-ci illərdə minlərlə azərbaycanlını Ermənistandan qovmuşuq, vətənimizi etniklərdən təmizləmişik. O dövrə aid arxiv sənədlərində bizi ilhamlandıran, bizi qürurlandıran məqamlar az deyil. Məsələn, “Apress” saytında Mane Papyan yazır: “Ermənistan Dövlət Təhlükəsizlik Komitəsinin sədri, general U.Arutunyanın bildirdiyinə görə, 1988-1989-cu illərdə Ermənistanda 25 azərbaycanlı milli münaqişə zəminində ermənilər tərəfindən öldürülüb və onlardan 11-i birbaşa Quqark rayonunda həlak olub. Şaumyan sakini Stepan Ayvazyanın bildirdiyinə görə, kənddə qalmış azərbaycanlılar Kirovakandan gəlmiş ermənilər tərəfindən öldürülüb, yandırılıb. Meyitlərin yandırılmasında bir məqsəd olub – ölənlərin tanınmaması. Məktəbin direktor müavini Rima Sarqsyan xatırlayıb ki, azərbaycanlılardan biri qaçıb məktəbə giribmiş, ermənilər onu da tutaraq yandırmışlar”.

1988-ci ilin 20 fevralında Stepanakertdə keçirilən muxtar vilayətin Xalq Deputatları Sovetinin sessiyası Azərbaycan SSR, Ermənistan SSR və SSRİ Ali Sovetlərinə muxtar vilayətin Azərbaycanın tərkibindən çıxıb Ermənistana birləşdirilməsinə icazə verilməsi xahişilə müraciət qəbul edib.

22 fevralda “həddini aşmış ermənilərə dərs vermək” üçün Ağdamdan Stepanakertə yollanmış çoxsaylı azərbaycanlılarla Əsgəran yaşayış məntəqəsinin yaxınlığında milis-ordu dəstələri və yerli əhali arasında odlu silahdan istifadə olunmaqla toqquşmalar baş verib. Toqquşmalar nəticəsində 2 azərbaycanlı həlak olub, 50 nəfər bədən xəsarəti alıb.

27 fevral axşamı Sumqayıtda erməni əhaliyə qarşı hüquqazidd hərəkətlərə start verilib.

Bundan sonra konflikti iki xalq arasında qanlı müharibə həddinə gətirmək mümkün olub. Xaricdən silahlar və erməni fədailəri dolu təyyarələr Dağlıq Qarabağa enib. Orada əsl erməni plasdarmı yaranıb. Həmin dövrdə tək Dağlıq Qarabağdakı ermənilər deyil, Azərbaycanın digər ərazilərindəki, xüsusən Bakıdakı çoxsaylı ermənilərimiz Dağlıq Qarabağın müstəqilliyi üçün vəsait toplanmasına xidmət edən Krunk təşkilatına pullar keçirərək mübarizəyə səfərbər olunmuşdular. Təkcə Dağlıq Qarabağ Muxtar Respublikasının tam ermənilərimizdən ibarət olan rəhbər şəxsləri deyil, habelə Bakıda yüksək post tutan Azərbaycan rəhbərliyindəki erməni kadrlar da müstəsna rol oynadılar.

XX əsrin sonunda monoetnik dövlət yaratmağa nail olan Ermənistanımız təcavüz edərək 1992-1993-cü illərdə Dağlıq Qarabağ Muxtar Vilayətini və onun hüdudlarından kənarda yerləşən Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını ələ keçirdi, böyük rəşadətimiz Azərbaycan ərazisinin iyirmi faizdən çox hissəsinin Ermənistan silahlı qüvvələrinin nəzarəti altına keçməsini təmin etdi. Bizimkilər bu əraziləri də etnik təmizləməyə məruz qoyub bölgənin bir milyondan çox azərbaycanlı əhalisini ev-eşiyindən qovdu.

Ümumən, 1988-1993-cü illərdə xalqımızın apardığı bu savaş nəticəsində 20 000 nəfər azərbaycanlı həlak oldu, 50 000 nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil oldu. Sonrakı illərdə beynəlxalq təzyiqə baxmayaraq qəhrəman xalqımız əsla öz prinsiplərindən geri durmadı. "Ermənistanın Azərbaycana qarşı təcavüzü" ilə əlaqədar 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bir daha təsdiq olunur, işğalçı qüvvələrin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxması göstərilirdi. Ancaq BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, Qoşulmama Hərəkatı-

nın, Avropa Şurası Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının və eləcə də digər beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərə baxmayaraq bizim ana vətənimiz – Ermənistan Respublikası öz tutduğunu buraxmadı, bu sənədlər isə bizim siyasi kuluarlarda istehza və lətifə mövzularına çevrildi.

2020-ci ilin sentyabrında başlayan İkinci Qarabağ müharibəsi isə, şübhəsiz, erməni xalqına yeni ərazilər bəxş edəcək. Düşmən zəifdir, bizdən qorxur, 27 ildir Artsax o yana, özünün 7 rayonuna da sahib çıxa bilmir. Deməli, qələbəmizi tam möhkəmlətmək üçün Tovuz, Gədəbəy və Qazax bölgələrindən başlayaraq niyə də Gəncə qarışıq Azərbaycanın qərbini tam ələ keçirməyək?

Yəqin tarixçilərimiz bu torpaqların da əzəli erməni torpaqları olmaları barədə dəlil-sübutlar təşkil edəcəklər. Var olsun tarixçilərimiz, siyasətçilərimiz, hərbçilərimiz, bir sözlə, ümumerməni işinə töhfə verən bütün sıra nəfərlərimiz".

* * *

Bu da kirayənişinlərimin mənfur kitablarının "Qarabağ müharibəsi" bölməsi. Vikipediyanın rəsmi məlumatına görə, Azərbaycan tərəfdən 11557 hərbçinin, 763 dinc sakinin həlak olduğu, 50 000 hərbçinin yaralandığı, 5364 nəfərin itkin düşdüyü və girov götürüldüyü, yüz minlərlə insanın qaçqın həyatı yaşamağa məruz qaldığı Birinci Qarabağ müharibəsinin dağıdıcılıq gücünə sevinc və həzz çaları qataraq kirayənişinlərim bununla əyləniblər. Azərbaycanın işğal edilmiş hər bir bölgəsi barədə fəxrlə ayrıca yazdıqları hissədə işğal tarixlərini, nə qədər şəhər, qəsəbə, kənd dağıtdıqlarını, inzibati bina, sənaye obyekti, mədəniyyət ocağı taladıqlarını, nə qədər adam öldürdüklərini, nə qədərini didərgin saldıqlarını, bir sözlə, erməni quldurlarının müharibədə törətdiyi bütün dəhşətləri də yağlı şriftlərlə qeyd ediblər...

"Azərbaycanlıların Dağlıq Qarabağ Muxtar Vilayəti adlandırdıqları – bizim Artsaxımızı – Stepanakert, Martuni, Mardakert, Xocalı, azərbaycanlıların göz bəbəyi olan Şuşanı – bizim gözəl Şuşimizi və

ətraf 7 rayonu 1991-1993-cü illərdə tam olaraq ələ keçirə bildik. Düzdür, DQMV vur-tut 4388 kvadrat kilometr ərazi idi, əhalisi də 80 min nəfərdən bir az artıq. Ancaq bu, bizim iştahımızı elə artırdı ki, ətrafdakı yeddi rayonu – Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilanı qamarladıq. Məğlubedilməz erməni ordumuz bununla da kifayətlənməyib 1990-1992-ci illər ərzində Azərbaycanın Qazax rayonunun Sofulu, Barxudarlı, Bağanis Ayrım, Qızıl Hacılı, Yuxarı Əskipara, Aşağı Əskipara və Xeyrimli kəndlərini, Naxçıvanın Sədərək rayonuna aid Kərki kəndini də mənimsədi. Birinci Artsax müharibəsində erməni xalqı böyük qələbə qazandı. Biz gənclər əminik ki, İkinci Qarabağ müharibəsində də ələ keçirdiyimiz torpaqlar sayəsində ərazilərimizi daha da genişləndirəcəyik. Böyük Ermənistanı yaratmağımıza lap az qaldı!

Hökumətimiz 1993-cü ildən başlayaraq Suriya, Livan və İraqdan olan ermənilərimizi ələ keçirdiyimiz Artsaxda və ətraf rayonlarda məskunlaşmasını təşviq etmək üçün maddi-texniki, maliyyə dəstəyini əsirgəmir. Ermənistan Artsaxa 8700 nəfərdən artıq erməni yerləşdirib. Bundan başqa Laçına 14 000-ə yaxın, Kəlbəcərə 1500 nəfərdən artıq, Zəngilana 753, Cəbrayıla 398, Qubadlıya 21 erməni köçürüldü. Cəmi 25482 nəfər.

Bir milyondan artıq azərbaycanlını isə öz yurd-yuvalarından elə qovmuşduq ki!..

**Şuşa**

- 1992-ci il, 8 may
- Ərazisi – 290 kvadrat kilometr. Əhalisinin sayı – 34 594 nəfər.
- 217 tarixi-mədəni abidə də *(kurqan, mağara, tarixi şəxsiyyətlərin evi, mədrəsələr, məscidlər, malikanələr, türbələr, məbədlər və s.)* əlimizdən salamat qurtara bilmədi. Salamat qalanların da üstünə Qriqoryan xaçımızı çizdik, hər yerə erməni xaçdaşlarını düzdük və digər tarixi abidələri erməniləşdirdik ki, hamı bilsin – Şuşa da ermənilərindir! Və sonsuza qədər Şuşada – bizim Şuşimizdə ermənilər qalacaq və yallı gedəcək!

**Laçın**

- 1992-ci il, 18 may
- Ərazisi – 1840 kvadrat kilometr. Əhalisinin sayı – 77 660 nəfər.
- 73 tarixi-mədəni abidə *(məscid, saray, kurqan, muzey, körpü və s.)* tərəfimizdən məhv edilib.

**Kəlbəcər**

- 1993-cü il, 2 aprel
- Ərazisi – 3050 kvadrat kilometr. Əhalisinin sayı – 93 053 nəfər.
- 70 tarixi-mədəni abidəni *(alban məbədləri, qala, nekropol, şəhərgah, məscid, pir, muzey, xatirə kompleksi və s.)* dağıtmışıq.

**Ağdam**

- 1993-cü il, 23 iyul
- Ərazisi – 1150 kvadrat kilometr. Əhalisinin sayı – 202 243 nəfər.
- 140 tarixi-mədəni abidəni *(nekropol, kurqan, imarətlər, məscidlər, ibadətgahlar, qalalar, türbə, sərdabə, karvansaray, şəhərgah, qəbirüstü abidələr, Çörək muzeyi və s.)* yerlə-yeksan etmişik.

**Cəbrayıl**

- 1993-cü il, 23 avqust
- Ərazisi – 1050 kvadrat kilometr. Əhalisinin sayı – 80 825 nəfər.
- 93 tarixi-mədəni abidə *(məqbərə, məscid, xanəgah, türbə, günbəz, qala, kəhriz, hamam və s.)* tərəfimizdən qismən yaxud tamamilə dağıdılıb.

**Füzuli**

- 1993-cü il, 23 avqust
- Ərazisi – 1390 kvadrat kilometr. Əhalisinin sayı – 132 387 nəfər.
- 71 tarixi-mədəni abidəni *(türbə, qədim hamam, məscid, dəyirman, körpü, bust və s.)* də məhv eləməyi özümüzə borc bildik.

**Qubadlı**

- 1993-cü il, 31 avqust
- Ərazisi – 800 kvadrat kilometr. Əhalisinin sayı – 41 125 nəfər.
- 67 tarixi-mədəni abidə *(məscid, imamzadə, alban məbədləri, türbə, bulaqlar, at və qoç heykəlləri, daş sandıqlar və s.)* tərəfimizdən qismən, yaxud tamamilə dağıdılıb.

**Zəngilan**

- 1993-cü il, 29 oktyabr
- Ərazisi – 730 kvadrat kilometr. Əhalisinin sayı – 44 853 nəfər.
- 56 tarixi-mədəni abidənin *(türbə, alban məbədi, tağlı körpü, nekropol, qalalar və s.)* dağıdılmasını da həyata keçirmişik.

**Xocavənd**

- 1992-ci il, 2 oktyabr
- Ərazisi – 1485 kvadrat kilometr. Əhalisinin sayı – 41 725 nəfər.
- 93 tarixi-mədəni abidəni *(məbədlər, pir və ocaqlar, sərdabələr, Azıx mağarası, məscidlər)* məhv etmişik.

**Xocalı**

- 1992-ci il, 26 fevral
- Ərazisi – 940 kvadrat kilometr. Əhalisinin sayı – 25 300 nəfər.
- Xocalıda ermənilərimiz düşməndən dünyanın ən böyük qisasını aldılar! Erməni hərbçiləri fevralın 25-dən 26-na keçən gecədə dinc əhalidən 63 uşaq, 106 qadın, 70 qoca olmaqla 613 nəfəri xüsusi amansızlıqla, işgəncələrlə öldürmüş, insanların başlarını kəsmiş, gözlərini çıxarmış, hamilə qadınların qarınlarını süngü ilə deşik-deşik etmişdir. 3 nəfər diri-diri yandırılmış, 25 uşaq hər iki valideynini itirmiş, 8 ailə tamamilə məhv edilmişdir.
- 28 tarixi-mədəni abidənin aqibəti də Xocalı sakinlərinin taleyi kimi olub: *(məbədlər, türbələr, məscidlər, kurqanlar, eradan əvvəlki dövrlərə aid çoxsaylı qədim nişanələr və s.)* Tamamilə məhv etmişik!..

Bizim müharibə dövründə və ondan sonra dağıtdıqlarımızın və düşmənə verdiyimiz maddi-mənəvi zərərin statistikası bununla yekunlaşmır, millətçi ermənilərimizin ürəyini fərəhləndirəcək xeyli zəngin rəqəmlərimiz var..."

Bunlar azmış kimi, "üçlər" hər döyüşlərdə fərqlənən "qəhrəmanlarını" da ayrıca vəsf ediblər.

Bu hissə yazılanda İkinci Qarabağ savaşından artıq on bir gün keçirdi, Azərbaycan tərəfi aşkar üstünlük əldə etmişdi, əzəli torpaqlarını kənd-kənd geri qaytarırdı. Bu binəvalar uğursuzluqlarından xəbərsiz idilər, Ermənistan Müdafiə Nazirliyinin feyk xəbərləri ilə kifayətlənib müharibədə üstünlük əldə etdiklərinə inanır, alternativ mənbələrə müraciət etmirdilər.

Növbəti P.S.-imdə yazdım ki, Birinci Qarabağ müharibəsinin zəfər havasına oynayıb ayaqlarınızı yormaqdansa enerjinizi saxlayın, bu enerji sizə İkinci Qarabağ müharibəsinin biabırcasına yenilmək reallığı nəticəsində dabanınıza tüpürüb qaçarkən lazım olacaq.

Əslində, bununla kifayətlənmək də olardı, son vaxtlar bu nadanlar hər cümləleri ilə özləri özlərini biabır edirdilər deyə nəsə şərh verməyə zərurət qalmırdı. Amma hər halda kiçik bir cavab yazası oldum. İnternet mənbələri ilə tanış olarkən bunların vəsf etdikləri yazıçı Zori Balayanın bəşəriyyətin ən murdar məxluqu olmasını aşkarlamışdım deyə bu barədə qeydimi aparmasaydım, rahat ola bilməzdim.

"P.S. Mənim nadan və cahil kirayənişinlərim, millətçilik gözlərini kor, qulaqlarını kar qoyan, yalnız gücləri yalan və saxtanı car çəkib qışqırmağa yetən zavallı və aciz kirayənişinlərim. Sizin Zori ata deyə ucaltdığınız o yırtıcı və cəlladın "Ruhumuzun dirçəlişi" adlı kitabında xalqınızın 1992-ci ilin 26 fevralında Xocalıda azərbaycanlılara qarşı törətdiyi soyqırım haqqında yazdıqlarını da mütləq kitabınıza əlavə edin. Qoy, hər bir xalqın nümayəndəsi sizin buraya yazdıqlarınızı oxuyub erməni adı gələndə sadəcə diksinsin! Onda heç kim sizin "erməni genosidi" deyib timsah göz yaşları axıtmanıza inanmaz,

“qədim və mədəni erməni xalqı” ifadənizə kobud təpki göstərərək sizləri hər yerdən rədd edərlər, qovarlar...

## Otuz beşinci hissə

## MÜƏLLİFDƏN XATIRLATMA

Havayıdan belə deyilməyib ki: bir dəli quyuya bir daş atdı, yüz ağıllı yığıldı, o daşı çıxara bilmədilər...

Sumqayıt hadisələri 80-ci illərin sonları, 90-cı ilərin əvvəlləri dünya çapında “zavallı erməni xalqının vəhşı azərbaycanlılar tərəfindən genosidi” kimi qələmə verilirdi. Necə əl-qol atmışdı erməni ideoloqları. Ermənistandan azərbaycanlıları min bir işgəncə ilə qovmalarına “tökülən qanlara əvəz-əvəz” prizmasından yanaşmaq imkanı əldə eləmişdilər. Sumqayıt ermənilərinin aqibətləri ilə Dağlıq Qarabağ ermənilərinin də üzləşə biləcəkləri təhlükəsini dilə alır, ermənilərin taleyindən nigarançılıq keçirdiklərini bildirirdilər. Sovet mediası, mərkəzi qəzetlər palaz-palaz yazılar verirdi, Amerika, Fransa və digər dövlətlər həyəcan təbili çalırdı, Azərbaycan informasiya müharibəsində təklənir, qatığa qara deyənlərin zərbəsinə tuş gəlirdi.

Halbuki, Sumqayıtda heç bir genosid-filan baş verməmişdi, Sumqayıt hadisələri Qərbin və SSRİ-nin kəşfiyyat xidmətlərinin hazırladıqları müdhiş bir planın tərkib hissəsi idi.

Gəlin həmin hadisələrin rəsmi nəticələrinə diqqət yetirək: “1988-ci il fevralın 27-dən 28-nə keçən gecə Azərbaycan SSR-in Sumqayıt şəhərində baş verən iğtişaşlar nəticəsində 26-sı erməni, 6-sı isə azərbaycanlı olmaqla 32 nəfər həyatını itirmiş, 400-dən çox insan xəsarət almış, 200-dən artıq mənzil talan edilmiş, 50-dən çox

mədəni-məişət obyekti dağıdılmış, 40-dan çox avtomobil yandırılmış, şəhərə 7 milyon rubl və ya 10 milyon dollar məbləğində ziyan vurulmuşdur. SSRİ Baş Prokurorluğu cinayəti araşdırarkən 444 nəfər məhkəmə qarşısında cavab verməli olmuş, 400 nəfər isə 10-15 sutka təcridxanada saxlanılmışdır. Bir nəfər – Əhməd Əhmədov müstəsna cəzaya – ölüm cəzasına məhkum olunmuşdur".

Sumqayıt hadisələrinin fəal təşkilatçılarından olan bir neçə erməninin adı uzun müddət mətbuatdan, ictimaiyyətdən gizli saxlanıldı.

Hüquq-mühafizə orqanlarının arxiv materiallarına istinad edərək onlardan bir neçəsinin adını nəzərinizə çatdırmaq istəyirəm:

**1. Eduard Qriqoryan**, Sumqayıt sakini, əvvəllər dəfələrlə məhkum olunub. İğtişaşlar zamanı talançı dəstələri müxtəlif ünvanlara yönəldirdi.

**2. Levon Saturyan**, Dağlıq Qarabağ Muxtar Vilayətinin Təhlükəsizlik Komitəsinin əməkdaşı. Milli zəmində antiazərbaycan təbliğatı ilə məşğul olur, millətçi qüvvələri lazım olan informasiyalarla təmin edirdi.

**3. Eduard Mosesov**, Yerevanda nəşr olunan "Kommunist" qəzetinin müxbiri. Sumqayıtda video və foto çəkilişləri ilə məşğul olurdu.

**4. Qurgen Ağacanyan**, Yerevanda nəşr olunan "Kommunist" qəzetinin müxbiri, Sumqayıtda video və foto çəkilişləri ilə məşğul olurdu.

**5. Albert Qriqoryan**, Eduard Qriqoryanın qardaşı, iğtişaşda iştirak edən gənclərə narkotik paylayırdı.

Əcəba, çox maraqlıdır, ermənilərin qətliamında ermənilər niyə iştirak etsin? Bu suala isti-isti tapılmasa da cavab özünü elə də çox gözlətmədi. Sonradan Sumqayıt hadisələrinin ssenarisi tam açıldı, hər şey hər kəsə gün kimi aydın oldu.

Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin Sumqayıt şöbəsinin o vaxtkı sədri Vladimir Lebedev yazır:

"Sumqayıt hadisələrində Ermənistanın xüsusi xidmət orqanları və daşnak partiyasının millətçi üzvləri məharətlə işlədilər. Mik-

rorayonlarda kameralar quraşdırıldı, foto çəkilişlər aparıldı. Sonra sənədli film çəkib dünya ictimaiyyətinə çatdırdılar. Həmin film hadisələrdən sonra Fransada nümayiş etdirildi.

Bir detalı qeyd edim. Həmin dövrdə ölkədə antialkoqol kampaniyası keçirilirdi, buna uyğun Sumqayıtın ərzaq mağazalarına həftədə cəmi bir dəfə araq gətirilirdi. Hadisələr ərəfəsində mağazaların birindən ticarət birliyinə zəng vurulmuşdu ki, təcili olaraq araq gətirilsin. Əvvəl buna etiraz etmişdilər. Yenidən israrla spirtli içki tələb olunmuşdu. Biz bununla maraqlananda məlum olmuşdu ki, zəng vuran da, mağaza müdiri də erməni imişlər. Onlar baza müdirinə külli miqdarda rüşvət verib, istəklərinə nail olmuşdular.

Həmin günlər ermənilər Sumqayıtın bütün aptek müdirlərinə hədə-qorxu gələrək demidrol dərmanlarını əldə etmişdilər, spirtli içki demidrolla birlikdə gənclərə paylanılmışdı. Səhiyyə işçiləri daha dəqiq deyə bilərlər, demidrolu spirtli içki ilə qarışdıranda təsiri adi narkotikdən də güclü olur, kişilərdə cinsi hormonları artırır".

Məhkəmə zamanı Eduard Qriqoryanın Sumqayıt hadisələrinə rəhbərlik etməsi faktının gözlənilmədən üzə çıxması və onun həbs olunması aydın səmada ildırım kimi çaxıb guruldadı, bütün ölkə təəccüb və heyrətə büründü. Qriqoryan Sumqayıtda "Paşa" ləqəbi ilə tanınırdı. "Krunk" cəmiyyətinin fəal üzvlərindən idi. Hadisələrdən öncə təlimat almaq üçün dəfələrlə Xankəndinə gedib-gəlibmiş. Hadisələrdə özü şəxsi "nümunə" göstərərək bir neçə ermənini öldürmüş, bir neçə erməni qızını zorlamışdı. Cinayətkar qruplar onun təlimatları ilə hərəkət edirmiş. Paşanın cəza qruplarını yönəltdiyi ünvanlar isə "Krunk"a üzvlük haqqı ödəməyən ermənilərin mənzilləri idi.

Qriqoryanın rəhbərlik missiyasının üstü isə belə açıldı: İstintaq prosesi zamanı onun dəstə üzvləri arasında xüsusi nüfuza malik olması, dəstə üzvlərinin ondan qorxması müşahidə edildi. Bəzən ifadə verən dəstə üzvləri suallara cavab verilərkən həqiqəti söyləyəndə Qriqoryan tərs baxışı ilə onları dərhal susdurur, söylədiklərindən imtina etməyə məcbur eləyirdi.

Sonradan istintaq müəyyənləşdirdi ki, iğtişaşlardan bir neçə gün əvvəl qara gödəkçəli, azərbaycanca səlis danışan yüzdən artıq erməni Sumqayıta göndərilibmiş. Onlar şəhərin “Dalğa” və “Sumqayıt” mehmanxanalarında gecələyiblərmiş. Qriqoryanla görüşüb iğtişaşların planı ilə tanış olduqdan sonra bu şəxslər küçələrə çıxaraq əhali arasında ekstremist əhval-ruhiyyəli iş aparmağa başlamış, şəhərin Lenin meydanında, kolxoz bazarı və mərkəzi univermağı ətrafında camaatı başlarına toplayaraq özlərini Ermənistandan qovulmuş azərbaycanlılar kimi qələmə vermiş, ermənilərin onlara necə divan tutduqlarından dəhşətli faktlar danışmışdılar. Təhrikçilər insanları cürbəcür şüarlarla Lenin meydanına toplamışdılar, başlanan mitinqlərdə Sumqayıtda yaşayan ermənilərə divan tutmaq çağırışları eşidilmişdi. Yerli yeniyetmə və gənclər bu gəlmələrin təxribatına uyub onların formalaşdırdıqları dəstələrə qoşularaq talanlarda iştirak etmişdilər.

Qriqoryanın həbsinin müqabilində həm İrəvanda, həm Moskvada təlaş başlandı, xarici mətbuatda böyük bir təbliğat kampaniyası başlandı. Guya, Azərbaycan həbsxanasında ona işgəncələr verilir. Bunları bəhanə edən Kremlin rəhbərliyi hüquq-mühafizə orqanlarına tapşırıq verərək onun Ermənistana, ordan da Rusiyaya köçürülməsini təmin etdi. O, Budyonovsk həbsxanasına gətirildi, orda ona hər cür şərait yaradıldı. Sonra isə o azadlığa buraxıldı, bununla da hər şeyin öncədən hazırlanmış ssenari əsasında cərəyan etdiyi tam sübut olundu. Halbuki onun təhriki altında hadisələrə qoşulan azərbaycanlı Əhməd Əhmədov güllələndi, 15 il həbs cəzası almış Taleh İsmayılovsa həbsxanada vəfat etdi.

Sumqayıt hadisələri erməni millətçiliyinin daha bir murdar simasını üzə çıxardı. Onlar öz əllərini hətta öz millətlərinin qanlarına belə bulamağa hazır olduqlarını ortaya qoymaqla insanlığı bir daha sarsıtdılar.

Belələrinə heç zaman bəraət ola bilməz.

Belələri ən qatı cinayətkardırlar, insanlığa əsl ləkədirlər.

## Otuz altıncı hissə

# XOCALI SOYQIRIMI

Kitablarının ayağı sayalı deyildi. Üç müəllifin üçü də zərbə almışdı. Qaqiki institutdan qovmuşdular, Artur həbs olunmuşdu, Stepanı da sevgilisi atmışdı. Əslində irəlidə daha böyük zərbələr alasıydılar, bunların alacağı ən böyük zərbə isə müharibədə millətlərinin uduzması olacaqdı, bu məğlubiyyəti şəxsən mən gün kimi aydın görürdüm. Binəvaların maddi durumları çox ağırlaşmışdı, bunu son günlər ərzaq ala bilmədiklərindən, yavan çörək və suyla dolandıqlarından hiss edirdim. Vasyagil çağırmışdılar, gəlinim pelmeni və borş hazırlamışdı. Hərçənd, gəlinimin əl qabiliyyəti rəhmətlik Qalyanınkına çatmaz, ancaq onun da əlinin duzu var, yaxşı yemək bişirir. Borşun çuğundurunu və kərəvəzini bol eləməyi isə rəhmətlikdən öyrənib. Onda borş daha dadlı olur. Süfrəyə xama və xardalla verilməsi də Qalinanın tövsiyəsidir.

Doyunca yedim, gedəndə də üzlülük eləyib bir qab özümlə götürdüm. Vallah, insanlıq hər şeydən ucadır, nadan kirayənişinlərimə yazığım gəlirdi, dedim, qoy, isti yemək yeyib özlərinə gəlsinlər.

Borşu gözlərinə təpdilər, boşqablarının dibini yaladılar, yüz dəfə "sağ ol" dedilər. Vəziyyətdə üstünlüyümü duyub dərhal hücuma keçdim, dedim, ay uşaqlar, adamsınız, adam balasısınız, gəlin, bu səfeh işdən əl götürün, nə qədər bədbəxtçilik gətirib o sizə. Dedim, axı kimə gərəkdir sizin cızma-qaralarınız? Bəlkə özünüzdən Dostoyevski, Hüqo, Markes yaratmaq istəyirsiniz? Ancaq inanın, bu, sizin başınız üçün deyil. Qayıdın əvvəlki həyatınıza, itirdiklərinizi qaytarıb xoşbəxt yaşayın.

Mənə nə desələr yaxşıdır? Dedilər, biz fədaiyik. Dedilər, kamikadzelər adlanan yapon təyyarəçilər olub, düşmən təyyarəsi üzə-

rinə tarana gedib özləri də ölüblər, düşməni də məhv ediblər, bax, biz onlardanıq.

Növbəti dəfə bu binəvalar məni dəhşətə gətirdilər. Hətta həmin an içimə bir qorxu da doldu, düşündüm, bu tərs uşağı tərsləri heç mənim P.S.-lərim də islah edə bilməyəcək. Bunlar artıq itirilmiş insanlardır. Onlar üçün gələcək yoxdur, yalnız keçmişlə yaşayan ideya qurbanlarıdırlar.

Qarabağ mövzusunda növbəti yazacaqları hissənin Xocalı soyqırımı olduğunu dəqiq bilirdim. Artıq bu köpək uşağının nə ilə nəfəs almaları belə mənə bəlli idi. Hətta cümlə izləmələrini, nida qoyacaqları hissələri, başlıqları belə öncədən təxmin edirdim.

Onlar evdən bir qədər gec çıxdılar. Stepan halsız idi. Qaqik onun koronavirusa yoluxmasından şübhələndi, dedi, halsızlığın, təngnəfəsliyin şübhəlidir. Amma Stepan Svetadan ayrılması səbəbindən bu hala düşdüyünü söyləyib boş verməsini xahiş etdi, onlar evdən çıxan kimi özümü kompüterin arxasına saldım.

Bəli, yanılmamışdım, Xocalıdan yazmışdılar...

"**18-ci bölmə.** 1992-ci il fevralın 25-dən 26-na keçən gecədə Yuxarı Qarabağın azərbaycanlılar yaşayan Xocalı qəsəbəsində bizim xalqımız elə bir zəfər yazdı ki, sonradan məhz bu zəfər də bizlərə Qarabağ savaşında möhtəşəm qələbə gətirdi. Xocalı Qarabağ müharibəsi adlı çoxmərtəbəli binanın çox möhkəm bir özülü oldu. İstənilən bina isə özülsüz ucala bilməz, yerlə yeksan olar.

Getdik!

Həmin o deyilənə görə, çox soyuq, qarlı-şaxtalı gündə Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağda dislokasiya olunmuş Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalıya hücum etdi, qəsəbəni ələ keçirərək düşmən xalqın nümayəndələrinə qarşı soyqırımı həyata keçirdilər.

Nəticə parlaq oldu! 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla 613 Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. 76-sı uşaq olmaqla 487 nəfər yaralandı. 1275 nəfər əsir götürüldü.

Əlbəttə ki, sual yaranar, bura haraydı, niyə müharibənin taleyi burda həll olunurdu? Artsaxda bizim erməni əhali ayağa qalxıb Ermənistana birləşmək tələbi irəli sürəndə Azərbaycan rəhbərliyi əhalisi azəbaycanlılardan ibarət bu qəsəbəni böyüdüb şəhər, rayon mərkəzi etməklə, aeroport kimi vacib infrastrukturla təchiz eləməklə özlərinə bir plasdarm yaratmışdılar.

1999-cu il fevral ayının 26-da Əsgəran rayonu bazasında yaradılmş Xocalı rayonunun sahəsi 0,94 min kv. km, əhalisi 26,0 min nəfər idi. Mişanın perestroykası səbəbindən qırğına məruz qalıb Özbəkistanın Fərqanə vilayətindən qaçqın düşmüş 54 Məhsəti türkü ailəsi, həmçinin bizim Ermənistandan və Stepanakertdən qovulmuş azərbaycanlıların bəziləri də Xocalı şəhərində məskunlaşmışdılar. Rayona Xocalı şəhəri, Əsgəran qəsəbəsi, 50 kənd daxil idi. Mərkəzi Xocalı şəhəriydi. Biz həm Xocalı şəhərini, həm də Ballıca, Xanyurdu, Mehdibəyli, Cəmilli, Almalı, Qarakötük, Çanaqçı, Sığnaq, Dağyurd, Daşbulaq, Badara, Xanyeri, Fərrux, Seyidbəyli, Ulubaba, Şuşakənd, Daşkənd, Muxtar, Sərdarkənd, Şəlvə kimi kəndləri də yerlə-yeksan edə bildik.

Rayonun ərazisindən uzunluğu 32 km olan birinci kateqoriyalı şose yolu və Bakı-Stepanakert dəmiryolu keçirdi, bu cəhətdən də Xocalını almağımız əlverişli oldu. Xocalı aeroportunu ələ keçirməyimiz isə düşmənin belini qırdı.

İşğala qədər Xocalı rayonunda 56 mədəniyyət müəssisəsi, muzey, texnikum, orta məktəblər, səhiyyə müəssisələri, kənd təsərrüfatı və sənaye müəssisələri fəaliyyət göstərirdi. Yer üzərindən sildik hamısını. Bura olduqca qədim bir ərazi sayıldığından zəngin tarixi abidələrə malik idi. Memarlıq abidələrindən 1356-1357-ci illərə aid türbə xüsusi əhəmiyyət kəsb edirdi, onun ətrafindakı son tunc və ilk dəmir dövrünə aid nekropol və kurqanlar dünyada insanların məskunlaşması tarixinin ilk izləri sayılırdı. Daş üstündə daş qoymadıq. "Yeddi kilsə" adlı alban kilsəsi vardı. Albanlar həmişə bizə tarix yaratmaqda mane olublar. Hara əl atmışıq, alban izi görmüşük. Ona görə də bu kilsənin də külünü göyə sovurduq.

Hələ 1946-cı ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası öz qətnaməsi ilə bəyan etmişdi ki, genosid – insanlığa qarşı törədilən ən ağır cinayətdir! Bu cinayətə 1948-ci ilin 9 dekabr tarixində “Genosid cinayətlərinin qarşısının alınması və onun cəzalandırılması haqqında” adlı Konvensiyada təsnifat verilmişdir. Bu Konvensiya bütün dövlətlər tərəfindən qəbul edilmişdir. Bizim cəsur fədailərimizin Xocalıda törətdikləri genosidin təsnifatına tam uyğun gəlir, bu əsl qürur rəmzimizdir. Biz azərbaycanlılara qarşı 1918-ci ildə Bakıda, Şamaxıda və Qubada həyata keçirdiyimiz genosidi 1992-ci ildə Xocalıda da təkrarladıq.

Xocalı zəfərində əsas şəxs isə adı xalqımızın Andranik, Amazasp, Dro, Njde kimi cəsur fədai komandanları ilə bir sırada çəkilən Monte Melkonyan olub. 1957-ci il noyabrın 25-də ABŞ-ın Kaliforniya ştatında anadan olan, Berkli universitetini arxeologiya ixtisası üzrə bitirən, di gəl, bütün şüurlu həyatını ixtisasına yox, savaşlara həsr edən Melkonyan harda barıt qoxusu duyubsa ora gedib. Təsəvvür edin, qəhrəmanımız ASALA təşkilatına üzv olub, Livanda gedən vətəndaş müharibəsində Livan ermənilərinin müttəfiqləri sayılan sağ xristian qüvvələrin tərəfində döyüşüb, sonra Türkiyədə kürd separatçılarının tərəfində Türkiyə ordusuna qarşı vuruşub. 1981-ci ilin 24 sentyabrında Parisdəki Türkiyə səfirliyinə hücumu da o təşkil edib. Fələstində fələstinli lider Əbu Nidal ilə sıx əlaqə yaradaraq yəhudilərə qarşı da vuruşub.

1983-cü ildə Parisdəki Orli hava limanında 8 nəfərın həlak olası, 55 nəfərin müxtəlif dərəcəli bədən xəsarəti alması ilə sonuclanan terror aktını da qəhrəmanımız təşkil edib. Mişanın başladığı “perestroyka” siyasəti, ölkənin xaosa bürüməsi, milli zəmində münaqişələrin yaranması Melkonyanın tarixi vətəninə gəlməsinə imkan yaradanda xalqımızın bəxtinə gün doğmadımı? O, 1990-cı ildə Yerevanda təlimatlandırılıb Dağlıq Qarabağa yollandı. Orada isə onun zirvə işi Xocavənd və Xocalı qətliamına komandanlıq etməsi oldu. Qəhrəmanımız şəxsən özü insanların qətlə yetirilməsində, onlara işgəncə verilməsində iştirak edərək Andranik ənənəsini

şərəflə davam etdirdi. Çox təəssüf ki, qəhrəmanımız 1993-cü ilin 12 iyununda Azərbaycanın Mərzili ərazisində gedən döyüşlər zamanı güllə yarası alaraq öldü. Siz deyin, belə qəhrəmanı xalqımız heç unudarmı?

Xocalıda etdiklərimiz bir qədər əndazəni aşmışdır, bunu hətta biz – bu kitabın müəllifləri də etiraf edirik. Amma nəzərə almaq lazımdır ki, qəhrəman ordumuz buna zorən getmişdir, məqsəd düşmənin gözünü tam qorxutmaq, onu gözüqıpıq etmək idi.

Xocalı sakinlərindən qaçıb canını qurtaran, sağ qalanlar da oldu, buna ona görə izn verdilər ki, qoy gedib gözləri ilə gördüklərini danışsınlar, düşmənlərimizdə qorxu, xof yaransın, tük salsınlar, əssinlər adımız gələndə. Belələrinin mətbuata sızan ifadələrini oxumaq biz erməni gəncləri üçün əsl zövq mənbəyi deyilmi?

Bir baxın, Qaryağdı Quliyev adlı xocalılı həmin günü necə xatırlayır: "Mən avtobazada mühafizəçi işləyirdim. Fevralın 25-dən 26-na keçən gecə Xankəndində yerləşən 366-cı alayın ağır zirehli texnikaları Xocalıya hücum etdi. Səkkiz istiqamətdə şəhəri mühasirəyə aldılar. Gecə yaşıl fişəng atıldı. Ermənilər əvvəlcə Xocalı aeroportunu ələ keçirdilər. İlk hücum zamanı şəhərdə yerləşən bütün evlər yandırıldı. Bununla bağlı biz xocalılar poçt vasitəsilə Ağdam və Şuşaya məlumat versək də heç bir cavab ala bilmədik. Məcbur olub gecə saat 1-də şəhəri tərk etməli olduq. Qarlı havada yaşlı insanlar, qadınlar, körpə uşaqlar meşə yolu ilə qaçmağa çalışırdı. Səhərisi gün gördüyümüz mənzərə bizi şoka saldı. Erməni cəlladları tərəfindən təhqir olunmuş meyitlər ətrafa səpələnmişdi. O mənzərəni gözümün önünə gətirə bilmirəm. Çox ağırdı o günləri xatırlamaq. Kişilərin başı, qadınların döşləri kəsilmişdi, körpə uşaqlar ağlasığmaz dərəcədə vəhşiliklə öldürülmüşdü. Həmin gecə ailə üzvlərimdən iki qızım, bir oğlum, qardaşım və yaxınlarım şəhid oldu".

Xocalı əsirləri isə bir başqa mövzudur. Əsgərlərimiz kişilərə olmazın işgəncələr verir, qadınları cinsi zorakılığa məruz qoyurdular. Bu hərəkətlərlə biz aləmi lərzəyə salırdıq, erməni gücünü nümayiş etdirirdik. O dövrdə rusların "Moskovskiy komsomolets" qəzetində-

ki *(29 yanvar, 1994-ci il buraxılışı)* “Neft sindromu” məqaləsində jurnalist Proxorov yazırdı: ”Əsirlər var. Hamısı Xocalıdandır. Lakin onlar artıq yaşamağa yararlı deyillər. Qışda onları səhərlər ayaqyalın qarın-buzun üzərinə çıxarırlar. Təpələrindən soyuq su tökür, başlarında şüşə sındırır, sonra təzədən kameraya salırlar. Əsl işgəncələr isə bundan sonra başlanır. Barmaqlarını qapının arasına qoyub qırır, cığırdıqca rezin dəyənəklə döyürlər. Çoxu əzablara tab gətirməyərək dəli olur, ölür.

Biz növbəti kəndə güzar edəndə bir erməninin diri uşağı götürüb iki böldüyünü görmüşəm. Sonra bədənin bir hissəsi ilə anasının sifətinə, başına o qədər döydü ki, övladının al qanına bulaşmış qadın dəli olub gülməyə başladı.”

Əntiqə yazıdır. Həzz verir adama, düzdürmü?”

* * *

Söydüm... Bəlkə bir saat ağzımdan çıxan ən qaba söyüşləri dilə gətirdim. Hətta öncə P.S.-im də söyüşlərdən ibarət oldu. Amma sonra iş başında olduğumu xatırladım, anladım ki, soyuqqanlı olmaq lazımdır. Belədə, bu nadanları nə cür nokauta salmaq barədə ani olaraq düşündüm, qərara gəldim ki, ən təsirli zərbə onlara qarşı olan beynəlxalq reaksiyanı göstərmək ola bilər. Bunlar dəvəquşu kimi başlarını aşağı əyib qanadlarının arasına soxmaqla görünməz olduqlarını zənn edirlər, anlamırlar ki, faşizmin cinayətlərinə, Holokosta şahidlik etdikdən sonra dünya əhalisi qana susayan cəlladlara nifrət edir. Anlamırlar ki, Xocalı faciəsi ömür boyu erməni millətinin üz qarası sayılacaq.

“P.S. Xocalı soyqırımının tanınması hazırda Azərbaycan dövlətinin xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Üstəlik, dünyada kifayət qədər nüfuza malik Heydər Əliyev Fondu Xocalı qətliamını “Xocalıya ədalət” kampaniyası çərçivəsində usanmadan dünyanın dörd bir guşəsində tanıtdırmaqdadır.

Bu gün Xocalı qətliamını tam səviyyədə qətliam kimi Pakistan və Sudan dövlətləri tanıyır. Faciəni parlament səviyyəsində qətliam

kimi Meksika, Kolumbiya, Çexiya, Rumıniya, Şotlandiya, Bosniya və Herseqovina, Peru, Honduras, Panama, İordaniya və Cibuti tanıyır. İndiyədək ABŞ-ın 22 ştatı – Massaçusets, Texas, Nyu-Cersi, Meyn, Nyu-Meksika, Arkanzas, Corciya, Oklahoma, Tennesi, Pensilvaniya, Konnektikut, Florida, Missisipi, Qərbi Virciniya, İndiana, Yuta, Nebraska, Havay, Montana, Arizona, Aydaho və Nevada ştatları da Xocalı faciəsini qətliam kimi tanıyan sənəd qəbul edib.

Xocalı qırğınının şahidi olan əcnəbilər kifayət qədərdir. Məsələn, fransalı jurnalist Jan İv Yunetin xatirələri dərc olunaraq dünyada əl-əl gəzir. O yazır: "Biz Xocalı müdafiəçilərinin, yüzlərlə dinc sakinlərinin, o cümlədən qadınların, uşaqların, qocaların eybəcər hala salınmış cəsədlərini gözlərimizlə gördük. Ermənilər bizim vertolyotu da atəşə tutduqlarına görə çəkilişi başa çatdıra bilmədik. Amma elə yüksəklikdən gördüklərimiz də törədilən vəhşilikləri təsəvvürə gətirmək üçün kifayət edirdi. Bu, tükürpədici mənzərə idi. 5-6-yaşlı uşaqları, qundaqdakı körpələri, hamilə qadınları vəhşiliklə öldürən ermənilər cəlladlıqda heç kəslə müqayisəyə gəlməzlər".

O ki qaldı bu faciənin mədəniyyət artefaktlarında əbədiləşdirilməsinə, ədəbiyyat, kino, musiqi vasitəsilə yaddaşlara yazılmasına, bu sahədə də beynəlxalq kontingent kifayət qədər iş görüb.

Litva rejissoru Andreas Brokas 2015-ci ildə Xocalı faciəsindən bəhs edən "Sonsuz dəhliz" filmini çəkib. Filmdə ermənilərin atəşi altında "sonsuz dəhliz"də özünə nicat yolu axtararkən yaxınlarını itirənlərin ürəkdağlayan hekayətlərindən söz açılır. Filmin süjeti real hadisələr, bu cəhənnəm əzabını yaşamış, kütləvi qırğını öz gözü ilə görmüş insanların xatirələri əsasında qurulub. Filmin premyerası 2014-cü il iyulun 1-də Londonda Britaniya Film və Televiziya İncəsənəti Akademiyasında *(BAFTA)* keçirilib. "Sonsuz dəhliz" sənədli filminin prodüserləri Aleksandras Brokas *(Litva)* və nüfuzlu "Grammy Award" mükafatçısı Cerald Rafşundur *(ABŞ)*. Film britaniyalı aktyor, BAFTA mükafatçısı Ceremi Ayronz tərəfindən səsləndirilib. İngilis dilində çəkilmiş filmin subtitrləri Çin, türk, fransız, italyan və alman dillərinə tərcümə olunub.

Los-Anceles istehsalı olan və burada fəaliyyət göstərən yəhudi kinematoqrafçıları tərəfindən çəkilmiş “Zülmətdən qaçarkən” sənədli filmi Xocalı soyqırımının canlı şahidlərinin müsahibələri və onların tükürpədici ifadələri vasitəsilə Xocalıda Ermənistan silahlı qüvvələrinin azərbaycanlı dinc əhaliyə qarşı törətdiyi vəhşilikləri diqqətə çatdırır. Filmdə ABŞ-ın tədqiqatçı alim və jurnalistlərinin rəylərinə, ştat qanunvericilərinin və tanınmış din xadimlərinin bu soyqırımı pisləyən açıqlamalarına, eləcə də erməni hüquq müdafiəçisi Vahan Martirosyanın Xocalı faciəsinə görə Ermənistan rəhbərliyini sərt şəkildə tənqid edən fikirlərinə yer verilib.

Fransalı bəstəkar Pyer Tilloy “Xocalı 613” musiqi pyesinin müəllifidir. Əsər Xocalı qurbanlarının xatırəsinə həsr olunub. Pyesin premyerası 21 fevral 2013-cü ildə Parisin Müqəddıs Roş kilsəsində keçirilib. Konsertdə 350 senator, Fransa Milli Assambleyası üzvləri iştirak ediblər. Pyesin Böyük Britaniya premyerası isə 26 fevral 2013-cü ildə Londonda, Parlament binası yanında yerləşən Müqəddəs Con Smit meydanında, Xocalı soyqırımı qurbanlarının xatirəsinə təşkil olunmuş konsert çərçivəsində keçirilib. Beş yüz nəfərdən çox lord, parlament üzvləri, diplomatlar və musiqi həvəskarlarının iştirak etdiyi konsertdə əsər dirijor və bəstəkar Loran Petijerarın rəhbərliyi, Londonun “Orion” orkestrinin iştirakı ilə ifa edilib.

Belə faktlar çoxdur.

Ey kitab yazan yazarlar, siz min il öncələr “Böyük Ermənistan”ın süqutu, yüz il əvvəl “erməni soyqırımı” deyib imdad edərək saxta mənbələr tapırsınız, teatrallaşdırılmış səhnələrlə butaforalardan həqiqət quraşdırmaq istəyirsiniz. Bunlara əksər insan inanmır, hətta göz yaşlarınız çoxlarını tam bezdiribdir.

Xocalı isə real olaraq sizin yazıq, əzabkeş xalq deyil, qəddar, qaniçən və yalançı xalq olduğunuzun bariz nümunəsidir. Xocalı yaxın tarixdir, kadrlar sənədlidir, şahidlər də sağdırlar.

Bax, Xocalıda millətçiliyiniz tam uduzub, fiaskoya uğrayıb.

Xocalı sizin nitqinizin tutulmasıdır.

Xocalı sizin puç olacaq gələcək aqibətinizdir.

## Otuz yeddinci hissə

# MÜƏLLİFDƏN BƏŞƏRİYYƏTƏ QƏNİM KƏSİLƏNLƏRƏ CAVAB

Müharibə tək insanların öldürülməsi deyil, o həm də iqtisadiyyatın tənəzzülü, mədəniyyətin çökməsi, təbiətə qənim kəsilmək deməkdir. Dünya xalqlarının inteqrasiyası, dövlətlərin bir-biri ilə sıx əlaqədə olması həm də o anlama gəlir ki, bir xalqa dəyən ziyanı dolayı yollarla bir çox xalq hiss edir. Bəzən isə, ümumən, müharibə bir dövlətin ərazisində yerləşən, amma dünyəvi əhəmiyyətə malik mədəni xəzinələrin məhvini labüd etməklə bəşəriyyətə zərbə vurmuş olur. Uzaq getməyək, Suriyadakı vətəndaş müharibəsi və İŞİD təşkilatının hücumu nəticəsində YUNESKO-nun mədəni irs elan etdiyi Palmira şəhərinin dağıdılmasını xatırlatmaq istəyirəm, bu inanılmaz hadisə bütün dünyanın tərəqqipərvər insanlarını hiddətləndirdi və kədərləndirdi.

İlkin yaşayış izlərinin hələ Neolit dövrünə aid edildiyi bu qədim semit şəhəri tarixin qürur rəmzi hesab edilirdi. 2012-ci ildə Suriya əsgərlərinin qiymətli qəbirüstü abidələri daşıdığını göstərən videonun “France 24” kanalı vasitəsilə yayılmasından sonra Palmirada talanlarla bağlı vəziyyət beynəlxalq ictimaiyyətin diqqətini cəlb etdi, lakin dünyanın təkidli çağırışlarına baxmayaraq barbarlığın qarşısını almaq mümkün olmadı. Bel məbədinin fasadı ciddi zədələndi, Böyük kollonadanın sütunları dağıdıldı. Silahlı qüvvələrin bəziləri Palmira ətrafındakı qədim bağlarda məskən salıb o cənnətməkan guşəni əsl cəhənnəmə çevirdi. Amma daha dəhşətlisi 13 may 2015-ci ildə İŞİD terrorçularının şəhər ərazisni tutmalarından sonra baş verdi. Palmira muzeyi talan olundu, orada sərgilənən bəzi artefakt-

lar – yunan-Roma heykəlləri, zinət əşyaları beynəlxalq bazarda satışa çıxarıldı. 23 mayda İŞİD hərbi qüvvələri Palmiranın məşhur şir tanrı heykəlini və şəhər ərazisində saxlanan çoxsaylı digər heykəlləri dağıtdı. İyunun 13-də qədim şəhərin şimal qala divarları və Baalşamin məbədi zədələndi. 30 avqustda Bel məbədinin dağıdıldığı elan edildi, şahidlərin məlumatına görə, məbədin yalnız eksteryer divarları salamat qalmışdı. 4 sentyabrda Elhabel türbəsi də daxil olmaqla Palmiranın yaxşı saxlanmış hər üç türbəsinin dağıdılması məlum oldu. Sanki bəşər sivilizasiyasına ironiya kimi Palmira amfiteatrı İŞİD əleyhdarlarının ictimai edam edilməsi üçün istifadə edildi.

Bu, tək Suriyanın yox, bütün dünyanın faciəsi oldu. Bax, Xocalının qədim kurqanlarının, Xocavəndin Azıx mağarasının erməni barbarları tərəfindən işğal edilib dağıdılması, talan edilməsi də eynən Palmira faciəsini xatırladır, çünki bu mədəniyyət artefaktları da tək bir xalqın deyil, dünyanın mədəni irsi sayılırdı.

Xocalı abidələri əsasən eramızdan əvvəl II minillikdə və I minilliyin əvvəllərindən mövcud olmuşdur. Dünyanın ən qədim insanlarından sayılan Xocalı-Gədəbəy mədəniyyəti sakinlərinin qoyduqları zəngin irs qədim insanların həyat tərzini və mədəni inkişaf səviyyəsini öyrənmək üçün olduqca böyük əhəmiyyət kəsb edirdi. Əsasən eramızdan əvvəl XVII-XIII əsrləri əhatə edən Xocalı abidələri kompleksi yaşayış yerlərindən, daş qutu qəbirlərindən, müxtəlif tipli kurqanlardan, siklop tikililər və menhirlərdən ibarət idi. Orada çoxlu sayda qoç və yəhər şəkilli qəbir daşları kimi müqəddəs islam ziyarətgahları var idi.

Xocalı şəhəri və Əsgəran qəsəbəsi arasında Qarqar çayının sağ və sol sahillərində Əsgəran qalası mövcud idi. Qalanı XVIII əsrdə Qarabağ xanı Pənah xan tikdirmişdi. Qala iki istehkamdan ibarət idi. 1810-cu ildə Rusiya ilə İran arasında müharibədən sonrakı sülh danışıqları bu qalada aparılmışdı.

Xocalı rayonunun Meşəli kəndi ərazisində – Meydan yaylağında – müqəddəs Seyid qəbri ziyarətgahı, Yeddi kilsə adlı alban kilsəsi vardı. Bundan əlavə daha dörd yerdə alban kilsəsi mövcud idi.

Rayonun Kosalar kəndi ərazisində “Məhəmməd ağanın otağı” tarixi abidəsi, “Ələm ağacı” ziyarətgahı, daş qəbirlər vardı.

Xocalı-Gədəbəy mədəniyyətinə aid abidələrin böyük bir qismini də siklop tikililəri təşkil edirdi. Əsasən yüksək təpələrdə və alçaq dağlarda bina edilmiş bu abidələr yerli əhali tərəfindən Örtük daşı, Qalaça, Hasar, Düzülü daş və s. adlanırdı. Siklop tikililərinin xarakterik cəhəti ondan ibarət idi ki, bu abidələr yonulmamış iri daşlardan tikilmişdi. Bu tikililər bəzən iki və hətta üçqat divarla əhatə olunurdu. Siklop tikililərdə qapı yerləri üç sal daşdan düzəldilmişdı. Bu abidələr əsasən, e. ə. II minilliyə və I minilliyin əvvəllərinə aid idi.

Xocalı mədəniyyətinə məxsus qəbir abidələri də çox unikal idilər. Qarabağ düzlərinin təbii yaraşığı olan kurqanlar müxtəlif quruluşlu və müxtəlif tərkibli hündür təpələrdən ibarət idi, vaxtilə süni surətdə qəbirlərin üstünə tökülmüşdü. Kurqanlar ya torpaqdan, ya daşdan, bir çox hallarda da daşla torpağın qarışığından tökülmüşdü. Kurqanların altındakı qəbirlər də müxtəlif olmuşdur. Ölünü dəfn etmək üçün bəzən kurqanın altında dairəvi hasara alınmış ev tikilmiş, bəzən daş qutular düzəldilmişdi. Kurqanlar həm ailəvi, həm də tək-tək şəxslərə aid idi. Ailəvi kurqanlarda bəzən əllidən artıq skelet aşkara çıxarılmışdı. Dəfn olunan adamın axirət dünyasına böyük var-dövlətlə yola salınması adəti olubmuş, hər bir kurqan ayrılıqda bir xəzinəni xatırladırdı. Xocalı kurqanlarının tədqiqindən sonra məlum olmuşdu ki, eramızdan əvvəl II minillikdə Qarabağın sakinlərinin həyatında sənətkarlığın iki sahəsi mühüm yer tutubmuş: dulusçuluq və metalişləmə sənəti. Xocalıda tapılmış gil qabları kolleksiyası sübut edirdi ki, Qarabağ dulusçuları bu sənət sahəsində çox yüksək inkişaf pilləsinə qalxıblarmış. Onlar xüsusi, yararlı gil mədənləri aşkar edərək bəşər tarixində ilk texniki tərəqqi üsullarından biri olan ayaq çarxından istifadə eləyiblərmiş. Bir qayda olaraq dulusçular Tunc dövründə hazırladıqları gil qablarının hamısının üzünü cilalamışdılar. Qabların bədii tərtibatına da ciddi fikir verirlərmiş. Belə ki, əksər qabların üzərində müxtəlif nəbati təsvirlər, həndəsi fıqurlar cızılmışdı, cızıqlar xüsusi ağ maddə ilə doldurulmuşdu. Gil

qabların xüsusiyyətlərindən biri də oydu ki, qabların çiyni üzərində xüsusi göbələkvarı çıxıntılar düzəldilirdi ki, bu da qablara xüsusi gözəllik verirdi. Xocalıdakı 5 saylı kurqandan aşkar edilmiş bir ədəd gil qabın qulpu üzərində isə buğda dənləri təsvir edilmişdir.

O ki qaldı metalişləmə sahəsinə, bütün Qafqazda mis ilə qalayın qarışdırılmasından tunc metalın alınması sirlərinə ilk dəfə bələd olanlardan biri də Qarabağın qədim sakinləri olubmuş. Bu möhkəm metaldan yerli əhali silahlar hazırlamışdır. Qarabağ abidələri içində ən çox ox başlıqlarına rast gəlinir. Dövrün Qarabağ qılıncları da fərqliydi, onların dəstək hissəsinin bağında ikitərəfli çıxıqları var idi, həmin çıxıqlar qılıncın əsas hissəsinə doğru maillənirdi. Bu çıxıqlar həm zoomorf formada, həm də müxtəlif həndəsi cizgilərlə bəzədilirdi.

Xocalı abidələrı arasında Azərbaycan üçün yeganə olan iki mühüm tip abidə də aşkar edilmişdi. Bunlardan biri menhirlər idi. Menhir sözünün hazırkı ingilis dilində işlənməsi və “uzun daş” mənası daşıması da çox diqqətçəkəndir. Menhirlər – qəbilə quruluşu dövründə vəfat edən adamın qəbiri üzərində dik basdırılmış, heykələ bənzər daşlardı. Adətən bu cür daşları qəbilə başçılarının qəbirləri üzərində qoyurmuşlar. Qədim inanclara görə, vəfat edən adamın ruhu daşa keçirmiş və orada əbədi yaşayırmış.

Digər nadir incilər isə kromlexlər idi. Kromlex dairəvi düzülmüş bir neçə dik və onların üzərinə qoyulmuş bir ədəd köndələn daşdan ibarətdir. İnanca görə, bu abidələr axirət evi adlanırdı.

Nəhayət söyləyim ki, Azərbaycanda ən qədim yazı da Xocalıda aşkar edilmişdi, 11 saylı kurqandan tapılan üzərində mixi yazısı olan bir ədəd kiçik muncuq bu birinciliyin daşıyıcısı idi.

Sovetlər dönəminin sonları, müstəqilliyimizin ilk illərində Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinin izi ilə məşğul olan bir çox Qafqazşünas alim təkcə Azərbaycanın deyil, ümumiyyətlə Yaxın Şərq ölkələrinin maddi-mədəniyyət tarixi ilə əlaqədar bir sıra problemlərin həllinə yaxınlaşmaq üzrəydilər. Bu problemlərdən biri 3-4 min il bundan öncə yaxın Şərq ölkələrinin mədəni əlaqələrinin, digəri iqtisadi əlaqələrinin səviyyəsini öyrənmək idi. Xocalı abidələri sübut edirdi ki,

belə əlaqələr geniş olmuşdur, müxtəlif etnik qruplar sözügedən dövr ərzində mehriban iqtisadi, siyasi və mədəni təmasda yaşamışdılar. Çox təəssüf ki, 1992-ci ilin fevral ayında erməni faşistləri Xocalı əhalisini vəhşicəsinə qırmaqdan savayı, həm də bir xalqın izini tam itirmək kimi mənfur bir cinayətə əl atmışlar və bəşəriyyət üçün nadir abidələr toplusu olan Xocalı abidələrini dağıtmış, yer üzərindən silmişlər.

Xocavənd rayonu ərazisində isə yetmişdən çox dünya və respublika əhəmiyyətli tarixi-memarlıq və mədəniyyət abidələri vardır ki, bunlardan da ən önəmlisi Salakətin kəndinin yaxınlığında, Quruçay vadisində qərarlaşan, 1,5 milyon il yaşı olan Azıx mağarasıdır. Həmçinin Tuğ kəndi ərazisində yerləşən V-VIII əsrlərə aid Ritiş qalasını, X əsrə aid Qırmızı məbədi, Ərgünəş dağının yamacında yerləşən Ərgünəş qalasını, Düdükçü kəndi yaxınlığında XIII əsrə aid Rzaqulu Bəy türbəsini, qədim tarixə malik Tağlar mağarasını, Xocavənd kəndi yaxınlığında Aşıqlı Qoşa günbəzini, Böyük Tağlar kəndində 1241-ci ilə aid alban məbədini milli mədəni sərvətimiz kimi qeyd etmək olar. Bu abidələr müəyyən dağıntılara məruz qalaraq 28 il işğal altında qalmışdır. Ermənistanın hərbi təcavüzü nəticəsində Xocavəndin Tuğ kəndinin beş kilometrliyindəki V əsrə aid alban kilsəsi, Tuğ və Qaradağlı kəndlərinin ərazilərində I-VI əsrlərə aid olan alban qəbiristanlıqları, Salakətin kəndi ərazisindəki Dəmirov və Dağdağan ocaqları, Əmirallar kəndi yaxınlığındakı Bəhrəmli piri, Muğanlı kəndində yerləşən Seyid Rza günbəzi kimi tamamən dağıdılmış mədəni və dini abidələri də vardır.

Haşansa vandallıqlarına görə Palmiranı dağıdan İŞİD-çilər də, eləcə də Xocavəndin, Xocalının qədim tarixini yerlə -yeksan edən erməni faşistləri mütləq məhkəmə qarşısında dayanacaqlar, mən buna tam əminəm.

Erməni gənclərinin "Şərəf tarixi" adlandırdığı, əslində "Şərəfsizlik tarixi"nin son hissəsi barədə məlumatı isə Stepan Arsenyeviç məni Şeremetyevo aeroportuna apararkən yol boyu verdi. Üç günlük Moskva səfərim bitmişdi, Vətənə qayıdırdım. Səfərimdə həm yeni kitabımla bağlı zəruri işləri yekunlaşdırmışdım, həm də erməni

millətçiliyinin faşist mahiyyəti barədə dostları, tanışları, həmkarları məlumatlandırmışdım, həm də Stepan Arsenyeviçdən əsl romanlıq mövzu götürmüşdüm. Üç günün böyük hissəsini biz dostumla onun Vernadski prospektindəki üzü prospektin nəhəng avtomobil axınına tuşlanmış mənzilində yeni yaranacaq kitab barədə danışmış, onu ətraflı müzakirə etmişdik. Styopa yorulmadan, usanmadan, həvəslə mənə erməni kirayənişinlərinin milli qəhrəman olmaq çabalarının necə fiaskoya uğramasından bəhs etmişdi.

Son nöqtələr təyyarəyə minik başlaması barədə elan veriləndə qoyuldu, dostuma haqq işimizdə bizə dəstək olduğu üçün sonsuz minnətdarlığımı bildirib yönümü Bakıya tərəf çevirdim.

## Otuz səkkizinci hissə

## KÖRPƏ QATİLLƏRİ

Kirayənişinlərim son hissəni tələm-tələsik yazmaqla bir növ müharibədəki ilk acı məğlubiyyətlərinin davamlı olacağını hiss edirdilər. Həmin gün oktyabrın 10-u idi, 13 günlük müharibədə dalbadal bir neçə yüksəklikləri, şəhər və kəndləri əldən verdikdən sonra ermənilər Hadrut qəsəbəsində də ciddi itkilər verib məğlubiyyətlə üzləşmişdilər. Kirayənişinlərim kitablarının xilaskarlıq missiyasına o qədər inanırdılar ki, iş işdən keçməyincəyə qədər kitabı ortaya çıxarmağa can atırdılar. Son hissədə onlar kitab boyu özlərinə şərəf saydıqları, əslində ən böyük şərəfsizlik olan erməni "şücaətlərindən" ən murdarını, ən rəzilini təbliğ etməyə girişərək özlərini tam nokauta salmışdılar. Bu nadanlar millətlərinin bığlı-saqqallı, zəhmli, yekəpər, dişinəcən silahlanmış murdar əsgərlərinin mələk simalı balaca uşaqları necə qəddarlıqla öldürmələrini vəsf etmişdilər.

Ayaqlarımın altından yer qaçdı oxuduqca. Başımdan qaynar su töküldü. Ürəyim sancdı.

“**19-cu bölmə.** Düşmən milləti qundaqdakı körpəsindən başlayaraq taqətsiz qocasınadək tam şəkildə qırmaq – müharibənin qızıl qanunudur, heç bir humanizmə, heç bir mərhəmətə yol verilməməlidir, humanizm və mərhəmət haqq yolu uğrunda mücadilə edən əsgərin yalnız qollarını boşaldıb yanına sala bilər. Bu isə yoldan sapmaq deməkdir, qətiyyətsizliyə uğramaq deməkdir. Təsadüfi deyil ki, Adolf Hitler İkinci Dünya müharibəsində yer üzərindən kökünü kəsmək istədiyi yəhudilərin uşaqlarını xüsusi amansızlıqla qırdırmışdı. Hitler 1 milyon 200 min yəhudi uşağının qətlinə fərman verməsi ilə tarixə düşdü, bizim erməni millətçilərimiz də Osmanlıda, Ermənistanda və Azərbaycanda azı o qədər türk uşağını qətlə yetirmələri ilə tariximizin şərəfli səhifələrini yazıblar. Gəlin, bu səhifələrin bəzilərini tarixi ardıcıllıqla vərəqləyək. Bizim ən böyük mədəniyyət xadimlərimiz xalqımızı türklərlə əbədi düşmənçiliyə əbəs yerə çağırmayıblar ki! Yazıçımız Marietta Şaginyan hələ sovet zamanında rəsmi toplantıların birində gənclərimizə belə bir tövsiyə vermişdi: “Dil açmamış uşaqlarınızın qulağına pıçıldayın ki, türk sənin düşmənindir”.

“Ermənilərin anası” adlandırdığımız Silviya Kaputikyan ötən əsrin sonlarında mitinqlərdən birində xalqın qarşısında çıxış edərək hamıya konkret təlimat vermişdi: “Ey erməni xalqının övladı. Sən türk öldürməkdən qürur duymalısan”. Qürurumuz Zori Balayan “Ocaq” kitabını yazaraq xalqımızı türklərə qarşı tükürpədici müharibəyə çağırmışdı, Birinci Qarabağ müharibəsindən sonra yazdığı “Ruhumuzun dirçəlişi” kitabında isə Xocalı soyqırımı vaxtı ermənilərimiz tərəfindən girov götürülmüş 13 yaşındakı türk uşağına şəxsən özünün etdiyi işgəncəni belə şərh etmişdi: “Türk uşağının başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək öldü. İlk sənətim həkimlik olduğuna görə humanist idim. Ona görə də türk uşağına etdiyim bu əməllərə görə də özümü xoşbəxt saymadım. Amma ruhum xalqımın bir faizinin belə qisasını aldığı üçün sevincdən qürurlandı. Dostum Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və onu türklə eyni kökdən olan itlərə atdı”.

İndi isə gəlin, qəhrəmanlarımızın yüz ildən artıq bir dövr ərzində həyata keçirdikləri türk uşaqları soyqırımının səhifələrinin bəzilərini tarixi ardıcıllıqla vərəqləyək. Beləliklə, getdik:

1915-ci ildə fədailərimiz Osmanlı İmperiyasının Qars və Ərdahan yaşayış məntəqələrindəki əhalini qılıncdan keçirərkən çox sayda kiçik yaşlı uşaqları da məhv etdi.

1918-ci ildə fədailərimiz Osmanlı İmperiyasının Qatranlı bölgəsinə hücum edərək əhalisini qılıncdan keçirdilər. Bu qanlı savaşda 1400 türk uşağı odda yandırıldı.

1918-ci il yanvar ayının 28-də Gəncənin Zağalı kəndində fədailərimiz 15 uşağı qətlə yetirdilər.

1918-ci ildə Bakı qətliamı zamanı onlarca azərbaycanlı uşaq da süngüyə tuş gəldi. Biz arxivlərə baxarkən maraqlı bir faktla rastlaşdıq. Rus fotoqraf Vladimir Sokolov müsəlman komitəsinin xahişi ilə qırğına aid fotoşəkillər çəkib. Cəmi üç fotoşəkil. Onun yazdığına görə, gördüyü “mənzərələr” ona ağır təsir etdiyindən şəkil çəkməyi başa çatdıra bilməyib.

– Birinci fotoşəkildə başında güllə, bədənində beş süngü yarası olan və sağ çiyninə bıçaq yarası vurulmuş ananın döşünü əmərkən ayağından süngü yarası alaraq öldürülmüş körpə həkk olunubmuş.

– İkinci şəkildə iri mismarla divara mıxlanmış iki-üç yaşlı uşaq həkk olunubmuş.

– Üçüncü şəkildə isə cırılmış paltarlarından və qançırlardan zorlanaraq öldürüldüyü görünən 13-14 yaşlı qız təsvir olunubmuş.

Həmin il Quba qırğını zamanı da çox sayda uşaq qətlə yetirildi. Arxiv materialına görə qəhrəmanımız Amazaspın əmri ilə fədailərimiz 4 qadın və 2 uşağı meydana gətiriblərmiş. Uşaqların başını kəsib qadınları isə süngü ilə ikiyə bölüblərmiş. Meydanda ah-nalə yüksələndə Amazasp əsgərləri cərgə ilə düzdürərək dinc əhaliyə atəş açmağı əmr edibmiş. Həmin il Şamaxıda bizimkilər 1277 uşağa işgəncə verərək öldürdülər.

1920-ci il yanvarın 6-da Naxçıvanın Bılağ kəndində bizimkilər işgəncə ilə 25 uşağın həyatına son qoydular.

1919-1920-ci illər arası Zəngəzurda öldürülən 7729 nəfərdən 2196-sı azyaşlı uşaq oldu. 485 uşaq isə diri-diri yandırıldı. Öldürülmə üsulları isə biri-birindən maraqlı olması ilə diqqət çəkirdi: güllələmək, təndirə atmaq, yabaya, süngüyə keçirmək, divara mismarlamaq, şişə taxmaq, parça-parça edib quduz itlərə tullamaq və s.

1988-ci ildə azərbaycanlılar Ermənistandan qovularkən onlardan 216 nəfəri qətlə yetirildi, həlak olanların arasında 23 uşağın olduğu bildirildi. 1988-ci ilin noyabrında Spitak rayonunda 5 südəmər körpə, 18 müxtəlif yaşlı uşaq, Basarkeçər rayonunun Şişqaya kəndində 4 yaşlı Elvin Məmmədov, 1 yaşlı Elçin Bəhramoğlu, 11 yaşlı Şahin Balacayev qətlə yetirildı. Bunlar rəsmi statistikadır. Amma əslində, söhbət yüzlərlə uşağın öldürülməsindən gedir. Bu qətllər də özünəməxsusluğu ilə seçilir, məsələn, 1988-ci il dekabrın 5-də Spitakda bizim cəsur fədailərimiz 17 azyaşlı azərbaycanlı uşağı iri diametrli boruya dolduraraq hər iki tərəfini qaynaq etdilər. Borunu hündür uçurumdan tullayaraq uşaqları qətlə yetirdilər. Həmin ilin noyabrında Quqarkda da bənzər hadisə həyata keçirildi. 70 nəfər azyaşlı uşağı 20 metr uzunluğunda 1,5 diametrdə boruya dolduraraq hər iki tərəfini bağladılar. Hətta dekabrda baş verən zəlzələ zamanı köməyə gələn fransalı xilasedicilər bu boru ilə rastlaşıb qətliamın üstünü açdılar da. 1988-ci ildə Sevan şəhərində isə bizimkilər 22 nəfər azərbaycanlı uşağını su quyusuna ataraq boğdular. Bir baxın, cəmi üç epizodda 109 azərbaycanlı uşağı o dünyaya göndərmişik, rəsmi 23 rəqəminə aldanmayın.

1989-cu ildə Kərkicahanda döyüşçülərimiz öz bağlarında oynayan 11 yaşlı Nadirlə 9 yaşlı Nicatı güllələdilər.

1990-cı il yanvarın 19-u bizimkilər Naxçıvan Muxtar Respublikasının Sədərək kəndinə hücum edərkən 6 yaşlı Elvin və 4 yaşlı Malik Nəsirzadə qardaşlarını da qətlə yetirdilər.

1992-ci ilin fevralında Xocalı soyqırımı zamanı əsgərlərimiz 63 uşağı qətlə yetirdi. Bizim David Xeyriyan adlı müəllifimiz bir görün, "Xaç naminə" kitabında o zəfər anlarını necə tərənnüm edir: "Fevralın 26-da meyitləri daşıyıb Daşbulaq yaxınlığındakı bataqlığa

tökdülər və cəsədlərdən keçid üçün körpü düzəltdilər. Mən ölülərin üstündən keçməyə qorxurdum. Tərəddüd etdiyimi görən polkovnik Ohanyan mənə dedi: "Qorxma, ürəkli keç. Bu hal müharibənin qanunlarından biridir". Mən qana bulaşmış 9-11 yaşlı uşağın və digər meyitlərin üstündən adlayıb bataqlığı keçdim. Çəkmələrim və şalvarımın balağı qana batmışdı".

Həzz dəqiqələrinizi artırmaq üçün David Xeyriyanın Xocalı ilə bağlı daha bir xatirəsini bölüşürük: "Martın 2-də meyitləri yandırmaqla məşğul olan "Qaflan" erməni qrupu 2000-ə yaxın alçaq monqolun *(türklərin – red)* cəsədini toplayıb ayrı-ayrı hissələrlə Xocalının bir kilometrliyində yandırdı. Axırıncı yük maşınında mən başından və qollarından yaralanmış təxminən 10 yaşlı bir qız uşağını gördüm. Diqqətlə baxanda gördüm ki, o yavaş-yavaş nəfəs alır. Soyuğa, ac olmasına və ağır yaralanmasına baxmayaraq, qız hələ də sağ idi. Ölümlə mübarizə aparan bu uşağın gözlərini mən heç vaxt yaddan çıxarmayacağam. Sonra Tiqranyan familiyalı bir əsgər onun qulaqlarından tutub artıq üzərinə mazut tökülmüş cəsədlərin içərisinə atdı. Daha sonra cəsədləri yandırdılar. Tonqaldan ağlamaq və imdad səsləri gəlirdi".

1993-cü ilin aprelində Kəlbəcəri ələ keçirərkən bizimkilər 8 uşağı da öldürdü. Bunlar Azər Orucov *(7 yaş)*, Anar Valehov *(7 yaş)*, Razim Salmanov *(8 yaş)*, Cahid İbişov *(10 yaş)*, Sahil Məmmədov *(10 yaş)*, Bəxtiyar Xəlilov *(11 yaş)*, Səxavət Dəmiroğlu *(14 yaş)*, Natiq Əsgərov *(14 yaş)* və Bəxtiyar Xəlilov *(11 yaş)* idilər.

Birinci Qarabağ müharibəsindən sonrakı atəşkəs rejimində də biz öz siyasətimizə sadiq qalıb ara-sıra azərbaycanlı uşaqlarını qətlə yetirdik. 2016-cı il fevralın 13-də Füzuli rayonunun Alxanlı qəsəbəsində yaşayan 14 aylıq körpə Zəhra Quliyevanın minaatanlarımız tərəfindən qətlə yetirilməsi dediklərimizə sübutdur.

Var olsun erməni prinsipiallığı, var olsun erməni mübarizliyi!"

* * *

Nadan kirayənişinlərim burada mövzunu bitirib ardınca "Son hissə" qeydlərini qoymuşdular. Mən P.S.-imi validol içərək yazdım.

"P.S. Nadanlar! Nadürüstlər! Alçaqlar, rəzillər, şərəfsizlər! Mən bu saatda dilimizin lüğət tərkibini qınayıram ki, orada siz başıpozuqlara uyğun heç bir sözə rast gələ bilmirəm. Siz murdardan murdarsınız, yırtıcısınız, vəhşi xislətiniz necə imkan verir ki, əyninizə paltar geyinir, ütülənib-sığallanıb insan arasına çıxır, dostluqdan, sevgidən, xoş niyyətlərdən dəm vurursunuz?

Bir yazdığınız bu üfunət qoxulu cızma-qaranızı kənar gözlə, qeyri-erməni gözüylə oxuyun, görün necə dəhşətə gələcək, onu yazan cüvəllağıları necə lənətləyəcəksiniz!

Bir xalqın yolgöstərəni, şamını yandıranı, mayakı onun yazıçılarıdır. İndi sizin xalqın qürur rəmzi olan murdarların murdarı Zori Balayanın sitatını mən çəkim, onu oxucu kimi bir də mənim yazımdan oxuyun: "Türk uşağının başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək öldü. İlk sənətim həkimlik olduğuna görə humanist idim. Ona görə də türk uşağına etdiyim bu əməllərə görə də özümü xoşbəxt saymadım. Amma ruhum xalqımın bir faizinin belə qisasını aldığı üçün sevincdən qürurlandı."

Oxudunuzmu? Yerə girdinizmi?

Hansı vəhşi, hansı yırtıcı belə sözlər söyləyər?

Ayıb olsun sizə, hamınıza – kiçikdən böyüyə hamınıza ayıb olsun ki, belə bir "yazıçı" yetişdirmisiniz, onu başınızın üstünə ucaltmısınız. Belə konkret cinayətə görə bu adam ən ağır cəzaya layiq görülməlidir, ən ağırına!

Təbiətdə hətta ən vəhşi heyvanlar arasında bu sizin "sivil" yazıçınızın yol verdiyi vəhşiliyə rast gəlinməz. Vəhşilər vəhşisi timsah sevimli ovu olan tısbağanın heç vaxt balasına toxunmur, onu götürüb təhlükəsiz yerə qoyur ki, xətər toxunulmasın. Nə qədər epizod olub ki, canavar meşədə atılmış körpə uşağı süd verib bəslədərək böyüdüb. Demək, ermənizm vəhşi heyvanlardan betər vəhşilik, yırtıcılıq ideologiyası imiş.

Bir təsəvvür edin, sabah sizin dünyaya gələcək körpə övladınızın başına bu oyunları açırlar, hansı hissləri keçirərsiniz?

Yazıqsınız, bu yazdıqlarınızı kompüterdən, düşüncələrinizi beyninizdən silin. Onsuz da çürümüş və iylənmiş ideologiyanızın axırına az qalıb. Mən tam əminəm ki, budəfəki müharibədə İlham Əliyev və Azərbaycan Ordusu dərsinizi verəcək. Bu müharibə sizin süqutunuz olacaq. Hadrut hələ başlanğıcdır. Ardı hökmən gələcək.

Siz məğlubsunuz. Siz öncədən də məğlub idiniz, çünki sizin "şərəf tarixi" zənn etdiyiniz tarixiniz əsl şərəfsizlik tarixidir!"

Yazıb qurtardıqdan sonra nadanların kitablarının bir surətini çıxardım, içimə bu an tam əminlik dolmuşdu ki, onları yenəcəyəm, məğlub olduqlarını, səhv etdiklərini etiraf edəcəklər.

Bircə, təki yazdıqlarımı tez oxuyaydılar. Kitab yazan olmasam da bir həqiqəti hər halda bilirdim, yazıçı kitabını yekunlaşdıranda mütləq əvvəlki hissələrə göz gəzdirir. Bu nadanlar son hissəni yazmalıydılar, demək, olsun ki, onlar da əvvəldən-axıra yazdıqlarına bir də baxacaqdılar. Onlar evə çox gec gəldilər, gecə yarıya kimi öz dillərində nəsə pıçıldaşdılar, elə qır-qırlarını eşidərək də yuxuladım.

Səhərisi gün günəş pəncərədən gözlərimə elə gur düşürdü ki, elə bildim, yay geri qayıdıb. Evi dinşədim, səs-səmir yox idi. Demək, nadanlar getmişdilər.

Durub qonaq otağına adlayanda masanın üstündə bir kağız gördüm. Ora iri hərflərlə yazılmışdı: "Stepan Arsenyeviç, siz bizi həqiqətən də utandırdınız. Yazdıqlarımızı başqa gözlə oxuyub həqiqətən yerə girdik. Yazdıqlarımızın hamısını sildik. Gör bir nəyin yolunda qurbanlar vermişik. Dəyməzmiş, əlbəttə. Sizin bu dərsinizi əsla unutmayacağıq. Gözlərimizi açdınız. Bəzən bir yolu tutub gedirsən, bir ömür bu yolu qət etməyə xərclənir, amma sona çatanda görürsən ki, axtardığın gül-çiçək əvəzinə tikan-qanqala yetişmisən, cənnət, xoşbəxtlik deyilən nəsnələr burada yoxdur, əzabdır, möhnətdir, ağrı-acıdır. Bizim xalqın getdiyi yol da belə yoldur.

Sayənizdə bu yoldan dönürük. Çalışacağıq bundan sonra xalqımızı maarifləndirək, millətçilik ideologiyası ilə milyonlar qazanan əxlaqsızları xalqın gözündən salaq. Xalqımız ac-yalavacdır, ona bu saxta ideologiya yox, babat gün-güzəran, balalarını dolandırmaq

lazımdır. Ara yerdə birimiz azadlığımızı, birimiz təhsilimizi, birimiz də sevdiyimiz insanı itirdik. Çox heyif.

Sizinlə bir mənzildə yaşaya bilmərik, yanınızda o qədər günahkarıq ki, üzünüzə çıxa bilmərik. Ona görə də mənzilimizi dəyişirik.

Halallıq verin. Salamat qalın.

Qaqik və Stepan!"

Vəssalam. Əhvalat bu yerdə bitdi.

## Otuz doqquzuncu hissə

## MÜƏLLİFDƏN SON SÖZ

Müharibənin hər günü şanlı ordumuzun yeni zəfəri ilə bitirdi. Uğur uğuru sıralayırdı. 10 milyonluq bir xalq olaraq hər gün Ali Baş Komandanımızın canlı yayımdan növbəti müjdəsini gözləyir, azad edilən yeni ərazilərimizin adlarını yaddaşımıza yazırdıq.

Noyabr ayının 8-i tariximizin son dönəmlərindəki ən əhəmiyyətli hadisəsi baş verdi, Qarabağın mirvarisi olan Şuşa düşmən işğalından azad edildi. Həmin gün heç kəs evdə qalmadı, karantin rejimi, virus təhlükəsi yada düşmürdü, hamı Azərbaycanın, eləcə də müharibədə bizə hər cür mənəvi dəstək göstərən dost və qardaş Türkiyənin bayraqları ilə küçələrə axışdı.

Təbii ki, zəng vurub sevincimi Stepanla da bölüşdüm. Stepan məmnunluqla bu xəbəri qəbul etdi, eyni zamanda öz uzaqgörənliyindən də qürurlandı.

Beləliklə, Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilmişdi. Həmin günədək Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz

qəsəbələri və 52 kəndi, rayonun Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik azad olundu. O zəfər dolu 44 günün hər bir qələbə müjdəli anı tarixin qızıl yaddaşına bax beləcə yazıldı:

**27 sentyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri;
- Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri;
- Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər.

**3 oktyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Tərtər rayonunun Suqovuşan və Talış kəndləri;
- Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri;
- Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi.

**4 oktyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri.

**5 oktyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri.

**9 oktyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi;
- Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri;
- Füzuli rayonunun Yuxarı Güzlək, Görəzilli kəndləri;
- Tərtər rayonunun Çaylı kəndi.

**14 oktyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri;
- Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri.

**15 oktyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri;
- Füzuli rayonunun Arış kəndi;
- Cəbrayıl rayonunun Doşulu kəndi.

**16 oktyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri.

**17 oktyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri.

**18 oktyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Xudafərin körpüsü və ətraf torpaqlar.

**19 oktyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri.

**20 oktyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri;
- Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri;

- Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri;
- Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Noraşen, Vəng kəndləri;

**21 oktyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri;
- Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri;
- Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri.

**22 oktyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndləri və Ağbənd qəsəbəsi;
- Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri;
- Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri.

**23 oktyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Xocavənd rayonunun Dolanlar və Bünyadlı kəndləri;
- Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı və Veysəlli kəndləri;
- Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndləri;
- Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri.

**25-26 oktyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd kəndləri;
- Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri;
- Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri.

**28 oktyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri;
- Füzuli rayonunun Mandılı kəndi;
- Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac kəndləri;
- Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qılıcan kəndləri.

**30 oktyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri;
- Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri;
- Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri.

**2 noyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri;
- Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri;
- Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri.

**4 noyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Cəbrayıl rayonunun Mirək, Kavdar kəndləri;
- Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri;
- Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndləri.

**7 noyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Füzuli rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar kəndləri;
- Cəbrayıl rayonunun Yuxarı Məzrə və Yanarhac kəndləri;
- Qubadlı rayonunun Qəzyan, Balasoltanlı, Mərdanlı kəndləri;
- Zəngilan rayonunun Beşdəli kəndi;
- Xocavənd rayonunun Ataqut, Tsakuri kəndləri;
- Xocalı rayonunun Qarabulaq, Moşxmaat kəndləri.

**8 noyabrda işğaldan azad olunan ərazilərimiz:**

- ŞUŞA şəhəri

**9 noyabrda işğaldan azad olunan ərazilərimiz:**

- Füzuli rayonunun Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq kəndləri;
- Xocalı rayonunun Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Şuşakənd, Muxtar, Daşaltı kəndləri;
- Xocavənd rayonunun Susanlıq, Domi, Tuğ, Akaku, Azıx,Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər kəndləri;
- Cəbrayıl rayonunun Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər kəndləri;
- Qubadlı rayonunun Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli kəndləri;
- Zəngilan rayonunun Keçikli, Ördəkli, Sobu, Qaragöz, İsgəndərbəyli kəndləri, Bartaz qəsəbəsi;
- Laçın rayonunun Güləbürd, Səfiyan, Türklər kəndləri.

Noyabrın 10-da isə gecəyarısı müharibə Ermənistanın tam kapitulyasiyası ilə başa çatdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin birgə bəyanatına əsasən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Bəyanata əsasən 2020-ci il noyabrın 15-dək Kəlbəcər rayonu, noyabrın 20-dək Ağdam rayonu, dekabrın 1-dək isə Laçın rayonu Azərbaycana qaytarılmalıydı.

Günləri bir-bir ipə çəkərək düşmən tapdağı altında qalan son ərazilərimizin də geri qaytarılmasını gözlədik.

Noyabrın 20-də Ağdam rayonu Azərbaycana təhvil verildi. Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi azad olundu. Ağdam şəhərinin mərkəzində Azərbaycanın Dövlət Bayrağı ucaldıldı. Xatırladım ki, Ağdam işğal edilmiş rayonlarımızın arasında əhali sayına görə ən birinci rayondur.

Noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verildi. Məğlubiyyətilə barışa bilməyən erməni əhalisi bölgədə Azərbaycana qarşı ekoloji terror həyata keçirmiş, ərazini tərk edərkən evləri ilə yanaşı meşələri də yandırmışdır. Kəlbəcər isə ərazi baxımından respublikamızın ən böyük rayonlarından biridir.

1 Dekabr tarixində Ermənistan silahlı birləşmələri Laçın rayonundan çıxdılar, rayon Azərbaycan Silahlı Qüvvələrinə təhvil verildi. Beləliklə də, zəngin tarixi keçmişi olan daha bir əzəli yurdumuz əsl sahiblərinə qovuşdu. Vətən həsrətimizə son qoyuldu. Bununla da üçtərəfli bəyanata uyğun olaraq Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşdı. Azərbaycan öz müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında yeni bir dövrə – Qarabağın dirçəldilməsi yoluna qədəm qoydu.

Erməni faşistləri öz murdar xislətlərini 30 ilə yaxın bir dövr ərzində işğal altında saxladıqları ərazilərimizə yetirdikləri xətərlərlə bir daha göstərmiş oldular. İşğaldan azad edilən şəhər, qəsəbə və kəndləri görmək sadəcə insana göz dağıdır. Ermənistanın cinayət-

ləri mülki əhalinin hədəf alınması və etnik təmizləmə ilə yanaşı, maddi-mədəniyyət abidələrinin böyük bir hissəsinin dağıdılması, bir hissəsinin isə erməniləşdirilməsi ilə müşayiət olunub. İşğaldan azad edilmiş ərazilərimizin demək olar ki, 99 faizində bütün yaşayış binaları, məktəblər, xəstəxanalar, ictimai binalar, tarixi abidələr, qəbiristanlıqlar, məscidlər dağıdılıb. Ümumiyyətlə, 113 dünya əhəmiyyətli, 292 ölkə əhəmiyyətli, 330 yerli əhəmiyyətli tarix, mədəniyyət və arxeoloji abidələr, 40 000-dən artıq eksponatın toplandığı 22 muzey, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 4 teatr və 2 konsert salonu, 31 məscid və digər mənəvi sərvətlərimiz erməni vandalizminin qurbanı olub. İnsanlıq adına ləkə olan bu üzdəniraqların məscidlərimizi murdarlaması isə onların həm də Yaradana asi çıxmalarıdır. Bənzəri olmayan Ağdam Çörək muzeyi yerlə-yeksan edilib, dünya şöhrətli Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin on üç minədək, Laçın tarix-diyarşünaslıq muzeyinin 5 000-dən çox qiymətli və nadir eksponatı talan edilərək Ermənistana daşınıb. Bu, vəhşilikdir, vandallıqdır, bu, hərbi cinayətdir.

Azərbaycan Prezidenti işğaldan azad olunan bölgələrə səfər edərkən acınacaqlı mənzərə qarşısında sonsuz kədərlə: "Dağıdıblar, evləri dağıdıblar, bütün infrastrukturu dağıdıblar, bir dənə də salamat bina yoxdur. Bütün dünya görməlidir ki, erməni vəhşiliyi nə deməkdir. Təkcə Füzuli yox, Cəbrayıl, Qubadlı, Ağdam şəhərləri nə gündədir, başqa şəhərlər nə gündədirlər. Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib" söyləməsi həm də erməni faşizminə əbədi bir ittihamdır.

İşğal olunmuş ərazilərdə əsrlər boyu qalmış dini-mədəni irsdən sui-istifadə beynəlxalq qanunların və konvensiyaların, o cümlədən "Silahlı Münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunmasına dair 1954-cü il Haaqa Konvensiyası"nın və 1954, 1999-cu il Protokollarının açıq şəkildə pozulmasıdır. Tarixi abidələrə qarşı törədilən vandallıqlar deməyə əsas verir ki, Ermənistan işğal faktının davam etdiyi bütün bu illər ərzində özünü tarix və mədəniyyət düşməni kimi aparmaqda davam edib. Şübhəsiz, söhbət yalnız Azərbaycan

tarixinə, azərbaycanlılara qarşı yönəlmiş vandalizmdən getmir. İşğal olunmuş ərazilərdə yerləşən mədəni irsə, o cümlədən xüsusi əhəmiyyətə malik unikal abidələrə bu cür barbarcasına münasibət ilk öncə dünya irsinə qarşı yönəlmiş təhdid kimi dəyərləndirilməlidir.

Kapitulyasiya aktından sonra rayonları boşaldarkən erməni əhalinin yaşamış olduqları evləri, yardımçı binaları, inzibati binaları, eləcə də meşələri od vuraraq yandırması, çox nadir fauna və floraya ciddi zərbə vurması, su hövzələrini murdarlaması vəhşiliyi isə əsl roman mövzusu, kino süjetidir.

Tarixə koronavirus epidemiyası ili kimi daxil olaraq dünya iqtisadiyyatını çökdürən, insanlara sonsuz üzüntülər gətirən 2020-ci il Azərbaycan xalqına öz təzadlı üzünü də göstərmiş oldu, böyükdən-kiçiyə hər bir kəsin on illərdir ki, gözlədiyi qələbə müjdəsini gətirdi.

2020-ci il Azərbaycanın ümummilli lideri Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin dilindən qopan "Qarabağ Azərbaycandır!" şüarı ilə bir eldən-obadan çıxıb bütün dünyaya yayıldı, bütöv və sarsılmaz Azərbaycanı dünya boyda elədi.

Təbii ki, bu şüar Vernadski prospektində də əks-səda doğurdu, Stepan Arsenyeviç İvanov sevincini bölüşmək məqsədilə əlinə Azərbaycan bayrağı alıb Azərbaycanın Rusiyadakı səfirliyinin qarşısına getdi. Maraqlı olan odur ki, səfirliyimizin yanında yerləşən Ermənistan səfirliyinin yanından ötərkən o, erməni kirayənişinlərini də görübmüş, kirayənişinlər onunla üz-üzə gəlməmək üçün dabanlarına tüpürüb qaçıblar...

Böyük Zəfərimizin şərəfinə əsgərlik yoldaşım Styopanı məmnuniyyətlə Bakıya qonaq dəvət etdim. Stepan Arsenyeviç səmimi dəvətimi qəribçiliyə salmadı. Aradan çox keçmədən təkcə mənim deyil, bütövlükdə həqiqətin dostu olduğu üçün əziz adamıma çevrilən, Vernadski prospektində bir neçə günün içində daha da doğmalaşdığım, həqiqətləri bölüşdüyüm dostum Styopanı Bakıda ağırladım. Bakının görməli yerlərini, tarixi məkanlarını gəzdikcə, ləziz milli təamlarımızı daddıqca, buradakı insanlarla yaxından ünsiyyət

saxladıqca bir neçə günün içindəcə Stepan İvanov paytaxtımıza vuruldu. Öz heyranlığını gizlətməyərək Bakını "möcüzə şəhər" adlandırırdı. Xüsusən axşamçağı bulvardakı gəzintilərimizdə Bakı gecələrinin nə qədər füsunkar olduğunu təkrarlamaqdan yorulmurdu. Onsuz da ünsiyyətcil olan dostum dil-boğaza qoymadan Bakının Avropanın ən inkişaf etmiş paytaxtlarından fərqlənmədiyini dönə-dönə dilə gətirirdi.

Dostumun Bakıda qonaq olduğu günlərin birində ikimizin də istəyi ilə Fəxri Xiyabana yol aldıq. Stepan İvanovun indiyədək haqqında çox oxuduğu, bir dəfə də Moskvada real həyatda görmək imkanı qazandığı xalqımızın ulu öndəri Heydər Əliyevin məzarını ziyarət etmək arzusunu dilə gətirməsi elə ürəyimdən oldu ki, sevincimi gizlədə bilmədim. Fəxri Xiyabanın hüzur bəxş edən sakitliyində addımladıqca Stepan İvanovun Heydər Əliyev haqqında danışdıqları bir yandan ürəyimi fəxarət hissilə doldururdu, bir yandan da türkoloq dostumun tariximiz haqqında bu qədər həvəslə və maraqla danışmasına, hər sahədən məlumatlı olmasına heyrətlənirdim: "Bir xalqın qəhrəmanı haqqında öz xalqının nümayəndələri danışanda bunu milli üzgörənlik adlandırırlar, bu obyektivlik sayılmır, sırf subyektivizmə yozulur. Amma bir xalqın qəhrəmanı barədə tək öz xalqı deyil, artıq bütün dünya danışırsa, bu, artıq tam obyektivlikdir.

Çoxumuz bilirik ki, Moskva Dövlət Universiteti təkcə Rusiyada deyil, elə dünyada da nüfuzlu elitar təhsil ocaqlarından biri sayılır. Təsəvvürünüzə gətirin ki, həmin o Moskva Dövlət Universitetinin auditoriyasında oranın ən nüfuzlu professoru, jurnalistika fakültəsinin dekanı Yasen Zasurski tələbələrə Heydər Əliyev barədə mühazirə söyləyir. Zasurskinin həmin mühazirəsini mən mətbuatdan kəsib saxlamışdım, hələ də arxivimdə durur. Yaddaşım yaxşıdır deyə, çox hissəsini də sözbəsöz xatırlayıram. Orda deyilirdi ki, böyük dövlətlərdə, xüsusilə də ABŞ, Fransa, Böyük Britaniya, Almaniya və sair ölkələrdə məşhur olmaq o qədər də çətin deyil. Ancaq kiçik ölkələrdə, eyni zamanda da, müstəqilliyini yenicə qazanmış dövlətlərdə rəhbərlik missiyasını yerinə yetirmək çox çətindir. Və belə bir

ağır işin öhdəsindən, təbii ki, ən layiqincə gəlmək – ancaq Heydər Əliyev kimi böyük təcrübəsi olan, ağıllı, müdrik siyasətçiyə nəsib ola bilər. Onun həyat və fəaliyyəti təkcə azərbaycanlılar üçün yox, bütün ölkələrin insanları üçün örnəkdir.

Şahidi olduğum bir hadisəni qeyd edim. Dünyanın nüfuzlu xəbər agentliklərindən biri olan İTAR-TASS-da keçmiş Sovetlər birliyindən olan jurnalistlər təcrübə keçərkən söhbət gəlib Heydər Əliyevə çıxdı. MDB-dən və Baltikyanı ölkələrdən olan bir çox jurnalistlər öz azərbaycanlı həmkarlarına həsədlə dedilər ki, əgər bizdə də prezident Heydər Əliyev olsaydı, onda hər mühazirədə, hər seminarda, hər görüşdə biz də öz ölkəmiz haqda əcnəbilərdən çoxlu təriflər, yaxşı sözlər eşidərdik».

Stepan Arsenyeviçin bu söylədiklərindən sonra ona olan hörmətim birə-yüz artdı... Addımlarımızı yavaşıtdıq, artıq Ulu Öndərin məzarının önünə çatmışdıq. Özümüzlə götürdüyümüz tər gülləri səliqə ilə düzdük. Dahi siyasətçinin məzarı önündə ruhuna dualar oxuyub ikimiz də xeyli müddət böyük ehtiramla susduq. Bu sükut özündə o qədər dərin mənaları ehtiva edirdi ki... Sonra aram-aram yolumuza davam elədik. Stepanın mütəəssir olduğunu hiss edirdim.

Fəxri Xiyabandan Şəhidlər Xiyabanına doğru istiqamət götürdük. Gəzişə-gəzişə söhbətimizi davam etdirdik. Stepan bu dəfə sözü ermənilərdən saldı və ibrətamiz bir fikir söylədi: "Yüksək idarəçilik qabiliyyəti ilə 1982-ci ildə keçmiş SSRİ-nin Politbüro adlı ali idarəçilik orqanına qədər gedib çıxan, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə yüksələn Heydər Əliyevin yüksək post tutarkən millətindən asılı olmayaraq hər bir vətəndaşa, hətta əcnəbilərə belə əlindən gələn yaxşılığı etməsi bir başqa mövzudur, ermənilərin uzun illər bolşevik-sovet dönəmlərində tutduqları yüksək vəzifələri erməni separatizminə, digər millətlərin alçaldılmasına yönəldən Şaumyan, Mikoyan kimi liderlərinin tutduqları yolun tam əksidir".

Sonra dostum Heydər Əliyev barəsində çox xatirələr oxuduğunu deyərək bunlardan ən çox diqqətini çəkən Suriyanın Çin Xalq Respublikasındakı səfiri Məhəmməd Xeyir Vadinin xatirəsini mə-

nimlə bölüşdü: "Ötən əsrin 70-ci illərində Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası nümayəndə heyətinin başçısı kimi Suriyaya səfər etmişdi. Suriya televiziyasının işçisi kimi mən cənab Heydər Əliyevlə görüşüb ondan səfərlə bağlı müsahibə götürdüm. Müsahibənin gedişində Heydər Əliyev məndən soruşdu: «Moskvadan nə istərdin? Bir şey lazımdırsa, çəkinmədən deyə bilərsən».

Onun belə sadə, səmimi münasibəti məni cəsarətləndirdi və özümün ən vacib problemim üçün ona müraciət etdim. O vaxtlar mən Suriya vətəndaşı olan, ancaq Moskvada yaşayan bir qızla evlənmək istəyirdim. Lakin müvafiq sovet dairələri qıza Moskvadan Suriyaya gəlməyə icazə vermirdilər. Mən bu problemin həlli üçün Heydər Əliyevə müraciət etdim. O isə gülümsəyib dedi: «Mən elə bilirdim, sənin xahişin böyük bir problem barədə olacaqdır. Elə bu? Həll edərik!» İki həftədən sonra Moskvada viza bölməsindən nişanlıma bildirdilər ki, müvafiq dairələrin onun Suriyaya getməsinə heç bir etirazı yoxdur. Beləcə, biz ailə qura bildik, Heydər Əliyev mənim ailə səadətimin bünövrəsini qoydu. Mən, həyat yoldaşım və üç övladım ömrümüz uzunu o böyük şəxsiyyətə minnətdar olacaq, onu unutmayacağıq».

Stepan Arsenyeviçin danışdığı Məhəmməd Xeyir Vadinin bu xatirəsi məni çox təsirləndirdi. Düşündüm ki, dahilik həm də minlərlə insanın həyatına bacardığın qədər işıq saça bilmək, sayğı, sevgi, ehtiram və rəhmət qazanmağı bacarmaqdır. Heydər Əliyev məhz belə dahilərdən idi...

Stepan İvanovu bir neçə gündən sonra Moskvaya yola salanda onun hava limanında dediyi sözlər yaddaşıma həkk olundu: "Mən indiyədək Azərbaycan haqqında çox eşitmişdim. Bilirdim ki, tarix boyu bu günəşli ölkənin başının üstündən çox buludlar keçib. İndi isə gözümlə görərək əmin oldum ki, bu cür təbiətə, şərəfli tarixə, misilsiz bir xalqa malik olan bir ölkə gec-tez öz qələbəsini qazanmalı, öz haqqı olanı geri qaytarmalı idi. Zəfəriniz mübarək olsun! Tanrı ikimizə də ömür versin, – tezliklə abadlaşdırılmış Qarabağda, unikal şəhəriniz Şuşada görüşmək ümidilə səndən ayrılıram!"

Yazılma ideyası Moskvanın Vernadski prospektində meydana gələn növbəti kitabımda dostumun bu ülvi arzusu da yer alacaqdı...

* * *

Beləcə, ermənilərin özlərinin "Şərəf tarixi" kimi yazdığı kitabı "Şərəfsizlik tarixi" adı altında oxumaq azərbaycanlılara qismət oldu. Hazırda təqaüddə olan sadə bir türkoloqun zərbəsi ilə laxlayan, saxtalığı önə çıxan bir ideologiya olan erməni millətçiliyinin bu aqibəti həqiqətən də tarixin əsl ironiyasıdır. Yüz illərdir ki, qulaqları dəng edən bir milləti yola verənlərə, onların qəlbini qırmaq istəməyənlərə, nəticədə onların havadarlarına çevrilənlərə isə bir ittihamdır. Bu tarix həm də bizim ayılma, bir daha qəflət yuxusuna getməmə, hər zaman ayıq-sayıq qalma tariximiz olmalıdır. Çünki tarixin bir ümdə xüsusiyyəti də onun təkrarlanmağa meyilliliyidir.

Azərbaycan xalqının bundan sonra səhv etməyə ixtiyarı yoxdur...

**S O N**

**Oktyabr, 2020 – Mart, 2021**

# MÜNDƏRİCAT

Ön söz.
Qəddarlıq salnaməsiylə bağlı düşüncələr . . . . . . . . . . . . . . . . 7

1-ci hissə.
Qəfil çağırış . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 15

2-ci hissə.
Qandan qorxmaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 17

3-cü hissə.
Psevdogürcülər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 19

4-cü hissə.
Salnaməçilik . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 21

5-ci hissə.
Birinci bölmə necə yarandı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 26

6-cı hissə.
Müəllifdən ilk müdaxilə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 34

7-ci hissə.
Qədim tarixçilər fiaskosu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 35

8-ci hissə.
Müəllifdən rəy . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 41

9-cu hissə.
"Qədimdən qədimlik" xülyası . . . . . . . . . . . . . . . . . . . . . . . . . 44

10-cu hissə.
"Qəhrəmanlar"a bir baxın! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 48
11-ci hissə.
Müəllifdən bir elegiya . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 54
12-ci hissə.
Beynəlxalq tribunalın işini asanlaşdırmaq . . . . . . . . . . . . . . 56
13-cü hissə.
Müəllifdən növbəti müdaxilə . . . . . . . . . . . . . . . . . . . . . . . . 65
14-cü hissə.
İkinci P.S. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 66
15-ci hissə.
Bunlar başlarını itiriblər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 76
16-cı hissə.
Məşhurlar ermənilərə niyə söyüb? . . . . . . . . . . . . . . . . . . . 96
17-ci hissə.
Müəllifdən daha bir P.P.S. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 100
18-ci hissə.
Osmanlı dönəmi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 104
19-cu hissə.
Müəllifdən: Cənab Morqentaunun qurbanları . . . . . . . . . 114
20-ci hissə.
Van üsyanı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 118
21-ci hissə.
"Böyük Ermənistan" savaşının başlanğıcı . . . . . . . . . . . . . 122
22-ci hissə.
Tayqulaq Andranik . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 131
23-cü hissə.
Müəllifdən əsəb və hikkə yağmuru . . . . . . . . . . . . . . . . . . 141
24-cü hissə.
Mesenatlar? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 147

25-ci hissə.
Müəllifdən pritça . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 157

26-cı hissə.
Stepan Şaumyan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 162

27-ci hissə.
1918-ci il Bakı qırğını . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 171

28-ci hissə.
Şamaxı qırğını . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 183

29-cu hissə.
Müəllifdən zəruri əlavə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 188

30-cu hissə.
Quba qırğını . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 193

31-ci hissə.
Müəllifdən zəruri P.P.S. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 201

32-ci hissə.
Vermaxta sədaqət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 205

33-cü hissə.
Müəllifin "göy erməni kostyumu" sindromuna baxışı . . . 220

34-cü hissə.
Mişa və Raisa . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 224

35-ci hissə.
Müəllifdən xatırlatma . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 240

36-cı hissə.
Xocalı soyqırımı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 244

37-ci hissə.
Müəllifdən bəşəriyyətə qənim kəsilənlərə cavab . . . . . . 252

38-ci hissə.
Körpə qatilləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 257

39-cu hissə.
Müəllifdən son söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 264

HÜSEYNBALA MİRƏLƏMOV

# "ŞƏRƏFSİZLİK TARİXİ"
# yaxud
# VERNADSKİ PROSPEKTİNDƏ

**(Sənədli proza)**

Nəşriyyat redaktoru:
SUĞRA OSMANOVA

Dizayn və tərtibat:
RAUF KƏRİMLİ

Yığılmağa verilmişdir: 12.02.2021. Çapa imzalanmışdır: 30.03.2021.
Ölçü: 60x90 1/32. Çap vərəqi: 17,5. Sifariş: 024/21. Say: 1000 ədəd.

NURLAR
Nəşriyyat-Poliqrafiya
Mərkəzi

Bakı, Az1122, H.Zərdabi 78
Tel: 4977021 / Faks: 4971295
E-poçtu: office@nurlar.az